SALATIN ƏHMƏDLİ




# YOL GEDİR NAXÇIVANA...

Bakı "Elm" - 2013

*AMEA-nın Folklor İnstitutu Elmi Şurasının*
*07 may 2012-ci il tarixli 3 saylı*
*qərarı ilə nəşr olunur*

Rəyçi: **İsa Həbibbəyli**
***akademik***

Elmi redaktorlar: **Rüstəm Kamal**
***filologiya elmləri doktoru***

**Oruc Əliyev**
***filologiya elmləri namizədi***

S.Əhmədli. Yol gedir Naxçıvana...
Bakı: Elm, 2013. - 340 s.

*Şahbuz rayonunun Güney Qışlaq kəndi Azərbaycanın, Naxçıvanın qədim yaşayış məskənlərindən biridir. Bu el-oba özünə məxsus yaşam, deyim tərzi, adət-ənənələrə malikdir.*

*Yazıçı-publisist, tədqiqatçı-alim Salatın Əhmədli kənd sakinlərilə görüşmüş, söhbətlər etmiş, onların ürəyini "fəth" edərək danışdırmışdı. Kənd sakinlərinin ürəyində özünə yer etmiş duyğular dilə gəlmiş, bayatılar, nağıllar, atalar sözləri və məsəllər, müdrik kəlamlar, tapmacalar və s. şəklində tədqiqatçının nəzər-diqqətini cəlb etmişdir. S.Əhmədli onları toplayaraq bir inci kimi ipə-sapa düzmüş, kitab şəklinə salaraq oxucuların ixtiyarına vermişdi.*

*Kitab ali məktəb tələbələri, folklor institutu əməkdaşları və ümumilikdə geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

İSBN: 978-9952-453-17-1

655(07)-2013

## KİTABIN İÇİNDƏKİLƏR

**Taleyin və yaradıcılığın bir parçası (akad. İ.Həbibbəyli) ....4**

**Naxçıvanım - nağıl-cahanım (S.Əhmədli) ..........................7**

**Dədələrin hikməti - minillərin ibrəti (atalar sözü və məsəllər) ..................................................13**

**Ruhun səsi - bayatı nəfəsi ................................................17**

**Ağılar-oxşamalar .........................................................57**

**Əzizləmələr-laylalar ......................................................63**

**Haxışta, ay haxışta .......................................................67**

**Belə rəvayət edirlər ki... (hədislər, rəvayətlər və nağıllar) ..................................................................107**

**İnancla bağlı rəvayətlər ................................................303**

**Qaravəllilər ..................................................................307**

**Bir elin şivəsi-onun nazı-işvəsi (dialektoloji sözlük) ........319**

**Minnətdarlıq ................................................................333**

**Folklor yaddaşı-yaşam əxlaqı (R.Kamal) ......................336**

## TALEYİN VƏ YARADICILIĞIN BİR PARÇASI

Ölkəmizin yeni dövr qadın ziyalılarının tanınmış nümayəndəsi, filologiya üzrə fəlsəfə doktoru Salatın Əhmədlinin imzası müxtəlif mövzularda yazdığı əsərlərlə tez-tez nəzərə çarpır. Dövri mətbuatda çap edilən çoxsaylı məqalələri və ardıcıl olaraq oxuculara təqdim olunan kitabları ilə o, filologiya sahəsində qələm çalan xanım həmkarlarının ön sıralarındadır. Ən başlıcası isə bundan ibarətdir ki, Salatın Əhmədlinin təqdim etdiyi kitablarında və maqələlərində fədakar səyləri, axtarış həvəsi, mövzuya doğma münasibəti ilə birlikdə onun özü də görünür. Müşahidə olunur ki, o, əsərlərini səhəng kimi çiyinlərində daşıyan və yazdıqlarını təmiz bulaq suyu kimi oxuculara çatdırmaqda maraqlı olan ədəbiyyat adamıdır. Salatın Əhmədli mərdanə bir ailənin məsuliyyətini və şərəfini yaşadığı ölçülərdə də elmə, ədəbiyyata, sənətə halal, doğma münasibət bəsləyir. Hiss edirsən ki, axtarış, yazı-pozu, kitab çapı, oxucu ilə ünsiyyət onun üçün sadəcə məşğuliyyət deyildir, artıq bu ziyalı xanımın həyatının üzvi tərkib hissəsidir. Çap etdirdiyi kitabları o, tədqiqatçılara, müəllimlərə və tələbələrə nə qədər mümkünsə xidmət etmək, elmi mühiti daha da zənginləşdirmək duyğusu ilə təqdim edir. Bu baxımdan Salatın Əhmədli ədəbiyyatın fədakar qadın tədqiqatçısı olmaqla yanaşı, həm də yorulmaz təbliğatçısı kimi də nəzərə çarpır. Geniş mənada Salatın xanım Azərbaycan elmi-ədəbi mühitinə kişi cəfakeşliyi ilə yorulmadan xidmət edir.

«Yol gedir Naxçıvana...» kitabı filologiya üzrə fəlsəfə dok-

toru Salatın Əhmədlinin illərdən bəri formalaşan elmi axtarışlar dastanının qiymətli bir səhifəsidir. Bu, bəlkə Salatın xanımın tale yolunun da dastanıdır. «Yol gedir Naxçıvana...» kitabı Salatın Əhmədlinin illərdən bəri təkcə tərcümeyi-halının yox, eyni zamanda, könlünün bir parçası olan bu doğma torpağa gətirib çıxaran böyük duyğuların tərcümanıdır. Bu kitab onunla doğmalaşan insanlara vəfa borcunun ifadəsi kimi meydana çıxmışdır. Kitabda folklor nümunələri toplamaq üçün üz tutduğu adamlara onun həm də içdən gələn bir istiqanlılığının şahidi oluruq. Salatın Əhmədlinin topladığı materiallar elə təqdim olunmuşdur ki, orada söyləyicinin də, toplayıcının da obrazları görünür. Bundan başqa, «Yol gedir Naxçıvana...» kitabında söyləyici sadəcə xalq ədəbiyyatı nümunəsini toplayıcıya danışan bir şəxs olmaqdan qat-qat çox onunla bölüşən, paylaşan, ona qəlbini açan yaxını, doğma insan tipində diqqəti cəlb edir. Bu, Azərbaycan folklorşünaslıq elmində toplayıcı-söyləyici münasibətlərində diqqətəlayiq, cəlbedici hadisələrdən biridir.

Heç şübhəsiz ki, «İri meşə»dən – Güney Qışlaqdan topladığı folklor materialları içərisində Salatın xanımın özünün də ömür yolunun ayrı-ayrı məqamlarının, şəxsi taleyinin də ortaq nümunələri vardır.

«Yol gedir Naxçıvana...» kitabında bir kənddən – Şahbuz rayonundakı Güney Qışlaq kəndindən toplanan çoxsaylı, zəngin xalq ədəbiyyatı nümunələri xalqımızın, el-obamızın mənəvi zənginliyinin daha bir özünütəsdiqidir. Kitabda təqdim olunan orijinal folklor nümunələri Azərbaycan şifahi xalq ədəbiyyatı xəzinəsini bir çox qiymətli örnəklərlə daha da zənginləşdirən qiymətli irsdir. Böyük əksəriyyəti oxuculara ilk dəfə

çatdırılan bu materiallar folklorşünaslıq baxımından da tədqiqat üçün əhəmiyyətli qaynaqlardır.

Bütövlükdə «Yol gedir Naxçıvana...» kitabı Salatın Əhmədlinin taleyini ölkəmizin bu ayrılmaz parçasına bağlayan sevdalı düşüncələrin böyük bir parçasıdır.

«Yol gedir Naxçıvana...» Salatın xanımın həyatı və taleyi ilə yaradıcılıq axtarışlarını bir yerdə təqdim edən dəyərli kitabdır. Bu qiymətli kitabdan həm də Salatın Əhmədlinin qarşısında açılan yeni yolların, yeni yaradıcılıq imkanlarının da geniş üfüqləri görünür.

***İSA HƏBİBBƏYLİ***
***akademik***

## NAXÇIVANIM - NAĞIL-CAHANIM

Doğma Azərbaycanımızın dilbər guşələrindən biri də Naxçıvan Muxtar Respublikasıdır. Qədim Naxçıvan torpağını həmişə Azərbaycan üçün Şərqin qapısı hesab ediblər. Respublikamız müstəqillik qazandıqdan sonra (1991) bütün Azərbaycanda olduğu kimi, Naxçıvanın, onun kənd və şəhərlərinin inkişafı geniş bir vüsət aldı. Naxçıvan Muxtar Respublikasının hal-hazırda 6 rayonu var. Naxçıvan şəhəri, rayonları və kəndləri günü-gündən gözəlləşir, abadlaşır. Mənfur ermənilər öz havadarlarının köməyilə artıq 20 ildir ki, Naxçıvan Muxtar Respublikasını blokada şəraitində saxlayır. Ancaq Naxçıvanın igid oğulları onun sərhədində daim ayıq-sayıq dayanır, bir qarış torpağın erməni daşnaklarının tapdağı altına düşməsinə imkan vermirlər.

Rus imperiyasının tüğyan etdiyi vaxtlarda insanlar doğma vətəninin bir parçası olan Naxçıvana gedə bilmirdilər. Doğma ellərə getmək, əziz insanlarla görüşmək müşkül bir işə çevrilmişdi. Bir təhərlə Bakı-Noraşen (indiki Şərur) qatarına bilet alıb Naxçıvana gedirdik. Yollardakı sərhəd-yoxlama məntəqələrində sovet (rus) əsgərlərinin şübhəli, əzici baxışları altında adam əriyir, alçalırdı. Bir anlıq adama elə gəlirdi ki, doğma Naxçıvanın əsl vətəndaşı sən yox, toplu-tüfəngli, "net" deyib üzünə dayanan işğalçı imperiyanın əsgərləridir. Torpaqlarımızda ağa kimi yaşayan işğalçı sovet əsgərlərinin soyuq baxışları altında adam varından yox olur, qəlbinin dərinliyində bir kin, nifrət, təəssüf hissi yaranırdı. Pəncərədən iri, bədheybət sərhəd itlərini görəndə adamı vahimə bürüyürdü. Doğma torpağımızda, vətənimizdə özümüzü gəlmə kimi hiss edirdik. Onlarsa özlərini bu torpağın əsl sahibi kimi aparır, bizə sərhəddi pozan təxribatçılar kimi baxırdılar.

Çox şükürlər olsun ki, respublikamız müstəqilliyini bərpa

etdi. İnsanlar azad nəfəs almağa başladılar.

Azadlıq nə şirin, müstəqillik nə gözəl imiş! Azərbaycan dövləti öz müstəqilliyinə qovuşdu və biz bu şirinliyin dadını, müstəqilliyin ətrini qoxulaya bildik. Onda insan hiss edir ki, bu Ana torpaq həqiqətən sənindir. Canınla, qanınla onun keşiyində durursan, göz bəbəyi kimi qoruyursan. Vətənin çiçəklənməsi, inkişafı naminə canını fəda edirsən. Bu amalların mahiyyətində bağrı qan olmuş vətənə tükənməz məhəbbət dayanır.

Bildiyimiz kimi Odlar yurdu Azərbaycan ta qədimdən ibrətamiz hekayətlərin, nəsihətamiz əhvalatların, "Dədə Qorqud" kimi dastanların beşiyidir. Yaradılan rəvayətlər, dastanlar ağızdan-ağıza düşmüş, bir məmləkətdən o birinə, bir nəsildən digər nəslə keçmişdir. Hər ölkə, hər diyar, hər gələn yeni nəsil onları öz zövqünə görə dəyişmiş, öz həyatına, məişətinə uyğunlaşdırmışdır.

Naxçıvanın tarixi kimi folkloru da qədimdir və özünəməxsusdur. Odur ki, Naxçıvan torpağını, kənd və şəhərlərini qarış-qarış gəzməli, orada yaşayan insanları dindirməli, söylətməliyik. Onda bilərik ki, onların sinəsi bir dəryadır. Zahirən utancaq görünən sadə insanlar əslində sinədəftərdirlər. Bu insanları - istər qocası olsun, istər cavanı - danışdırdıqca heyrətə gəlirdim. İnsanlara qiymət vermək, onların ürəyini sığallamaq lazım imiş. Onda heç bir narazılıq, kin-küdurət yarana bilməz. Hamı məhəbbətlə bu dünyanı başa vurar. Bu insanlar nə istəyirlər? - Çox az şey, azacıq diqqət, qayğı. Heç nədən narazılıq, şikayət etmirlər. «Bir azca gün-güzəranımız olsun, bəsimizdir» deyirlər. İnsanlar danışdıqca müdrikləşir, danışdıqca bu həyatdan, gündəlik güzəran qayğılarından uzaqlaşır, Allaha doğru ucalır. Qəlblərindən süzülüb gələn ürək çırpıntılarını, folklor nümunələrini ipə-sapa düzərək bayatı, ağı, əfsanə, rəvayət, haxışta formalarında bir nəfəsə danışırlar. Elə

ki, danışıb boşalırlar, yenə də gündəlik həyata qayıdırlar. Ürəkləri isə dağ selinə, daşqın çaya, gözü çör-çöplə tutulmuş bulağa bənzəyir. Diqqətçil bir adam lazımdır ki, bu bulağın gözünü təmizləsin. Onda görər ki, bulaqdan gələn suyun dadı bal kimi şirin, gül kimi ətirlidir. Topladığım folklor nümunələrində sırf Naxçıvan ləhcəsində Naxçıvan tarixinin və etnoqrafiyasının möhürü görünür. Məsələn, kənddə belə bir bayatı çağırdılar:

***Əkərdim arpa, səni,***
***Biçərdim arpa, səni,***
***Balamı görən kimi***
***Çəkərdim sərpə səni.***

Burada bir çox oxuculara, eləcə də mənə qaranlıq olan «sərpə» sözü «dalda yer», «qayanın dibi» mənasında işlənib.

Və ya:

***Quşum uçdu kələkdən,***
***Qolum düşdü biləkdən,***
***Mənimki belə gəldi***
***Çərxi dönmüş fələkdən.***

"Kələk" dilimizdən, nitqimizdən çıxmış arxaik sözlərdəndir. Kələyin mənası biz bildiyimiz kələk, hiylə mənasında yox, daş qalağı mənasında işlənir. Keçmiş zamanlarda əkin sahəsini xışla şumlayar, sahədə olan daşları bir yerə yığıb qalaq vurarmışlar. Yığılmış daş qalağı kələk adlanarmış.

Kənd camaatının söylədiyi bayatılarda böyük hikmətlər, nəsihətamiz sözlər çoxdur. Hər sətrin altında bir hikmət yatır. Elə bayatılar var ki, kəndin qocalarının hamısı bilir və onu özününkü kimi söyləyir:

*Gedərsən, əylənərsən,*
*Orda dil öyrənərsən.*
*Gedirsən, bir vədə ver,*
*Görüm, nə vaxt gələrsən?*

Bu bayatı ər evindən dədəsi evinə qonaq gedən gəlinə deyilib. Hər evin bir qibləsi olduğu kimi, hər ailənin də öz tərbiyəsi, dəsti-xətti var. Qayınana, ya qayınata gəlinə öyüd-nəsihət verir ki, evdən çıxıb gedirsən, tez qayıt, birdən başqasının təsiri altına düşərsən, ailəmizin nizamı pozular.

***

Bayatıların, ağıların çoxu yerli dağ, çay, el, oba adlarına istinadən başlayır. Bu bir tərəfdən vətənə, yurda olan sevginin təzahürüdür, digər tərəfdən ulu tariximizin nişanəsidir:

***Mən aşiq Sarı yaldan,***
***Gün aşır Sarı yaldan,***
***Fələyə bel bağlama***
***Ayırır yarı-yardan.***

«Sarı yal», Güney Qışlaq kəndinin üstündəki dağın döşündə taxıl əkilən sahədir. Yol dağlıq-daşlıq, gediş-gəliş çətin olduğundan kişilər evə gec-gec gələrdilər. Evdə yol gözləyən gəlinlər hicrana dözə bilməyib bu bayatını qoşublar.

Yaxud:

***Gəl gedək Daş bulağa,***
***Suyu sərxoş bulağa,***
***Sən duman ol, mən çiskin***
***Çəkilək Daş bulağa.***

«Daş bulaq» kənd camaatının oba saldığı dağlarda bulaq adıdır. Suyu çox sərin və tamlıdır, içdikcə ləzzət edir. Aşiqlər aldığı bu ləzzətə görə suyu içkiyə bənzədiblər. Onların arzusudur ki, ikisi birlikdə bu həyatdan köçsün, ruhları dumana, çiskinə dönsün, Allaha yaxınlaşsın və yenidən əzəli-əbədi yerimiz olan torpağın qoynuna hopsun.

***

***Ay doğdu tanasından,***
***Gün doğdu anasından.***
***Fələk ayağın kəsdi***
***Qapım astanasından.***

Folklor nümunələrinin içində rəvayətlər, əfsanələr mühüm yer tutur. Onların çoxu müqəddəs kitabımız Qurana, peyğəmbərlərə aid olan ibrətamiz hekayətlərdir. Mən onları azacıq düzəlişlərlə qələmə almışam.

Naxçıvanda yaşayıb-yaradan folklorşünas alim Məhərrəm Cəfərli Naxçıvan folkloruna aid dəyərli kitablar araya-ərsəyə gətirib. Naxçıvan folklorunun toplanmasında, tərtib edilməsində və nəşrində görkəmli alim, filologiya elmləri doktoru Məhərrəm Cəfərlinin böyük əməyi var. Onun «Dastan və mif» (2001), «Folklor və etnik-milli şüur» (2006), «Naxçıvan folkloru» (2007, R.Babayevlə birlikdə), «Naxçıvan bayatıları» (2009, Vəfa Fətullayeva ilə birlikdə) kitabları bu zəngin folklor landşaftının öyrənilməsində əvəzsiz rol oynayır. Güney Qışlaqdan topladığım bayatı, ağı və haxıştaları görkəmli alimin nəşr etdirdiyi folklor nümunələrilə tutuşdurdum. Bəziləri həmin kitablarda öz əksini tapmışdı. Bu bayatıları söyləyən ağbirçək nənələrimiz, ağsaqqal babalarımız onları o qədər yanıqlı, ürəkdən deyirdilər ki, cürət edib həmin bayatıları silə bilmədim, qorxdum ki, onların qəlbinə dəyə bilərəm. Bu ki-

tabda gedən bəzi (cüzi miqdarda) bayatıların təkrar getməsinə görə hörmətli folklorşünasımız Hacı Məhərrəm Cəfərlinin ruhu, güman edirəm ki, məndən inciməz.

Bu folklor nümunələri yalnız kiçik bir obadan - Güney Qışlaq kəndindən toplanıb. Naxçıvanın neçə rayonu, rayonların da neçə-neçə kəndləri var. Hər kənddən bir kitablıq folklor nümunələri toplamaq olar. Mən insanları danışdırdıqca onlar birinci növbədə təəssüflə deyirdilər: «Kaş filankəs sağ olaydı, o yaman çox bilirdi, onu danışdıraydın». Mənim ünsiyyət bağlayıb danışdırdığım insanlar bir gün olmayacaq. Onda da biz deyəcəyik, kaş filankəslər sağ olaydı, onları danışdıraydıq. Bax, onda gec olacaq. Gənclər və orta nəsil yaşlıların bildiklərini bilmirlər. Yaşlılar dünyalarını dəyişəndə sinələrindəki şirin-şirin nağıllar, dürlü-dürlü bayatılar, hikmətli sözlər onların özləri ilə bərabər torpağa gömüləcək və izsiz-soraqsız yoxa çıxacaq.

Gəlin, sərvətimizin qədrini bilək, ona sahib çıxaq. Özümüzü dərk etməyimizin bir yolu da budur.

***Salatın ƏHMƏDLİ***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***





# *DƏDƏLƏRİN HİKMƏTİ - MİNİLLƏRİN İBRƏTİ*

**(atalar sözü və məsəllər)**

* * *

Qaya harda, keçi harda.

* * *

Qoyun olmayan yerdə keçiyə Abdulkərim ağa deyərlər.

* * *

Qaşığın qulpunu yalamaq istərsən, içindəki tökülər.

* * *

Qazan deyir ki, dibim qızıldır, çömçə deyir ki, indicə bulayıb çıxmışam.

* * *

Buxarının əyriliyinə baxma, tüstünün düz çıxmağına bax.

* * *

Allah aman, sarı saman.

* * *

Kül tökməklə təpə dağ olmaz.

* * *

Ağızdan çıxan sözə dördatlı araba ilə də çata bilməzsən.

* * *

Daim gülən adamın ürəyində nə olduğunu demək çətindir.

* * *

Yamanlıqda güclü olan, yaxşılıqda da güclü olar.

* * *

Haqq həmişə qalib gələn ordunun tərəfində olar.

* * *

Qaradinməz adamdan özünü gözlə.

* * *

Məhəbbət aliqədrlə fəqir arasında sədd qoymur.

* * *

Tanımadığın adama inanma.

* * *

Səbr bir ömürlük xəzinədir.

* * *

Dünyada dildən şirin, dildən də acı heç nə yoxdur.

* * *

Kor gözü müalicə eləmək olar, kor ürəyi yox.

* * *

Kişi arxasında qadın iki ağzı da itilənmiş qılınc kimidir.

* * *

Ağıl qızıl tacdır, hər başda olmaz.

* * *

Axmağa yetmiş səhvi keçərlər, alimə bir səhvi yox.

* * *

Ac adam üçün çörək yaxşıdır, nəinki məscid.

* * *

Acın, üşüyənin və qorxanın gözlərinə yuxu getməz.

* * *

Puluna dost olanın dostu olmaz, puluna düşmən olanın düşməni.

* * *

Ağıllı adam qabaq gedər, arxaya baxar.

* * *

Boş əldən böyük düşmən yoxdur.

* * *

İnsan daş kimi bərk, çiçək kimi zərif olmalıdır.

* * *

Məsləhət vaxtında deyiləndə qiymətli olur.

* * *

Dağlar yüksəkdir, insan ümidi ondan da yüksək.

* * *

Əsil-nəcabəti nə sata bilərsən, nə ala.

* * *

Şirin dil insan ürəyinə açardır.

* * *

İnsan dilindən iti nə bıçaq var, nə balta.

* * *

İnad ən uca dağa da üstün gələr.

* * *

Qəpiyin qədrini bilməyən manatın da qədrini bilməz.

* * *

Pul tapınca nizam tapasan.

* * *

Su iti, buğda biti.

* * *

Həmədan uzaq - kərdi yaxın

* * *

Yağlı çörəyin yoxdursa, yağlı dilin olsun.



# *RUHUN SƏSİ -*
# *BAYATI NƏFƏSİ*

***

Baxıram dağda qara,
Gün düşüb dağda qara,
Oğlanlar əsgər gedib
Geyinib qız da qara.

***

Buxarım qurum oldu,
His oldu, qurum oldu,
Özün öldün qurtardın
Mənəsə zülüm oldu.

***

Ay doğdu laxtalandı,
Doğduqca laxtalandı,
İndən sonra heç gəlmə,
Tabutum taxtalandı.

***

Ovçu bir ov vurubdu,
Çaxmağa qov vurubdu,
Qolu qurusun ovçunun,
Nə yaman ov vurubdu?

***

O tayda mal mələdi,
Mal nə yaman mələdi.
Qərib eldə qalmışam
Mənə bu yol bələddi.

***

Gecə uzun, ay batmaz,
Dərdimi bilən yatmaz,
Səni məndən ötəri
Xudam bir də yaratmaz.

***

Bir ağac bitirmişəm,
Suvarıb yetirmişəm,
Hasilə gələn vaxtı
Əlimdən itirmişəm.

***

Bu qaya qəlbi qaya,
Kölgəsi düşüb çaya,
Çalışdım, çabaladım
Əməyim getdi zaya.

***

Əkəydim arpa, səni,
Biçəydim arpa, səni,
Bilsəydim ayrılıqdır,
Çəkəydim sərpə səni.

***

Mən aşiqəm, ağ alma,
Bağban saxlar ağ alma.
Sızılda, yaralarım,
Sağalmırsan sağalma.

***

Quşum uçdu kələkdən,
Qolum düşdü biləkdən,
Mənimki belə gəldi
Çərxi dönmüş fələkdən.

***

Mən aşiq Sarı yaldan,
Gün aşır Sarı yaldan,
Fələyə bel bağlama
Ayırır yarı-yardan.

***

Göydən gedən quş idi,
Qanadı sınmış idi,
Bir başa dörd yumuruq,
Bu da Allah işidi?

***

Çalmağa saz verdilər,
Səsmə avaz verdilər.
Çalışdım, çabaladım,
Mənə çox az verdilər.

***

Qolumda qabarım var,
Deşilməz, qabarım var.
Sənin qəfil ölmündən,
Mənim nə xəbərim var?

***

Bacın varsa, de gəlsin,
Anan varsa, de gəlsin.
Mənim heç kimim yoxdur,
Sənin varsa, de gəlsin.

***

Əlim-əlində deyil,
Səddən belində deyil.
Mal verib can qurtarmaq,
Bəndə əlində deyil.

***

Arı şana, bu şana,
Arı qonmaz bu şana,
İgidə oğul gərək,
Qızdan olmaz nişana.

***

Qərib öldü, götürün,
Dar küçədən ötürün,
Qəribin vay xəbərin
Anasına yetirin.

***

Umudum, ay umudum,
Su dibində qumudum,
Gəl məni atıb getmə,
Sənsən mənim umudum.

***

Dağların nəmi gəldi,
Şeh düşdü, nəmi gəldi,
Heç özüm də bilmədən,
Ayrılıq dəmi gəldi.

***

Dağda lalalar bitər,
Gülün aralar bitər,
Məni tək qoyub getsən,
Səni nalalar tutar.

***

Bu gələn Hacalıdır,
Qoy gəlsin, haçalıdır,
At onun, meydan da var,
Qoy sürsün, macalıdır.

***

Mən öldüm ağlamaqdan,
Arxa su bağlamaqdan,
Bağda xəzəl qoymadım
Yarama bağlamaqdan.

***

Xəbəri qarğa verər,
Qırıldar, qarğa verər,
Qəribi incitməyin
Elmizi qərqə verər.

***

Məni otur sən ağla,
Öləndə gözüm bağla,
Elə otur, elə dur
Az danışıb, çox ağla.

***

Arazdan keçən də var,
Suyundan içən də var,
Çəkmə bala adını -
Ürəyi keçən də var.

***

Əlimdə ələmim var,
Qızıldan qələmim var,
Əzrayıl, aman eylə
Uzaqdan gələnim var.

***

Səni özüm ağlaram,
Dərdə dözüb ağlaram,
Yad ağlar, yalan ağlar
Yalnız özüm ağlaram.

***

Göydən ulduz üç keçdi,
Üç dolandı, üç keçdi,
Fələk, gəl isbat eylə
Hansı günüm xoş keçdi?

***

Ölənəcən ağlaram,
Doyanacan ağlaram,
Torpağım torpağına
Qatanacan ağlaram.

***

Qalalar, ay qalalar,
Qalaya zəncir salalar,
Analar bala verməz
Bəlkə zornan alalar.

***

Arazın gəmisinə,
Su gəlir zəmisinə,
Heç bəndənin balası
Qalmasın əmisinə.

***

Bağça məndə, bar məndə.
Heyva məndə, nar məndə.
Sinəm baqqal dükanı
Hər nə desən var məndə.

***

Bu yola yol salaydım,
Karvanı bol salaydım.
Bilsəydim ayrılıqdı
Boynuna qol salaydım.

***

Başına mən dolanım,
Mən dönüm, mən dolanım.
Təki sən salamat ol,
Sayana mən dolanım.

***

Yaşım üzümdə qaldı,
Axdı, üzümdə qaldı.
Dilədiyim dilimdə,
Həsrət gözümdə qaldı.

***

Ay gedən, səninləyəm,
Qulaq as, səninləyəm.
Bülbül güllə oynayar,
Mən elə səninləyəm.

***

Bağa girdim, olmadı,
Yığdım, qoynum dolmadı.
Dedim, balama toy edim,
Əhdim yerin almadı.

***

Qərənfiləm havada,
Qanadım lil qavada.
Mən ki, gedəsi oldum,
Evin olsun avadan.

***

Mən bu kəndli deyiləm,
Dili bəndli deyiləm.
Dindirmə, qan ağlaram
Mən az dərdli deyiləm.

***

Yaxamda ilmək olmaz,
Üzümdə gülmək olmaz.
Əyil, öpüm üzündən,
Dünyanı bilmək olmaz.

***

Sağında mən olaydım,
Solunda mən olaydım.
Sən can verən anında
Yanında mən olaydım.

***

Bağça - bağın deyiləm,
Heyva - narın deyiləm,
Gəl balana sahib ol,
Ona zamin deyiləm.

***

Bu maral hara getdi?
Sallandı, çaya getdi.
Çalışdım, oğul böyütdüm,
Əməyim zaya getdi.

***

Qaşının qarasına,
Xal düşüb arasına.
Anan qurban olaydı
Qəlbinin yarasına.

***

Gülü sancdım divara,
Bülbül gələ suvara.
Qışı sənlə qışladım,
Yazı qaldım avara.

***

Mən aşiqəm, qoşa gəl,
Qarlı dağlar aşa gəl.
(Naib), tut Vaqifin əlindən
Evimizə qoşa gəl.

***

Başıma küllər mənim,
Gözümə millər mənim.
Burnumdan elə gəldi
Gördüyüm günlər mənim.

***

Əziziyəm, güləm mən,
Bülbüləm mən, güləm mən.
Fələk elə yandırdı
Heç qoymadı güləm mən.

***

Aşıq yaza dərdimi,
Deyə saza dərdimi.
Dərya mürəkkəb ola,
(meşə qələm)
Deyəm, yaza dərdimi.

***

Mən aşiq yorulmuşam,
Yol gəlib yorulmuşam.
Fələk, evin yıxılsın
Ağlayıb yorulmuşam.

***

Gözlərim gözlərinə,
Müştaqam sözlərinə,
Yalvarram ilanlara,
Dəyməsin gözlərinə.

***

O tayda mal mələdi,
Mal nə yaman mələdi.
Mən mələdim, gəlmədi,
Sən mələ, bəlkə gəldi.

***

Dəryadan bir yel əsdi,
Yolumu yaman kəsdi.
Sağ gözüm sənə qurban -
Sol gözüm mənə bəsdi.

***

Güllə dəydi yanımdan,
Quşlar doydu qanımdan.
Fələk bir iş işlədi
Doydum dünya malından.

***

Dərya, səndən kim keçdi,
Kim qərq oldu, kim keçdi.
Sənə güllə dəyəndə
Xəyalından kim keçdi?

***

Dərya, səndə üzmərəm,
Çalxanmaram, üzmərəm.
Bir kənd bağışlasalar (da)
Əlim səndən üzmərəm.

***

Dərd əli dərdə kərəm,
Qərq olub dərdə Kərəm.
Qoşaram qəm kotanın
Sürərəm, dərd əkərəm.

***

Kababı kim bişirər,
Kim düzər, kim bişirər,
Oğulsuz anaları
Məzara kim düşürər?

***

Aşiq belə yaxşıdır,
Kəmər belə yaxşıdır,
Fələyə çox yalvardım
Dedi, belə yaxşıdır.

***

Kəklik daşda nə gəzər,
Qələm qaşda nə gəzər,
Balası ölən ananın
Ağlı başda nə gəzər.

***

Əzizim, qora çin-çin,
Mev çin-çin, qora çin-çin.
Dərdin ürəyimdə cəm
Aparram gora çin-çin.

***

Qoy mənə kür desinlər,
Kürdən də kür desinlər,
Əlini ver əlimə
“Qafqazdan sür” desinlər.

***

Gedərəm ölkə, səndən,
Qorxum yox yol kəsəndən,
Durram yol kənarında
Sorram hər yol keçəndən.

***

Otaq, səni bəzərəm,
Dörd yanında gəzərəm,
Balamı tapammasam
Sənnən elə bezərəm?!

***

Dağlarda lalam qaldı,
Biçmədim, talam qaldı,
Nə dünyadan kam aldım
Nə bir nişanam qaldı.

***

Qızılgül xəndən oldu,
Dərmədim, həmdəm oldu,
Mən ayrılıq bilməzdim
Ayrılıq səndən oldu.

***

Gəl gedək Daş bulağa,
Suyu sərxoş bulağa.
Sən duman ol, mən çiskin
Biz çökək daş bulağa.

***

Ay doğdu anasınnan,
Gün doğdu tanasınnan.
Gözümü elə çəkdim
Evin astanasınnan.

***

O dağdan aşan mənəm,
İsmi Zərnişan mənəm.
Ölmərəm, yol gözlərəm
Əhdim var, boşanmanam.

***

Dağları gəzən mənəm,
Daşların düzən mənəm.
Dərdim yaman çoxalıb
Bu dərdə dözən mənəm.

***

Yolun uzaqdı, demə,
Mənzil qıraqdı demə.
Mənim gözümün yaşı
Sənə iraqdı, demə.

***

Dağdan gəlir bir quzu,
Dırnaqları qırmızı.
Burda bir qərib ölüb
Nə oğlu var, nə qızı.

***

Bazara keçi gəldi,
Keçinin üçü gəldi.
Yer açın, yol göstərin
Sonsuzun köçü gəldi.

***

Dağlar dağımca səndən,
Qəm oylağımca səndən.
Küsmüşəm, incimişəm
Ağrı dağınca səndən.

***

Bir quş uşdu havadan,
Qanadı zil qaradan.
Yedim, içdim gedirəm
Evin olsun abadan.

***

Dəyirmanın püşgünə,
Nav dolanır üstünə.
Özün öldün qurtardın
Məni qoydun pis günə.

***

Dərya, səndə üzmənəm,
Çalxanmanam, üzmənəm.
Öləm-gedəm qəbirə
Əlim sənnən üzmənəm.

***

Yerləri çisgin idi,
Dumanlı, çisgin idi,
Ağır vəziyyət gəlir
Bu da bir pis gün idi.

***

Mən aşıq o yollara,
Şeh düşər o yollara.
Qardaşım uzaqdadı
Gedərəm o yollara.

***

Səni görüm yarıyasan,
Yarınla qoşa qarıyasan.
Oğlun, qızın sağ olsun
Amma, özünü qoruyasan.

***

Buxarımız qurumdu,
Tüstü burum-burumdu.
Hər cür zülüm görmüşdüm
Bu nə dərd, nə zülümdü?

***

Altımda at, gedirəm,
Üstündə mərd gedirəm.
Ana, qorxma ayrılıqdan
Mən bir soldat gedirəm.

***

Yeri, çisginim yeri,
Duman, çisginim yeri.
Heç yaxşı gün görmədim
Bu da pis günüm, yeri.

***

Araz aşdı deyirlər,
Kür qarışdı deyirlər.
Elə dərdə düşmüşəm
Təbib qaçdı deyirlər.

***

Yaralıyam, yatmanam,
Mənzil uzaq, çatmanam.
Sən ki, dünyadan köçdün
Yadımdan çıxartmanam.

***

Ağac qara boyanmış,
Ucu yerə dayanmış.
Dünyanın işinə bax
Zülüm ərşə dayanmış.

***

Mən aşiq Ağrı dağdır,
Ağrıdır, Qara dağdır.
Gavur kəsib qabağı
Qardaş qardaşa dağdır.

***

Dağda duman yeri var,
Getmir duman, yeri var.
Dedilər yarın gələr;
Yəqin, güman yeri var.

***

Dağlarda dağım mənim,
Yaylaq oylağım mənim,
Girdim güllü bağıma
Virandır bağım mənim.

***

Qatar qabağa gedir,
Tüstüsü qara, gedir,
Yığıb el cavanların
Bilmirəm hara gedir?

***

Gecələr uyumamışam,
Yastığa baş qoymamışam,
Sən məndən doydun, getdin
Mən səndən doymamışam.

***

Bağça məndə, bar məndə,
Heyva məndə, nar məndə,
Hansı dərdən desələr
O dərdən də var məndə.

***

Bağça, bağ altda qaldı,
Heyva nar altda qaldı,
Cavan idim, ölməzdim
Canım sal altda qaldı.

***

Yağaram yağış kimi,
Əsərəm qamış kimi.
Ürəyim qardaş istər
Ətirli yemiş kimi.

***

Arazı ayırdılar,
Qum ilə doyurdular,
Sənin nə vaxtın idi
Anandan ayırdılar.

***

Gecə uzun, ay batmaz,
Uşaq anasız yatmaz.
Sənin dərdin böyükdür
Heç bir dərd ona çatmaz.

***

Aşiq, eldə nəyin var?
Şana teldə nəyin var?
Ay bala, sizsiz mənim
O ellərdə nəyim var?

***

Gəlirdim yollarınan,
Min bir xəyallarınan,
İtirmişəm balamı
Axtarram sorağınan.

***

Quzeyin qarı mənəm,
Gün vursa ərimənəm,
Qəbrimi quzeydə qazın
Cavanam, çürümənəm.

***

Dağlarda maral azdı,
Ovçu çox, maral azdı,
Ölmərəm, qayıdaram
Dözərəm, yaram azdı.

***

Eləmi, dağlar məni,
Bürüyüb bağlar məni,
Düşmən görüb sevinər
Dost görsə ağlar məni.

***

Bağça-bağın deyiləm,
Heyva-narın deyiləm.
Boş karvan yolçusuyam
Sənin yarın deyiləm.

***

Naçaram-naçar,
Naçara nə haçar?
Gavur kəsib yolumu
Qapımızı kim açar?

***

Mən aşiq Ağrı dağı,
Ağırdır qara dağı,
Düşmüşəm yaman dərdə
Gavur kəsib qabağı.

***

Tayada bafam qaldı,
Yığmadım, bafam qaldı,
Zülmlə bala böyütdüm
Mənə də cəfam qaldı.

***

Mən aşiqəm, oyan gül,
Oyan bülbül, oyan gül,
Özün qaçdın qurtardın
Məni mağmın qoyan gül.

***

Dağlara dolu düşər,
At gələr, nalı düşər,
Məzarım yol üstən qaz
Nəvəmin yolu düşər.

***

Bir at mindim, başı yox,
Bir çay keçdim, daşı yox,
Burda bir qərib ölüb
Yanında qardaşı yox.

***

Fələyi dindirəydim,
Dindirib güldürəydim,
Fələk qələm çalanda
Qələmin sındıraydım.

***

Gəlirdim baxçalıqdan,
Yar çıxdı yoncalıqdan,
Yar məni dindirmədi
Mən dindirdim acıqdan.

***

Qardaş mənim gülümdü,
Gülümdü, bülbülümdü,
Ölsə bacılar ölsün -
Qardaş ölsə zülümdü.

***

Qardaşlar, ay qardaşlar,
Dolu düşər, qar başlar,
Cənazəm əyri gedər
Yapışmasa qardaşlar.

***

Dağların lalasına,
Gülünə, lalasına,
Bibilər qurban olar
Qardaşın balasına.

***

Bir ev tikdim dəyirmi,
Çubuq sancdım iyirmi,
Yaman yığışıb getdin
Bu ev sənin deyilmi?

***

Qoyun mələyən olar,
Duza gələyən olar,
Yetimə bel bağlama
Yetim öləyən olar.

***

Mən aşıq ay qabağı,
Ay tutar ayqabağı,
Yetimə nə eləsən
Açılmaz qaş-qabağı.

***

Yaxamda ilmək olmaz,
Üzümdə gülmək olmaz,
Bala, gəl hallaşaq
Dünyanı bilmək olmaz.

***

Dağlar başı tütündü,
Kimin bağrı bütündü,
Balam, gəl hallaşaq
Dünya ölüm itimdi.

***

Məni görən ağlasın,
Halım soran ağlasın,
Bu günümü demənəm
(Əzəl) günüm görən ağlasın.

***

Qardaş demə qan olar,
Yel əsər fəğan olar,
Qardaş gələn yollara
Bacılar qurban olar.

***

Qaşların qarasına,
Xal düşər arasına,
Özüm qurban olaram
Könlünün yarasına.

***

Ürəyimdə yaram var,
Üstə xalı qaram var,
Aç ürəyimin başın
Gör yanmamış haram var?

***

Göyərçinəm, uçdum, gəl,
Dost bağına düşdüm, gəl,
Yaxşı gün istəmişdim
Yaman günə düşdüm, gəl.

***

Xoruz ban verəndə gəl,
Yaram qan verəndə gəl,
Sağlığıma yetmədin
Canım can verəndə gəl.

***

Əzizim, dözəmmirəm,
Tikişi sökəmmirəm,
Övlad dağı görmüşəm
Toylarda süzəmmirəm.

***

Əzizinəm, dağa bax,
Dağ ətəyi bağa bax,
Ovçu əlindən çıxmış
Yaralı ceyrana bax.

***

Əzizinəm, ya sinə,
Əlif qəddin, ya sinə,
Mənəm-mənəm deyənin
İndi gəlləm yasına.

***

Əzizim, yana canım,
Od tutub yana canım,
Özüm nə gündəyəm ki,
Sənə də yana canım.

***

Əzizim, dosta gələr,
Suları asta gələr,
Vay qəriblik əlindən
Sağ gedən xəstə gələr.

***

Əzizim, qonça mənə,
Bülbül ol, qon çəmənə.
Yaxşıya yaxşı dedim
Bəzədi xonça mənə.

***

Əzizim, namərd əli,
Heç tutmaz namərd əli.
Mərd olan evlər tikər
Ev yıxar namərd əli.

***

Azalmaz mənim dərdim,
Sozalmaz mənim dərdim,
Meşələr qələm ola
Yazılmaz mənim dərdim.

***

Araz, dibin dərindi,
Suyun buzdan sərindi,
Ata-ana əzizdi
Bala candan şirindi.

***

Əzizim, zərlər gərək,
Nər oğlu nərlər gərək,
Darda olan vətənə
Qeyrətli ərlər gərək.

***

Dəryada sicim gördüm,
Baxdıqca ucun gördüm,
Çalışdım, çabaladım
Fələyin gücün gördüm.

***

Qurbanam aşiqlərə,
Zülfü dolaşıqlara,
Əlimə saz götürüb
Qoşullam aşıqlara.

***

Dağlar başın ala qar,
Ala çalpov, ala qar,
Həmişə qar yağmışdı
Yağmamışdı belə qar.

***

Mən aşiq, o yolları,
Meh döyər o yolları,
Biləm, hansı yoldasan
Süpürrəm o yolları.

***

Dağlara duman gələr,
Çən gələr, duman gələr,
Gəlib qapıdan girsən
Xoşuma yaman gələr.

***

Əlimdə qələmim var,
Deməyə kəlamım var,
Hərə bir ağız desin
Desinlər, adamım var.

***

Qoyun-quzular gördüm,
Yalqız quzular gördüm,
Atasını itirmiş
Bir cüt quzular gördüm.

***

Əzizinəm, gün doğar,
Səhər-səhər gün doğar,
Oğlum qapıdan girsə
Ürəyimə gün doğar.

***

Əzizinəm, dur yeri,
Dolan yeri, dur yeri,
Balanın hamsı şirindi
Hərəsinin öz yeri.

***

Əzizim, o gün eylər,
O quzeylər, güneylər,
Ana-bala görüşsə
Bayramın o gün eylər.

***

Bu dağlar, kərəm dağlar,
Gülü yox, dərəm dağlar.
Sən məndən bixəbərsən
Ürəyim vərəm bağlar.

***

Aşıq boyat elləri,
Xınam, boya telləri,
Çək çənəmi, bas gözüm
Sonra oyat elləri.

***

Eləmi, boz at məni,
Apardı səyyad məni,
Əgər yatıb durmasam
Bacarsan, oyat məni.

***

Narın irisinnənəm,
Xublar sürüsünnənəm.
Oğlu ölən ananın
Mən də birisinnənəm.

***

Kəklik daşa varmadı,
Səkdi aşa, durmadı,
Təzə qulluğa girdi
İli başa varmadı.

***

Başıma mən ağ çallam,
Ağ çallam, qara çallam,
Sən qapımdan girməsən
Laylanı qara çallam.

***

Laylay dedim həmişə,
Karvan gedər enişə,
Yasdığında gül bitər
Döşəyində bənövşə.

***

Laylay dedim ucadan,
Ünüm çıxdı bacadan,
Görüm, şəfan tapılsın
Çiçəkdən, qızılcadan.

***

Quşlar oxur havada,
Balası var yuvada,
Gözüm bəndi-Vandadır
Dilim sənə duvada.

***

Mən aşiqəm, ya mədəd,
Ülkər mədəd, ya mədəd,
Ana, yaxın gəl, görüşək
Ayrılıqdı, ya mədəd.

***

Qolumda qabarım var,
Yaram var, qabarım var,
Derlər, balam göz yumub
Mənim nə xəbərim var?

***

Mən aşıq, özüm dağlar,
Kababı düzüm, dağlar,
Minəydim at belinə
Gəzəydim özüm, dağlar.

***

Göz yaşım gilə gəldi,
Töküldü, gilə gəldi,
Oğul-oğul deməkdən
Sümüyüm dilə gəldi.

***

Laylay çallam adına,
Əli yetişsin dadına,
Əli dada yetəndə
Məni də sal yadına.

***

Bu dağda maral azdı,
Ovçu çox, maral azdı,
Əl vurmayın, dəyməyin
Başımda bəlam azdı?

***

Bağça bar tutan yerdə,
Heyva, nar tutan yerdə,
Anam özün öldürsün
Yarım yar tutan yerdə.

***

Apardı boz at məni,
Saxladı səyyad məni,
Yamanca yuxum gəlir
Çox yatsam oyat məni.

***

Bir yaralı qoçam mən,
Yaram qoymur qaçam mən,
Harda yaralı görsəm
Yaram orda açam mən.

***

Balıq tutduğu yerdə,
Gölə düşdüyü yerdə,
Gözüm axtarır onu
Otu çaldığı yerdə.

***

Fələyin dad əlindən,
Olmadım şad əlindən,
Nə öldüm, nə qurtuldum
Zalım cəllad əlindən.

***

Lay-lay desəm olurmu,
Abı geysəm solurmu,
Gün görməyən canımı
Qurban desəm olurmu?

***

Gedərəm, oturmanam,
Ağır söz götürmənəm,
Verələr dünya malı
Səndən əl götürmənəm.

***

Gəlmişəm görəm səni,
Yığmışam, hörəm səni,
Nə qapın var, nə bacan
Bə hardan görəm səni?

***

Mən aşiq kərəm dağlar,
Gülün yox, dərəm, dağlar,
Üzünü görəmməsəm
Ürəyim vərəm bağlar.

***

Qızılgül həşəm oldu,
Dərmədim, həşəm oldu,
Mən səndən ayrılalı
Ağlamaq peşəm oldu.

***

Evimiz qurum oldu,
Yel vurdu, qurum oldu.
Fələk yaman eylədi
Bizə də zülüm oldu.

***

Bu maral ayıq deyil,
Yatıbdı, ayıq deyil,
Balanı qoyub getmək
Adına layıq deyil.

***

Dağda boran oldumu,
Yağdı, boran oldumu,
Burdan bir oğlan keçdi
Onu görən oldumu?

***

Obalar köçdümü, olu,
Vurdular, düzdümü, olu,
Mənə bəxtəvər deyən
Razı düşdümü olu?

***

Əzizim, naçar ağlama,
Gündür, keçər ağlama,
Qapını bağlayan fələk
Bir gün açar, ağlama.

***

Əzizim, odu keçdi,
Gün gəldi, odu keçdi,
Ömür azaldı, qocaldıq,
Cavanlıq odu keçdi.

***

Gəl gedək Daş bulağa,
Suyu sərxoş bulağa.
Sən duman ol, mən çiskin
Biz çökək Daş bulağa.

***

Mən aşiq ellərim var,
Başımda tellərim var,
Məni elə ağlayın
Desinlər ellərim var.

***

Gəl gedək Daş bulağa,
Suyu sərxoş bulağa.
Birin sən de, birin mən,
Tökək qan-yaş bulağa.

***

Bu dağlar qoşa dağlar,
Verib baş-başa dağlar,
Nə gələn var, nə gedən,
Dönəsən daşa, dağlar.

***

Ceyranlar düzə gəlsin,
Dolansın, düzə gəlsin,
Kimin belə dərdi var,
Dolansın, bizə gəlsin.

***

Mələ, qoyunum, mələ,
Arxaca duza gələ,
Mən mələdim gəlmədi,
Sən mələ, bəlkə gələ.

***

Aşıq, el yaraşığı,
Daraq tel yaraşığı,
Oğul elin pənahı,
Qızlar el yaraşığı.

***

Eləmi, kamana gəldi,
Oxun kamana gəldi,
Qızlar ərə yar deyir,
Nə pis zamana gəldi.

***

Araz, Araz, xan Araz,
Gəl eyləmə qan, Araz,
Qoy gedim, yar gözləyir,
Nədir bu tüğyan Araz?

***

Əzizinəm, mərdanə,
İgid olar mərdanə,
Qorxağa oğul deməz,
İgid ata, mərd ana.

***

Maral, yerin xam olsun,
Otla, yerin xam olsun,
Gəl oturaq, dərdləşək,
Gün gəlsin, axşam olsun.

***

Əzizim, ah-vayınan,
Gün keçdi ah-vayınan,
Baş qoyum dizin üstə
Can verim ah-vayınan.

***

Köynəyin ağ saxlaram,
Yuyaram, ağ saxlaram,
Bir də əlimə düşsən
Yüz il qonaq saxlaram.

***

Bənövşəyəm, bitərəm,
Kol dibində itərəm,
Dərdli bir ana görsəm
Boynum əyri tutaram.

***

Gedərsən əylənərsən,
Orda dil öyrənərsən,
Gedirsən bir vədə ver
Görüm nə vaxt gələrsən?

***

Mən aşiq qarmağım var,
Vurmağa qarmağım var,
Bu yetimlərdən ötəri
Sənə yalvarmağım var.

***

Mən aşiq osan dağlar,
Qar yağıb basan dağlar,
Sənə gələnlər gedib
Sən elə osan, dağlar.

***

Qardaşlar, ay qardaşlar,
Şam tək yanar qardaşlar,
Cənazəm əyri gedər
Yapışmasa qardaşlar.

***

Əziziyəm, öz anam,
Qoynu dolu köz anam,
Yad ağlar, yalan ağlar
Qoy ağlasın öz anam.

***

Uca dağlar lalasından,
Qızıl güllər parasından,
Gec tapıb, tez ayrıldım
Əmimin balasından.

***

Aşiq məzədi, məzə,
Xalın məzədi, məzə,
Harda yadıma düşsə
Dərdin təzədi, təzə.

***

Mən aşiq, qəmi gəldi,
Dəryaya gəmi gəldi,
Bala, salamat qalın
Ayrılıq dəmi gəldi.

***

Mən aşiq, harda qaldı,
Gəlmədi, darda qaldı,
Atasız ata görəndə
(Deyər:) mənimki harda qaldı?

***

Aman yetim əlindən,
Yol ver, ötüm əlindən.
Yetimi incitməyin
Qayıdın, tutun əlindən.

***

Nənəm qoyunun ağı,
Dolandı gəldi dağı,
Çobana çarıq bağı,
Qızlara cehiz ağı.

***

Göz yaşın rəvanədi,
Üzdə danə-danədi,
Əynimdəki köynəyim
Yarımdan nişanədi.

***

Eləmi, pünhan-pünhan,
Ağlaram pünhan-pünhan,
Canım bir dərdə düşdü
Nə dost bildi, nə düşman.

***

Əzizim, vətənə mən,
Elə mən, vətənə mən,
Uzun yola rast gəldim
Çatmadım vətənə mən.

***

Əzizim yolun idi,
Tikanım qalın idi.
Mən ölmək istəməzdim
Cəlladım zalım idi.

***

Əzizim bilə-bilə,
Göz yaşım gilə-gilə.
Yolunu gözləyirəm
Ölümün bilə-bilə.

***

Eləmi, itməz adın,
Ağzımdan getməz dadın.
Addım ata bilmirəm
Dilimdən getməz adın.

***

Əzizim, tikə-tikə,
Doğrandım tikə-tikə.
Qəbrimi özüm qazdım
Kəfənim tikə-tikə.

***

Araz aşdı deyirlər,
Qum qovuşdu deyirlər,
Sələsüzün düzündə
Maşın aşdı deyirlər.

***

Aşıq Ağrı başında,
Duman Ağrı başında,
Dedilər oğlun ölüb
Tutdu ağrı başımdan.

***

Yaralandım yüz yerdən,
Əlli yerdən, yüz yerdən.
Mən ki, bu dərddən öldüm
Cənazəmi üz yerdən.

***

Mən aşiq əsdi külək,
Əsdikcə əsdi külək.
Çadır qurduğum yerdə
Kəndirim kəsdi fələk.

***

Ay doğdu peşman-peşman,
Gün oldu ona düşmən.
Canım bir dərdə düşdü
Nə dost bildi, nə düşmən.

***

Aşiq eldə nəyim var,
Ceyran, çöldə nəyim var.
Canım bir dərdə düşüb
Sizin eldə nəyim var?

***

Dağdan aşıb gələnin,
Qanı coşub gələnin,
Xoş o bəndənin halına
Halallaşıb ölənin.

***

Çəltiyim limə qaldı,
Biçmədim, limə qaldı.
Çalışdım, kümə tikdim
Bilmədim kimə qaldı.

***

Dağıldı tağım mənim,
Sındı budağım mənim.
Arxım uçdu dəhnədən
Qalmadı tabım mənim.

***

Aşıq məzara məni,
Halım məzara məni.
Aç belindən toqqanı
Endir məzara məni.

***

Mən aşiq olan yerdə,
Boran, qar olan yerdə.
Siz olduz elli-günlü
Mən qaldım viran yerdə.

***

Ana, məni az ağla,
Payız ağla, yaz ağla.
Mənim bu dərdlərimi
Bir kağıza yaz, ağla.

***

Gülərəm öz günümə,
Ağlaram öz günümə.
Fələk, əlimə keçsən
Salaram öz günümə.

***

Arxım yaman ağladı,
Dibi yarpız bağladı.
Oğluma qonaq getdim
Atımı qız bağladı.

***

İsmayılam, hayılam,
Danışmırsan, ayılam.
Özün gəlib getmirsən
Bir zənginə qayılam.

***

Əzizim, sirri xuda,
Tapılmaz sirri xuda.
Mən burda şeyda bülbül
Sənsə şirin yuxuda.

***

Mən aşiq ay üzünə,
Qurbanam ay üzünə.
Dili yoxdur danışa
Baxıram lal üzünə.

***

Endim getdim suya mən,
Sudan aldım dua mən.
Qaranquşca olmadım
Damda tikəm yuva mən.

***

Əzizinəm Xalxala,
Bu yol gedir Xalxala.
Qorxuram qərib öləm
Bir kəsim yox, ağlaya.

***

Mən aşiq bəsdi, fələk,
Səbrimi kəsdi fələk.
Harda bir çadır qurdum
İpimi kəsdi fələk.
***
Əzizim ağlıyardı,
Sinəmi dağlıyardı.
Mənim müsübətimi
Görənlər ağlıyardı.
***
Əzizim olmuyardı,
Saralıb solmuyardı.
Qardaş bacıdan ayrı
Heç zaman olmuyardı.
***
Əziziyəm, bacıdı,
Qardaşın baş tacıdı.
Kimin qardaşı ölsə
Dərdi ona acıdı.
***
Qardaşa can deyərəm,
Ürəyə yan deyərəm.
Qardaş gələn yollara
Canım qurban deyərəm.
***
Əzizim adım, qardaş,
Ağzımda dadım, qardaş.
Əgər siz olmasanız
Necə yaşardım, qardaş?
***
Əzizim, canım qardaş,
Bədəndə qanım qardaş.
Nə qədər ölməmişəm
Mən sənə yanım, qardaş.



# *AĞILAR - OXŞAMALAR*

***

Qoy məni el ağlasın,
El yusun, el ağlasın.
Qəbrimi qardaş qazsın
Çiynində bel ağlasın.

***

Məni qardaş ağlasın,
Qursun bardaş, ağlasın.
Burda bir gəlin ölüb
Tamam dağ-daş ağlasın.

***

Deyin, anam gəlməsin,
Örtün, yaram görməsin.
Mən ki, bu dərddən öldüm
Heç bəndələr ölməsin.

***

Aşıq tamaşasına,
Xalın tamaşasına.
Burda bir oğlan ölüb
Gəlin tamaşasına.

***

Bacılar bacısıyam,
Şirinlər acısıyam.
Kimin arxası getsə
Mən onun bacısıyam.

***

Qardaşım, sən qoşa gəl,
Qarlı dağlar aşa gəl.
Eşitsəz bacın ölüb
Ağlaşa-ağlaşa, gəl.

***

Mən aşiq barlar bağı,
Bürüyüb qarlar dağı.
Hər yaralar sağalar
Sağalmaz nübar dağı.

***

Eləmi otu quruyub,
Bulağı, otu quruyub.
Oğlu ölən anaların
Matı-qutu quruyub.

***

Haray, ellilər, haray,
Şana tellilər, haray.
Burda  bir qərib ölüb
Əli bellilər, haray.

***

Aşıq elə yaraşar,
Kəmər belə yaraşar.
Bura qərib ölkədir
Ölüm mənə yaraşar.

***

Ağlayan başdan ağlar,
Kirpikdən, qaşdan ağlar.
Cavan ölüsü ölən
Durar, obaşdan ağlar.

***

Ananı qızlar ağlar,
Gülü nərgizlər ağlar.
Ananın gizli dərdin
Qızları gizli ağlar.

***

Dağlar dağımdı mənim,
Qəm oylağımdı mənim.
Dindirmə qan ağlaram
Yaman çağımdı mənim.

***

Dağlarda lalam qaldı,
Biçmədim, lalam qaldı.
Ölməyimdən deyildim
Bir cüt nişanam qaldı.

***

Əzizinəm, şam ağlar,
Piltə yanar, şam ağlar.
Qəribin qürbət eldə,
Məzarında şam ağlar.

***

Qardaş demə qan olar,
Yel əsər fəğan olar.
Ölsə bacılar ölsün
Qardaşlar yaman olar.

***

Baxça bar altda qaldı,
Heyva, nar altda qaldı.
Sənin o cavan canın
Qara yer altda qaldı.

***

Mən aşiq, bala dağı,
Bürüyüb lala dağı.
Hər yaralar sağalar,
Sağalmaz bala dağı.

***

Mənim yarım, az ağla,
Qış sızılda, yaz ağla.
Bu çoxluca dərdimi
Ağ kağıza yaz, ağla.

***

Mən aşıq, qazan ağlar,
Od yanar, qazan ağlar,
Qərib eldə ölənin
Qəbrini qazan ağlar.

***

Ağacda xəzəl ağlar,
Altında gözəl ağlar,
Kimin əzizi ölsə
Sərgərdən gəzər, ağlar.

***

Bu maşın hara gedir?
Tüstüsü qara, gedir.
Mənim əziz balamın,
Bu nəşi hara gedir?

***

Əziziyəm, can qardaş,
Mən sənə qurban, qardaş.
Sən qana boyananda
Öləydi bacın, qardaş.

***

Əziziyəm, ağlaram,
Başa qara bağlaram.
Qardaşın ölümünə
Elə müdam ağlaram.

***

Qardaşlar, ay qardaşlar,
Halına yanar daşlar,
Qardaşların ölümün
Heç görməsin qardaşlar.

***

Əziziyəm, göy bağlar,
Göy baxçalar, göy bağlar,
Balası cavan ölən
Qara geyər, göy bağlar.

***

Əzizim, bala dağı,
Bal dağı, bala dağı,
Hər dərddən betər olar
Anaya bala dağı.

***

Məni otur sən ağla,
Öləndə gözüm bağla,
Bu çarəsiz anana
Ağıdan çələng bağla.



# ƏZİZLƏMƏLƏR - LAYLALAR

***

Əziz balam, quş balam,
Əl-ayağı gümüş balam.
Böyün mənə qonaq ol
Sabah yola düş, balam.

***

Bürüyüb düzü qurban,
Qoç qurban, quzu qurban.
Haçan durub gəzərsən
O günə quzu qurban.

***

Qapımızda var çinar,
Yarpağı dinar-dinar.
Mənim balam cavandır,
Saxlasın pərvərdigar.

***

Başına dönüm baş kimi,
Səhərə qalan aş kimi.
Toyunu tutum çəməndə,
Pul töküm şabaş kimi.

***

Gəlir bunun atası,
Gətirir nabat xırdası.
Seyr eləyir anası,
Əmir şəkər balası.

***

Qurban olum qurbana,
Qaçar gedər xırmana.
Xırmançı vurar qıçına,
Yıxılar heşan içinə.

***

Nənəsi alar biçinə,
Aparar qızlar içinə,
Ordan bir qız götürər
Qaçar evin içinə.

***

Papıllı fərə, çıxma divarə,
Çalağan aparar, qallam avarə.

***

Laylay balam, can balam,
Mən sənə qurban balam,
Səni qəmli görəndə
Gözüm ağlar qan, balam.

***

Balamı tanıram mən,
Hər sözün qanıram mən,
Yuxuda ah çəkəndə
Od tutub yanıram mən.

***

Laylay gülüm, ağlama,
Umud qapımı bağlama,
Yat, anan qurban olsun
Qəlbimi çox dağlama.



# *HAXIŞTA, AY HAXIŞTA*

***

Əmimqızı, a Leyla, haxışta,
A Leyla, xəyal eylə, haxışta,
Səni mənə almazlar, haxışta,
Get başına kül eylə, haxışta.

***

Bir quşum var havada, haxışta,
Qanadları tavada, haxışta,
Gəlib sənlə görüşdüm, haxışta,
Evin olsun avadan, haxışta.

***

Mən bir ovuc paxlayam, haxışta,
Qaynamamış qalxaram, haxışta,
Səsini kəs, qaynana, haxışta,
Durram səni çığnaram, haxışta.

***

Oğlan, adın İlkindi, haxışta,
Jalə sənin ilkindi, haxışta,
Özün gözəl oğlansan, haxışta,
Bacıların çirkindi, haxışta.

***

Qara-qara qazanlar, haxışta,
Qara qələm yazanlar, haxışta,
Qolun biləkdən düşsün, haxışta,
Yarımı əsgər yazanlar, haxışta.

***

İdarənin balkonu, haxışta,
Qızılgülün solğunu, haxışta,
Məni sənə verməzlər, haxışta,
Olarsan yol yorğunu, haxışta.

***

Qurbağa qur-qur eylər, haxışta,
Həyəti palçıq eylər, haxışta,
Xoşum gəlmir o yardan, haxışta,
Hər şeyə acıq eylər, haxışta.

***

Dağların başı lalə, haxışta,
Əlində var piyalə, haxışta,
İlkin sənindir Jalə, haxışta,
Düşmə özgə xəyalə, haxışta.

***

Əshabi-Kəf ocaq-ocaq, haxışta,
Orda şamlar yanacaq, haxışta,
Bəy, ürəyini sıxma, haxışta,
Bu qız sənin olacaq, haxışta.

***

«Moskviç»im qırmızı, haxışta,
İçində bir rus qızı, haxışta,
İstədim onu öpüm, haxışta,
Dodaqları qırmızı, haxışta.

***

Pobedə-mobeda bilmərəm, haxışta,
Moskviçə minmərəm, haxışta,
Bahalı maşın gəlməsə, haxışta,
Mən heç ZAKS-a getmərəm, haxışta.

***

Qırmızı şal məndədir, haxışta,
İki ucu səndədir, haxışta,
Doxsan yaşım olsa da, haxışta,
Mənim könlüm səndədir, haxışta.

***

Qızıl üzük laxladı, haxışta,
Verdim anam saxladı, haxışta,
Anama qurban olum, haxışta,
Yarı qonaq saxladı, haxışta.

***

Stəkanın zirinə, haxışta,
Getdim itin birinə, haxışta,
İt oğlu adam deyil, haxışta,
Qoydum adam yerinə, haxışta.

***

Ay zilindi, zilindi, haxışta,
Bu gələn ZİL kimindi, haxışta,
58-09, haxışta,
Bu mənim sevgilimdir, haxışta.

***

Oturmuşdum səkidə, haxışta,
Ürəyim səksəkidə, haxışta,
Qırmızı alma gəldi, haxışta,
Bir qızıl nəlbəkidə, haxışta.

***

Qızıl iynənin sapı, haxışta,
Görünmür bizim qapı, haxışta,
Məni yardan edəni, haxışta,
Dilənsin qapı-qapı, haxışta.

***

Ay hərə-hərə, əmoğlu, haxışta,
Yediyin kərə, əmoğlu, haxışta,
Hara gedirsən, tez qayıt, haxışta,
Gedərəm ərə əmoğlu, haxışta.

***

Taxçaya fincan qoymuşam, haxışta,
İçinə mərcan qoymuşam, haxışta,
Qaynanamın adını, haxışta,
Quyruqlu siçan qoymuşam, haxışta.

***

Araza atdım teşti, haxışta,
Cingildəmədi, keçdi, haxışta,
Yüz igidin içində, haxışta,
Gözüm çobanı seçdi, haxışta.

***

Yar yarılar yar bağı, haxışta,
Astanalar torpağı, haxışta,
Hər kim bəyi istəmir, haxışta,
Gözünə bibər yarpağı, haxışta.

***

Papirosun qəşəngi var, haxışta,
Çəkməyə qəşəngi var, haxışta,
Dedim yarım sən olasan, haxışta,
Sənnən də qəşəngi var, haxışta.

***

Əmimoğlu biçində, haxışta,
Köynəyi tər içində, haxışta,
Getdim tərin silməyə, haxışta,
Qaldım tikan içində, haxışta.

***

Üzərliyin milin çək, haxışta,
Yandır, onun külün çək, haxışta,
Qəribə qız verənin, haxışta,
Əngin ayır, dilin çək, haxışta.

***

Göydən ələk asılıb, haxışta,
Ələyə gül basılıb, haxışta,
Gözəl qızın kəbini, haxışta,
Çirkin oğlana kəsilib, haxışta.

***

Qapıda durma, oğlan, haxışta,
Boynunu burma, oğlan, haxışta,
Məni sənə verməzlər, haxışta,
Özünü yorma, oğlan, haxışta.

***

İstol üsdü pıtırax, haxışta,
Palaz gətir oturax, haxışta,
Sənə qurban olaram, haxışta,
Söhbət et, darıxmayax, haxışta.

***

Ləyəni, ay ləyəni, haxışta,
Su tök yuyum ləyəni, haxışta,
Elə xoşuma gəlir, haxışta,
Oğlanın güləyəni, haxışta.

***

Yük üstən zəli çıxdı, haxışta,
Zəlinin dəmi çıxdı, haxışta,
Qardaş, boyuna qurban, haxışta,
Aldığın dəli çıxdı, haxışta.

***

Çıxdım damın belinə, haxışta,
Getdim itin birinə, haxışta,
İt oğlun, köpək oğlun, haxışta,
Qoydum adam yerinə, haxışta.

***

Samavarda çəkcəyəm, haxışta,
Əl vurma, köynəkcəyəm, haxışta,
Hamıya çirkin olsam, haxışta,
Öz yarıma göyçəyəm, haxışta.

***

Haxışta bizim qapı, haxışta,
Bənövşə iynə sapı, haxışta,
Yarı yardan eyləyən, haxışta,
Dilənsin qapı-qapı, haxışta.

***

Haxıştanı əkərlər, haxışta,
İçinə gülab səpərlər, haxışta,
Balaca-balaca qızları, haxışta,
Qəzillədib öpərlər, haxışta.

***

Oğlan, adın Həmizə, haxışta,
Divardan keç, gəl bizə, haxışta,
Əgər məni sevirsən, haxışta,
Ananı göndər bizə, haxışta.

***

Dama dirək qaynana, haxışta,
Belinə kürək qaynana, haxışta,
Oğlu evə  gələndə, haxışta,
Gəlinnən zirək qaynana, haxışta.

***

Qarış-qarış qaynana, haxışta,
Tumanı narış qaynana, haxışta,
Oğlun evə gələndə, haxışta,
Bir az danış, qaynana, haxışta.

***

Ay qaynana, az danış, haxışta,
Altuva qoyum naz balış, haxışta,
Oğlun evə gələndə, haxışta,
Ağbirçəksən, düz danış, haxışta.

***

Ayaxda başmaq yaxşıdı, haxışta,
Divardan aşmaq yaxşıdı, haxışta,
Dambır-dumburdandısa, haxışta,
Qoşulub qaşmaq yaxşıdı, haxışta.

***

Ağac başında Əli, haxışta,
Altında yaşıl xəli, haxışta,
Qardaşa üzük taxıram, haxışta,
Allah, Məhəmməd, ya Əli, haxışta!

***

Bu yol bulağa çıxıb,haxışta,
Qalxıb, bulağa çıxıb, haxışta,
Siz Allah, xoş söz deyin, haxışta,
Qızım qulağa çıxıb, haxışta.

***

Oğlan evi:
Al almağa gəlmişik, haxışta,
Şal almağa gəlmişik, haxışta,
Oğlanın adamıyıq, haxışta,
Aparmağa gəlmişik, haxışta.

***

Qız evi:
Al almağın vaxtı var, haxışta,
Şal almağın vaxtı var, haxışta,
Oğlanın adamısız, haxışta,
Aparmağın vaxtı var, haxışta.

***

Oğlan evi
Al almağın vaxtıdır, haxışta,
Şal almağın vaxtıdır, haxışta,
Oğlanın adamıyıq, haxışta,
Aparmağın vaxtıdır, haxışta.

***

Oğlan evi
Al almaq necə olur, haxışta,
Şal almaq necə olur, haxışta.
Oğlanın adamıyıq, haxışta,
Aparmaq necə olur, haxışta.

***

Qız evi:
Alın, mübarək olsun, haxışta,
Şalın mübarək olsun, haxışta,
Oğlanın bacısısan, haxışta,
Apar, mübarək olsun, haxışta.

***

Əlimdə su badnusu, haxışta,
Su tök, yuyum badnusu, haxışta,
Heç xoşuma gəlməyir, haxışta,
Oğlanın binamusu, haxışta.

***

Sancağı, ay sancağı, haxışta,
Su tök yuyum sancağı, haxışta,
Elə xoşuma gəlir, haxışta,
Oğlanın utancağı, haxışta.

***

Köynəyi yaşıl oğlan, haxışta,
Gör nə yaraşır oğlan, haxışta,
Məhləmizdən keçəndən, haxışta,
Qızlar savaşır oğlan, haxışta.

***

Həyətimiz böyükdür, haxışta,
İçi dolu söyüddür, haxışta,
Mənim qardaşım, bacım, haxışta,
Nazirdən də böyükdür, haxışta.

***

Kostyumunun dəstinə, haxışta,
Ətir səpim üstünə, haxışta,
Neyniyim arvadın var, haxışta,
Məni də al üstünə, haxışta.

***

Qaynanam gəlir meçitdən, haxışta,
Tumanı ala çitdən, haxışta,
Qaynanamı seçmirəm, haxışta,
Qapıdakı gül-çiçəkdən, haxışta.

***

Maşın gəlir, bərk gəlir, haxışta,
İçi dolu qənd gəlir, haxışta,
Mən şirinçay içəndə, haxışta,
Qaynanama dərd gəlir, haxışta.

***

Arabanın təkəri, haxışta,
Yüklə, gəlsin şəkəri, haxışta,
Allah belə buyurub, haxışta,
Oğlan qızın nökəri, haxışta.

***

Ay hindi-hindi yarım, haxışta,
Eşşəyə mindi yarım, haxışta,
Eşşəkdən düşən kimi, haxışta,
Elə bil cindi yarım, haxışta.

***

Ay çilli-çilli qızlar, haxışta,
Min bir fikirli qızlar, haxışta,
Sizləri kim alacaq, haxışta,
Meymun şəkilli qızlar, haxışta.

***

Moskviçi kariçni, haxışta,
Volqası zaqraniçni, haxışta,
Mən qoluna girəndə, haxışta,
Olursan simpatiçni, haxışta.

***

Oğlan adın Yusifdir, haxışta,
Gün dağlara düşübdür, haxışta,
Verdiyin qızıl üzük, haxışta,
Barmağımdan düşübdür, haxışta.

***

Yaşıllar, ay yaşıllar, haxışta,
Divardan boylaşırlar, haxışta,
Kəndimizin qızları, haxışta,
Ər üstə savaşırlar, haxışta.

***

Samavarım qızıldı, haxışta,
Yeddi yerdən sızırdı, haxışta,
Mən sevdiyim oğlanın, haxışta,
Qabaq dişi qızıldı, haxışta.

***

Yedin noğul, qaynana, haxışta,
Doğdun oğul, qaynana, haxışta,
Oğlunu əlindən aldım, haxışta,
Çatda, boğul, qaynana, haxışta.

***

Dağda payız olanda, haxışta,
Sarı sünbül solanda, haxışta,
Qıza elçi gəlirlər, haxışta,
15 yaşa dolanda, haxışta.

***

Papağı yan qoymuşam, haxışta,
İçinə biyan qoymuşam, haxışta,
Qaynanamın adını, haxışta,
Quyruqlu siçan qoymuşam, haxışta.

***

Üzündən telini çək, haxışta,
Aynanın milini çək, haxışta,
Qaynanan çox danışsa, haxışta,
Əngin ayir, dilin çək, haxışta.

***

Stəkanın noxudu, haxışta,
Evdə qonaq çoxudu, haxışta,
Qonaqların içində, haxışta,
Təkcə yarım yoxudu, haxışta.

***

Haxışta deyə bilmirəm, haxışta,
Belimi əyə bilmirəm, haxışta,
Özüm dövlətli qızı, haxışta,
Kasıbı sevə bilmirəm, haxışta.

***

Apardılar gəlini, haxışta,
Bağladılar belini, haxışta,
Başında ipək ləçək, haxışta,
Bəzədilər telini, haxışta.

***

Qardaşımın atı var, haxışta,
Qolunda saatı var, haxışta,
Qardaş hayana getsə, haxışta,
Hər yanda hörməti var, haxışta.

***

Almanın acısıyam, haxışta,
Qızların başçısıyam, haxışta,
Mənə söz deyən olmaz, haxışta,
Gəlinin bacısıyam, haxışta.

***

Bir daş atdım ağaca, haxışta,
Getdi düşdü yamaca, haxışta,
Oğlan bir qızı sevir, haxışta,
Ağzı, burnu balaca, haxışta.

***

Çıxdım aya baxmağa, haxışta,
Qapıya qıfıl taxmağa, haxışta,
Oğlan xına göndərib, haxışta,
Gəlin əlinə yaxmağa, haxışta.

***

Al oymanı ağartdım, haxışta,
Qollarını daraltdım, haxışta,
Özüm bir şey deyiləm, haxışta,
Çoxlarını saraltdım, haxışta.

***

Ağ corabın ağına, haxışta,
Bəzək vurun bağına, haxışta,
Bu üzüyü taxıram, haxışta,
Gəlinin barmağına, haxışta.

***

Əllidir, ay əllidir, haxışta,
Göydə ulduz bəllidir, haxışta,
Qız evinin adamları, haxışta,
Dillərinnən bəllidir, haxışta.

***

Qara toyuq hindədi, haxışta,
Yumurtası nindədi, haxışta,
Bəyin güllü dəsmalı, haxışta,
Gəlinin cibindədi, haxışta.

***

Siqaretin tüstüsü, haxışta,
Yay gününün istisi, haxışta,
Gör bizə kim söz deyir, haxışta,
Qız evinin tülküsü, haxışta.

***

Moskiviçin yaşıldır, haxışta,
Möhkəm gedən maşındır, haxışta,
Məni bu dərdə salan, haxışta,
Sənin keçəl başındır, haxışta.

***

A hingilə, hingilə, haxışta,
Hingiləni kim bilə, haxışta,
Min haxışta deyərəm, haxışta,
Sənin kimi yüngülə, haxışta.

***

Qızıl güllər koldadı, haxışta,
Əl çatmayan qoldadı, haxışta,
Qız ürəyi döyünür, haxışta,
Oğlan gözü yoldadı, haxışta.

***

Su gəlir lilləndirir, haxışta,
Baxçanı gülləndirir, haxışta,
Oğlanın şirin dili, haxışta,
Lal qızı dilləndirir, haxışta.

***

Qızıl üzük firuzə, haxışta,
Gedin deyin xoruza, haxışta,
Bu gecə banlamasın, haxışta,
Yar gəlir məhləmizə, haxışta.

***

Tut ağacı boyunca, haxışta,
Tut yemədim doyunca, haxışta,
Üç il nişanlı qaldım, haxışta,
Danışmadım doyunca, haxışta.

***

Stol üstə marağa, haxışta,
Telim gəlmir darağa, haxışta,
Sevgilim qurban getdi, haxışta,
Bir stəkan arağa, haxışta.

***

O tayda qoç yatıbdı, haxışta,
Buynuzların çatıbdı, haxışta,
Xoş o qızın halına, haxışta,
Sevdiyinə çatıbdı, haxışta.

***

Bulaq üstə mığmığa, haxışta,
Saqqal dönüb dırmığa, haxışta,
Gör mənə kim söz deyir, haxışta,
Burnu uzun, kor dığa, haxışta.

***

O tay bu tay bir olsun, haxışta,
Arada bülbül olsun, haxışta,
Oğlan evinin qızları, haxışta,
Bu toya sürgün olsun, haxışta.

***

Ağ dəvə düzdə qaldı, haxışta,
Yükü Təbrizdə qaldı, haxışta,
Oğlanı dərd apardı, haxışta,
Dərmanı qızda qaldı, haxışta.

***

O tayda yatan oğlan, haxışta,
Köynəyi kətan oğlan, haxışta,
Nişanlını apardılar, haxışta,
Bixəbər yatan oğlan, haxışta.

***

Qara atın nalıyam, haxışta,
Üstündəki xalıyam, haxışta,
Nahaq çəkmə cəfamı, haxışta,
Mən özgənin malıyam, haxışta.

***

Köynəyim tikən ölsün, haxışta,
Qəddimi bükən ölsün, haxışta,
Mən sənə göz dikmişəm, haxışta,
Başqa göz dikən ölsün, haxışta.

***

Araqçının haşımı, haxışta,
Hara qoyum başımı, haxışta,
Məni sənə verməzlər, haxışta,
Tökmə gözün yaşını, haxışta.

***

O tayda quzu gördüm, haxışta,
Tükün qırmızı gördüm, haxışta,
Açdım cənnət qapısın, haxışta,
Sevdiyim qızı gördüm, haxışta.

***

O tayda qoç yatıbdı, haxışta,
Buynuzların çatıbdı, haxışta,
Heyf qoçun əməyinə, haxışta,
Quruca yerdə yatıbdır, haxışta.

***

Stol üstə vaz nədir, haxışta,
Vaz nədir, kağız nədir, haxışta,
Əgər məni sevirsən, haxışta,
Yanındakı qız nədir, haxışta.

***

Əmimoğlu, sən nəsən, haxışta,
Sən məni bəyənməsən, haxışta,
Eləsinə gedərəm, haxışta,
Yana-yana gəzəsən, haxışta.

***

Qara toyuq hindədi, haxışta,
Yumurtası nindədi, haxışta,
Mənim sevdiyim oğlan, haxışta,
Hələ əsgərlikdədi, haxışta.

***

Baxın gülün ətrinə, haxışta,
Başındakı çətrinə, haxışta,
Öldürərəm gəlini, haxışta,
Dəysə bəyin xətrinə, haxışta.

***

Gəlin-bəy əl-ələdir, haxışta,
Bunlar eldən elədir, haxışta,
Doyunca oynamalıyıq, haxışta,
Bizdə adət belədir, haxışta.

***

Qaynananın aşına, haxışta,
Baxmaz heç göz yaşına, haxışta,
Turp əkəcək sabahdan, haxışta,
Gəlin onun başına, haxışta.

***

Gəlin sənin canındı, haxışta,
Bəy sənin heyranındı, haxışta,
Hamı bilsin həyatda, haxışta,
Bir qız bir oğlanındı, haxışta.

***

Qızların vardı nazı, haxışta,
Qapıda xəkəndazı, haxışta,
Deyirlər çox yamandı, haxışta,
Bəyin xırda baldızı, haxışta.

***

Mən sənə qurban, ana, haxışta,
Qalmışam yana-yana, haxışta,
Günümü qara etmisən, haxışta,
Səni öləsən, qaynana, haxışta.

***

Bu gün yaman toy çıxıb, haxışta,
Edib götür-qoy çıxıb, haxışta,
Bəyin gəlinə verdiyi, haxışta,
Üzük prostoy çıxıb, haxışta.

***

Ürəyim lap yaradır, haxışta,
Yar dərdimə çaradır, haxışta,
Bu günnən sonra, gəlin, haxışta,
Sənin günün qaradır, haxışta.

***

Dənizə düşən tilovdu, haxışta,
Toyun şahı pilovdu, haxışta,
Bir gəlin, bir qaynana, haxışta,
İkisi də od-alovdu, haxışta.

***

Velosipedim dağ aşmaz,  haxışta,
Təkəri pisdir, yal aşmaz, haxışta,
Mən tələbə, sən fəhlə, haxışta,
Mənimki sənlə tutmaz,  haxışta.

***

A mingilə-mingilə, haxışta,
Gəlmişik gəlingilə, haxışta,
Yüz haxışta deyərəm, haxışta,
Sizin kimi yüzdilə, haxışta.

***

Qəbirstanlıq gül açdı, haxışta,
Ölülər durub qaçdı, haxışta,
Anasına deyin ki, haxışta,
Qızın qoşulub qaçdı, haxışta.

***

Qəbirstanlıq gül açmaz, haxışta,
Ölülər durub qaçmaz, haxışta,
Qıza bələddir ana, haxışta,
Bilir, qoşulub qaçmaz, haxışta.

***

Samovar cəh-cəh vurur, haxışta,
Üstündə milçək durur, haxışta,
Mənim sevdiyim oğlan, haxışta,
Hər yanda göyçək durur, haxışta.

***

Qardaşın əl yaylığı, haxışta,
Ortası zər yaylığı, haxışta,
Hamı ürəkdən desin, haxışta,
Qardaşa can sağlığı, haxışta.

***

Evimizdə ləyən var, haxışta,
Ləyəndə əyən var, haxışta,
Bizim bu xeyir işə, haxışta,
Ağzın-burnun əyən var, haxışta.

***

Maşın gəlir aralı, haxışta,
İçi dolu yaralı, haxışta,
Sənin sevdiyin bu qız, haxışta,
Azərbaycan maralı, haxışta.

***

Maşın gəlib durubdu, haxışta,
Burğusunu burubdu, haxışta,
Qız qaçır, oğlan qovur, haxışta,
İtoğlu qudurubdu, haxışta.

***

Əmim oğlu olasan, haxışta,
Mənə bir şal alasan, haxışta,
Alam, salam çiynimə, haxışta,
Baxasan, odlanasan, haxışta.

***

Əmim oğlu, yad oğlu, haxışta,
Evnizə girsin oğru, haxışta,
Sən bəyənib almadın, haxışta,
Qoy aparsın yad oğlu, haxışta.

***

Bu dərə alıqlıdı, haxışta,
Alıqlı-balıqlıdı, haxışta,
Qız evinə söz deməyin, haxışta,
Qız evi acıqlıdı, haxışta.

***

Dağarcığın unları, haxışta,
Allah qırsın bunları, haxışta,
Nənəmdən yekədilər, haxışta,
Kim alacaq bunları, haxışta.

***

Bu dağların başına, haxışta,
Qələm çəkdim qaşına, haxışta,
Köçən qızın sağ əli, haxışta,
Subayların başına, haxışta.

***

Maşın gəlir ulayır, haxışta,
Küçələri sulayır, haxışta,
Mən yarla görüşəndə, haxışta,
Qonşu özün bulayır, haxışta.

***

Oğlan gəlir meşədən, haxışta,
Saatı var şüşədən, haxışta,
Gəlinə libas alıb, haxışta,
Zərxara bənövşədən, haxışta.

***

Sandıq üstə gəzərəm, haxışta,
Sandığa gül düzərəm, haxışta,
Qardaşımın toyunda, haxışta,
Sındıra-sındıra süzərəm, haxışta.

***

Mərtəbə, ay mərtəbə, haxışta,
Görünür beş mərtəbə, haxışta,
İndi qız sevən oğlan, haxışta,
Girsin ali məktəbə, haxışta.

***

Alma atana qurban,  haxışta,
Atıb tutana qurban, haxışta,
Məxmər döşək, gül yastıq, haxışta,
Orda yatana qurban, haxışta.

***

Oğlan adın Həsəndir, haxışta,
Gün dağları gəzəndir, haxışta,
Verdiyin qızıl üzük, haxışta,
Barmağımı kəsəndir, haxışta.

***

Dam üstə arıq toğlu, haxışta,
Arpanı yedi çoxlu, haxışta,
Hamının yarı gəldi, haxışta,
Gəlmədi burnu p… haxışta.

***

Onlara verdik bir dana, haxışta,
Onlardan aldıq bir sona, haxışta,
Ay qız evinin adamı, haxışta,
İndi qalın yana-yana, haxışta.

***

Araba bizim olaydı, haxışta,
Təkəri qızıl olaydı, haxışta,
Girəydim yar qoynuna, haxışta,
Gecələr uzun olaydı, haxışta.

***

Yedin badam içini, haxışta,
Qızlar sürdü köçünü, haxışta,
Oğlan, səbrim qalmayıb, haxışta,
Tez ol, göndər elçini, haxışta.

***

Səpdim noxud, qaynana, haxışta,
Çıxdı noxud, qaynana, haxışta,
Oğlunu əlindən aldım, haxışta,
Partda, dağıl qaynana, haxışta.

***

Qırmızı şal məndədi, haxışta,
İki ucu səndədi, haxışta,
İstəyən çox olsa da, haxışta,
Mənim könlüm səndədi, haxışta.

***

Şampaniski olaydım, haxışta,
Butulkaya dolaydım, haxışta,
Qaynanamın yanında, haxışta,
Başı uca olaydım, haxışta.

***

Samavarım pıqqıldar, haxışta,
İstəkanım cıqqıldar, haxışta,
Bu qız bir söz deməmiş, haxışta,
Oğlan ordan paqqıldar, haxışta.

***

Ağ oyman ağlı qalsın, haxışta,
Boxçada bağlı qalsın, haxışta,
Yarıma göz dikənin, haxışta,
Ürəyi dağlı qalsın, haxışta.

***

Ağ dəvə alçaq gedər, haxışta,
Boynunda qolçaq gedər, haxışta,
Oğlan evinin qızları, haxışta,
Toydan yarımçıq gedər, haxışta.

***

Ağ oymanın ipin çək, haxışta,
Təndir yandır külün, çək, haxışta,
Qız evinə söz deyənin, haxışta,
Əngini əy, dilin çək, haxışta.

***

Qara qazanı asaram, haxışta,
İçinə biyan basaram, haxışta,
Qız evinə söz deyənin, haxışta,
Saçlarından asaram, haxışta.

***

Ay deyiləm, ulduzam, haxışta,
Gəlin deyiləm, mən qızam, haxışta,
Qapıda duran oğlan, haxışta,
Gəl yanıma, yalqızam, haxışta.

***

O taydan oğlan baxır, haxışta,
Burnundan helik axır, haxışta,
İt oğlu, köpək oğlu, haxışta,
Burdan sənə kim baxır, haxışta?

***

Əzizinəm, gəl bizə, haxışta,
Evə getmə, gəl bizə, haxışta,
Əgər məni sevirsən, haxışta,
Tez elçi göndər bizə, haxışta.

***

Çıxdım ağacın çiçəyinə, haxışta,
Baxdım oğlanın göyçəyinə, haxışta,
Oğlan məni almasa, haxışta,
Tüpürrəm onun birçəyinə, haxışta.

***

Ağ saman, sarı saman, haxışta,
Görüşümüz nə yaman, haxışta,
Ellər nişan eyləyir, haxışta,
Bəs bizimki nə zaman, haxışta.

***

Stol üstə səməni, haxışta,
Oğlan, sevirəm səni, haxışta,
Əgər məni sevməsən, haxışta,
Allah öldürsün səni, haxışta.

***

Stəkanım rəfdədir, haxışta,
Hərə bir tərəfdədir, haxışta,
Hər gün gördüyüm yarı, haxışta,
Görmürəm bir həftədir, haxışta.

***

Haxışta, hava bilmərəm, haxışta,
Suyunu sava bilmərəm, haxışta,
Mən bir imkanlı qızı, haxışta,
Kasıba gedə bilmərəm, haxışta.

***

A qaməti düz oğlan, haxışta,
Asta-asta süz, oğlan, haxışta,
Mən şəhərli, sən kəndçi, haxışta,
Bizimki tutmaz, oğlan, haxışta.

***

Termometr düz durur, haxışta,
Dərəcəsi yüz vurur, haxışta,
Heç bilmirəm nədəndir, haxışta,
Oğlan mənə göz vurur, haxışta.

***

Güllü-güllü gülüstan, haxışta,
Güllə dəysin gözündən, haxışta,
Biz sizi heç saymırıq, haxışta,
Nə çıxmısan özündən, haxışta.

***

Qırmızı şərab olaydım, haxışta,
Badələrə dolaydım, haxışta,
Yarım onu şərab içəndə, haxışta,
Boğazında qalaydım, haxışta.

***

Yaşıllar, ay yaşıllar, haxışta,
Divardan boylaşırlar, haxışta,
Bir həyətdə yeddi qız, haxışta,
Ər üstə savaşırlar, haxışta.

***

Oğlan adın Mameddi, haxışta,
Yediyin də qaletdi, haxışta,
Özün yaxşı oğlansan, haxışta,
Bacıların agentdi, haxışta.

***

Ağ dəvə alçaq gedir, haxışta,
Boynunda qolçaq gedir, haxışta,
Bu məhlənin qızları, haxışta,
Məktəbə yarımçıq gedir, haxışta.

***

Ay doğdu, bəs deyilmi, haxışta,
Gün doğdu, bəs deyilmi, haxışta,
Qızın qara gözləri, haxışta,
Oğlana bəs deyilmi, haxışta.

***

Məktubun asta yolu, haxışta,
Su gəldi kəsdi yolu, haxışta,
Vüsalına çatmamış, haxışta,
Ayrılıq kəsdi yolu, haxışta.

***

Arabanın təkərləri, haxışta,
Naxçıvanın şəkərləri, haxışta,
Qız evinin hamısı, haxışta,
Bəy evinin nökərləri, haxışta.

***

Şirin, şərbət olaydım, haxışta,
Fincanlara dolaydım, haxışta,
Yar gələndə həmişə, haxışta,
Qarşısında duraydım, haxışta.

***

Ay zindi, zindi, qızlar, haxışta,
Bu gələn kimdi, qızlar, haxışta,
Uzaqdan gələnə bax, haxışta,
Bu sevgilimdi, qızlar, haxışta.

***

Ay qız, bir aç üzünü, haxışta,
Görüm o qaş-gözünü, haxışta,
Mənə çox naz eyləmə, haxışta,
Yerə salma sözümü, haxışta.

***

Atlılar, ay atlılar, haxışta,
Qolları qanadlılar, haxışta,
Qız evinin adamları, haxışta,
Oğlan evini aldatdılar, haxışta.

***

Tut ağacı qurudu, haxışta,
Su dibində duruldu, haxışta,
Hamının yarı gəldi, haxışta,
Mənim boynum buruldu, haxışta.

***

Yaylığı, al yaylığı, haxışta,
Ortası zər yaylığı, haxışta,
Hamı ürəkdən desin, haxışta,
Gəlinə can sağlığı, haxışta.

***

Belə tələsmə, oğlan, haxışta,
Çəpəri kəsmə, oğlan, haxışta,
Mən özgənin malıyam, haxışta,
Yolumu kəsmə, oğlan, haxışta.

***

Xınanı gətir, ana,  haxışta,
Əlini batır, ana, haxışta,
Bu gecəyə qonağam, haxışta,
Yanında yatır, ana, haxışta.

***

Hecili-becili qardaş, haxışta,
Geyim-kecili qardaş,haxışta,
Başına mən dolanım, haxışta,
Bircə bacılı qardaş, haxışta.

***

Qara toyuq hindədi, haxışta,
Yumurtası nindədi, haxışta,
Arvadın qara gözü, haxışta,
Ərinin cibindədi, haxışta.

***

Tut ağacı tutdudu, haxışta,
Tutun dibi qurddudu, haxışta,
Oğlan yaxşı oğlandır, haxışta,
Bacıları qurddudur, haxışta.

***

Bağçamızda mev gülü, haxışta,
Mev gülü, üzüm gülü, haxışta,
Əvvəllər qohum idik, haxışta,
İndi olduq sevgili, haxışta.

***

Aftafa burma-burma, haxışta,
İçində sarı xurma, haxışta,
Qardaşım bir qız sevib, haxışta,
Saçları burma-burma, haxışta.

***

Kartofu soya bilmirəm, haxışta,
Boşqaba qoya bilmirəm, haxışta,
Nişanlım məktub göndərib, haxışta,
Aşkar oxuya bilmirəm, haxışta.

***

Corabının ağına, haxışta,
İp bağladım tağına, haxışta,
Əgər məni sevirsən, haxışta,
Gəl qonşunun bağına, haxışta.

***

Arabanın təkərləri, haxışta,
Naxçıvanın şəkərləri, haxışta,
Gör bizə kim söz deyir, haxışta,
Oğlan evinin nökərləri, haxışta.

***

Əmim oğlu elinə, haxışta,
Kəmər vurub belinə, haxışta,
Əmisi qızı qurban, haxışta,
Qələm tutan əlinə, haxışta.

***

Əmoğlu, ay əmoğlu, haxışta,
Evini aparsın oğru, haxışta,
Sən ki məni almadın, haxışta,
Qoy alsın yadın oğlu, haxışta.

***

Əmiqızı, ha əmiqızı, haxışta,
Sənə qurban qoç, quzu, haxışta,
Sən ki mənə gəlmədin, haxışta,
Qoy gəlsin yadın qızı, haxışta.

***

Əmimoğlu, bizə gəl, haxışta,
Qırmızı gey, təzə gəl, haxışta,
Bir əlində şiş kabab, haxışta,
Bir əlində məzə gəl, haxışta.

***

Stol üstə göy kisə, haxışta,
Məni verdilər pisə, haxışta,
Pisi qəbul etmədim, haxışta,
Göndərdilər Tiflisə, haxışta.

***

Qızıl üzük firuzə, haxışta,
Gedin deyin o qıza, haxışta,
Bu il parça bahadı, haxışta,
Toyu qaldı payıza, haxışta.

***

Çaşır özəksiz olmaz, haxışta,
Özək gərəksiz olmaz, haxışta,
Yarı evə gələndə, haxışta,
Gəlin bəzəksiz olmaz, haxışta.

***

Ayım, ulduzum, ay qız, haxışta,
Dibəkdə duzum, ay qız, haxışta,
Gəl alım qardaşıma, haxışta,
Olum baldızın ay qız, haxışta.

***

Bir daş atdım almaya, haxışta,
Alma yerdə qalmaya, haxışta,
Allah qızı yaradıb, haxışta,
Oğlan subay qalmaya, haxışta.

***

Qara toyuq hindədi, haxışta,
Yumurtası nindədi, haxışta,
Gəlnimin şəkilləri, haxışta,
Oğlumun cibindədi, haxışta.

***

Ağ paltarı ağartdım, haxışta,
Qollarını daraltdım, haxışta,
Gəldiyim üç gün deyil, haxışta,
Qaynanamı saraltdım, haxışta.

***

Gəlinə bax, gəlinə, haxışta,
Əlin qoyub belinə, haxışta,
Gəlinə söz deməyin, haxışta,
Gedib deyər ərinə, haxışta.

***

Ay qız adamı, haxışta,
Sındır badamı, haxışta,
Oğlan adamı, haxışta,
Gəl al qadamı, haxışta.

***

Su gəlir yarpızdığa, haxışta,
Tökülür qarpızdığa, haxışta,
Evlərdə çox söz olar, haxışta,
Gəlin, vur arsızdığa, haxışta.

***

İlana bax ilana, haxışta,
İlan göydə bulana, haxışta,
Əhdimizə söz olmaz, haxışta,
Gəl əl basım Qurana, haxışta.

***

Qara atın nalıyam, haxışta,
Yəhər üstə xalıyam, haxışta,
Qardaş çıxır özünnən, haxışta,
Bilmir özgə malıyam, haxışta.

***

Boyunbağım gümüşdü, haxışta,
Sürüşdü, yerə düşdü, haxışta,
Yarım məndən inciyib, haxışta,
Əlacı bir öpüşdü, haxışta.

***

Tala boyu əvəlik, haxışta,
Zoğunu qırpar əlik, haxışta,
Biz də belə tayfayıq, haxışta,
Ölənəcən sevərik, haxışta.

***

Alma verirəm, almır, haxışta,
Almadan geri qalmır, haxışta,
Canına and içirəm, haxışta,
Yad oğludu, inanmır, haxışta.

***

Xəncəri işlə, yolla, haxışta,
Üstün gümüşlə, yolla, haxışta,
Mənə bir alma göndər, haxışta,
Yarısın dişlə yolla, haxışta.

***

Bilərzik biləyimdə, haxışta,
Yüküm var kürəyimdə, haxışta,
Məni təklikdə dindir, haxışta,
Sözüm var ürəyimdə, haxışta.

***

Stol üstə göy daraq, haxışta,
Mən yarı gördüm bayaq, haxışta,
Qaçdım, çata bilmədim, haxışta,
Sınasan belə ayaq, haxışta.

***

Marağa, ay marağa, haxışta,
Telim gəlmir darağa, haxışta,
Yarı qonaq eylərəm, haxışta,
Bir stəkan arağa, haxışta.

***

Oğlan adın Talıbdı, haxışta,
Gün dağları alıbdı, haxışta,
Verdiyin qızıl üzük, haxışta,
Barmağımda qalıbdı, haxışta.

***

Armud ağacı haça, haxışta,
Əlim dolaşdı saça, haxışta,
Oğlan bir igid ola, haxışta,
Sevdiyin götrə qaça, haxışta.

***

Stol üstə üzüm var, haxışta,
Üzüm, səndə gözüm var, haxışta,
Bir evdə iki qardaş, haxışta,
İkincidə gözüm var, haxışta.

***

İlana bax, ilana, haxışta,
İlan göydə bulana, haxışta,
And içmişəm Allaha, haxışta,
Gedəcəm bu oğlana, haxışta.

***

Bazardan qarpız aldım, haxışta,
Qarpızı bıçaqladım, haxışta,
Qaynanamın yanında,  haxışta,
Oğlunu qucaqladım, haxışta.

***

Stol üstə üzüm var, haxışta,
Giləsində gözüm var, haxışta,
Bibimin üç oğlunun, haxışta,
Kiçiyində gözüm var, haxışta.

***

Yarı yola salmışam, haxışta,
Qayğısına qalmışam, haxışta,
Mən yarımın iyini, haxışta,
Balıncından almışam, haxışta.

***

Əzizim qarımasın, haxışta,
Al geysin, yarımasın, haxışta,
Məndən qeyri yar sevən, haxışta,
Murazına çatmasın, haxışta.

***

Çıxdım ağacın başına, haxışta,
Baxdım oğlanın göz-qaşına, haxışta,
Oğlan yaxşı oğlandır, haxışta,
Bacısı öz başına, haxışta.

***

Çıxdım ağacın çiçəyinə, haxışta,
Baxdım qızların göyçəyinə, haxışta,
Sevdiyim qız gözəldir, haxışta
İz düşüb birçəyinə, haxışta.

***

Oğlan, adın Əlidir, haxışta,
Köynəyin düyməlidir, haxışta,
Özün yaxşı oğlansan, haxışta,
Bacıların dəlidir, haxışta.

***

Qız oturub daş üstə, haxışta,
Telin töküb qaş üstə, haxışta,
Oğlan deyir, dur gedək, haxışta,
Qız da deyir baş üstə, haxışta.

***

Haxışta deyək ikimiz, haxışta,
Güləbətindi yuxumuz, haxışta,
Yorğan-döşək, gül yasdıq, haxışta,
Soyunaq, yataq ikimiz, haxışta.

***

Tut ağacı sarmaxdı, haxışta,
Tutu burmaq-burmaqdı, haxışta,
Yarım küsüb gedibdir, haxışta,
Əlacım yalvarmaqdır, haxışta.

**Bunu toyun səhəri günü duvaxqapmada bəyin bacısı deyir:**

Gəlin gəldi, nə gətirdi?
Biri uzun, biri qısa, biri yoğun.
Uzun ömrün olsun, qısa dilin,
Yoğun da mal-dövlətin.

***

Bazardan aldım soğanı,
O soğanı, bu soğanı,
Sağ olsun oğlan doğanı,
Gəlin, xoş gəldin, xoş gəldin,
Bu evə tuş gəldin, tuş gəldin.

***

Həyətimizdə əkdik nana,
Yarpaqları tökdük yana,
Anam olsun sənə qaynana.
Gəlin, xoş gəldin, xoş gəldin,
Bu evə tuş gəldin, tuş gəldin.

***

Gəlin deyər, hanı atam,
Qoyunu quzuya qatam,
Qaynatandır sənin atan.
Gəlin, xoş gəldin, xoş gəldin,
Bu evə tuş gəldin, tuş gəldin.

***

Gəlin deyər hanı anam,
Yaxılmayıb, qalıb xınam,
Qaynanan olsun sənin anan,
Gəlin, xoş gəldin, xoş gəldin,
Bu evə tuş gəldin, tuş gəldin.

***

Gəlin deyər hanı bacım,
Su üzündə üzür saçım,
Baldızların sənin bacın.
Gəlin, xoş gəldin, xoş gəldin,
Bu evə tuş gəldin, tuş gəldin.

***

Gəlin deyər hanı qardaşım,
Qarlı dağları mən aşım,
Qayınların sənin qardaşın.
Gəlin, xoş gəldin, xoş gəldin,
Bu evə tuş gəldin, tuş gəldin.

***

Bazardan aldım kələmi,
O kələmi, bu kələmi,
Sağ olsun oğlan əkəni.
Gəlin, xoş gəldin, xoş gəldin,
Bu evə tuş gəldin, tuş gəldin.

***

Mən gəlmişəm qənddanlara qənd qoyam, haxışta,
Gəlməmişəm ürəyimə dərd qoyam, haxışta,
Mən nə biləydim halını, qaynana, haxışta,
Əzrayıl alsın canını, qaynana, haxışta.

***

Məni gəlmişəm gəlin olam, forslanam, haxışta,
Gəlməmişəm ev süpürəm, tozlanam, haxışta,
Mən nə biləydim halını, qaynana, haxışta,
Əzrayıl alsın canını, qaynana, haxışta.

***

Mən gəlmişəm çörəyimə bal yaxam,  haxışta,
Gəlməmişəm qor-qoduğu saxlayam, haxışta,
Mən nə biləydim halını, qaynana, haxışta,
Əzrayıl alsın canını, qaynana, haxışta.

***

Mən gəlmişəm pudra vuram, ağaram, haxışta,
Gəlməmişəm çörək yapam, qaralam, haxışta,
Mən nə biləydim halını, qaynana, haxışta,
Əzrayıl alsın canını, qaynana, haxışta.

***

Mən gəlmişəm xanım olam, kef çəkəm, haxışta,
Gəlməmişəm yer-yetimə baş çəkəm, haxışta,
Mən nə biləydim halını, qaynana, haxışta,
Əzrayıl alsın canını, qaynana, haxışta.

***

Qaynanamı bağda ilan vuraydı, haxışta,
Qaynatama Məkkə qismət olaydı, haxışta,
Baldızıma “Quran” qənim olaydı, haxışta,
Öz yarıma canım qurban olaydı, haxışta.

***

Qaynanama dövlət quşu qonaydı, haxışta,
Qaynatama Məkkə qismət olaydı, haxışta,
Baldızıma yaxşı bacı olaydım, haxışta,
Öz yarıma canım qurban olaydı, haxışta.

***

Qaynana-qaynana, zalım qaynana, haxışta,
Tumanını geyim-çıxım meydana, haxışta,
Qaynanam öləndə özüm ağlaram, haxışta,
Şiş götürüb dabanımı dağlaram, haxışta.



# *BELƏ RƏVAYƏT EDİRLƏR Kİ....*

**(hədislər, rəvayətlər və nağıllar)**

## TALEYİ ALLAH YAZIR

Keçmiş zamanlarda bir padşah, onun da bir qulu varmış. Bu qulun dərisi qara olduğundan ona qara qul deyirmişlər. Padşahın uşağı olmurmuş. On beş il keçir, nəhayət, bu padşahın bir qızı olur. Qız naz-nemət içində böyüyür. Padşah bir gün yatıbmış, yuxuda görür ki, taleyazan onun hüzurundadır, padşaha deyir: «Sənin qızının taleyini yazmışam qapındakı qara qula». Padşah hövlank yuxudan durur, yuxusunu arvadına danışır. Arvad deyir:

- Ay kişi, bəs nə təhər edək, o - qul, qız-padşah qızı.

- Gəl, onu göndərək gedər-gəlməzə, bəlkə onu arada qurd-quş yeyə, bizim də, qızın da canı qurtara.

Padşah qulu çağırıb yarıtmaz bir işin dalınca göndərir. Qara qul yola düşür. Yola düşən vaxt onun hara getdiyini bilən bir nəfər ondan xahiş edir:

- Mənim də dərdimi Allaha danışarsan. Deyərsən ki, mənim bir zəmim var, suyu açıram ki, zəmini sulayam, su gedir, zəminin ortasında batır, zəmi yanır, məhsul götürə bilmirəm. Mənim dərdimə əlac eyləsin.

Qara qul «yaxşı» deyib yola düzəlir. Bir az getmişdi ki, yolda bir bağbana rast gəlir. Bağban onun hara getdiyini bilincə deyir:

- Mənim ərzi-halımı Allaha yetirərsən, deyərsən ki, ha belə, gözəl üzüm bağım var. Ancaq mən ondan bir salxım əldə edə bilmirəm.

Qara qul buna da «yaxşı» deyib yoluna davam edir. Az gedir, üz gedir, dərə-təpə düz dedir, gəlib çıxır bir çayın qırağına, oturur təpənin üstündə, başlayır çörək yeməyə. Bu zaman yoldan keçən bir kişi yaxınlaşıb ədəb-ərkanla salam verir, oturur yerə, qara quldan soruşur:

- Söylə görüm hardan gəlib, hara gedirsən?

Qara qul deyir:

- Sahibim məni Allahın yanına göndərib, gedirəm onu axtaram, tapam.

Qara qul adamların da ismarıclarını bu qoca kişiyə danışır. Qoca kişi deyir:

- Sən qayıdanda zəmi sahibinə də, üzüm sahibinə də de ki, taxılın da, üzümün də olacaq. Ancaq sən zəmi sahibini razı sal, zəminin ikiqat qiymətini ver, o yeri ondan al. Alandan sonra o su batan yer ki var, o yeri qaz, orda yeddi padşahın xəzinəsi var. Oranı qaz, qızıldan götür, xırdala, özünə padşahın imarətindən də gözəl bir imarət tikdir.

Qara qul qocadan ayrılıb geri qayıdır, gəlib qoca kişinin dediyi kimi edir, yeri alır. Üzüm sahibinə də deyir ki, sənin bu il çoxlu üzümün olacaq. Qara qul taxıl zəmisində gizlədilmiş qızıldan bir az götürüb, çəmənli-çiçəkli çay kənarında bir imarət tikdirməyə başlayır. Orda işləyən fəhlələrə gündə bir abbası qızıl verir. İmarət hazır olana yaxın onun sorağı gedib qara qulun nökərçilik etdiyi padşahın sarayına da çatır. Arvadı padşaha deyir ki, bir gedək, görək, o kimdir? O nə imarətdir elə? Durub yığışıb gedirlər. Qara qul padşahı tanıyır, padşah qara qulu tanımır. Qara qul padşahı qonaq edir, süfrənin üstünə cürbəcür naz-nemət, qızıldan kasa, fincan, məcmeyi, qaşıq düzdürür. Qara qul padşahın şərəfinə çoxlu qonaq da çağırmışdı. Onlar yeməyə başlayanda qara qul deyir:

- Yeməyinizi yeyəndən sonra, hamınız istifadə etdiyiniz qab-qaşığı özünüzlə götürürsüz. Mən onları sizə hədiyyə edirəm.

Padşah bu işə mat qalır. Öz-özünə fikirləşir: “Gör bu nə qədər varlı-dövlətli adamdır ki, bu qədər qızıl qabları pay

verir”.

Qara qul əmr vermişdi - şəhərə nə qədər qonaq gəlsə, mütləq gəlib onun evində çörək kəsməlidir. Heç kim ac getməməlidir.

Padşahla arvadı çox fikirləşirlər, çox götür-qoy edirlər. Axırda arvadı padşaha deyir ki, ay kişi, gəl elə qızımızı verək buna. Padşah deyir, nə bilim, o qədər var-dövlət sahibidir, qızımızı alar, almaz...

Padşahla arvadı qayıdır evlərinə. Aradan bir xeyli keçir. Onlar yenə də qara qulun imarətinə qonaq gedirlər. İmarətin divarlarına qızıl suyu çəkildiyindən günəş şəfəqləri üstünə düşdükcə bərq vururdu. Padşahla arvadı imarətə çox baxa bilmədilər, gözləri qamaşdı. Nə isə, gəlib imarətə daxil olurlar. Padşah görür ki, qab-qaşıq, hər şey qızıldandı. Əlini nəyə atırsa görür qızıldı. Padşahla arvadı burda qonaq qalmaqda olsun, sizə kimdən danışım, qara qulnan çayda rastlaşan qoca kişidən.

Qoca yolnan gəlirdi. Gəlib qara qulun imarətinə çatanda keşikçilər onun nabələd adam olduğunu görür, tutub saraya gətirirlər. Axı qara qulun əmri var idi - heç bir qonaq, qərib onun sarayında çörək kəsməmiş getməməlidir. Qoca saraya getmək istəməyib deyir:

- Mənim sarayda nə işim var, qoca kişiyəm, burax, çıxım, gedim.

Keşikçilər deyir:

- Heç elə şey yoxdur, sənə görə biz boynumuzun vurulmağını istəmirik.

Qoca kişini gətirirlər saraya. O, qara qulun sarayında çörək yeyib yoluna davam edir.

Bu burda qalsın, sizə qara quldan deyim. Padşah arvadı və qızı ilə onlara gələndə qara qulun gözü padşahın qızına

düşür. Padşah evinə qayıdanda qara qul padşahın qızına elçi gedir. Padşah sevindiyindən bilmir nə etsin, qırx gün, qırx gecə toy çaldırıb qızını qara qula verir. Qoca kişi gəlib toya çıxmışdı. Yaxınlaşıb padşaha deyir:

- Mən sənə deyəndə ki, qızın qapındakı qara qula qismətdir, sən inanmadın. Qızını verdiyin bu adam sənin qapındakı qara quldur. Bu Allahın qismətidir. Allah hamının taleyini qabaqcadan yazır.

## KEÇƏLİN SATIN ALDIĞI FƏNDLƏR

Keçmiş zamanlarda bir oğlan olur. Bunun atası tez ölmüşdü. O, anası ilə balaca bir qara damda olurdu. Oğlan böyüyür, evlənmək həddinə çatır, kimi istəyirsə heç kim buna qız vermir ki, kasıbdır. Oğlan həm də keçəl imiş.

Günlərin birində məmləkətin padşahı şəhərə gəzməyə çıxıbmış. Adamlarla görüşür, söhbət edir. Keçəl də burda imiş. Padşah onu görüb soruşur:

- Ay keçəl, bu yaşa çatıbsan, niyə evlənmirsən?

Keçəl deyir:

- Padşah sağ olsun! Sənin libasınla atın məndə olsa, üç günə bir qız alıb gətirərəm. Sən paltarınla atını üç günlüyə mənə ver.

Padşah, eləmə tənbəllik, atdan düşür, libasını soyunur, atı da, paltarı da verir keçələ. Keçəl paltarı geyinir, çıxır atın belinə. Padşah görür ki, bu heç at da sürə bilmir, bu hara gedəcək?

Nə isə, padşah başının əhli-əyalı ilə saraya qayıdır. Keçəl görür ki, padşah gözdən itdi, ata bir qamçı vurur, at yerindən götürülür. Gethaget gəlib başqa bir məmləkətə çatır. Görünən kəhrizə yaxınlaşır ki, su içsin, baxır ki, bir neçə qız-gəlin kəhrizdən su doldurur. Gözü bir gözəl qıza sataşır. Bir könüldən min könülə aşiq olur bu qıza. Qız da gözəl geyinmiş bu oğlana vurulur. Oğlan qızdan içməyə su istəyir. Qız əlindəki parçı doldurub oğlana verir. Oğlan suyu başına çəkir. Qız səhəngini çiyninə alıb evlərinə tərəf getməyə başlayır. Atlı oğlan da düşür bunun dalınca. Qız evlərinə çatır, həyətə girir. Oğlan qapının yaxınlığında bir az gözləyir, sonra qapını döyür. Ev sahibi çıxır eşiyə, yolçunu evinə dəvət edir. Xoş-beş, onbeş, qonağı yaxşı qarşılayırlar. Bahalı paltar geyinmiş qonaq üçün tez bir heyvan kəsirlər, yaxşı dəm-dəsgah düzəldirlər. Yeyib-

içəndən sonra ev yiyəsi qonağı sorğu-suala tutur:

- Qibleyi-aləm, danış görək, hardan gəlib-hara gedirsən?

Keçəl cavab verir:

- Mən qonşu vilayətin padşahının oğluyam. Bir neçə il bundan qabaq gəlmişdim bu obaya. Burda bir qıza vuruldum. İndi gəlmişəm onu tapam, aparam. Əgər tapıb aparmasam atam məni başqası ilə evləndirəcək. Mən gördüyüm qız gəldi girdi sizin həyətə. İndi o hardadır?

Kişi elə bilir ki, bu oğlan doğrudan da padşah oğludur. Odur ki, arvadına him-cim edir ki, dur, qızı tap, soruş, gör nə deyir. Ana qızının yanına gedir, məsələdən onu agah edir. Qız da oğlana aşiq olmuşdu, odur ki, deyir, əgər atam verirsə gedərəm. Oğlan qızın atasına deyir ki, mən qızı indi aparmalıyam atam qızı görsün, bilsin ki, daha mənim istədiyim var. Qızın atası razı olur, qızlarının yol tədarükünü görürlər. Onlar yola çıxanda anası gətirib qızına üç dənə üzük verir. Fikirləşir ki, qızı birdən təntiyər, dar ayaqda üzüklər ona kömək olar.

Onlar yol gəlib keçəlin kəndinə yaxınlaşırlar. Keçəl qıza deyir:

- Gəl, biz gündüz atamın yanına getməyək, axşam alatoran olsun, onda gedərik.

Qız heç nə demir. Onlar yaxınlıqdakı kasıb bir komaya yaxınlaşıb içəri keçirlər. Daxmadakı qarı onları mehriban qarşılayır, hər ikisinin üzündən öpür, başlarına pərvanə kimi dolanır.

Qız bir az şübhəyə düşür. Oğlan atla libası aparıb padşaha verib deyir:

- Padşah sağ olsun! Mən o biri vilayətdə dedim ki, padşah oğluyam, yəni sənin, istəyirsən məni oğulluğa qəbul elə, istəmirsən də, necə istəyirsən mənnən rəftar elə. Özümə də bir qız gətirmişəm, anamın daxmasındadır.

Padşah bir az fikirləşib deyir:

- Yaxşı, bir haldakı belə demisən, onda libası götür özün gey, atı isə çək tövləyə, bağla.

Oğlan atı tövləyə aparıb bağlayır, libası da götürüb qayıdır daxmasına. Aradan bir neçə gün keçir. Qız başa düşür ki, əhvalat nə yerdədir. Yeməyə heç nə olmadığından anası verdiyi üzüklərdən birini gətirib oğlana verib deyir:

- Al bu üzüyü, apar sat, bir az yağ, düyü al, qalanına da yun al, gətir.

Oğlan gedir bazara ki, üzüyü satsın, bir kişi çıxır bunun qabağına, soruşur:

- Hara gedirsən?

- Heç, əşşi! Bir üzüyüm var, aparıram satam, evə ayın-oyun alam.

Kişi deyir:

- Oğlan, o üzüyü ver mənə, əvəzində sənə bir fənd öyrədim.

Keçəl üzüyü verir ona. Kişi deyir:

- Karvanla gedəsi olsan, karvanı heç vaxt dərədə saxlama, həmişə dərənin döşündə saxla.

Kişi bunu deyib getmək istəyəndə keçəl deyir:

- A kişi, elə bu?

Kişi deyir:

- Hə.

Keçəl kişiyə hirslənib deyir:

- Ver bura üzüyümü!

- Onda sən də mənim fəndimi ver.

Keçəl heç nə deyə bilmir, kor-peşman evə qayıdır. Evdə görürlər ki, keçəl əliboş gəlir. Gəlin soruşur, bəs bazarlığın hanı? Keçəl başına gələni evdəkilərə nağıl edir. Gəlin deyir: «Bu yaxşı fənddir». Səhəri gəlin ikinci üzüyü verib ərini bazara yola salır. Keçəl gedir bazara, həmin kişi yenə qarşısına çıxır, soruşur:

- Ay keçəl, hara?

- Gedirəm bu üzüyü satam, bazarlıq edəm.
- O üzüyü ver mənə, sənə bir fənd də öyrədim.
- Yox, yox, evdə dişə vurmağa bir şey yoxdur, anam, arvadım acından ölür. Yeməyə bir şey almalıyam.

Kişi dediyinin üstündə durur. Keçəl məcbur olub bu üzüyü də kişiyə verir.

Kişi deyir:

- Bir sözü deyəndə əvvəlcə fikirləş, sonra de.
- Elə bu?
- Hə!
- Ver mənim üzüyümü – oğlan yenə acıqlanır.

Kişi deyir:

- Sən də mənim fəndimi qaytar.

Oğlan kor-peşman evlərinə qayıdır və olanları evdəkilərə danışır. Gəlin deyir: «Həə…, bu yaxşı fənddir».

Arvadı üçüncü üzüyü verir. Oğlan bazara başqa yolnan gedir. Yenə həmin kişi çıxır qarşısına, deyir:

- Keçəl, hara gedirsən?
- Bazara! – deyə keçəl könülsüz cavab verir.
- Nəyə?
- Heç nəyə, elə-belə gedirəm.

Kişi qır-saqqız olub keçəldən ayrılmır.

Axırda üçüncü üzüyü də oğlandan alır, əvəzində deyir:

- Bir iş görəndə səbirnən gör.
- Elə bu?
- Hə, elə bu.

Keçəl kefi pozulmuş halda, bazarda veyil-veyil gəzirdi. Əliboş qayıtmağa üzü gəlmirdi. Birdən qulaqlarına carçının dediyi sözlər çatdı. Carçı qışqırıb deyirdi: «Padşahın karvanını Suriya dövlətinə aparmaq lazımdır. Ancaq ora gedən karvanlar, adamlar qayıtmayıb, yolda həlak olurlar. Elə bir qoçaq adam varsa, buyursun gəlsin». Keçəl öz-özünə fikirləşir:

«Ölmək – ölməkdirsə, qoy gedim ölüm, əliboş evə nəyə qayıdım?» Gəlir carçının yanına, deyir, mən gedərəm. Carçı deyir: «Əgər padşahın karvanını sağ-salamat aparıb-gətirsən, sənə iki dəvə yükü mal-dövlət veriləcək» Keçəl razılaşır. Ona qabaqcadan 5 tümən qızıl pul verirlər. Keçəl onu göndərir evə. Padşahın karvanını da götürüb yola düzəlir. Onun karvanından başqa altı karvan da var idi. Yol gedib, bir dərəyə çatırlar, gecəni orda qalası olurlar. Karvan sahibləri dəvələri dərədə yerə yatızdırırlar ki, yel onları tutmasın. Keçəlin yadına bazardakı kişinin sözü düşür və karvanı dərənin döşündə saxlayır. Gecənin bir yarısı güclü, küləkli yağış başlayır, bir az keçmiş sel gəlib dərədəki karvanı adam qarışıq yuyub aparır. Keçəlin karvanı isə dərənin döşündə olduğundan sağ-salamat qalır. Öz-özünə deyir: "O hər kimdirsə, mənə elə yaxşı söz deyibmiş". Keçəl durub karvanıyla birlikdə getməyə başlayır. Gethaget, gəlib elə bir yerə çatırlar ki, burdan heç bir karvan salamat qurtara bilmirmiş. Qaçaq-quldur qabaqlarını kəsirmiş. Quldurlar keçəlin karvanının qabağını kəsir və soruşur:

- Kimdir karvanbaşı?

Keçəl deyir:

- Mənəm.

- Gedəcəyik bizim başçımızın yanına.

Keçəl bir söz demir, düşür bu quldurun qabağına. Gedirlər quldurbaşının yanına. Quldurbaşı onu görüb deyir:

- Keçəl, sənə bir sual verəcəm, əgər tapdın, sənin karvanın sağ-salamat gedib gələcək. Yox, tapa bilmədin, karvanı əlindən alacam, boynunu da vurduracam.

Keçəl onsuz da ölümünü gözünün qabağına almışdı, odur ki, «söylə» dedi.

Quldurbaşı dedi:

- İki dəmir qəfəs var, aralı qoyublar, birinin içinə qızı, o birinin içinə oğlanı salıblar. İndi sən mənə de görüm, dünyada

ən şirin şey nədir? Mən sənə bir gün vaxt verirəm. Tapdın, çıxıb gedirsən, tapmadın, səni öldürəcəm.

Vaxt tamam olur. Quldurbaşı soruşur:

- Sualımın cavabını tapdınmı?

Keçəl qəfəsdə olan qıza, sonra da oğlana baxıb deyir:

- Mən belə hesab edirəm ki, dünyada ən şirin şey məhəbbətdir.

Keçəlin ağzından söz qurtarcaq qəfəsin qıfılı şaqqıltıyla açılıb yerə düşür. Sən demə qıfıl sehrlənibmiş. Bu söz onların sehrini açan söz imiş. Qızla oğlan qəfəsdən çıxıb bir-birinə sarılırlar. Sonra qız cibindən iki nar çıxardıb keçələ verir. Keçəl azad olur və karvanla birlikdə yoluna davam edir. Qabaqda səfərdən qayıdan tanış tacirlərdən qəfəsdəki qızın ona bağışladığı narı anasına göndərir, deyir ki, heç olmasa susayanda bu narı qırıb yeyərlər. Tacirlər keçəlin verdiyi iki narı keçəlin anasına çatdırırlar. Ana oğlunu soruşur. Tacirlər deyir ki, yoldu da, oğlun altı-yeddi ilə gələ-gəlməyə, onu bircə Allah bilir. Anasıgil narı keçəldən bir xatirə kimi saxlayırlar. Birdən necə olursa ananın əli nara toxunur və nar yerə düşərək parça-parça olur. İçindəki dənələr ətrafa yayılır. Ana baxır ki, dənələr ləl-cəvahirat kimi parıldayır. Nar dənələri hamısı yerə tökülür. Ana heç nə anlamır. Gəlin gəlib baxan kimi bilir ki, bunların hamısı qızıldır. Gəlin tez o biri narı kəsir, görür ki, bunun da içi doludur ləl-cəvahirlə. Gəlin bu qızıllardan xırdalayaraq gözəl bir imarət tikdirir. Gəlnin bir oğlu da olur.

İllər keçir, keçəl elinə-obasına qayıdır. Karvanı sağ-salamat aparıb-gətirdiyinə görə padşah ona iki dəvəlik yük verir. Keçəl bunu da götürüb anasının komasına tərəf gəlir. Gəlir koma olan yerə, komanı tapmayır, gedir-qayıdır, baxır, bir şey anlaya bilmir. Gəlir qonşularından anasını, arvadını soruşur ki, onlar necə oldular, hara getdilər, öldülər, qaldılar? Qonşu cavab verir ki, onlar sağ-salamatdırlar, özlərinə bir

imarət tikdiriblər ki, gəl görəsən. Keçəl gedib qonşunun nişan verdiyi imarəti tapır. Gecə olduğundan qıraqdan durub həyəti, evi seyr edir. Anası yatmışdı. Gördü ki, arvadı yerini saldı, uzandı, bir az keçmiş bir oğlan gəldi, yorğanı qaldırıb keçəlin arvadının yanına girdi. Keçəl bunu görüb öz-özünə fikirləşdi ki, yəqin arvadım ərə gedib.

Ayağa durdu, xəlvətcə gedib həm arvadını, həm də arvadının yanına girən oğlanı öldürmək istədi. Birdən bazarda rastlaşdığı kişinin sözləri yadına düşdü. «Bir iş görmək istəyəndə əvvəlcə fikirləş, sonra gör». Keçəl ordan qonşunun həyətinə keçdi, qonşudan oğlanın kimliyini soruşdu. Qonşu cavab verdi ki, oğlan sənin öz oğlundur, sən gedəndən sonra doğulub. Doğulan gündən də anası ilə bir yerdə yatır. Keçəl «Allah, sənə şükür!» deyib qonşu ilə öz evinə gedir. Anası ilə, arvad-uşağı ilə görüşür, öpüşür və şad-xürrəm yaşamağa başlayırlar.

Allah sizi də xoşbəxt eləsin, həmişə Allahın nəzərində olasınız.



## AĞILLI QIZLAR

Bir şəhərdə iki qardaş mehriban, şad-xürrəm yaşayırlarmış. Qardaşların birinin iki oğlu, o birinin altı qızı varmış. Gün dolanır, ay keçir. Allahın bir günü qardaşların sözü çəp düşür. Oğlu olan qardaş o biri qardaşına deyir:

- Ə, sən də özünü kişi hesab edirsən? Sən bilirsən ki, sonsuzsan, oğlun yoxdur? Sən öləndən sonra sənin davamçın olmayacaq?

Qardaşların sözləşməsini qızlar eşidir və bundan çox qəmgin olurlar. Ancaq qızlar çox ağıllı, çalışqan, yaxşı mənada inadkar və istədiklərini axıra qədər edən idilər. Qızlara əmilərinin sözü çox yer eləmişdi. Onlar fikir edirdilər: «Əmimiz niyə atamızın könlünə dəydi? O bilməliydi ki, biz həm də onun qızlarıyıq, onun oğlanları da bizim atamızın oğlanlarıdır». Qızlar bir az sakitləşəndən sonra belə qərara gəldilər ki, özlərini yaxşı bir varis kimi göstərmək üçün əla oxumalıdırlar. Onlar ali məktəbi oxuyub bitirirlər, hərəsi bir vəzifə sahibi olurlar. Əmisi oğlanları isə küçədə-bacada veyilənməklə günlərini keçirib avaraçılıqla məşğul olurlar.

Qızlar bir gün eşidirlər ki, əmiləri xəstələnib. Altı qızın hamısı bir yerə yığışıb əmilərinin görüşünə gedirlər. Kişi qardaşı qızlarını görüncə yerindən dikəlir, sevinir, gözlərinə işıq gəlir, onlarla görüşür. Arvadına çay gətirməyi tapşırır. Qızların böyüyü üzünü əmisinə tutub deyir:

- Əmi, biz gəlmişik sənə bir söz deyək, gedək.
- Bilirəm, qızım, siz mənə nə deyəcəksiz, -deyə əmi üzüntülü səslə dillənir.
- Əmi, sənin o fərsiz oğlanlarındansa bizim kimi qız yaxşı-

dır. Sən o vaxt niyə bizim atamıza elə söz deyib onun ürəyini sındırırdın? Deyirdin, ay qardaş, sənun bu altı qızından nə çıxacaq? İndi de görək, sənin oğlanların hardadır, onlardan nə çıxdı?

Əmi vaxtı ilə dediyi sözlərin xəcalətini indi çəkdi. Utandığından qızlara cavab verə bilmədi. Qızlar davam etdi:

- Əmi, biz sənin o sözlərinə görə oxumağı qətiləşdirdik. Sənin sözlərin bizi ayıltdı. Sənin oğlanların kimi övladdansa bizim kimi qız yaxşıdır.

Deyirəm, indi, Allah verən pay şirindir. İstər oğlan, istər qız olsun. Ağıllı, dərrakəli, savadlı olsun. Kim də deyir ki, qız yox, oğlan yaxşıdır, o, dünyanın ən nadan adamıdır.

Bax, yolnan gedirsiz, qarşınıza bir bağ çıxır. Keçirsiz içəri, görürüsüz, alma bağıdır, alma ağacının üstü doludur, bir tərəfdə də alma tingiləri. Hansını götürərsiz - almanı, ya tingisini? Əlbət də, düşüncəli adam alma tingisini götürür. Tingini əkər, özü bar da götürər, pay da verər. Görürsüz, söyüd ağacı böyüyüb, budaqları sallanıb, nazlı gəlinə oxşayır, elə hey özünü öyür, mən gözələm, boyum, baxın, necə ucadır? Budaqlarım, yarpaqlarım salxım-salxımdır… Ancaq söyüd bilmir ki, o, bar verməz ağacdır. Bir il, beş il, on il - quruyub gedəcək. Ondan heç nə qalmayacaq. İnsan da elədir, o da bar verməlidir, övladları olmalıdır. Odur ki, Allah nə verirsə, ona qayıl olmalı, naşükürlük etməməlidir.

## VAR-DÖVLƏT KİMİNDİR

Keçmiş zamanlarda varlı-hallı bir kişi varmış, ancaq övladı yox imiş. Gecə-gündüz arvadı ilə bərabər Allaha dua edirmiş ki, bircə uşaqları olsun. Gün keçir, ay dolanır, kişinin bir qızı olur. Onu naz-nemətlə böyüdürlər. Qız on beş yaşına çatanda bir gözəlləşir, bir gözəlləşir ki, gəl görəsən, aya deyir sən çıxma, mən çıxacam, günə deyir, sən çıxma, mən çıxacam. Ata qızına baxıb fərəhlənir, deyir:

- Qızım, neçə ki, mənim evimdəsən, ye-iç, atanın mal-dövlətindən ürəyin istəyən kimi xərclə.

Qız atasına nə cavab versə yaxşıdır?

- Ata, bu var-dövlət sənin niyə olur, Allahındı.

Kişi gözləmədiyi cavabdan bərk alınır, bu qədirbilməz övladına dərs verməyi qərara alır:

- Sən nankor övladsanmış, mən bilməmişəm. Səni bir gün də evimdə saxlamaram. Səni qapıdakı mehtər Məhəmmədə ərə verəcəm, özü də qovacam sizi evdən, gedib harda yaşayırsınız, yaşayın.

Kişi qızını toysuz-düyünsüz mehtərə ərə verib evdən qovur.

Məhəmməd arvadını da götürüb öz kəndinə, qoca anasının yanına gedir. Yolda qız ondan soruşanda ki, biz hara gedirik? Məhəmməd cavab verir:

- Gedirik mənim qoca anamın yanına. Anamın cırıq keçədən və köhnə sandığından başqa heç nəyi yoxdur. Keçəni yerə salıb üstündə yatırıq.

Beləcə ana, bala, gəlin bir yerdə yaşamağa başlayırlar. Payız keçir, qış yaxınlaşır. Gəlin ərinə deyir:

- Məhəmməd, qabaqdan soyuqlar gəlir, get meşəyə, odun

yığ, yoxsa qışda donub ölərik. Sənin işin olmasın. Atamın xəbəri olmayacaq, anama deyərəm, bir-iki atdan-qatırdan verər, gedib odunu daşıyıb gətirərsən.

Məhəmməd tezdən durur, balta, çatı götürüb meşəyə yollanır. Bir xeyli quru odun qalaqlayıb, evə qayıdır.

Meşədə heyvan otaran şuluq bir uşaq, eləmə tənbəllik, odun tığına bir kibrit vurub yandırır. Məhəmməd tezdən at, qatır götürüb meşəyə yollanır. Gəlib nə görsə yaxşıdır? Yığdığı odunlar kösövə dönüb, kösövlərin altından nədirsə sarı rəngli maye axıb gedir. Məhəmməd sarıya çalan mayenin bərkimişləridən götürür, heyvanlara yükləyir, evə dönür. Gəlib olanları arvadına danışıb deyir:

- Bax, o iri daşı təndirin ağzı üçün, o birini ocağın üstü üçün, balacanı aftafanın ağzı üçün gətirdim.

Arvadı baxıb görür ki, Məhəmmədin gətirdiyi hamısı qızıldır. Məhəmmədin başı çıxmadığından bilmirdi ki, gətirdiyi nədir. Arvadı bir süpürgə verib onu yenidən meşəyə göndərir:

- Al, bu süpürgəni, get meşəyə, gördüyün bütün sarı dəmirləri qırıntılarınacan hamısını süpür, götür, gəl.

Məhəmməd arvadının tapşırığını yerinə yetirir. Əri gedəndən sonra gəlin qayınanasından soruşur:

- Ana, sənin bu sandığında nəyin var?

Qayınanası deyir:

- Heç, qurbanın olum, mitildən artıq qalmış qırıq-quruq cır-cındadır.

- Ana, sən onu mənə verərsən?

- Anan sənə qurban, niyə vermirəm, hər şey qurbandır sənin kimi gəlinə.

Gəlin durur ayağa, sandığı açır, parçanı götürür. Bilirdi ki, anasının tikiş maşını var. Onu da atasından xəlvət gətizdirib

qayınanasının saxladığı bir qırıq parçadan balaca bir oyma tikir. Həyətə çıxıb qonşunun balaca qızını çağırır, oymanı onun əyninə geyindirir. Qızcığaz sevinə-sevinə evlərinə qaçır.

Balaca qızın əynindəki oymanı görən qonşu qızlar, gəlinlər oyma tikdirmək üçün növbəyə dururlar. Dərzinin şöhrəti ətrafa yayılır. Gəlin paltar tikməklə güzəranlarını xeyli yaxşılaşdırır.

Günlərin birində arvadı Məhəmmədə deyir:

- Məhəmməd, sən neçə vaxtdır əziyyət çəkirsən, gəl get dağda-bağda bir az dincəl, özünə gəl. Ancaq iki ildən nə az olsun, nə çox.

Məhəmmədi fikir götürür: "Bu arvad nə danışır? Özü əziyyət çəkir, ona-buna paltar tikir, məni də göndərir ki, iki il get, dincəl".

Məhəmmədin arvadı ərindən gizlin qızıl parçalarından birini aparıb zərgərə xırdaladır, gətirib ərinə verib onu yola salır.

- Mən gedirəm, bəs anam? Anamın axırı nə olacaq?

- Sən anandan arxayın ol, onu elə saxlayacam ki, gələndə tanımayacaqsan. Sən get, gördün ki, pulun qurtardı, mənə xəbər yolla, pul göndərim.

Məhəmməd pulu da götürüb dincəlmək üçün başqa vilayətə gedir.  Gəlin qızılların bir parçasını da pula dəyişir. Qayınanasını qonşuya tapşırır, ona pul verib deyir ki, qayınanamın, necə lazımdırsa qulluğunda dur. Özü isə gəlib qayvnanasının daxmasını sökdürür, yerində üç mərtəbəli malikanə tikdirir. İmarətin günbəzi günün altında bərq vurur. Saray hazır olanda qayınanasını evə gətirib ən yaxşı otaqlardan birində ona yer ayırır, gəlin otağı kimi bəzətdirib onu orda yerləşdirir. Mal alır, qoyun alır, çoxlu qulluqçu, qaravaş,

nökər-naib saxlayır.

İki il tamama yetişir. Məhəmməd öz ölkəsinə qayıdır. Anasının daxmasına tərəf gəlir, evlərini yerində görmür. Baxır ki, yer həmin yerdi, ev o ev deyil, təəccüblənir, fikirləşir, bəlkə səhv gəlib? Geriyə qayıdır, irəli gəlir. Bu zaman üçüncü mərtəbədə otumuş arvadı onu görüb səsləyir:

- Məhəmməd, gəl, düz gəlibsən, buradır sənin evin.

Məhəmməd gəlir, çıxır yuxarı görür ki, anası xanım-xatın oturub ipək döşəkçədə, qoltuğunun altında da xaradan üzü olan mütəkkə. Anası ilə, arvadı ilə öpüşüb-görüşür. Sonra üzünü arvadına tutub soruşur:

- Bir məni ağah elə, görüm, bu nə işdir, bu nə imarətdir, bunları necə düzəltmisən?

Gəlin yalan danışmağa məcbur olur:

- Bütün bu gördüklərinin hamısının pulunu atam verib. Elə səni gözləyirdim ki, gəlib çıxasan, gedək atamla-anamla görüşək, sənə gələndən onlara getməmişəm.

- Bu nə sözdür, dur hazırlaş, gedək.

Gəlin bilirdi ki, atası evdə olmayacaq, ona görə də anası ilə görüşüb evlərinə qayıdırlar. Arvad ərinə deyir:

- Məhəmməd, sabah gedərsən bazara, yüz adamlıq qab-qaşıq, stəkan-zir alıb gətirərsən. İstəyirəm atamı qonaq çağıram, başına da bir yüz nəfər toplayam.

Məhəmməd deyir: "Lap yaxşı". Qız atası evinə gedir, anasından atasını soruşur. Anası deyir:

- Qızım, atan səni gördü, elə bildi yad qadındı, bağa keçdi.

Qız atasının hüzuruna gedir, salam verib deyir:

- Ata, necəsən?

Qızı dəyişdiyindən atası onu tanımır, deyir:

- Sən kimsən ki, mənə ata deyirsən?

Qız deyir:

- Ata, kim olacam, sənin qızınam, sən məni kasıb bir oğlana verdin, heç demirsən, gedim, görüm qızım necədir? Necə yaşayır, ev-eşiyi varmı? Ata, mən gəlmişəm səni evimə aparım. Bax, qızının günü-güzəranından xəbər tut.

Ata ürəyi yumşalır, arvadını da götürüb qızının yanına düşərək onlara gedir. Gəlib qızının imarətinə çatanda gözlərinə inanmır. Bu sirrə məətəl qalır. Nə isə, ürəyində götür-qoy edə-edə evə keçir. Qızı onu sarayın lap yuxarı başına keçirir.

Qızının çağırdığı qonaqların hamısı gəlmişdi. Süfrədə quş südü desən var idi. Qonaqlar doyunca yeyib-içəndən sonra gəlin deyir:

- Hər kəs öz yeyib-içdiyi qabı özü ilə götürsün.Onları mən sizə hədiyyə edirəm.

Gəlin qızıldan olan qab-qaşığı və əvvəlcədən aldırdığı paltarları gələn qonaqlarına paylayıb onları yola salır.

Atası ilə anası durub getmək istədikdə qızı qoymur, deyir:

- Oturun yerə. Ata, bu gördüklərinin hamısını Allah verib. Mən o vaxt sənə deyəndə ki, sənin var-dövlətini Allah verib, acığın tutdu, məni evdən qovdun, sonrakı taleyimlə heç maraqlanmadın. İndi de görüm, bütün bunlar mənim özümündür, yoxsa Allahın mənə bəxş etdiyi sərvətdir?

Kişi öz hərəkətindən peşman olur, qızına deyir:

- Hə, qızım, sən düz deyirsən. İnsanın ruzusunu doğrudan da Allah verir.

## BUNDAN DA PİS GÜNÜN OLACAQ?

Keçmiş zamanlarda fağır bir qoca kişi var imiş. Bekarçılıqdan tezdən axşamacan çayın qırağında oturub zikr edirmiş. Yaz günlərinin birində sel gəlir, çay daşır, məcrasından çıxır. Kişi başını qaldırıb sürətlə axan çaya baxanda bir kəllənin danışa-danışa axdığını görür. Kəllə öz-özünə deyir: "Allah, buna da şükür!"

Kişi təəccüblə kəllədən soruşur:

- Bundan belə sənə daha nə olacaq ki, şükür edirsən? Bundan da pis günün olacaq?

Kəllə cavab verir.

- Allahın işini bilmək olmaz.

Kəllə sel-sularının içində görünməz olur. Kişi yerə oturub çaya baxmağa davam edirdi. Yenə gördü ki, başqa bir iri kəllə də danışa-danışa gəlir: "Allah, sən saxla, Allah, sən saxla! Allah bundan betərindən saxlasın!" Kişi kəllədən soruşur:

- Daha bundan betər nə olacaq? Nə gündəsən?

Kəllə cavab verir:

- Allahın işini bilmək olmaz.

Kəllə elə bunu deyib qurtarmışdı ki, böyük bir daşa çırpılaraq oxam-oxam olur.

Hə, balalarım, Allah böyükdür, Allah özü bilir, nə edir.

## HARINLAMIŞ ÇOBAN

Padşahın qızı küləfirəngidə oturub ətrafı seyr edirmiş. Birdən qulağına yanıqlı bir səs gəldi. Ətrafa göz gəzdirib səsin sahibini tapdı. Bu bir çoban idi, mahnı oxuya-oxuya sürünü otarmağa aparırdı. Qız çobanın səsindən mütəəssir olub onu səslədi:

- Ay çoban, niyə belə yanıqlı oxuyursan?
- Ay qızım, dərdim var, odu məni belə inildədən.
- Dərdini mənə söylə, mən də agah olum.
- Ay qızım, məni söylətmə, dərdimə şərik ola bilməyəcəksən. Mən dərddən oxuyuram, hamı da elə bilir kefdən oxuyuram.
- Danış dərdini, mən bilmək istəyirəm.

Çoban qızın əl çəkmədiyini görüb dərdini danışmağa başladı:

- Bax, görürsən üst-başım nə gündədir, kasıb adamam, çarığım, patavam nimdaş, tozun-palçığın içində. Yoxsulluq ucbatından adam sifətindən də çıxmışam.

Padşah qızının çobana ürəyi yanır, boynundakı qızıl həmayilini çıxardıb çobana verir:

- Al, bu boyunbağını, apar xırdala, özünə gün-dirrik düzəlt. Ancaq istəyirəm, gəlib mənim yanımda işləyəsən, bacararsan?
- Niyə bacarmıram, belə mənim bu gözlərim üstə.

Çoban öz-özünə fikirləşir ki, qoyun otarmaqla heç nə qazana bilmir. Elə əziyyət çəkməkdənsə xanımın yanında buyruqçu olar.

Padşahın qızı çobanı evə gətirir. Onun əyin-başını təzələyir, köhnə paltarlarını-çarığını, patavasını, çuxasını bir san-

dığa qoyub ağzını bağlayır, açarı da gizlədir.

Çoban can-başla işə başlayır. Padşahın qızının hər bir sözünə "baş üstə" deyir.

Günlər beləcə keçir. Çoban padşahın qızının yanında yeyib-içib şellənir. O qədər harınlayır ki, xanıma cavab qaytarmağa başlayır: "Nə vaxta kimi sənin qulluqçun işləyəcəm, çıxıb gedirəm". Xanım belə cavabı çoxdan gözləyirdi, onun hərəkətlərindən duymuşdu.

Xanım çobanı çağırıb dalınca gəlməyi əmr etdi. Gəlib çobanın köhnə paltarlarını saxladığı sandıq olan otağa girdilər. Xanım sandığın qapağını açıb çobana dedi:

- Bax, yaxşı-yaxşı bax, bu sənin keçmişindi, indini isə özün istəmədin, sənə verdiyim o qiymətli boyunbağı da haqq-halal xoşun olsun. İndi isə, yol açıqdır, çıxıb gedə bilərsən.

Çoban köhnə, tozlu-palçıqlı paltarını gördükdə bütün keçmişi gəlib gözünün qabağında dayandı. Çox axmaq hərəkət etdiyini başa düşüb xanıma yalvarmağa başladı:

- Bir qələtdi eləmişəm, sənin kimi xanımın üzünə ağ olmuşam. Keç mənim günahımdan, yenə qalım sənin yanında. Öl desən ölərəm, qal desən qalaram.

Çoban çox yalvardı, xanımın axırda ona yazığı gəldi, yenidən yanında qalıb işləməyinə razı oldu.

Bunu sizə söyləməkdə məqsədim budur ki, adam gərək çörək verənin üzünə heç vaxt ağ olmasın. Onu nə bəndə götürər, nə də Allah.

## ÖZ GÜNÜMƏ AĞLAYIRAM

İki bacının bir qardaşı var imiş. Günlərin birində qardaş xəstələnir. O, uzun müddət yataq xəstəsi olur. Böyük bacı qardaşının yanına gələr, hal-əhval tutar, bir az yanında oturar, sonra da çıxıb gedərdi. Balaca bacı isə qardaşına gecə-gündüz qulluq edər, ayağına-başına keçər, vaxtlı-vaxtında yeməyini-içməyini verər, çimizdirər, yastığının qırağını kəsdirib durardı.

Gün o gün olur, qardaş ölür, bacılar evlərində yas saxlayır. Böyük bacı üz-gözünü cırır, ağı deyib bərkdən ağlayır. O biri bacı isə sakitcə oturur, hərdənbir də gözündən axan yaşı silirdi. Məclisə pıçhapıç düşür: "Bu bacı heç elə bil bacı deyil, ürəyi daşdır, heç ağlayıb-sızlamır." Böyük bacı bunları eşitsə də məhəl qoymur. Ağlaşma qurtarandan sonra böyük bacı deyir: “İndi də dayanın, bayaqkı sözünüzün cavabını verim. Mən böyük bacı olsam da, bilmirdim ki, ölüm-itim var, qardaşımın axırı belə olar. Qardaşıma görə yox, öz günümə ağlayırdım ki, mən ona heç nə etmədim, qulluğunda durmadım, bir gecə yanında oturmadım. Balaca bacım isə qardaşım üçün əlindən gələni etdi. Allahdan gizlin deyil ki. Allah verdi, indi də aldı, odur ki, mən ağlayıram, bacım isə ağlamır. Onun yanına üzüqara mən gedəcəm, bacım yox."

## FƏNDGİR GƏLİN

Bir kişi olur, varı-halı başından aşsa da uşağı olmadığından həmişə qəmgin gəzib-dolaşırdı. Bir dəfə ağsaqqallardan biri ona məsləhət gördü ki, dövlətinin bir hissəsini fağır-füqaraya, kasıb-kusuba, yoldan ötənlərə payla, bəlkə sənin bu hərəkətin Allahın xoşuna gəldi, sənə bir züryət verdi.

Söz kişinin ağlına batır, evə qayıdıb arvadına deyir:

- Ay arvad, istəyirəm, varımı el yolunda paylayam, bəlkə Allah bir uşaq verə.

Arvad deyir:

- Nə olar, ay kişi, necə istəyirsən, elə də elə.

Kişi evdə olan malın-dövlətin bir hissəsini götürüb, yetim-yesirə, kasıba paylayır.

Bu hadisədən doqquz ay keçir, kişinin arvadı yatır, bir oğlu olur. Kişi sevindiyindən bilmir neyləsin. Gedir dükana, çağanı bələməyə cürbəcür, top-top parça alır, arvadına tapşırır ki, çağanı hər dəfə təzə parçaya bük, onu açanda islanmışı tulla yola, kasıb-kusub götürüb işlətsin.

Arvadı ərinin sözlərinə əməl edir. Uşaq naz-nemət içində böyüyür. Gün o gün olur ki, oğlanın evlənmək vaxtı çatır. Gəlib anasına deyir:

- Ana, mən evlənmək istəyirəm.

Ana sevinir, deyir:

- Neynək, lap yaxşı eləyirsən, ancaq kimi alırsansa əsli-nəsli bəlli olan yaxşı qız al. Qoy arvadın köklü-nəcabətli yerdən olsun. Axşam atan gəlsin, ona deyim, kimi deyirsən qapısına elçiliyə gedək.

Oğlunun gözaltısı var idi. Atası deyir:

- Arvad, gözümüzün ağı-qarası bir oğlumuz var. Qoy gözü kimi tutub onu da alsın.

Toy edib oğlanı evləndirirlər. Ancaq gəlin onların fikirləşdiyi kimi çıxmır, üstəlik uşağı da olmur. Ay dolanır, il ötür. Ana bir gün xəstələnib ölür. Gəlin buna ürəyində sevinir, deyir, elə yaxşı oldu, qayınanam öldü, qaynatam da qocadır, bu gün-sabah o da yıxılıb öləcək, bütün bu mal-dövlət mənə qalacaq, heç ərimə deyən də olmayacaq ki, uşağı yoxdur, boşa, çıxsın getsin.

Bir dəfə gəlin otaqda ərilə yatmışdı. Gecənin bir yarısı yuxuda qışqırdı. Əri tez durub arvadını silkələyib oyatdı, təlaş içində soruşdu:

- Nə olub, niyə qışqırırsan?

- Heç, yuxu görürdüm. Gördüm ki, uzun, qara əbalı bir kişi başımın üstündə durub deyir: "Gərək siz bu kişidən (qayınatasını göstərir) ayrılıb ayrı yaşayasınız".

Əri dedi:

- Ondan asan nə var, atamı qoyaram bir otağa, yeməyini-içməyini aparıb verərəm, otaqdan heç bəri çıxmaz.

Oğlan dediyi kimi də edir.

Bir gün atası yemək gətirən oğlunu saxlayıb dedi:

- Oğul, sənin yaşın keçir, bu arvadının uşağı olmur, get başqasını al, heç olmasa bircə uşağın olsun, sonra gec olacaq.

Söz oğlanın ağlına batır, gəlib arvadına deyir:

- Mən uşaq istəyirəm, səninsə uşağın olmur, ona görə, razı olsan da, olmasan da ikinci arvad alacam.

Gecə yenə yatmışdılar, gəlin qışqırıb ayılır, deyir: “Yenə o qara əbalı kişi gəlmişdi, dedi ki, bu qocadan tamam ayrılma-

lısınız. Yoxsa sizə rahatçılıq olmayacaq."

Oğul gəlinin felinə uyub atasını həyətin o biri başındakı köhnədən qalma bir daxmaya aparıb qoyur. Kişi taleyilə barışır, oğluna deyir:

- Mən hər şeyə dözərəm, təki sənin uşağın olsun.

Kişi daxmada oturur, heç eşiyə də çıxmır. Oğul iki-üç gündən bir aparıb atasına bir qab xörək verib qayıdır.

Gəlin bununla da razılaşmır. Ərinə deyir ki, gecə yuxumda yenə qara əbalı kişini gördüm, mənə dedi: neçə ki, o kişi sağdır, sənə uşaq verməyəcəm. İndi gərək sən atanı öldürəsən ki, Allah bizə uşaq versin.

Ər deyir:

- Ondan asan nə var? Öldürərəm, hələ o yana da keçərəm, təki uşağımız olsun.

Oğul fikirləşir, atasını öldürmək üçün yollar axtarır. Deyir, necə eləyim ki, el arasında məni qınamasınlar, onun ölümünü məndən görməsinlər.

Fikirləşir, fikirləşir, axırda tapır: gedərəm, daxmanın dirəyini kəsərəm, dam uçar, kişi də altında qalıb tələf olar. Heç kim də məndən şübhələnməz.

Oğul gedib dirəyi kəsir, dam uçur, atası ölür. Hay salır ki, bəs gəlin, atam öldü. Gəlin sevinir: «Daha heç kim bizim işimizə qarışa bilməz. Heç kim ərimə daha deməyəcək ki, niyə uşağın yoxdur, gəlin doğmur, onu boşa, ya başqa arvad al».

Kişini dəfn edirlər. Novruz bayramında kişinin qəbri üstünə çıxırlar. Baxıb görürlər ki, qəbirin üstündə bir uzun qarpız tağı var. Tağın üstündə də iri bir qarpız. Oğul sevinir ki, yaxşı oldu, bu qarpızı dərib apararam, bayramdır, verərəm padşaha, bəlkə məni saraya çağırıb yaxşı vəzifədən - zaddan

verər. Qarpızı aparır evə. Arvadı soruşur:

- Bu nə qarpızdır? İlin-günün bu fəslində qarpız bitər?

- Qarpızın tağı atamın qəbiri üstündə bitib. Gör atam nə yaxşı kişi idi ki, bu bayram vaxtı da məni yadından çıxarmayıb. Bunu apararıq padşaha, hədiyyə edərik. Bəlkə bizə ənamdan-zaddan verə.

Arvad razı olur.

Hamı bir ucdan bayramını təbrik etməkdən ötrü padşaha hədiyyə aparırdı. Camaat gəlib-gedəndən sonra, axşam padşah vəzirindən soruşur:

- Elə bil hədiyyələrin içində mən qarpız gördüm, ya mənim gözümə dəydi?

- Padşah sağ olsun, düz görübsən, o qarpızı filankəs gətirib.

- İlin-günün bu vaxtı? Çox şübhəlidir. Get qarpızı bura gətir. Bu soyuqlu gündə qarpız yetişməz.

Qarpızı iri siniyə qoyub gətirirlər. Padşahın gözü qarşısında onu kəsirlər. Baxıb görürlər ki, qarpızın içi laxta qandır. Padşah qəzəblənib deyir:

- Bunu kim gətiribsə onu tez mənim hüzuruma gətirin!

Qarpız gətirənin dalınca adam göndərirlər. Oğlan sevinir: "Aha, mənim hədiyyəmdən padşahın xoşu gəlib. Yəqin məni mükafatlandıracaq. Bəlkə də vəziri çıxardıb məni onun yerinə təyin edəcək". Özlüyündə belə fikirləşə-fikirləşə sevincək saraya çatır. Gəlib padşahı qəzəbli görəndə dili-dodağı quruyur.

Padşah soruşur:

- Bu qarpızı sən gətiribsən?

Oğlan laxta qanla dolu qarpıza baxıb udqunur, deyir:

- Bəli, qibleyi-aləm, mən gətirmişəm.

Padşah qəzəblə cəlladbaşıya deyir:

- Apar bunu sal bir otağa, onunla sonra danışacağam.

Sonra adam göndərib oğlanın arvadını da gətizdirir. Gəlin sevinir: “Ay can, ay can, ərim də gəlib çıxmadı, yəqin hədiyyə padşahın xoşuna gəlib, ərimi saxlayıb, vəzifə verib, mən də olacam sarayda bir xanım".

Gəlib padşahın hüzuruna çatırlar. Qarpızı gəlinə də göstərirlər. Gəlin çimçəşib üzünü yana çevirir. Padşah əmr edir:

- Bu gəlini də salın o biri otağa.

Gecə keçir, səhər açılır, padşah sarayında divan qurulur. Oğlanı da, onun arvadını da çağırtdırır hüzuruna, deyir:

- Nə iş görmüsüz, hamısını bircə-bircə danışırsız.

Oğul başına gələnləri - uşağının olmamağını, atasını öldürməyini, arvadının sözlərini hamısını padşaha nağıl edir. Gəlin də tutduğu işləri, qayınatasının, ərinin başına gətirdiyi oyunları danışır. Padşah əmr edib deyir:

- Bu gəlini aparın boynunu vurun, bu qan çanağıdır, beləsi yaşasa dünyanı bir-birinə vurar. Allah da bilir, beləsinə züryət vermir. Beləsindən törəyən də şeytana xidmət edər. Boynunu elə vurun ki, qanından ətrafa sıçramasın, yoxsa torpaq murdarlanar. Bütün arvadlar getsin, onu quylayanda qəbirinin üstünə hərə bir daş atsın. Bu salamat qalsa ətrafı zaylayacaq, aləmi xarablayacaq.

Sonra da oğlanı gətirirlər. Padşah deyir:

- Bu nankoru camaatın gözü qabağında dar ağacından asın! Qoyun hamı özünə ibrət dərsi götürsün. Belələri yaşamamalıdır. Allah ona görə belələrinə övlad vermir. Belə insanların artımı olmamalıdır, mənim camaatımın arasına belə-belə işlərlə nifaq salınmamalıdır. O cür atanın qədrini bilməyən təəbəm, heç kəsin qədrini bilməz.

Oğlanı dar ağacından asırlar. Sonra dərin bir quyu qazıb əvvəlcə oğlanı, sonra da qarpızı atıb üstünü torpaqlayırlar.

Hə, mənim balalarım, dünya belə naqis övladlardan xali deyil, çalışın, siz o övladlardan yox, ata-ana qədri bilən övladlardan olun.



## CƏNABİ CƏBRAYILIN YERƏ ENMƏSİ

Cənabi Cəbrayılı Allah yerə göndərir. O, əynində çuxası yolnan gedirmiş, gedib gözəl barı olan bir üzüm bağına yetişir. Yol gəlib yorulduğundan bağbanı səsləyib bir salxım üzüm istəyir. Bağban bir onun əyin-başına baxır, bir salxım-salxım sallanan üzüm topasına baxır. Əyilib quma, palçığa batıb çürümüş bir salxım üzüm qırıb verir yolçuya. Yolçu salxıma baxıb deyir:

- Bağban, bu qədər ki, bağın-bağçan gözəl bar gətirib, niyə yaxşısından qırıb vermirsən, çürümüş, palçıqlı üzüm verirsən?

Bağban saymazyana cavab verir:

- Əşşi, nə deyirsən, olanı odur, yeyirsən ye, yemirsən də çıx, qoy, get, hövsələmlə oynama.

Yolçu heç nə demir, bir az aralanır, çəliyini bərkdən yerə vurur. Üzümün yarpaqları, salxımları bir anda büzüşüb xarab olur. Bağban ətrafa baxır, qaçır o tərəfə, qaçır bu tərəfə, çuxalı adamı görə bilmir, oturur yerə, başlayır başına-gözünə döyməyə.

Cənabi Cəbrayıl gəlib göy çəmənlikdə qoyun sürüsü otaran bir çobana rast gəlir. Çobana salam verir, əleyk alır, deyir, bərəkətli olsun. Çoban deyir, xoş gəldin. Deyir, Allah eşqinə, susuzluqdan ölürəm, o qara qoyunlardan birini sağ, ver içim. Çoban sürünün içinə baxır, xəstə, axsaq, arıq bir qoyuna yaxınlaşır, südünü sağır balaca bir cama, gətirib yoldanötənə verir. Yolçu südü içməyib deyir:

- Sənin ki, bir qədər varın-dövlətin, qoyunun-quzun var, bir qara qoyunun südünü qonağa qıymadın. Getdin o südü az olan xəstə qoyunu sağdın. O, balasına südünü ancaq çat-

dırır. Mən onu içə bilmərəm.

Belə deyib gözdən itir. Bir az aralanmış çəliyini yerə vurur. O saat qoyunların südü quruyur, yunları tökülür, xəstələnir və arıqlayır. Çoban qoyunları bu halda görəndə məsələnin nə yerdə olduğunu başa düşür, başına-gözünə döyür, ancaq əli heç yerə çatmır. Cənabi Cəbrayıl ordan gəlir bir şəhərə. Gedir bir qəssabın yanına, onu bir gecəliyə qonaq saxlamasını xahiş edir. Qəssab işini-gücünü qurtarır, qonağını da götürüb evə gəlir, arvadına deyir ki, qonağım var, bu gecə bizdə qalacaq, yaxşı bir xörək bişir. Kişinin çoxlu malı-heyvanı, varı-dövləti olduğu halda kəsməyə heç nəyi qıymır, arvadı ilə həyətdəki pişiyi kəsib plovun üstünə qoyurlar. Qonaq ev yiyəsinin yeməd iyini görüb deyir:

- Yeməyini ye, da bə.

Ev yiyəsi qonağa deyir:

- Birinci sən bismillah elə.

Ev sahibi deyir:

- Biz indicə yemişik, heç olmasa bir tikə götür.

Arvad özlərinə ət qızardıbmış, qonağa isə pişiyi quzu adına qızardıb yedizdirmək istəyirlər. Qonaq soruşur:

- Bu nə ətidir?

Ev sahibi deyir:

- Bu körpə quzu ətidir.

Cənabi Cəbrayıl əlini pişiyin üstündə gəzdirir, dodaqaltı bir dua oxuyur, plovun üstündəki ət tərpənir və pişik əsnəyib ayağa qalxır. Yolçu heç nə demədən ayağa durub gedir. Bir az getmiş çəliyini yenə yerə vurur. Varlı ev sahibinin var-dövləti bir anda yoxa çıxır.

Hə balalarım, xəsislik eləsən, var-yoxdan olarsan, bədxərclik eləsən, onda da var-yoxdan olarsan. Hər şeyi qaydasında

görmək gərəkdir, hər şey həddində olanda yaxşıdır. Atalar yaxşı deyib: Varlı olanda gələcəyə pul saxla, cavan olanda qocalığa güc saxla, dalaşanda barışmağa üz saxla.



## BƏY QUŞU

Keçmiş zamanlarda bayquş adında bir quş var idi. Bu quşun oylağı xarabalıqlar idi. Günlərin birində bayquş öz-özünə deyinməyə başladı: «Mən nə vaxtacan xarabalıqda yaşayacam, daha bezdim. Gedib yaxşı bir yer tapıb özüm üçün yaşayacam.» Bayquş belə qərara gələrək yaşıl dona bürünmüş bir laləzarlığa uçub gəlir. Bayquş hündür bir çinar ağacında özünə yuva qurur, burda yaşamağa başlayır. Günlərin birində bayquşun yaşadığı yuvanın yaxınlığındakı həyətdə toy olur. Bayquş fikirləşir ki, nə yaxşı oldu, uçub gəldim bu gözəl yerlərə, belə gözəl yaşayış gördüm, mehriban insanların səsini eşitdim, gülən üzlərini gördüm. Belə gözəl yeri qoyub mən də qalırdım xarabalıqda.

Günlərin bir günü bayquş çiçəklərin, güllərin açdığı yerdə, çəmənlikdə tikilmiş imarətin pəncərəsinə qonur. Baxır ki, içəridə gözəl bir qızla bir oğlan şirin-şirin söhbət edirlər.

Həyətdə isə mağar qurulur, toy başlayır, hamı deyib-gülür. Bayquş eşidir ki, bəy gəlinə deyir: "Bir-birimizə söz verək ki, kim birinci ölsə onu bu həyətdə basıraq, gecələr gəlib başımızı qoyaq qəbirin üstünə, ordaca yataq."

Bəylə gəlin and içib, əhd-peyman bağlayırlar. Gün o gün olur ki, gəlin xəstələnib dünyasını dəyişir. Camaat yığışıb gəlir, gəlinin meyidini yuyub basırmaq üçün qəbiristanlığa aparmaq istəyəndə oğlan razı olmayıb deyir:

- Biz əhd-peyman bağlamışıq ki, kim birinci ölsə, bu həyətdə basırılacaq, gecəni də başımızı qəbirin üstünə qoyub yatacağıq.

Oğlanın sözü ilə qəbiri həyətdə qazırlar, gəlini basırırlar.

Bir müddət keçir. Oğlanın bir qıza gözü düşür. Başlayır bu qızla görüşməyə. Bayquş həmişə onları izləyirdi. Bir gün bayquş qonur pəncərəyə, başlayır bunların danışığına qulaq asmağa. Görür ki, qız oğlana deyir:

- Əgər sən məni istəyirsənsə, bu qəbiri burdan rədd elə, sümükləri çıxart, apar at çayın suyuna, axsın getsin, yoxsa hər o qəbiri görəndə kefim pozulur.

Oğlan «baş üstə» deyib qəbiri qazır, gəlinin sümüklərini bir torbaya yığır və çaya atır. Bu hadisəni bayquşdan başqa heç kəs bilmir. Qız oğlana deyir ki, bunu ona görə elətdirdim ki, sənin fikrin qalar onun yanında, məni istəməzsən.

Bayquş onların bu söhbətini eşidəndən sonra bərk dilxor olur, gedir qonur çinarın başına və öz-özünə deyir: "Bahoo..., dünyanın işinə bax. Bunların əhd-peymanı, ilqarı harda qaldı? Mən belə abadanlıqda, gözəl, ancaq insanları etibarsız yerdə yaşamaqdansa, gedib elə xarabalıqda yaşasam yaxşı olar". Bayquş həmin saat uçub bir xarabalığa gedir.

Bayquş xarabalıqda yaşamaqda olsun, sizə kimdən danışım, kimdən deyim quşların padşahından.

Qoca padşahın cavan bir qıza gözü düşür, onu almaq istəyir. Qız deyir ki, mən razıyam, ancaq bir şərtim var. Sən gərək mənə quş sümüyündən 40 otaqlı bir imarət tikdirəsən. Padşahı fikir götürür, deyir:

- Sən istəyirsən ki, bu boyda quşu qırım, sənə imarət tikdirim?

Qız inadla başını bulayır:

- Mənim şərtim budur, ya gərək mən istəyəni edəsən, ya da məni bir də görməyəcəksən!

Padşah çar-naçar razı olur. Bütün quşlara xəbər göndərir, hamısını yığır şəhər meydanına. Bircə xarabalıqda yaşayan

bayquş gəlmir. Padşah ən sanballı quşları onun dalınca göndərir, bayquş gəlmir. Padşah bərk qəzəblənir, deyir:

- Gedin, onun başına döyə-döyə gətirin! Onun heç sümükləri də mənə lazım deyil. Onun sümüklərini dəyirmanda üyüdüb çaya axıdacam. O nəkarədir ki, mənim əmrimi yerinə yetirmir?

Elə bu dəmdə balaca boz bir sərçə quşların arasından irəli çıxaraq cikkildəyə-cikkildəyə deyir:

- Padşah sağ olsun! Əgər icazə versən, mən gedib onu gətirərəm.

Padşah səs gələn tərəfə baxır, balaca quşun cüssəsinə baxır, onun sözlərinə gülməyi tutur, kefi bir az açılır, deyir:

- Bu necə olur? O cür böyük quşlar gedib gətirə bilmədi, sən balaca canınnan onu necə gətirəcəksən?

Sərçə cikkildəyib deyir:

- Sənin nə işinə, mən gedib gətirəcəm.

Padşah razı olur. Sərçə qanad çala-çala gedir bayquşun dalınca. O, bayquşun yaşadığı xarabalığa çatır, onu tapır və soruşur ki, sən padşahın əmrini niyə yerinə yetirmirsən?

Bayquş deyir:

- Bu dünyanın işinə lap məətəl qalmışam. Dünyadan bilmərrə küsmüşəm.

Bayquş başlayır gördüyü və eşitdiyi sözləri, hərəkətləri sərçəyə danışmağa. Sərçə bu söhbətləri dinləyib bayquşa deyir:

- Gedək bu söhbətləri padşaha danış, bəlkə sən bizim canımızı şahın əlindən qurtarasan.

Bayquş razı olub sərçənin yanına düşüb gəlir.

Padşah və quşlar onların yolunu səbirsizliklə gözləyirdilər. Bir də baxırlar ki, budur ha, bayquş arxada, sərçə qabaqda uçub gəlirlər. Padşah bayquşu görüb qəzəblənir, acıqlı halda

soruşur:

- Sən bayaqdan niyə gəlmirdin, indi balaca bir quşun dalına düşüb gəlibsən?

Bayquş cavab verir:

- Padşah sağ olsun! Sən mənə möhlət ver, mən gördüklərimi sənə danışım, sonra özün bilərsən, məni öldürərsən, ya öldürməzsən, öz işindir.

Padşah yumşalır, deyir:

- Danış görüm, nə görüb, nə eşitmisən?

Bayquş şəhərə köçdüyündən, bəylə-gəlinin əhd-peyman etdiklərindən, bir-birinə söz verib sözündən döndüklərindən, dünyanın yalançılığından söhbət açır.

- Padşah sağ olsun, bunları deməkdə məqsədim budur ki, biləsən, çiy süd əmmiş insanlara - istər qadın olsun, istər kişi, etibar yoxdur. Sən bizi qırıb sümüyümüzdən aşiq olduğun qız üçün imarət tikdirmək istəyirsən. Bu boyda quş məhv olub gedəcək. Sən o cavan qızla evlənəcəksən, sənin işin-gücün çoxdur, işə gedəcəksən, adamlarla görüşəcəksən. Arvadın da evdə tək qalacaq, darıxacaq, başlayacaq küçəyə-bacaya baxmağa, bəlkə hələ başqa birisini görüb aşiq olacaq. Hələ ola bilsin ki, birinə də deyəcək, gəl səninlə tanış olaq, dost olaq. Hələ ola bilsin ki, sən ondan qabaq öləcəksən. Ev də, arvad da qalacaq başqasına.

Padşah bayquşu diqqətlə dinləyir, öz-özünə deyir: “Bayquş olanda nə olar? Ağıllı söz deyir”. Sonra da qərara gəlir ki, elə birinci arvadı ona sədaqətlidir, onunla qalsın, bu qız ona lazım deyil. Əmr edir, bütün quşlar dağılıb hərə öz ölkəsinə gedir. Bayquşun sözü ilə bütün quşlar ölümdən qurtarır. Padşah bayquşa üzünü tutub deyir:

- Mən sənin adını dəyişirəm. Bu gündən sənin adın bayquş

yox, bəy quşudur. Sən qalacaqsan mənim yanımda. Gündə də yeməyinə üç sərçə verəcəm. Səhər, günorta, axşam, hər dəfə bir dənəsini yeyəcəksən.

Padşahın o əmrindən sonra gündə üç sərçə uçub gedib durur bəyquşun qabağında, ağlayır və bəy quşunun yemi olur.

Sərçələr yeganə quşdur ki, ölümündən qabaq ağlayır. Bunun da səbəbi odur ki, bəyquşunu padşahın hüzuruna onlar gətiriblər. Axırda isə bəy quşunun yemi də onlar olublar.



## ELMİN BAŞI NƏDİR

Keçmiş zamanlarda bir ailə, onun da aman-zaman bir oğlu vardı. O, çox ağıllı, diribaş idi. Həmişə böyüyəndə ordubaşı olacağını deyirdi. Oğlan böyüyüb başa çatdı, evləndi. Ordubaşı olmaq üçün başqa məmləkətə getdi. 25 il başqa məmləkətdə qaldı, ailəsinə baş çəkə bilmədi. 25 ildən sonra vətəninə qayıtmaq qərarına gəldi. Yol gəlib bir kəndə çatdı. Kənddən aralıda heyvan otaran çoban görür ki, atın üstündə pəhləvan cüssəli bir general ona tərəf gəlir. Atlı ona yaxınlaşanda qalxır ayağa, onun salamını alıb deyir:

- Atdan düş, bəri gəl, gedək dəyəyə, yoldan gəlibsən, aclığın-zadın olar, çaydan-çörəkdən ye, dincəl, sonra yoluna davam edərsən.

General atdan endi, çobanla dəyəyə girdi. Çoban tez qaraquyruq qoyunu tutdu, süd sağdı, qoydu yolçunun qabağına, çörək gətirdi, dedi:

- Ye!

Yolçu çörəyi südün içinə doğrayıb yedi. Çoban başladı generalla söhbət eləməyə:

- İndi sən mənə de görüm, hardan gəlib hara gedirsən? Nə işin sahibisən?

- Mən uzaq məmləkətə generallıq oxumağa getmişdim. 25 ildir ki, ailəmdən ayrı düşmüşəm.

Çoban onu sınamaq istədi:

- General qardaş, indi mən sənə bir sual verəcəm, əgər onun cavabını versən səndən general da çıxar, lap belə hər şey çıxar. Yox, əgər sualıma cavab verə bilməsən səndən heç nə çıxmayacaq.

General arxayınlıqla dedi:
- De, çoban qardaş.
- De görüm, elmin başı nədir?
General çox fikirləşir, çox başını yorur, nə deyirsə, çoban deyir, yox, bu deyil, o deyil. General axırda yorulub deyir, bilmədim, indi sən de görək, nədir?
Çoban cavab verdi:
- Mənim belə bir şərtim var, sən gərək mənimlə bir il çobançılıq edəsən, sonra mən sənə deyəm ki, elmin başı nədir. Nə vaxt ki, istəmədin, çıxıb evinə gedə bilərsən. Əgər mənnən yoldaş olsan, çobançılığına görə hər ayına bir qoyun verəcəm.
General razı olur. Ordan çobanın evinə gəlirlər. Çoban onun pal-paltarını bir qutuya yığıb gizlədir, öz paltarından verir ona. Arvadına da deyir ki, sən indiyə qədər çölə bir nəfərlik yemək qoyurdun, indi iki nəfərlik qoyarsan, bu, mənim çoban yoldaşımdır, özü də bir il bizdə qalıb mənnən çobançılıq edəcək.
Çobanla general düz bir il yoldaşlıq edir. General elə hey çobanın sualına müxtəlif cavablar verir, çoban deyir, yox.
Bir il tamam olur. Çoban onun illik zəhmət haqqını verib deyir:
- İndi mən sənə deyəcəyəm elmin başı nədir. Eşit və agah ol: elmin başı səbrdir.
General təəccüblənir:
- Elə bu?
- Bəli, elə bu, əgər sənin səbrin olmasa səndən heç nə çıxmaz. General da olarsan, varın-halın da olar, səbrin olmasa hər şeyi itirərsən.
Çoban generalı yola salanda onun qazanmış olduğu on iki baş qoyunu da vermək istədi. General dedi:

- Qoy qalsın sənin süründə, lazım olduqca gəlib kəsib apararam.

General çobanla, onun ailəsilə görüşüb halallaşır, kəndlərinə tərəf yol alır. Gecə düşəndə gəlib kəndə çatır. Dincini almaq üçün bir təpənin üstündə oturub evlərinə sarı boylanır. Gecə ay işığında həyətləri aydınca görünürdü. Qocalmış ata-anasını, arvadını tanıyır. Ata-anası həyətdə salınmış döşəyin üstünə uzandılar. Görür ki, arvadı gəlib yorğanla onların üstünü örtdükdən sonra nərdivanla dama çıxıb orada salınmış yatağa uzandı. Bir az keçmiş cavan bir oğlanın dama çıxdığını və yorğanı qaldırıb arvadının yanına girdiyini gördü. Bərk acığı tutdu. Tez evə çatıb arvadını da, oğlanı da öldürmək istədi. Yarı yolda çobanın sözləri yadına düşdü: "Baay, bə mən bir il qoyuna getmişəm, səbr edim, görüm, axırı nə olacaq." Yolunu qonşunun evindən saldı, qapını döydü, salaməleyk elədi. Qonşu onu tanıdı. General dedi:

- Get bizə, öyrən gör, mənim arvadımın yanına girən oğlan kimdir?

- Bay, ay rəhmətliyin oğlu, bə sən gedəndə arvadın hamilə deyildi? Arvadın azad oldu, o da sənin öz oğlundur. Anasından ayrı bir gün də yatmaz.

Qonşu muştuluğa qaçır, ata-ana, arvadı, oğlu sevinir, öpüşürlər-görüşürlər. Sabah açılır. Generalın gəlişi münasibətilə qonaqlıq verirlər.

General bir neçə gündən sonra gedib çobanı ailəsi ilə birlikdə öz yanına gətirir, ona dam-daş tikir, deyir sən oldun mənim qardaşım. Əgər sən olmasaydın, mənə dərs keçməsəydin, mən gəlib arvadımı bu halda görsəydim, həm onu, həm də oğlumu öz əlimlə öldürəsiydim. Onları yenidən sən mənə qaytardın.

General çobanı işləməyə qoymur, onun cibinə pul qoyub deyir: get şəhərə, get çayçıya, otur, dincəl, özünə münasib dost tap, söhbət elə, dolan, gününü keçir.

Çoban ailəsilə birlikdə general dostunun yanında qalır, ömrünün sonuna kimi şad-xürrəm yaşayır.



## OĞULLARIN ETİBARI

Keçmiş zamanlarda iki qardaş olur, biri evli, o biri subay. Evli qardaş arvadının təhrikilə günlərin birində deyir ki, mən ayrılıram, gedib ev tikib ayrıca yaşayacam.

Bunların anaları ölmüş, bircə kor ataları qalmışdı. Ata böyük oğlundan soruşur:

- Məni götürürsən, yoxsa mənim varımı, dövlətimi?

Oğlu utanmadan cavab verir:

- Səni neynirəm, əlbəttə, varı-dövləti.

Ata bu dəfə üzünü kiçik oğluna tutub soruşur. Kiçik oğlu fikirləşmədən deyir:

- Səni.

Böyük qardaşın arvad-uşağı olduğundan kiçik qardaş ona qıymır. Odur ki, atasını da dalına alıb evdən çıxır. Az gedir, çox gedir, gəlib bir şəhər ətrafına çatır, atasını yerə qoyur. Atası soruşur:

- Oğul, biz hardayıq, qabaqda nə görünür?

Oğlu cavab verir:

- Ata, qabaqda böyük bir şəhər görünür, indi gecədir, şəhərin işığı gəlir.

Atası deyir:

- Oğul, məni qoy bir çalanın içinə, özün get şəhərə. Bir dam tap, sonra gəlib məni apararsan.

Oğlu onu çalanın içində oturdur. Ata oturduğu çalada əlini ətrafında gəzdirəndə əlinə iki daş toxunur. Daşın biri böyük, o biri balaca idi. Oğluna deyir:

- Mən bu daşları bir-birinə vuracam, sən o səsə gəlib məni

taparsan.

Oğlu razılaşıb şəhərə tərəf gedir.

Ata bekarçılıqdan əlindəki daşları bir-birinə vurur. Qulağına gələn səsdən hiss edir ki, bu nədisə başqa cür səs verir, heç daş səsinə oxşamır.

Oğlu gəlir, atasını tapır, dalına alıb kirə tutduğu evə aparır. Ata özüylə gətirdiyi balaca daşı oğluna göstərib deyir:

- Bax gör, bu nə daşdı?

- Ata, bilmirəm, ləldi-nədi, ona oxşayır, yaman parıldayır.

- Onda apar bunu zərgərlərə göstər, soruşsa ki, bunu neçəyə verirsən, sən qiymət demə. Cavab ver ki, sən neçə ilin zərgərisən, mən nə karəyəm ki, buna qiymət qoyam, qiymətini sən de.

Oğlu gedir zərgərin yanına, atası dediyi kimi edir. Zərgər deyir ki, bunun qiyməti məndə yoxdu, get filan zərgərin yanına. O zərgər də deyir, bunun qiyməti qədər məndə pul yoxdur, get padşahın yanına. Bu daşın qiymətini ancaq o verə bilər.

Oğlan padşahın sarayına gedir. Padşah daşa baxıb özözünə deyir: “Bu mənim bütün sarayımın qiymətidir". Xəzinəsindəki pulların yarısını ona verib daşı alır. Oğlan pulu da götürüb gəlir atasının yanına.

Atası oğluna belə bir məsləhət verir: «Sən dur çıx bir şəhər içinə. Çayxanaya gir, yeməkxanaya get, harda oldun, ordakıların yemək pulunu, çay pulunu ödə. Dilənçiyə, kasıba pul payla».

Oğlan atasının arzusunu yerinə yetirir. Çayçıya, yeməkxanaçıya yanaşıb soruşur: "Gündə nə qədər qazanırsız?" Onlar deyəndəki filan qədər, oğlan cibindən pul çıxardıb artıqlaması

ilə onlara verib deyir: «Bura nə qədər adam gəlib yeyib-içəcəksə, onlardan pul alma, qoy yeyib-içsinlər»

Şəhərə səs düşür, hər yerdə danışırlar ki, bəs deməzsənmi, belə bir oğlan peyda olub, camaatın yemək-içmək pulunu ödəyir, kasıblara pul paylayır.

Xəbər gedib padşaha çatır, padşah maraqdan bir təhər olur.

Atası oğluna deyir:

- Get, yaxşı bir yerdən torpaq al, mən deyən bir imarət tikdir.

Oğlan torpaq alır, şəhərin məşhur ustalarını gətizdirir. Gözəl bir imarət tikdirir, hündür divarlar hördürür və böyük bir darvaza qoydurur. Padşah bir gün gəzməyə çıxanda oğlanın imarətinin qabağından keçməli olur. İmarətə baxıb fikrə gedir: "Bu kimdirsə, məndən varlıdır, imarəti də mənimkindən gözəldir." Padşah qayıdıb gedir imarətinə. Adamlarını göndərib oğlanı hüzuruna gətizdirir. Padşah baxır ki, qarşısındakı mərifətli, qanacaqlı bir cavandır. Onu sorğu-suala tutur:

- Sən, oğlan, kimsən, nəçisən? Sənin qazandığın ad-san, şan-şöhrət mənimkindən çoxdur, bu nə məsələdir?

- Padşah sağ olsun! Mən bunu bacarmışam, bunu da etmişəm.

Cavanın cavabından padşahın xoşu gəlir:

- Gəl sən mənim yanımda vəzir işlə. Həm də deyəsən subaysan. Gözümün ağı-qarası bir qızım var, onu da verəcəm sənə. Mən qocalmışam, şahlıq tacımı da verəcəm sən qoyarsan başına.

- Padşah sağ olsun! Mən səndən çox razıyam, mənim də

şərtlərim var. Əgər sənin qızın mənim şərtlərimə razı olsa, onda onnan evlənərəm.

Padşah soruşur:

- Nədir sənin şərtin?

Oğlan deyir:

- Mənim kor bir atam var. Gərək sənin qızın onun qulluğunda dursun, ona hər şərait yaratsın, yeməyini-içməyini vaxtlı-vaxtında versin.

Padşah və əhvalatdan halı olmuş qız oğlanın şərtinə razı olur. Qız deyir:

- Sənin atan mənim atamdır. Nə desən onnan da razı olaram.

Bir neçə gündən sonra padşahın qızı ilə oğlanın toyu olur. Padşah tacını başından götürüb oğlanın başına qoyur.

Oğlanın atası tapdığı ikinci böyük daşı hələ oğluna göstərməmişdi. Toydan sonra onu oğluna göstərir. Daşın qiyməti çox baha olduğundan onu heç kim ala bilmir. Qonşu dövlətlərin padşahı da bu daşı almaqda aciz idi.

Oğlan şahlığa çıxan kimi şəhər əhalisini bütün vergilərdən azad eləyir.

Onun şahlığı dövründə bir kasıb, bir dilənçi yox idi. Günlərin birində padşaha xəbər çatdırırlar ki, bəs deməzsənmi, şəhərdə arvadı, iki uşağı olan bir kişi dilənçilik edir. Padşah bu xəbərə təəccüblənir, əmr edir ki, onları saraya gətirin, yedirdin-içirdin.

Dilənçiləri saraya gətirirlər, yedirib-içirdirlər. Padşah onları hüzuruna gətizdirir. Dilənçi başına gələnləri şaha danışır, var-yoxunun talan olmasını və dilənçiliyə düçar olduğunu söyləyir. Əhvalatı eşidən padşah onu tanıyır, bilir ki, bu

həmən o qardaşdır ki, atasının varını-dövlətini götürmüşdü. Padşah onu bağışlayır, özünə vəzir təyin edir. Ata, qardaşlar şad-xürrəm yaşamağa başlayırlar.

Burada ataların sözü lap yerinə düşür: “Fərli oğul neyləyir ata malını, fərsiz oğul neyləyir ata malını.”



## QARĞALARIN BAZARLIĞI

Keçmiş zamanlarda iki qardaş olur, biri ağıllı, biri dəli. Günlərin birində bu iki qardaşın arasında dava düşür. Biri deyir, bütün mal-heyvan mənimdir, o biri deyir, yox, mənimdir. Axırda ağıllı qardaş belə şərt kəsir:

- Gəl belə edək. Tövləyə gedən mallar olsun mənim, samanlığa gedən olsun sənin.

Dəli qardaş razılaşır.

Mal çöldən qayıdır. Heyvanların hamısı tövləyə, tək bircə dana samanlığa gedir. Dəli qardaş dananı götürüb gedir meşəyə, dananı kəsib atır, gəlir evə. Meşədə qarıldaşan qarğalar cəmdəyin üstünə qonub yeməyə başlayır. Dəli qardaş evə çatanda ağıllı qardaş ondan soruşur:

- Dananı neylədin?
- Satdım.
- Kimə satdın?
- Meşədəki qarğalara.
- Bəs pulunu nə vaxt verəcəklər?
- Dedi, gedərsən evinizə, səhər gəlib pulunu apararsan.

Səhər olur, dəli qardaş pulunu almaqdan ötrü meşəyə gedir, qarğalara üzünü tutub pulunu istəyir. Qarğalar qarıldaşaraq uçub gedirlər. Bir gün, beş gün, axırda dəli qardaş bezir. Bir də on gündən sonra gedir. Görür ki, bir uca ağacın başı qarğa sürüsü ilə doludur. Başını qarğalara sarı qaldırıb qışqırır: "Hanı mənim pullarım, niyə pullarımı vermirsiz?"

Qarğalar sürü ilə göyə qalxıb bir də ağacın budaqlarına qonurlar, var səslərilə qarıldaşırlar. Dəli qardaş hirslənib qarğalara tərəf bir daş atır. Daş qarğaların yuvasına dəyib onu

dağıdır.

Dəli qardaş nə görsə yaxşıdır? Qarğaların yuvasından üzü aşağı qızıl pullar tökülür. Pullar töküldükcə dəli qardaş onları papağına yığıb doldururdu. Qızılın hamısını yığıb qurtardıqdan sonra evə qayıdır, qardaşına deyir:

- Bə deyirdin, qarğa sənin pulunu verməyəcək? Budur bax, pullar məndədir, verib, özü də artıqlaması ilə.

Ağıllı qardaş öz-özünə fikirləşir ki, dəli qardaşın bir danasına bu qədər pul veriblər, gör onda mənim mal-heyvanıma nə qədər pul verəcəklər?

Səhər açılır. Ağıllı qardaş mal-heyvanı çölə sürür. Hamısını boğazlayıb qarğalara yem edir. Gündə gedib qarğalara qışqırır:

- Mənim pullarımı verin!

Qarğa bəyəm pul verəndi? Allah-tala elə hərləyib-fırlayıb ağıla gəlməyən yerdən ruzu verir ki…

Ağıllı qardaş öz xəbisliyindən kasıb düşür.

## DOSTLARIN ETİBARI

Ata-bala oturub söhbət edirlər. Ata deyir, mənim dostlarım etibarlıdır, oğul deyir, yox, mənim dostlarım etibarlıdır. Mənim dostlarım yeyən-içəndir, heç vaxt da məni yadlarından çıxarmırlar.

Atası deyir:

- Yaxşı, nə deyirəm, gəl dostlarımızı sınayaq, görək kimin dostu etibarlıdır?

Ata-oğul dostları imtahana çəkmək üçün bir yaxşı toğlu kəsirlər, ağ parçaya büküb təlisə qoyurlar. Ata oğlundan soruşur:

- Oğul, birinci sənin dostungilə gedək, yoxsa mənim?

Oğlu deyir:

- Nə danışırsan, dədə, mənim dostumgilə gedək.

Yol alıb gedirlər oğlunun ən yaxın dostugilə. Atası bir az kənarda dayanır, oğlu darvazanı döyür, qapıya dostu çıxır, onu yaxşı qarşılayır, sevincək görüşür, öpüşür, içəri dəvət edir. Oğlan dostuna deyir:

- Qardaş, içəri keçmirəm, yemək-içmək qalsın sonraya. Belə bir məsələ var. Bax, bu təlisin içindəki mənim düşmənim idi, öldürmüşəm, indi onu basırmaq lazımdır. Bu işdə mənə kömək etməlisən.

Dostu qorxaraq geri çəkilir, deyir:

- Yox, mən bu işə getmərəm, təlisini də götür, çıx mənim həyətimdən.

Oğlan kor-peşman atasının yanına qayıdır.

Oğlu o biri dostlarını da bu cür sınaqdan çıxarır. Onlar da birinci dost kimi etibarsız çıxırlar.

Atası qaranlıqda kənardan onların söhbətini eşitmişdi, oğluna deyir:

- İndi də gedək mənim dostumgilə.

Ata-oğul gedirlər atasının dostugilə. Darvazanı döyürlər, ev sahibi qapıya çıxır. Dostunu görüb onu içəri dəvət edir. Kişi ona deyir:

- Bu təlisdəki adam meyididir, onu öldürmüşəm, indi də basırıb izi itirmək istəyirəm.

Dostu tez əl-ayağa düşüb deyir:

- Heç yana getmək lazım deyil, elə mənim həyətimdə, ağacın altında basırarıq, qurtarıb gedər, nə dil bilər, nə dodaq.

Kişi gedib bel gətirmək istəyəndə dostu qoymur, gülüb dostuna deyir:

- Heç nə lazım deyil, bu təlisdəki meyid yox, yağlı bir toğludur. Oğlumla dostlarımızı sınamaq istədik. Mənim dostum sınaqdan yaxşı çıxdı.

Atalar yaxşı deyib: "Hər yetənə dost deməyin, hər yeyib-içən adamdan dost çıxmaz. Dost ya bir olar, ya iki."

## PADŞAHIN ŞİRİNİN ÖLDÜRÜLMƏSİ

Bir vilayətin bir padşahı, bu padşahın da bir şiri vardı. Padşah bütün mehrini bu şirə salmışdı. Yeməyini də özü verirdi. Şir sözün əsl mənasında şirə-pələngə dönmüşdü. Şahın qəzəbinə gəlmiş adamları şah özü şirə yedizdirirdi, qəfəsin qapısını açıb günahkar bildiyi adamı daldan şirin yatdığı enli quyuya itələyirdi. Şir ovunu bir dəqiqədə parçalayıb udurdu. Şah ayda bir dəfə şirin qəfəsini açdırır, onu şəhərə buraxır. Şir bütün şəhəri azad gəzib-dolaşır, axşama yaxın qəfəsinə qayıdırdı. Şirin gəzəcəyi gün şahın əmrilə hamı evinə çəkilib gizlənməli idi. Əgər şəhərdə bir adam görünsəydi qəzəbli şir onu parçalayıb yeyərdi.

Şirin növbəti gəzinti günü idi. O, tənbəl-tənbəl şəhərin küçələrini gəzib-dolaşır, isti günəşdən qorunmaq üçün evlərin kölgəsi ilə gedirdi. Şir gəzməkdə olsun, sizə kimdən deyim, kimdən danışım, şəhərə ruzu dalınca gəlmiş qərib bir cavan oğlandan. Oğlan bir nəfər varlının qapısında quyu qazırmış. Bir az qazdıqda hiss edir ki, belin ağzına nəsə ilişir. Bir az da qazıb görür ki, iri bir küpdür. Küpü qazıb çıxardır, içinə baxanda görür ki, içində yapışqana oxşar bir şey var. Ondan bir parça qoparıb iyləyir. Ətir iyi verən yapışqanı isti suyun içinə atır, baxır ki, bu nədirsə suyun içində əridi, suyun rəngi qırmızı oldu. Oğlan fincana tökdüyü mayenin dadına baxdı, gördü ki, bu çox dadlı və ətirli bir şeydi. Başladı onu qurtum-qurtum içməyə. Maye onun çox xoşuna gəldi. Bir fincan da doldurub başına çəkdi. Başı dumanlanmağa başladı. Özündə bir şir gücü hiss etdi. Bir az həyətdə dolaşıb küçəyə çıxdı. Küçədə gözünə əcayib-qərayib bir şey sataşdı. Bu nə canlı

idisə oğlanı görəndə onun üstünə atıldı. Oğlan dəli bir nərə çəkərək heyvanın boğazından yapışdı. Var qüvvəsilə boğmağa başladı. Heyvan heç müqavimət göstərməyə macal tapmadı. Tir-tap yerə sərilərək can verdi.

Şah və adamları axşamı çox gözlədilər ki, şir nə vaxt evə qayıdacaq. Az gözlədilər, çox gözlədilər, şirdən əsər-əlamət görsənmədi. Birdən səs-küy düşdü ki, bəs deməzsənmi, şahın şirini kimsə boğub öldürüb. Şah bərk qəzəbləndi. Çarçı göndərib bütün əhalini şəhər meydanına çağırtdırdı. Şah gəlib meydanın yuxarı başında qoyulmuş taxtına oturdu və zəhmli səslə dedi:

- Kim mənim şirimi öldürübsə çıxsın qabağa, baxım görüm, o nə canlı-cinlidir? O nə cürət edib mənim şirimi öldürüb?

Şəhər əhlindən səs çıxmadı. İzdihamın içindən bir cavan oğlan irəli çıxıb dedi:

- Şah sağ olsun! Şiri mən öldürmüşəm. Ancaq bilə-bilə yox. Birinci mən bu ellərdə qəribəm, sizin şəhərə çıxmamaq əmrinizdən bixəbər idim. İkinci də, mən quyu qazanam. Bir nəfərin bağında quyu qazanda bir küp tapdım. Onun içindəki yapışqana oxşar şeyi isti su ilə qarışdırıb içdim. Bax, o nəydisə onu içəndən sonra gözüm hey nəyi seçmədi, sənin şirini də onda öldürdüm.

Şah bərk fikrə getdi. Oğlanın tapdığı küpü gətirməyi əmr etdi. Küpü gedib gətirdilər. Bildilər ki, küpün içinə vaxtı ilə şərab doldurub yerə basırıblarmış. İllər ötdükcə küpdəki maye buxarlanıb, küpün dibində şərabın bərkimiş məti, şirəsi qalıb.

Şah əmr etdi ki, o mətdən bir az qırıb suda əritsinlər. Vəzir-vəkil tez şahın istəyini yerinə yetirir. Şah maye tökülmüş fincanı uzadır oğlana, deyir ki, birinci sən iç. Oğlan bir-iki

qurtum mayedən içir, qalanını şah başına çəkir. Bir az keçir, görür ki, əyə, bütün düz-dünya bunun əlində heç nədir, ürəyi, qəlbi açılır, üzü gülür. Başlayır saray əhli ilə danışıb gülməyə. Gedib xəzinə olan yerə girir, vəzir-vəkilə, nökər-naibə qızıl, pul paylamağa başlayır. Qərib oğlana da balaca kisədə qızıl verir. Oğlan deyir:

- Şah sağ olsun! Bu kisənin heç qiyməti yoxdur. Sən mənə çox bahalı hədiyyə etdin.

Şah deyir:

- Heç bir çoxluğu yoxdur. Mən gülməyən şah, qəzəbli, acıqlı şah indi necə oldu ki, kefim belə kökdür, üzüm güldü, qəlbim açıldı. Bunların hamısı sən o verdiyin içkidən sonra oldu. Sən mənə çox böyük xeyirxahlıq etdin.

Şah bir az fikirləşir, yenə üzünü oğlana tutub deyir:

- Sən mənim şirimi öldürübsən, bütün məmləkətə xəbər yayılıb ki, şahın şirinin qabağına heç kim çıxa bilmədi, qərib bir oğlan çıxıb şiri öldürdü. Bu gündən səni baş vəzir təyin edirəm. Sən olacaqsan mənim köməkçim. Mənim aman-zaman bir qızım var. Onu verəcəm sənə, özünü də gələcəkdə yerimə padşah keçirəcəm. Bu tacı öz əlimlə başına qoyacam.

Ay dolanır, il keçir, vaxt tamam olur. Şah oğlanı öz yerinə təyin edir, tacını, möhürünü verir ona. Camaatı şəhər meydanına çağırtdırıb elan edir ki, daha mən qocalmışam, məmləkəti bu adam idarə edəcək.

Oğlan şahlığa keçən kimi hərəkətə başlayır. Gedir anbarlara, şəhərin əhalisinin hərəsinə bir təlis taxıl verir, torpaq sahəsi ayırır, deyir gedin taxıl əkin. Ordan gəlir şahlıq xəzinəsinə, hər bir adama bir kisə qızıl pul verib deyir: "Gedin başqa məmləkətlərə, alver edin, ora lazım olanı ora aparıb satın, burda olmayan şeylərdən alın gətirin, burda satın. Bun-

ları mən indi verirəm sizə, vaxt gələr, verdiklərimi qaytararsız".

Şahın qaynatası, yəni, əvvəlki şah oğlanın bu işindən narazı qalıb deyir:

- Bə sən neylədiyindi? Xəzinə boşaldı, sən məmləkəti batıracaqsan.

Şah deyir:

- Baba, məmələkəti mən idarə edirəmsə, mənə möhlət ver, axırını gözlə.

Taxıl verdiyi adamlar həmən ili bolluca taxıl götürdülər. Pul verib alverə göndərdiyi tacirlər birə-beş qazandılar. Taxılçılar taxılı yığır, döyür, bir özlərinə götürürlər, iki şaha verirlər. Şah baxıb görür ki, o qədər məhsul var anbarlar azlıq edir. İkinci, üçüncü anbarı tikdirir. Cavan şahın sorağı hər yana yayılır ki, bəs filan vilayətdə bir şah peyda olub, bir-iki ilin içində öz məmləkətini varlı bir ölkəyə çevirdi. Təbələrini də yaxşı dolandırır.

«İçki içərsən, şirə - pələngə dönərsən» deyimi də o vaxtdan yaranıb.

## BİR SAATLIQ PADŞAHLIQ

Keçmiş zamanlarda Kərim adlı kasıb bir kişi hər gün meşəyə gedib odun yığır, gətirib onu satır, kasıbçılığını edirmiş. Əldə pul eləyən kimi tez qaçarmış qəssabın yanına ki, bir tikə ət alıb aparsın evə, arvadı bişirsin, çörəklərini ətin suyuna batırıb yesinlər. Bir yamanca, insafsız qəssab varmış. Bu yazıq kişiyə həmişə çırıntılıq ətdən, sür-sümükdən verirmiş. Kişi fağır-fağır deyirmiş ki, bir az ətli yerindən ver, qəssab acıqlı-acıqlı deyərmiş: " Elə olanı budur, alırsan al, almırsan çıx get, buralarda durma. Yoxsa başını qoyaram kötüyün üstünə, boynunu vuraram, götür sümüyünü də, get". Fağır kişi sümüyə də ətin pulu qədər pul verirmiş.

Kişi qəssabın əlindən çox yanıqlı idi. Arzulayırdı ki, elə bir yer ola, çıxıb gedə, ürəyi istəyən ətin bir parçasını alıb yeyə, könlü xoş ola. Aldığı ətə görə arvad da üzünü danlayırdı.

Günlərin birində bu kişi yenə də odun yığmağa gedibmiş. Həmin gün padşahla vəziri şəhəri gəzməyə çıxıblarmış. Qabağa baxanda görürlər ki, bir şələ çır-çırpı gəlir, altındakı nədirsə heç görsənmir. Padşah vəzirə deyir:

- Şələ görsənir, ancaq altındakı adamdı, heyvandı, bilinmir. Gözləyək görək bu nədir, heyvan olsa sahibi dalınca gələcək, adam da olsa görək bu nə canlı-cinlidir.

Şələ yaxınlaşır, baxırlar ki, yazıq, cındırından cin hürkən qoca bir kişidir. Kişi bunların yanına çatanda şələsini qoyur yerə, salam verib əleyk alır. Padşah ondan soruşur:

- Ay kişi, sən burda nə qayırırsan, bu yaşında bu boyda şələni dalına niyə alırsan?

Kişi cavab verir:

- Nə qayıracam, odun yığıb satıram, bir tikə çörək pulu qazanıram, sənin kimi padşah deyiləm ki, atın üstünə minəm gəzəm, mənim də qismətim belədir.

Kişinin cavabından padşah bərk dilxor olur, başını qaldırıb ondan soruşur:

- Padşah olmaq istəyərsənmi?

Kişi deyir:

- Niyə istəmirəm!

Padşah yenidən soruşur:

- Nə qədər vaxta padşah olmaq istəyərsən?

Kişi cavab verir:

- Elə bir saatlıq da bəsimdir.

Padşah deyir:

- Səhər gəl, padşahlığı bir saatlıq sənə təhvil verəcəm. Heç demədin adın nədir?

- Mənə "odunçu Kərim" deyərlər, - kişi cəld cavab verir.

Odunçu Kərim gəlir daxmasına, arvadına deyir ki, sabah məni qoyacaqlar padşahlığa. Arvadı deyir:

- Allahdan bircə ağlın vardı, onu da getdin meşədə qoydun gəldin. Yoxsa orda qorxdun-elədin? Sən hara, padşahlıq hara? Yox bir, səni padşah qoyacaqlar.

Səhər olur, odunçu Kərim köhnə pal-paltarıynan gəlir padşahın hüzuruna, deyir:

- Padşah sağ olsun, gəlmişəm, padşahlığı mənə təhvil verirsən, ya yox?

Padşah deyir:

- Demişəmsə, verəcəm. Mən padşah paltarını geyinib saraydan çıxacam, deyəcəm ki, ay camaat, Kərim də padşah olub, sonra geri qayıdacam. Ondan sonra sən bir saatlıq padşahlıq edərsən.

Padşah ona öz paltarını geydirir, möhürünü də verir. Deyir ki, nə qərarın olsa yazdırarsan, möhürü də vurdurarsan kağıza. Sonra da onu mindirir bəzəkli bir ata. Nökər-naib, vəzir də yanında yola salır. Kərim odunçu olsa da ağıllı imiş. Saraydan çıxmamışdan qabaq padşaha deyir ki, mənə bir az qızıl , bir az da azuqə lazımdır. Onu da yığıb yükləyirlər başqa bir ata. Odunçu onu göndərir arvadına. Sonra nökər-naiblə üz tutur düz qəssabın yanına. Yolda gedə-gedə deyir:

- Ay camaat, Allah işi rast gətirəndə Kərim də padşah olarmış.

Odunçu yoldaşları Kərimi tanıyır. Kərim birbaş gəlir ət satanın yanına, deyir:

- Qəssab, mən odunçu Kəriməm.

Qəssab inanmayıb deyir:

- Odunçu Kərimdən padşah çıxmaz, sən elə əsl padşahsan.

- Düzdür, odunçu idim, bu dəqiqə padşaham.

Sonra isə ətrafdakı adamlara deyir:

- Bu adamın ürəyində kasıb-kusublara qarşı böyük bir kin, nifrət var.

Yaxındakı cəlladlara tərəf dönüb deyir:

- Bunun başını qoyun ət kötüyünün üstünə, bədənindən ayırın.

Ət satan işin qoley olduğunu görüb başlayır odunçuya yalvarmağa. Ət satan çox yalvarır, odunçu az eşidir, ona deyir ki, mən də sənə çox yalvarırdım ki, bir az ətli yerindən ver, vermirdin. Mən də həmin pulu verirdim, ancaq sən mənə, mənim kimi kasıblara ətin çırıntılıq, sümüklü yerlərini verirdin. Sən əlsiz-ayaqsızları aşağı bilibsən, adam yerinə qoymayıbsan. Sən heç vaxt Allahı ortada görməmisən. Mən də sənin cəzanı belə verəcəm. İndi cəlladlar sənin boynunu vuracaqlar.

Cəlladlar qəssabın boynunu vururlar.

Odunçu Kərim saraydan çıxanda özü ilə xeyli qızıl götürmüşdü. Hansı döngədə, hansı evdə kasıb, fəqir-füqara, yetim-yesir var, özü bilirmiş, götürdüyü qızıl pulların hamısını onlara paylayır. Saat tamama yetəndə qayıdır padşahın sarayına. Gəlib durur padşahın hüzurunda, deyir:

- Padşah sağ olsun! Saat tamam oldu, mən öz işimi gördüm, gəldim.

Hər şeyi padşaha xəbər vermişdilər, odur ki, padşahı bərk maraq götürmüşdü, ondan soruşdu:

- Qəssabın boynunu niyə vurdurdun?

Odunçu əhvalatı danışır. Padşah odunçunun əməlindən xoşhal olur, deyir:

- Sən nə istəsən sarayımdan götürə bilərsən.

- Mənə nə lazım idisə əvvəlcədən götürdüm, evimə də göndərdim, kasıb-kusuba da payladım. Daha mənə heç nə lazım deyil, - deyib odunçu padşah paltarını soyunur. Padşahın ona bağışladığı paltarı geyinir, öz köhnə paltar-palazını da yığır bir boxçaya, başlayır Allaha dua etməyə: “Allah, sənə min şükür, sən mənim əzab-əziyyətimi mükafatlandırdın,həm mənə pislik edən adamdan intiqamımı aldım, həm də mənə ruzu verdin. Bu yaşlı vaxtımda ta meşəyə gedib odun yığa bilmirdim. Arvad-uşağın da yanında üzüm qara idi.”

Odunçu Kərim padşahla xüdafizləşib komasına qayıdır.

## ALLAHIN QİSMƏTİ

Keçmiş zamanlarda bir padşah, onun da qənirsiz dünyagözəli bir arvadı var idi. Günlərin birində arvad uşağa qalır. Gün keçir, ay dolanır, padşahın arvadı yükünü yerə qoyur. Uşaq yerə düşəndə baxıb görürlər ki, pərdənin içində bir ət parçasıdı, nə səsi gəlir, nə tərpənir. Uşaq əvəzinə yerə laxta qan düşür. Bu hadisə bir neçə dəfə təkrar olur. Qəzəblənmiş və qəmginləşmiş padşah arvadının üstünə düşür: "Bu nə işdi, sən niyə belə uşaq doğursan?"

Padşahın arvadı ağlayıb deyir ki, mən heç özüm də bilmirəm niyə belə olur. Elə mənə doqquz ay çəkdiyim əzab-əziyyət qalır, uşağa həsrət qalıram.

Padşahın atasının yaşlı bir vəziri olur, məsləhət üçün onu yanına çağırtdırır. Məsələdən agah olan dünyagörmüş vəzir deyir ki, padşah sağ olsun, sənin sarayında elə bir nəfs, elə bir göz, fikir, tamah var ki, züryətin olmur, ocağına, nəslinəkökünə uşaq olmağına imkan vermir, umud yeri qoymur. İçində pis xilqəti, xisləti olan adamları ayird elə, arvadını, vəzir-vəkilini çağır,bir onlarla da söhbət elə. Bəlkə onda bir şey duya biləsən. Sənin də, vəzirin də, arvadının da ürəyində nəsə pis bir fikri var ki, həmin o uşağı vurub salır, uşaq qan laxtasından, ət parçasından ibarət olur.

Arvad yenə hamilə qalmışdı. Arvadın sancısı tutanda padşah vəzirini də çağırıb arvadı olan otağın yanındakı otağa gedirlər. Padşah yaşlı, arvadı və vəziri isə cavan idilər. Padşah vəzirinə deyir ki, gəl otur yanımda, indi doğulacaq uşağın sağlam olması mənim, sənin, bir də arvadımın nəfəsindən asılıdır.

Mənim sarayıma qarşı qəlbində nə varsa sən də, arvad da, mən də düzünü deməliyik.

Arvad yatır, uşaq həmişə olduğu kimi, yenə də pərdənin içində düşür. Padşah deyir:

- Uşağı tərpətməyin, pərdəni də yırtmayın.

Uşaq pərdənin içində, köbəyi də ananın qarnında qalır. Padşah üzünü arvadına tutub deyir:

- Ay arvad, könlünü aç, mənə qarşı, mənim sarayıma qarşı nə varsa hamısını danış. Əgər düzünü deməsən sənin boynunu vurduracağam. Uşağa bu dəfə biz can verməliyik. Allahın dərgahında düzgün danışmaq lazımdır.

Arvad bir az fikirləşib düzünü söyləməyə məcbur olur, deyir:

- Sən məni, bilirsən ki, bu evə öz istəklimdən ayırıb zornan gətirdin, səni istəmirdim. Nə qədər səninlə oluram, yaxşı geyinib keçinirəm, yeyib-içirəm, uşağa qalıram, elə fikir məni götürür, deyirəm, neynirəm bunları, məni ki istəklimdən ayırıblar. Allahın altında nolaydı, çıxıb gedəydim öz istədiyimə, ondan bir uşaq doğaydım. Neynirəm səndən olan uşağı? Uşaq nə qədər qarnımdadır, ancaq bunu fikirləşirəm.

Arvad söhbətini bitirən kimi görürlər ki, uşaq pərdənin içində tərpənir.

Bu dəfə padşah dillənir:

- Ay arvad, mən də səni görəndə fikirləşirdim ki, bu hansı qul idi, kəniz idi, hansı dərədən aldım gətirdim sarayıma. Əyan-əşrəf qızlarından, padşah qızlarından almadım, bunu aldım. Niyə gedib bir varlı-karlı, dövlətli, özümə layiq bir qız almadım ki, mənim evimdə doğulan uşağın ana tərəfi də sayılıb-seçilən adamlardan olsun?

Padşah elə bunları demişdi ki, pərdə tərpəşdi. Padşah bu dəfə üzünü cavan vəzirinə tutub dedi:

- Bu uşağın nəfəsi, qışqırması sənin əlindədir. Pərdəni cırıb, köbəyini kəssək, çağa laxta qan olacaq. Əgər sən də qəlbindəkini düzgün söyləsən, bu uşaq sağ çıxsa səni dünya malından qəni edəcəm. Sənə bir məmləkət verəcəm, çıxıb gedərsən. Yox, əgər düzünü deməsən boynunu vurduracam.

Vəzir düzünü deməyə məcbur olur:

- Padşah sağ olsun! Mənim, könlümdəkilərdən Allah xəbərdardır, sizə də düzünü deyəcəm. Allahdan gizli deyil, səndən nə gizlədim. Sən bu qızı alıb saraya gətirəndən bu günə kimi bir könüldən min könülə bu qıza aşiq olmuşam. Ürəyimdə həmişə arzulamışam ki, nə ola padşah ölə, mən keçəm padşah olam, padşahın gözəl arvadını da özümə arvad edəm. Bu cavan, gözəl gəlin qoca padşaha layiq deyil.

Vəzirin bu sözlərindən sonra pərdə silkələnir, çağa qışqırıb ağlamağa başlayır. Mamaçalar tez çağanın köbəyini kəsirlər, bələyib anasının qucağına verirlər.

Padşah tez yaşlı vəziri çağırtdırır. Vəziri qolundan tutub gətirirlər. Vəzir üzünü padşaha tutub deyir:

- Padşah sağ olsun! Əgər bir qismət haqdandırsa, yüz yerdən varlı qızı, şah qızı axtar, ondan heç nə çıxmaz. Əvvəlcə sevib sonra bəyənməmək Allaha xoş getməz. Bəlkə o bol ruzibərəkət həmin gəlinin ayağının sayəsində gəlib. Bu səltənətdə padşah arvadı olmaq bu gəlinin qismət imiş. Allah-təala hər şeyi qabaqcadan yazıb, qismətdən qaçmaq olmaz. Allah kimin alnına nə yazıbsa, o da olacaq. Heç kim çəm-xəm eləməsin. Heç kim bəxtinə kor deməsin, xoşbəxtliyini kənarda axtarmasın. Heç kim deməsin ki, bu arvad belədir, daha bə-

yənmirəm. Yaxud gərək öz elimdən-günümdən alaydım. Bütün bunların hamısını Allah qabaqcadan yazıb, bu tale, alın yazısıdır.

Padşahla arvadı bundan sonra «Lənət şeytana» deyib şadxürrəm yaşamağa başladılar. Uşaq da böyüyüb qocalmış atasının yerinə padşah keçdi.



## ƏYİLMİŞ ARŞIN

Keçmiş zamanlarda bir tacir var imiş. Qonşu dövlətlərə gedərək cürbəcür parça gətirib satarmış. Bir dəfə tezdən gedir dükana, qapını açır, görür ki, daxılın üstündə qoyub getdiyi arşın əyilib, arşının ortası qalxıb, ucları yerə dirənib. Tacir çox ədalətli, Allah adamı imiş. Dükanın qapısını bağlayıb evə qayıdır. Arvadı ərinin tez qayıtdığını görüb mat qalır, soruşur:

- Ay kişi, nə olub, nə tez qayıtdın? Olmaya dükanı yarıblar?

- Yox arvad, heç nə olmayıb, hər şey yerindədir. Mən çıxıb gedirəm başqa bir şəhərə. Gedib orada nökərçilik edəcəm.

Arvad daha da təəccüblənir, deyir:

- A kişi, şükür Allaha, evimiz, eşiyimiz, dolanışığımız, gün-güzəranımız var, hara gedirsən? Nə bilirsən, getdiyin yerdə işin necə olacaq, arvadsız, ailəsiz necə dolanacaqsan?

Kişi səbrlə arvadını dinləyib deyir:

- Ay arvad, bilirsən, tezdən gedib dükanın qapısını açanda gördüm ki, arşınım qatlanıb arpa vəziyyətini alıb, əyilib. Mən belə başa düşdüm ki, əgər mənim arşınım əyilibsə, deməli, mənə bu dükanda alver etmək imkanı əlimdən çıxıb. Bu dükan bağlı qalmalıdır, ta ki arşın düzəlib əvvəlki halını alsın. Mən gedəndən sonra arada dükanın aquşkasından baxın, görün, arşın düzəlib, ya-yox. Düzələn kimi, mənə xəbər göndərərsiz, qayıdaram.

Tacirin arvadı ərinin xasiyyətinə bələd idi. O, bilirdi ki, əri Allaha bağlı, din-iman yiyəsidir. Ancaq arvad bu işlərdən heç nə anlaya bilmirdi. Tacir bir az naharlandı, pal-paltarını yığdı, yol azuqəsini götürüb evdən çıxdı. Tacir çıxıb gedir

başqa bir vilayətə, başlayır orada fəhləlik etməyə. Palçıq qarışdırır, daş qaldırır, qaldığı evə qayıdanda isə dəstəmaz alıb namaz qılmaqla məşğul olurdu. Hər dəfə əllərini Allahın dərgahına uzadıb dua edirdi: "Allahım, çox şükürlər olsun, verən də sənsən, alan da sən. Sən özün mənim işlərimi nizamla, gedim ailəmin, uşağımın içinə. Hər şey sənin əlindədir. Bəlkə bir qəbahətim olub, qanmamışam, başa düşməmişəm. Bəlkə bu elə mənim xeyrimə imiş. Bəlkə oturub alver edən yerdə bir cəllad girərdi içəri, boynumu vurardı, balalarım, dostlarım məni ömürlük itirərdilər. Bəlkə qismət belə imiş, ayrılıq varmış”.

Bu hadisədən iki il keçir. Tacirin oğlu həftədə bir dəfə gedib aquşkadan içəri baxır, arşının düzəlib-düzəlməməsini yoxlayırdı. Bir tərəfdən arvadı Allaha dua edir ki, səndən başqa köməyimiz yoxdur, sən özün kömək ol, ərim ailəsinə qayıtsın.

Günlərin birində tacirin oğlu sevinə-sevinə evlərinə qaçır, anasının yanına gəlib nəfəsini dərmədən gördüyü mənzərəni danışır:

- Ana, muştuluğumu ver, aquşkadan baxıb gördüm ki, arşın düzəlib, daxılın üstündədir.

Anası sevinir, oğluna deyir:

- Bala, tez qaç dərya qırağına, bir namə yaz, ver gəmidəki adamların birinə, aparıb versin atana. Atan bilsə ki, arşını düzəlib, o saat qayıdıb gələcək.

Tacir doğrudan da həftədə bir dəfə dərya qırağına, vətənindən gələn adamlardan ailəsi haqqında xəbər tutmaq üçün gələrdi. Bir də gələndə arvadının göndərdiyi naməni alır, vəziyyətdən halı olur. Allaha üzünü tutaraq deyir: “Şükür sənə, ya Rəbbim. Arşınım düzəlib, deməli mənim qismətimdə iki il

fəhləlik eləmək yazılıbmış. Əgər mən orda qalsaydım, çörəyim halallıqdan yox, haramlıqdan çıxacaqmış. Deməli, hər şey Allahın əlində imiş. Allah nə yazıbsa, bəndə də onu görəcək”.



## GETDİ, DAHA NƏYİN DEYİM...

Keçmiş zamanlarda bir yaxşı palançı var imiş. Palan tikməklə də yaxşı qazanırmış. Qazandığı pullarını dolanmaq üçün arvada verirmiş, artıq qalanı evdə öz əlilə tikib naxış vurduğu palanın içində gizlədirmiş. Palanın içi qızıl pulnan dolu imiş.

Günlərin bir günü palançının bir işi çıxır, işinin dalınca gedir. Dükanın açarını da verir arvadına ki, lazım olar, birdən palanlıq parça gətirərlər, açıb dükana qoyarsan. Ya kiminsə atının, ulağının palanı sökülər, alıb atarsan içəri, gəlib yamayaram.

Palançı elə təzəcə aralanmışdı ki, yaxşı görkəmdə bir atlı gəlib çıxdı. Yaxınlaşıb palançının arvadından soruşdu:

- Bacı, bə bu usta hardadır?

Arvad cavab verdi:

- İş dalınca gedib, dedi ki, günortadan sonra gələcəm.

Atlı fikirli dilləndi:

- Bay, bə mən tələsirəm, dağa gedirəm, atımın palanı sökülüb, onu yamatmalıydım, bə indi mən nə edəcəm? Bəlkə hazır palan var, alım, çıxım gedim.

Arvad deyir:

- Vallah, hazırı yoxdur, yoxsa verərdim, apardın.

Qapı açıq olduğundan atlının gözü divardakı palana sataşır, arvada deyir:

- Bə deyirsən, hazırı yoxdur, divardan asılan palan deyil, bə nədir?

Arvad and-aman edir:

- Onu ərim görk üçün saxlayıb, heç kimə satıb-eləmir.

Atlı deyir:

- Onu ver, mən çıxım gedim.

O deyir, bu deyir, axırda arvad palanı verəsi olur. Atlı arvadı razı salaraq beş palanın puluna bir palan alır, palanı da götürüb gedir. Arvad sevinir, öz-özünə deyir: "Heç kişi bir dəfəyə bu qədər alver eləməmişdi. Mən bir palana bu qədər pul aldım".

Palançı evə qayıdır, arvad əhvalatı danışır. Kişi qızıl dolu palanın getdiyini görüb, öz-özünə deyir: "Arvadı döysəm, arvad deyəcək, haqq oldu, qızılı, pulu məndən niyə gizlədirdin? Sənin pulun palanın içində nə qayırırdı? Ah-vay eləsəm, qəmdən bağrım çatlayıb, öləcəm. Elə yaxşısı budur, dinməz-söyləməz oturum, yenə də palançılığımla məşğul olum". Arvada deyir ki, palanın pulunu qoy bura, qalanını apar xərclə. Kişi başlayır palan tikməyə, hər palanı tikib qurtardıqca deyir: "Getdi, daha nəyin deyim?"

Bir gün arvadı soruşur:

- Ay kişi, sən nəyini itirmisən, ilim-müdam deyirsən, getdi, nəyin deyim?

Palançı arvadının fikrini yayındırmaq istəyir:

- Nə bilim, o da bir vərdişdir, sözdür də... deyirəm.

Bu hadisədən iki il keçir. Qızıl dolu palanı alan atlı yenidən palançının yanına gəlir, deyir, bu palanı səndən almışdım, bir az sökülüb, bir ora-burasını düzəlt, ver,çıxım gedim. Palançı palanı əlinə alanda tanıyır, bilir ki, bu həmin palandır.

Təzə tikdiyi palanlardan atlıya verib deyir:

- Qardaş, al bu palanı, götür, çıx get.

Atlı palançıya pul vermək istəyəndə palançı pulu da almır. Atlı çıxıb gedir. Palançı palanı açıb baxır ki, nə ki pulları, qızılı var idi, hamısı yerindədir. Oturur yerə, palanı sökür, qızılı,

pulu çıxardır və deyir: “Getdi nəyin deyim, gəldi nəyin deyim?”

Arvad eşidir, kişiyə üzünü tutub:

- A kişi, bu nə sözdür danışırsan, hələ birini də artırmısan?

Kişi bu dəfə arvadından heç nəyi gizlətmədi, dedi:

- Ay arvad, bizim ruzumuz getmişdi, qızılımız, pulumuz hamısı bunun içində idi. Atlı aparmışdı, özü də qaytardı, gətirdi. Halallıqla qazanılan heç vaxt itməz, harda olsa tapılacaq.



## SƏN HAQNAN OL...

Keçmiş zamanlarda bir tacir var imiş. Bu çox halal tacir imiş. Nə satırmışsa çəkisi, arşını dübbədüz olarmış. Həmişə də deyərmiş ki, sən haqnan ol, haqq sənlə olacaq.

Şəhərin padşahı öz yaxın adamlarından göndərir ki, bir gedin gəzin, görün, şəhərdə təzə nə xəbər var, camaat necə dolanır, padşahdan kim razıdır, kim narazıdır. Çuğulçular bir il sərasər şəhəri, uzağı, yaxını gəzib dolaşırlar, padşaha gördüklərini gəlib danışırlar. Deyirlər ki, padşah sağ olsun, hər şey öz qaydasındadır, bircə bir tacirdən qəribə bir söz eşitdik, bir şey anlaya bilmədik. Kimə nə satırdısa, elə bu sözü deyirdi: "Sən haqnan ol, haqq özü sənnən olacaq".

Padşahı maraq götürür, durur ayağa, libasını dəyişir, vəzir-vəkilini də götürüb bazara tərəf gedir. Gəlir çıxır tacirin yanına, iki arşın parça alır. Tacir parçanı ölçüb verəndən sonra özünün məşhur sözünü buna da deyir. Padşah tacirdən soruşur:

- A kişi, bu nə sözdür sən deyirsən?

Tacir cavab verir:

- Nə bilim, bir sözdür, deyirəm da.

Padşah öz-özünə fikirləşir: "Bu tacir ya gicdir, sarsaqdır, ya da çox ağıllıdır. Mən onu öyrənməliyəm".

Üzünü tacirə tutub deyir:

- Sabah gedəcəm dərya qırağına, hazır ol, gəlib səni də özümlə götürəcəm.

Tacir çox arif adam imiş. Başa düşmüşdü ki, bu padşahdır, öz-özünə deyir: "Ay-hay, bu məni sınağa çəkmək istəyir, yoxsa mən hara, padşah hara, onnan gəzməyə getmək hara?

Allaha təvəkkül, gedim görüm başıma nə gələcək." Evə gəlir, arvadına deyir:

- Ay arvad, sabah padşahla dərya qırağına gedəcəyik. Bilmirəm başıma nə gələcək, ya əvvəlimizdi, ya axırımızdı.

Sabah açılır, padşah başının adamları ilə gəlib taciri də götürür, gedirlər dərya qırağına. Padşah tacirə deyir:

- Sən hey təkrar edirsən ki, sən haqnan ol, haqq sənnən olacaq, indi mən barmağımdakı bu bahalı üzüyümü atacam dəryaya. Sən haqqı çağır və mənim bu üzüyümü tap, gətir. Sənə sabah axşama kimi vaxt verirəm, əgər sabah şam namazına kimi bu üzüyü tapıb gətirməsən səni dar ağacından asdıracam.

Tacir padşahdan soruşur:

- Sən ibadət edirsənmi?

Padşah deyir:

- Yox, mən müsəlman deyiləm, namaza getmirəm.

Taciri fikir götürür. "Yaxşı bu, dinsizin, kafirin biridir. Üzüyü atsa dəryaya, mən onu necə tapacam?" Padşah barmağındakı üzüyü çıxardıb var gücü ilə dəryaya tullayır. Dərya qırağına yığılanlar evlərinə dağılışırlar. Tacir gəlir dükanına, yazısını-pozusunu qaydaya salır, kimə borcu olduğunu, kimin ona borclu olduğunu yazıb qoyur cibinə, gətirib siyahını verir arvadına. Şəhərə çıxıb fikrini dağıtmaq istəyir. Bir az gəzib dolaşır, bazara yaxınlaşanda görür ki, bir oğlan qəşəng, iri bir balıq satır. Dil-boğaza qoymadan balığı tərifləyib deyir: "Kim bu balığın ətindən yesə heç vaxt qocalmaz, dünya durduqca yaşayar". Tacir fikirləşir ki, ölmək ölməkdir, xırıldamaq nə deməkdir, elə bu balığı alım aparım, arvad-uşağımla axırıncı dəfə bir nuş eləyim.

Balığı alıb evə gətirir, arvadına verib deyir ki, bunu yaxşıca

bişir, axşam bir yerdə yeyək. Arvad qəmgin-qəmgin deyir:

- Mən bayaqdan qarnımı qucaqlayıb qan ağlayıram, bu kişi də kefdən, yeməkdən danışır.

Kişi deyir:

- Ay arvad, naşükür danışma, sən haqnan ol, haqq sənnən olacaq. Şükür Allaha, yağ var, düyü var, balığı da bişir, qoy aşın altına, bir yaxşı plov dəmlə, yeyək.

Arvad durur ayağa, balığın içini təmizləyəndə içindən günəş kimi bərq vuran, firuzə qaşlı, gözəl bir üzük tapır. Xoşuna gəlir, taxır barmağına. Balığı, aşı bişirir, axşam namazından sonra ailə bir yerə toplaşır, bardaş qurub süfrə başına əyləşirlər. Tacirin arvadı plovu siniyə çəkib gətirir, qoyur süfrəyə, başlayırlar yeməyə. Arvad əlini süfrəyə uzadanda kişinin gözü arvadının barmağındakı üzüyə sataşır. Əl atıb tutur arvadının biləyindən, acıqlı halda soruşur:

- Sən, deməli padşahla əlbir işləyirsən? Bu üzük səndə hardandır?

Arvad ərinin qəfil sözündən çaşır, gözlərini geniş açıb mat-mat kişinin üzünə baxır, deyir:

- A kişi, dəlisən, nəsən? Bu üzüyü balığı təmizləyəndə içindən tapmışam. Mən padşahı harda görürəm ki, o, bu üzüyü mənə verə?

Kişi üzüyü arvadın barmağından çıxardır, qoyur cibinə, gecəni yatırlar. Sabah açılır. Tacir gedir dükana, bir az alış-veriş edir. Axşam padşahın adamları gəlir, taciri atın qabağına salıb aparırlar padşahın sarayına. Tacir yenə də dediyini deyir: "Sən haqnan ol, haqq sənnən olacaq". Cəlladbaşı bərk hirslənir:

- Ay kişi, sən yenə öz dediyini deyirsən. Bə haqq sənnən niyə olmadı? Asılmağa, ölməyə gedirsən.

Kişi cavab vermir, gəlib padşahın sarayına yetişirlər. Taciri gətirirlər padşahın hüzuruna. Padşah taciri görüb deyir:

- Hə, tacir, söylə görüm, haqq sənlə oldumu?

Tacir kirimişcə cibindən padşahın üzüyünü çıxarıb ona uzadır. Padşah üzüyünü tanıyır, bu dəfə tacirə hörmətlə deyir:

- Sən mənə düzünü de, üzməyi bacarırsan?

Tacir deyir:

- And olsun Allaha ki, mən üzməyi bacarmıram.

Padşah mat qalır:

- Bə onda bu üzüyü hardan tapdın, mən ki, onu dəryanın ortasına atmışdım?

Tacir olub keçənləri padşaha danışır, deyir ki, inanmırsan, bax, möhürün üstündə, adın üstündə, üzük sənin üzüyündür.

Padşah üzüyü götürür, salır barmağına, üzünü saray əhlinə tutub deyir:

- Ay camaat, mən haqq yoluna qayıdıram, ibadətlə, namazla məşğul olacam. Mən haqla olacam, qoy haqq da mənnən olsun. Siz də bu gündən belə haqq yoluna qayıdın. Bu gündən heç bir haqsız iş tutmayacam. Bütün əhli-əyalım, xalqım yaxşı, şad-xürrəm, mehriban və əmin-amanlıq içində yaşayacaq.

Padşah dediyinə əməl edir, çox ədalətli olur, ətraf padşahlar içində ad qazanır, həm də çox uzun ömür sürür. Onun şəhərinə nə basqınçı gəlir, nə şəhərini qarət edirlər, nə də özü heç bir vilayətə basqın etmir.

## ARVADLARIN RUZUSU

Keçmiş zamanlarda bir tacir, bunun da üç arvadı var imiş. Onlar hamısı bir yerdə qalırmış. Tacir gedər, özünü oda-közə vurar, çalışıb-çabalayıb qazanarmış, qazancını evə gətirərmiş. Arvadlarını və uşaqlarını başına yığıb deyərmiş ki, qazandığım çörəkdən doyunca yeyin, Allahınıza şükr eləyin.

Günlərin birində birinci arvadı deyir:

- Tacir ağa, elə sən hər dəfə bu sözləri deyirsən, axı bizim də Allahımız var, bizim də ruzumuz var. Sən elə uzaq vilayətlərə gedirsən, qazanıb gətirirsən, bəyəm bizim öz ruzumuz yoxdur?

Tacir deyir:

- Əlbətdə ki, Allah ruzunu mənə verib, sağ can verib, qüvvə verib ki, mən də uzaq-uzaq ellərə gedib qazanıram.

Qalan o biri iki arvad da birincinin sözlərini təsdiq edirlər:

- Düz deyir, da bə. Bizim də ruzumuzu Allah verir.

Tacirin arvadlara acığı tutur, sözləri düz gəlmir:

- Mən tacirəm, özü də zirə, zəfəran satıram. Sabahları bir dəvə yükləyəcəm, aparacam zəfəran, zirə əkilən ölkəyə satmağa. Orda hamının o maldan varıdır, heç kim zirə, zəfəran almır, satır. Mən malımı orada baha qiymətə satsam, biləcəm ki, siz deyən kimi, Allahın mənə verdiyi ruzudur, yox, əgər satammasam, qaytarıb gətirsəm, biləcəm ki, bu sizin ruzunuzdur, qazanc edə bilmədim. Qazanıram ki, sizi saxlayam, istəsəm bu gün sizi boşayaram.

Səhər açılır, tacir bir dəvə yükü zirə, zəfəran götürür. Naxçıvandan İrana yola düşür. Yüklənmiş dəvənin ovsarını bağlayır öz mindiyi dəvəyə, gəlir çıxır İrana. Yolda bir nəfər onu

saxlayıb soruşur:

- Ağa, sən deyəsən tacirsən, aldığın-satdığın nədir belə?

Tacir cavab verir:

- Satdığım zirə, zəfərandır.

Yolçu təccüblənir, deyir:

- Elə bizim məmləkət zirə, zəfəranla doludur, bunu nəyə gətirmisən?

Tacir bir söz deməyib yoluna davam edir, gəlib çıxır bazar içinə. Görür ki, bazar əhli yaman vurnuxur, qarşıda görünən səhraya tərəf qaçışırlar. Tacir bazar əhlinin birindən soruşur:

- Bu camaata nə olub, hara belə qaçırlar?

Ona cavab verirlər ki, padşah ova çıxıbmış, ov vaxtı barmağındakı nəsildən qalma firuzə qaşlı üzüyü düşüb itib. Padşah vəd edib ki, kim üzüyü tapsa, ona yaxşı ənam verəcək. On gündür ki, üzüyü axtarmaqdan camaatın yesiri çıxıb.

Camaat dəstə-dəstə olub qumu ələkdən keçirir, üzüyü tapıb padşahın vəd etdiyi ənamı almaq istəyirdi. Çünki üzük nəslin üzüyü idi, tapılmasaydı, padşah taxtından düşməli idi. Qərib tacir dəvəsini bir yerdə saxlayır, bu da başlayır üzüyü axtarmağa. Onun ələyi, xəlbiri olmadığından əliylə qumu eşələyirdi. Əlini bir atır, iki atır, birdən hiss edir ki, əlinə nə isə bir şey dəydi. Qumu bir də eşələyəndə üzük barmaqlarına ilişir, üzüyü çıxardır, tez gətirib padşaha göstərir, deyir ki, bu üzük sənindir? Padşah deyir: “Hə, mənimdir”.

Hamının ağzı açıq qalır, fikirləşirlər ki, biz neçə gündür əsir-yesirik, üzüyü tapa bilmirik. Bu yadelli gəldi, tapdı. Padşah deyir:

- Bu üzüyün tapılmağına görə şəhər camaatına ənam paylayacam. Ancaq, kim məni istəyirsə, bu adama nə bəxşeyiş verə bilirsə, gətirsin, versin.

Padşahın yaxınları, vəziri-vəkili tacirə ənam gətirirlər. Tacir padşaha deyir:

- Padşah sağ olsun! Gətirmişdim zirə, zəfəran satam. Mənim dəvəmdə yer yoxdur, mən bunları hara yığım?

Padşah deyir:

- Heç fikir eləmə, sənin zirəni, zəfəranını baha qiymətə götürərik, bizim ellərdən gəlib zəfəran aparırlar, verərik onlara, dəvənin birinə bəxşeyşlərini yükləyərlər, bir dəvə də verərik malına verilən qızılları yükləyərlər.

Padşah onu bir neçə gün qonaq saxlayır, sonra da şan-şöhrətlə yola salır. Tacir evinə çatır, ailəsilə görüşür, onları yığıb başına gələnləri danışıb deyir:

- Ay arvadlar, mən nəinki zirəni, zəfəranı baha qiymətə satdım, hələ padşahın üzüyünü tapdım, o da məni mükafatlandırdı.

Allah tale, qismət yazanda elə zəfəran satanın taleyindən yaza.

## DOSTLARIN SİRRİ

Üç dost olur, qazanc üçün başqa şəhərə gedirlər. Bir xeyli yol qət edəndən sonra gəlib bir qayanın yanına çatırlar. Axşam düşür. Baxırlar ki, qabaq qalın meşəlikdir. Fikirləşirlər ki, axşamın xeyirindən səhərin şəri yaxşıdır. Qabağa gedərik, meşədə azarıq, qurd-quş bizi yeyər. Elə atımızı bağlayaq qayanın qabağındakı kolluğa, özümüz də qayanın dibində yataq, yuxumuzu alaq, yorğunluğumuz çıxsın, sabah tezdən yola düşərik.

Gəlib qayanın dibinə sığınırlar, ocaq qalayırlar, bir az keçmiş baxırlar ki, yağış çisələməyə başlayır. Görürlər ki, qayanın dibində bir kuluf var, keçirlər onun altına ki, yağış onları tutmasın. Bir az keçmiş qayanın üstündən bir daş parçası düşür bu kulufun üstünə, onların daldalandığı yerin ağzını qapayır. Bunlar qalır kulufun içində. Çox çalışıb-çabalayırlar ki, daşı aralayıb çıxsınlar, ancaq daşı tərpədə bilmirlər.

Dostlar gecənin yarısına qədər çalışır, yorulur, hərəsi bir tərəfə çəkilib otururlar. Yoldaşların biri dillənir:

- Qardaşlar, belə görürəm ki, biz burdan çıxa bilməyəcəyik, burdaca öləcəyik. Gəlin belə bir iş eləyək. Ola bilsin ki, bizlərdən hansımızsa xeyirxah bir iş görmüşük, ancaq Allahdan başqa bunu heç kim bilməyib, heç kimə deməmişik. İndi onu bir-bir danışaq, bəlkə Allaha xoş gələ, bizə bir kömək əli uzada, daş aralana, burdan xilas olaq. Yoxsa burdan keçən qaçaq-quldur atlarımızı götürüb aparacaq, özümüz də acından öləcəyik.

Dostlar bu fikri bəyənirlər, biri danışmağa başlayır:

- Vallah, mən elə həmişə çörək qazanmaq üçün başqa yerlərə getmişəm, heç ailə-zad da qurmamışam. Bircə dəfə bir savab əməl eləmişəm, onu danışım, bəlkə bu Allahın xoşuna gələ. Bir gün işdən evə qayıdanda bir çörək alıb evə gəlirdim ki, onu yeyim, başımı qoyum yatım. Bir tikə də pendir alıb qoymuşdum çörəyin içinə. Gördüm ki, bir qadın qucağında bir uşaq mənə tərəf gəlir. Uşaq "çörək" deyib ağlayırdı. Qadın mənim yanıma çatanda əlimdəki çörəyi görməsin deyə uşağın üzünü dala tərəf çevirdi, özü də utandığından qızardı. Mən yavaşca düşdüm bunların dalınca, balaca tikələr qırıb uşağı yedizdirdim. Uşaq səsini kəsdi, daha ağlamırdı. Anası tez-tez getdiyinə görə uşağı yedizdirməyimdən xəbəri olmadı. Çörək-pendirin hamısını bu uşağa yedizdirdim, gəldim evə ki, yatam, nə illah elədim, acından gözümə yuxu getmədi. Səhərin tez açılmasını gözləyirdim ki, gedim fəhləlik edim, aldığım qəpik-quruşa bir çörək alım, yeyim. Daha mənim bundan başqa elə bir savab işim olmayıb.

Birinci yoldaş söhbətini qurtarar-qurtarmaz gördülər ki, daş bir az ovuldu, ovuntular yerə töküldü. Dostlar bir-birinin üzünə baxdılar, bir az ürəkləndilər, dedilər: «Bu Allah tərəfindən xəbərdarlıqdır». Bunu görən ikinci yoldaş ürəklənib söhbətə başladı:

- Mən başqa adamlara bir yaxşılıq edə bilməmişəm, bircə valideynlərimdən başqa. Atam xəstələnmişdi. Təbib ona otdan düzəldilmiş bir dərman yazmışdı, bunu da ancaq südlə içməli idi. Dərmanı südlə qarışdırıb verirdim, içirdi. Gecələrin birində atamın səsini eşitdim. Getdim yanına, dedim ki, ata, bilirəm, dərmanının vaxtıdır, oyanmışam. Dedi ki, oyanmısansa qayır gətir, içim. O biri otağa gedib dərmanla südü qa-

rışdırdım, gətirdim, gəldim ki, atam dərin yuxuya gedib. Atam gecələri yata bilmirdi, xəstəydi, inildəyib sızıldayırdı. Ona görə oyatmağa qıymadım. Dərman əlimdə dayanıb oyanmasını gözləyirdim. Atam uşaq kimi mışıl-mışıl yatmışdı. Fikirləşdim, dərmanı qoyub getsəm, oyanar, görər yoxam, mənnən könlü qalar, getmədim. Əlimdə dərman səhərə qədər başının üstünü kəsdirib durdum. Sübh tezdən namaz vaxtı idi, azan veriləndə atam gözlərini açdı, dərmanını istədi. Ona dedim ki, ata, yatmışdın, səni oyatmağa qıymadım, dərmanını hazırlamışam. Onda atam mənə dedi ki, bala, səni görüm heç darda qalmayasan.

İkinci yoldaş sözünü bitirər-bitirməz daş sürüşüb bir az aşağı gəldi. Yuxarıdan kulufa işıq düşdü, təmiz hava içəri doldu. Bundan sevinən dostlar üçüncüyə dedilər:

- Bir söhbət də sən elə, bəlkə burdan qurtula bilək.

Üçüncü yoldaş söhbətə başladı:

- Mən cavan bir oğlan idim. Atam məni evləndirmək istədi. Dedi ki, filankəsin qızı çox gözəl qızdır, elə sənə layiqdir, ailəsi də yaxşı adamlardı. O qızı alacam sənə. Getdim, kənardan baxdım qıza, xoşuma gəldi, həm də atamın məsləhəti idi, almalıydım. Atam getdi bu qızı aldı mənə. Toy gecəsi gəldim otağa, gördüm ki, gəlin saçlarını açıb töküb üzünə, için-için ağlayır. Qızdan soruşdum:

- Niyə  ağlayırsan? Sən ki məni görmüşdün, istəmirdin, gəlməzdin. Bəlkə başqa bir dərdin var, aç söylə.

Gəlin cavab verdi:

- Dərdim böyükdür. Atamın , qardaşımın, elin, obanın yanında xəcalət olmamaq üçün ərə gəlməyə razı oldum ki, sənə gəlim, sən də məni öldürəsən, desinlər ki, filankəsin oğlu bir

igiddir, çəkdi xəncəri, bu qızı öldürdü.

Mən soruşdum:

- Niyə səni öldürməliyəm?

Qız dedi:

- Mən bir nəfər oğlanla sevişirdim. Oğlanla o qədər istəkli idik ki, yaxınlaşdıq bir-birimizə. Üstündən on gün keçməmiş oğlan getdi öldü. Biz bir-birimizə söz verib əhd-peyman bağlamışdıq. Atam-anam verməsə də məni götürüb qaçmalı idi. Sən mənə elçi göndərəndə artıq uşağa qalmışdım. Mən dönə-dönə istədim özümü öldürəm, ancaq öldürə bilmədim. Sənə də ona görə razılıq verdim ki, bəlkə sən məni öldürəsən. Xəcalətli olduğuma görə də ağlayıram.

Mən ona dedim:

- Sən ki, öz sirrini mənə açdın, mən bu sirrdən agah oldum, səni heç vaxt öldürməyəcəm.

Sonra da çəkdim xəncəri qoydum yataqda ortamıza, dedim, nə vaxt uşaq doğular, özün nə vaxt istəyərsən, o vaxt da çıxıb gedərsən atan evinə. Mənə də nə ad verərsən, öz işindi.

Beləliklə, gəlin qaldı mənim yanımda, yatdı, bir oğlu oldu. Haray-həşir saldı ki, mən boşanıram. Dedim ki, özün bilərsən, getmək istəyirsənsə get, sənin sirrin ömür boyu mənim qarnımda qalacaq. Qoy hamı elə bilsin ki, uşaq da mənim oğlumdur. Gəlin boşanmaq üçün qazının yanına getdi. Ata-anasına da dedi ki, oğlan mənim könlümcə deyil, mən onda oturmuram. Gəlin məndən boşandı, uşağı da götürdü, çıxdı, getdi. İndi onun oğlu yekə oğlandı, ancaq bu sirr mənim ürəyimdə idi, birinci dəfədi ki, açıb sizə deyirəm. Mənim gördüyüm savab iş bu idi.

Üçüncü yoldaş sözünü qurtarar-qurtarmaz daş sürüşdü, düşdü yerə. Onların yolu açıldı, çıxdılar çölə, atlarını minib yollarına davam etdilər.

Hə, balalarım, deməyimin canı budur ki, yəni gördüyün bir savab əməl, haqq işi səni nə vaxtsa dardan qurtara bilər.



## PUL KÜRƏKLƏMƏ İMİŞ

Bir nəfər gedir İsfahan şəhərinə. Satdığını satır, aldığını alır, sonra yenidən evinə qayıdır. Qonşulardan biri qayıdıb soruşur:

- Ay qağa, hara getmişdin? Deyəsən, əli isti qayıtmısan arvad-uşağının yanına?

- İsfahana getmişdim - deyir, - orada pul kürəklə yığılır, ancaq gərək yaxşı işləyəsən.

Yoldan ötən onun sözünü qavramır ki, söhbət nədən gedir. Gəlir evlərinə, bir təlis götürür, bir də taxtadan bir kürək düzəldir, onu götürür. Arvadı soruşur:

- A kişi, nə qayırırsan, hara belə hazırlaşırsan?

- Arvad, İsfahanda qızıl, pul kürəkləmədir. Gedim, heç olmasa bir təlis də mən yığım gətirim. Qonşumuz ordan təzə qayıdıb. Arvad-uşağına təzə əyin-baş alıb, at alıb, dəvə alıb, dükan açıb.

Arvad deyir:

- Olsun, olsun, Allaha şükür! Get, görək, sən nə qayıracaqsan?

Kişi qatırı minir, təlisi, kürəyi də alır qucağına, yol gəlir İsfahana. Ora boylanır-bura boylanır, görür ki, vallah, küçələrdə heç zad yoxdur, heç bir qəpik də tapmır. Fikirləşir ki, bəlkə pul, qızıl şəhərin başqa yerindədir. Şəhərin bütün küçələrini ələk-vələk edir, heç nə tapmır. Çox gəzir, dolanır, yorulur, gecəni məsciddə yatır, dincəlir. Səhər axtarışını bir də davam edir, görür yenə də, heç nə yoxdur. Gəlib çıxır şəhərin bir məhəlləsinə. Bir dükana yaxınlaşır. Dükan sahibi baxır ki, bu qərib adama oxşayır, özü də acdır. Tacir dükanında xörək

bişirirmiş. Qərib başını içəri salıb həsrətlə udqunur. Tacir başa düşür ki, bunun cibi boşdur. Pulu olsaydı, günorta nahar vaxtıydı, girib içəri, şəstlə yemək istərdi. Tacir qəribdən soruşur:

- Niyə qapının ağzında durmusan? Keç içəri, söylə görüm, hardan gəlib, hara gedirsən?

Qərib nəyə gəldiyini söyləyir, deyir ki, təlisnən kürək gətirmişəm, ancaq heç nə tapmadım ki yığam. Tacir arif adam imiş, başa düşür ki, qarşısındakı çox avam adamdır, bilir ki, belə adamlar özləri də bilmədən xataya-bəlaya düşərlər. Odur ki, qəribi çörək yeməyə dəvət edib deyir:

- Gəl hələ çay iç, çörək ye, axşam da mənnən gedərik bizə, evdə çörək qazanmağın yolunu başa salaram sənə, gedərsən qazanarsan.

Qərib elə başa düşür ki, tacir ona pulun yerini göstərəcək, bu da gedib bir təlis yığacaq.

Tacirin evi şəhərdən aralı idi. Gecəni gedirlər onlara, yeyirlər-içirlər, gecəni yatırlar. Tezdən durub dəstəmaz alıb, namaz qılırlar, səhər yeməyini yeyəndən sonra tacir deyir:

- Əgər istəyirsən çoxlu pul qazanasan, bax o bağçanın aşağısındakı damı verirəm sənə, qalarsan orada, onun içində hər şey var, yatmağa, dincəlməyə yorğan döşək, namaz qılmağa canamaz. Aftafan da ayrıdır, heç kim sənin işinə qarışmayacaq. Gündə beş dəfə namaz qılacaqsan. Qalan vaxtını işləyəcəksən. O çayı görürsən? Evin aşağısından axır. Sel yuxarıdan çoxlu daş gətirib. Sən hər dəstəmaz alanda çaydan iki dənə də hörgü daşı götürüb gəlirsən. Öz payını, daşın birini atarsan olduğun damın yanına, mənim payımı həyətin başına yığarsan. Yeməyini də verəcəklər, qorxma, nökər-naib nə yesə, sən də ondan yeyəcəksən.

Qərib düz bir il bu minvalla yaşayır. Gündə çaya gedib beş dəfə dəstəmaz alır, hər dəfə də iki daş gətirib atır həyətə.

Novruz bayramında onun gəlməyinin bir ili tamam olurdu. Bayram axşamı möhkəm səs-küy eşidir. Çıxır qapıya, görür ki, həyət atla, dəvə ilə doludur. Tacirdən soruşur ki, bunlar nəyə gəlibdir, kimdir? Tacir cavab verir ki, bunlar daş alanlardır, gəliblər ki, sən yığdığın daşı alıb aparsınlar, özlərinə dam-daş tiksinlər.

Bunu deyib tacir getdi öz daşını saydı verdi, pulunu alıb cibinə qoydu. Sonra da qəribə dedi:

- İndi sən get, daşını say, ver.

Qərib də daşını saydı, verdi, pulunu aldı, gördü ki, elə bir təlis pul oldu. Daş alanlar gedəndən sonra tacir qəribdən soruşdu:

- İndi məmləkətinə qayıtmaq istəyirsənmi?

Qərib dedi:

- Yox, istəyirəm bu il də qalam.

O, bir il də qalası oldu. Bu dəfə dəstəmaz alanda üç daş gətirdi, birini atdı tacirin həyətinə, ikisini atdı öz komasının yanına. İl başa yetişdi, daş alanlar yenə gəldi, daşı aldı. Qəribin çoxlu qızılı, pulu oldu. Tacirlə, onun əhli-əyalı, nökər-naibi ilə halallaşdı, öpüşdü, görüşdü, gəldi öz vilayətinə, arvad-uşağının içinə. Qonşusu maraq etdi, soruşdu ki, qardaş, getdin İsfahanda nə gördün, nə eşitdin? Cavab verdi ki, deyirlər İsfahanda pul kürəklənmədi. Amma hər dəstəmaza iki daş gətirəsən gərək. Pul qazanmaq asan iş deyilmiş. Gərək zəhmət çəkəsən ki, pulu da kürəklə yığasan.

# ƏMANƏTƏ XƏYANƏT OLMAZ

Belə nağıl edirlər ki, bir şəxs Hindistandan Nəcəf şəhərinə Nəzrət Əlini ziyarət etməyə gəlir. Şəhərə varid olanda özü ilə götürdüyü pulu, qızılı bilmir kimə etibar eləsin, gedib Həzrət Əlini ziyarət edəndən sonra gəlib götürsün. Görür ki, şəhərin girişində bir məscid var. Namaz qılmaq üçün ora gedir. İçəridə baxır ki, bir nurani kişi oturub, sən demə, bu, məscidin axundu imiş. Salam verib əleyk alandan sonra axund soruşur:

- Kimsən, nəçisən, hardan gəlib, hara gedirsən?

Yolçu kimliyini və gəlişinin məqsədini deyir. Axırda da əlavə edir ki, əlimdəki əmanəti sənə etibar edirəm. Belə deyib əmanəti verir, gedir Həzrət Əlini ziyarət edib məscidə qayıdır və əmanətini istəyir. Axund onun üzünə durur ki, sən mənə heç bir əmanət-zad verməyibsən. Ziyarətçi deyir:

- Ay qardaş, necə yəni verməmişəm. Sən dünən Allahdan, peyğəmbərdən, Qurandan, yaxşılıqdan, bu dünyanın gərdişindən danışırdın. İndi də üzümə durub deyirsən ki, mən yalan deyirəm.

Ziyarətçi kor-peşman qayıdır ziyarət yerinə, yenidən ziyarət edir, namaz qılır və gecəni orda qalası olur. Gecənin bir yarısı yuxuda görür ki, bir nurani şəxs durub onun başının üstündə, deyir:

- Tezdən durub bu ziyarətgahdan çıxanda qabağına birinci kim çıxsa dərdini ona danışarsan, o, sənə kömək edəcək, əmanətini tapıb verəcək.

Ziyarətçi yuxudan ayılır, ziyarətgahdan çıxanda qabağına kasıb görkəmdə, cındır-cırıq içində, bir əlində balta, o biri əlində çatı olan bir adamla rastlaşır. Öz-özünə fikirləşir:

"Bunun özü nə gündədir ki, hələ bir mənim itiyimi də tapa" Ona heç bir şey deməyib yenidən axundun yanına gəlir, əmanətini istəyir. Axund deyir, sən mənə heç bir əmanət-zad verməyibsən, şahadını-sübutunu gətir. Kişi kor-peşman yenidən ziyarətgaha qayıdır. Hər şeyi əlindən çıxmışdı. Nə yemək almağa pulu vardı, nə də Hindistana qayıda bilirdi. Gecə yatmışdı. Həmən şəxs yenə yuxusuna girdi, dedi: "Bəs mən sənə deməmişdimmi, tezdən qarşına kim çıxsa dərdini ona söylə, o, sənə kömək edəcək?" Ziyarətçi tezdən durub yola çıxır, bu dəfə də dünənki kasıb adam qarşısına çıxır. Kişi dərdini ona danışır və onun kim olduğunu, nə işlə məşğul olduğunu soruşur. Kişi deyir, mən indi adicə odunçuyam, odun yığıb satmaqla ailəmi dolandırıram. Atam isə şəhərin hörmətli kişilərindən biri olub. Səhər gələrsən məscidə, atam bir vaxtlar orda işləyib. Onun nüfuzundan istifadə edib, mən də moizə oxuyacam. Bəlkə sənin əmanətini tapa bildik.

Səhər olur. Hamı məscidə yığışanda axund moizə oxumağa başlayır. Oxuyub qurtardıqdan sonra odunçu rüsxət alıb minbərə çıxır, başlayır moizə oxumağa:

- Ay camaat, bir dəfə bazardan iki dəstə pencər aldım, cibimdə pulum olmadığından, pencər satana dedim ki, sabah pulunu çatdıracam. Səhər getdim bazara, pencərsatanı tapmadım, dedilər ölüb. Kor-peşman qayıtdım evə. Gecə yatmışdım, yuxuda gördüm ki, ölmüşəm. Baxdım ki, pencərsatan yanımdadı. Məndən pencərin pulunu istədi. Dedim, ay qardaş, mən də sənin kimi ölüyəm. Kəfənimdən başqa heç nəyim yoxdur. Müvəqqəti dünyadan əbədi dünyaya köçüb gəlmişəm, məndə pul nə qayırır? Bunu demişdim ki, cəhənnəmdən bir od gəldi, mənim sinəmi yandırdı.

Əmanəti verməyən axund öz-özünə fikirləşdi: "Ay-hay, iki

dəstə pencərin pulunu verməyəni cəhənnəmin alovu qarsıb. Mən o boyda malı-pulu danmışam, mənim axırım nə olacaq?" Tez yaxınlaşdı Hindistandan gələn qonağa:

- Sənin əmanətin məndədi, gəl gedək verim, - deyib ziyarətçinin əmanətini verir. Sonra da üstündən ağır yük götürülmüş kimi dərindən nəfəs alır.



## SƏBR ETMƏK İNSANIN BİRİNCİ DƏRMANIDIR

Bir vilayətin bir padşahı var imiş. Bu padşahın da aman-zaman, gözəl-göyçək bir qızı var imiş. Bu qız bərk xəstələnmişdi. Başının ağrısından bət-bənizi solmuşdu. Padşah hər yerə carçı saldırmışdı ki, kim mənim qızımı sağaltsa xəzinəmin yarısını, bir də gözəl-göyçək qızımı ona verəcəm. O həkim gəlir, sağalda bilmir, bu həkim gəlir, sağalda bilmir. Padşah qəzəblənib qızını sağalda bilməyənləri qaynar tiyana basaraq öldürürdü.

Başqa bir vilayətdə çox bilikli bir loğman olur. Xəbər gəlib ona çatır. Bunun da bir şəyirdi var idi. O da loğmandan çox şey öyrənmişdi. Loğman şəyirdini də götürüb gəlir padşahın qızını sağaltmağa. Loğmanın gəlmə xəbərini padşaha çatdırırlar. Padşah onları qəbul edir, şərtlərini deyir. Loğmanla şəyirdi girirlər qızın yatdığı otağa və padşaha deyirlər ki, heç kim içəri girməsin. Özü ilə gətirdiyi alətləri, dava-dərmanları qızın yatağına yaxın qoyur. Sonra qızın baş qapağını götürür. Baxır ki, bir mici yapışıb qızın beyin pərdəsinə. Loğman şəyirdinə sevinclə pıçıldayır: «Xəstənin əlacını tapmışam» O, istəyir ki, micini pinsetlə götürsün, şəyirdi onun qolundan yapışıb qoymur, deyir ki, qurd ora möhkəm yapışıb, əgər onu zorla dartıb qoparsaq, qızı şikəst edə bilərik. Biz pinseti qızdıraq, həşərata yaxın tutaq, onda həşərat istiyə tab gətirə bilməyib özü qopub düşəcək. Təbib şəyirdə qəzəblənir:

- Sən mənim şəyirdim ola-ola mənə ağıl öyrədəcəksən? İşimizi qurtaraq, səni öldürəcəyəm.

Nə isə, müəllim-şəyird bir az höcətləşirlər. Axırda şəyird

deyən kimi edirlər. Pinseti odda bərk qızdırırlar, qurdun ayaqlarına, əllərinə yaxın tuturlar, qurd ayaqlarını yığır, pərdədən qopub düşür. Loğman astaca qızın beyin qapağını başına tikir. Qız sağalır. İşini görüb qurtardıqda baxır ki, şəyird otaqda yoxdur. Loğman şəyirdin əlindən bərk hirsli idi. Otaqdan çıxıb şəyirdi axtarmağa başlayır.

Öz-özünə deyir: «Bunun müəllimi mən olmuşam. Ancaq o, məndən ağıllı və tədbirlidir. Gərək mən onu tapam, öldürəm» belə deyib başlayır orda şəyird, burda şəyird – onu axtarmağa. Yolda çobana rast gəlir, soruşur:

- Ay çoban qardaş, burdan cavan bir oğlan keçdimi?

Çoban cavab verir:

- Bir oğlan qaça-qaça gəldi, bulağa çatan kimi, dizlərini vurdu yerə, bir dəqiqə dincəldi, bulağın suyundan bir nəfəsə xeyli içdi, sonra da durdu, tələsik getdi.

Loğman çox təəssüfləndi:

- Bay səni, Allah evini tiksin, daha onu tutmaq olmaz.

Ay keçir, il dolanır. Günlərin birində loğman şəyirdiylə rastlaşır, ona deyir:

- Daha səni öldürməyəcəm, gəl hərəmiz zəhərli bir dərman düzəldək, düzəltdiyimiz dərmanı içək, görək sənin dərmanın məni öldürəcək, yoxsa mənim dərmanım səni öldürəcək?

Loğman dərman düzəldir, içinə də ilan zəhəri tökür. Şəyird gəlir, loğmanın düzəltdiyi dərmanın yanına iki qab qatıq, iki qab da süd qoyur. Şəyird loğmanın düzəltdiyi dərmanı içdikcə dalınca bir dəfə süddən, bir dəfə qatıqdan içir. Süd, qatıq ilan zəhərini dələmələşdirir, keyfiyyətini itirir. Axırda şəyird içdiyi dərmanı qusur və ölümdən xilas olur. Loğman şəyirdinin ağlına heyran olur, deyir, bundan ağır zəhər yox idi, sən bunun da qarşısını aldın. Növbə keçir şəyirdə, indi şəyird ustadını

öldürməli olur. O, bir dənə keçə gətirir, sərir yerə, yanına da bir parç su qoyur. Toxmağı su ilə isladıb keçəni döyəcləməyə başlayır. Şəyird iki gün sərasər toxmağı parçdakı su ilə isladıb keçəni isladır, döyəcləyir.

Loğman aradabir şəyirdən soruşur:

- Nooldu, dərman hazır olmadı?

Şəyird cavab verir:

- Hələ yox, hazır olanda deyəcəm.

İkinci günün axşamı şəyird bir də baxır ki, loğman tir-tap yerə uzandı. Loğman öz-özünə o qədər fikirləşir ki, mən dünyanın hər işinə bələdəm, yerin altını da bilirəm, üstünü də. Bu nə cür dərman düzəltməkdir ki, mən onu bilmirəm. Loğman o qədər fikir edir ki, ürəyi tab gətirmir, ölür.

Deməli, səbr etmək insanın birinci dərmanıdır.

## İNAM

Nurani bir kişi yolnan gedirdi. Gəlib güllü-çiçəkli laləzarlığa yetişir. Görür ki,çəməndə gözəl bir qız oturub, cavan bir oğlan da başını qoyub qızın dizinin üstünə, yatıb. Addım səsini eşidən oğlan ətrafına baxır, kişini görür, cəld ayağa qalxır. Onu ehtiramla qarşılayıb salam verir. Nurani kişi əleyk alandan sonra onların oturduqları yerə gözucu nəzər salır. Görür ki, mey dolu bir piyalə oğlanın qabağındadır. Ağzından da şərab iyi gəlir. Oğlan kişiyə deyir:

-Ay əmi, bir de görüm, hardan gəlib, hara gedirsən? Yorğun olarsan, ac olarsan, aşağı otur, yeyək-içək, sonra gedərsən.

Kişi deyir:

-İndi ki soruşdun, deyim hara gedirəm. Gedirəm Allahımın yanına, onunla bəzi işlər haqqında məsləhətlər almalıyam.

Oğlan kədərlə dillənir:

-Bir halda ki, Allahının yanına gedirsən, onda mənim bir diləyimi ona çatdır. Bax, bu qızla neçə ildir evliyik, ancaq uşağımız olmur. Allahına de ki, noolar, bizə bir övlad əta etsin.

Kişi:

-Yaxşı, sənin sözünü Allahıma çatdıraram- deyib yoluna davam etdi.

Kişi gəlib bir zahidin komasına çatır. Görür ki, yaşlı bu kişi hey zikr edərək Allaha ibadət edir. Kişi ona yaxınlaşır, salam verir, əleyk alır. Zahid ondan soruşur:

-A kişi, hardan gəlib hara gedirsən?

Kişi cavabında deyir:

-Allahımın yanına.

Zahid deyir:

-Bir halda ki, Allahının yanına gedirsən, mənim də ərzi-halımı ona çatdır. Bu qədər ömür sürmüşəm, neçə ildir Allaha ibadət edirəm, ancaq bir züryətim yoxdur ki, yolumu davam etdirsin. Allahımdan mənə bir övlad istə.

Nurani kişi “Baş üstə” deyib yoluna davam edir.

Bir neçə vaxt keçir, nurani qoca geri qayıdır. Zahidin yanından keçəndə o, qocadan soruşur:

-Mənim xahişimi Allaha çatdırdınmı? Allah nə dedi?

Qoca cavab verip:

-Bəli, xahişini Allaha çatdırdım. Allah dedi ki, zahidə deyərsən ki, qırx dəvə alsın, qırxını da iynənin ulduzundan keçirsin, axırıncı dəvəni keçirəndə onun bir oğlu olacaq.

Zahid rişxəndlə dillənir:

-Eh... Mən qırx dəvə alası, onları iynənin ulduzundan keçirəsi.., yox, bu əmələ gələn iş deyil. Dəvə də iynənin ulduzundan keçərmi?

Nurani kişi bir söz demədən cavanların yanına gəlir. Görür ki, oğlan yenə də yemək-içməklə məşğuldur. Qabağında da bir tuluq şərab var. Kişini görəndə yenə də cəld ayağa durur, kişidən soruşur:

-Nooldu, əmi, mənim xahişimi Allahına çatdırdınmı? Allahın nə dedi? Övladsızlıqdan ürəyim çat verib. Dərdimi şərabla dağıdıram.

Nurani kişi zahidə dediyi sözləri bu cavana da deyir. Cavan qəmgin-qəmgin dillənir:

-Allahın könlü olsaydı mənə övlad verərdi. Hər şey onun əlindədir, istəsə bir dəqiqənin içində qırx dəvəni iynənin ulduzundan keçirər, istəməsə yox...

Oğlan belə deyib yenə şərab içməyə başlayır. Nurani kişi ordan çıxıb gedir.

Aylar keçir, cavan oğlanın gəlir bir oğlu olur. Nurani kişi yenə yolnan gedirmiş. Zahid onu görüb, şikayətlənir:

-Mən Allahıma neyləmişəm ki, mənə züryət vermədi? Bir dəfə də olsun orucumu, namazımı yadımdan çıxarmamışam. qırx ildir ki, Allahıma ibadət edirəm. O cavan oğlan isə, nə namaz qılır, nə oruc tutur. Heç Allahını da tanımır. Ancaq Allah ona ibadət edən bəndəsinə yox, onu tanımayan o cavana züryət verdi.

Zahid axırıncı sözünü deyib qurtarmışdı ki, qeybdən bir səs gəldi:

-Ey mənim bəndəm! Sən qırx il ibadət etsən də, mənim hər şeyə qadir olduğumu dandın. Ancaq ibadət etməyən bəndəm isə dedi ki, qırx dəvəni iynənin ulduzundan istəsə Allah bir dəqiqədə keçirər. Gördüm ki, sən mənə şəkk edirsən, cavanın isə ürəyində mənə inam var. Sən innən belə  nə qədər ibadət etsən də, mənə inamın yoxdur. Uşağı da o cavana verdim ki, mənə qarşı ürəyində böyük inamı var.

## İMAM ƏLİNİN MÖCÜZƏSİ

Günlərin bir günü İmam Əlinin uşaqları İmam Həsənlə İmam Hüseyn mədrəsədən evə qayıdırdılar. Hər gün gedib-gəldikcə qulaqlarına Həzrət Əlinin möcüzələrindən bəhs edən söhbətlər gəlib çatırdı. Qardaşlar təəccüblə bir-birinin üzünə baxıb deyirlər:

- Camaat atamızın möcüzələrindən danışır, ancaq biz heç onun möcüzələrini görməmişik axı. Gedək atamızdan soruşaq ki, bu nə söhbətdir danışırlar, deyirlər, atamızın Allah yanında hörməti çoxdur.

Qardaşlar evə çatırlar, görürlər ki, ataları evdədir. Salam verib əleyk alırlar. Həsənlə Hüseyn bir-birinin əbasını dartışdırır. O deyir sən başla, bu deyir sən başla. Əli əleyhissəlam onlara baxıb deyir:

- Ey nuri - didələrim! Siz sözlü adamlara oxşayırsız, nə demək istəyirsiz?

Həsən əleyhissəlam cavab verir:

- Ey babam, biz mədrəsədən qayıdanda camaat sənin göstərdiyin möcüzələrindən danışırdı. Axı onların danışdığını biz heç görməmişik. Camaat danışır ki, sən Allahla danışırsan, Allah sənə hörmət eləyir, səni eşidir. İstəyirik ki, sənin möcüzələrini biz də görək.

Əli əleyhissəlam buyurur:

- Ey mənim gözəl balalarım, ey peyğəmbər nəvələri, siz mədrəsədən gəlibsiz, acsınız, yeməyinizi yeyin, sonra mən sizin istəyinizi göstərərəm, deyərəm.

Həsənlə Hüseyn atalarının dediklərini yerinə yetirəndən sonra gəlib onun hüzurunda dayandılar. Əli əleyhissəlam on-

ları görüb sözə başladı:

- Burdan durub gedin qəbirstanlığa, əhli-qübur və ziyarət duasını oxuyun, girin qəbirstanlığın içinə. Bir neçə qəbir keçəndən sonra qarşınıza bir qəbir çıxacaq. Onda siz deyin: "Əssalam-əleykum, Əla Abdullah". Qarşınıza bir şəxs çıxacaq, sizi qarşılayacaq, sizin onunla nə söhbətiniz olsa, gəlin mənə danışın.

Ataları necə demişdisə, uşaqlar da elə etdilər, getdilər qəbirstanlığa. Uşaqlar qapısı olan bir qəbirin qarşısında dayanıb qəbiri salamladılar. Qəbirin qapısı açıldı, oradan bir şəxs çıxdı, uşaqların salamını aldı:

- Əleyküm-əssalam, ey nuri-didələrim, xoş gəlmisiz, nə buyurursuz?

Uşaqlar dillənməmiş həmin şəxs yenidən dedi:

- Hə, o barmağınızdakı üzük mənimkidir, yaxşı edib gətirmisiz.

Uşaqlar dilləndilər:

- Yox, bu üzük sənin ola bilməz, bunu atamız verib, biz də barmağımıza taxmışıq.

O səxs dedi, mənimdir, uşaqlar dedi, yox bizimdir. Axırda Həsənlə Hüseyn dedilər ki, hər şeyin bir qayda-qanunu var, onda gərək üç şahid gətirəsən, onlar təsdiq etsinlər ki, bu üzük sənindir.

Bu yerdə həmin şəxs dedi:

- Ya Adəm Səfiyullah, gəl, şahidlik eylə.

Birdən qeybdən bir nurani adam peyda oldu, Abdullahın yanına gəlib dedi:

- Ya Abdullah, mənə görə nə qulluq?

Abdullah dedi:

- Sən bunlara şahidlik elə ki, bu üzük mənimdir. Sən bun-

lara söyləməlisən ki, bu üzüyü harda mənim barmağımda görübsən.

Adəm Səfiyullah cavab verdi:

- Ya Abdullah, o vaxt ki, bizi bir işdə şeytan qəzillədi, biz buğdadan yedik, qarnımız xarab oldu, onda Allah - təaladan əmr olundu, bir təbib gəldi, bizi müalicə eləyəndə bu üzüyü təbibin barmağında gördüm, o təbib sən idin.

Abdullah uşaqlara dedi:

- Eşitdiniz ki, üzük mənim barmağımda olub, verin üzüyü.

Uşaqlar dedilər:

- Xeyr, heç elə şey yoxdur. Şahid üç olmalıdır, o biri şahidlərini çağır, gəlsinlər.

Abdullah səsləndi: "Ya Nuh Nəbiyullah!" Uşaqlar baxdılar ki, budur ha, üzü nurlu ikinci bir şəxs gəldi. Yaxınlaşıb salam verdi:

- Əssalam-əleykum, Abu Abdullah! Mənə görə nə qulluq?

- Ya Nuh, bu üzük mənimdir, bu uşaqlar verməkistəmirlər, sən gərək şahidlik edəsən ki, üzük mənimdir. Söylə, eşitsinlər ki, sən bu üzüyü mənim barmağımda harda görmüsən?

Nuh qayıtdı, dedi:

- Ya Abu Abdullah, o vaxt ki, Allah-təaladan səda gəldi, dedi yer üzünü suya qərq edəcəm, ancaq sənin diləyini eşidib dedi ki, Nuh peyğəmbər hər canlıdan bir cüt götürüb yığsın gəmiyə. Mən getdim ki, böyük bir gəmi düzəltdirəm. Onda sən çıxdın qabağıma, soruşdun:

- Hara gedirsən, ey Nuh?

- Dedim ki, gedirəm gəmi qayırtdırmağa. Sən də qayıdıb dedin ki, bax, o təpənin dalında Ucubılıx adlı bir nəfər var, gəmi qayırandır. Mən onda sənə dedim: "O usta bir oturuma yeddi tay təlisin plovunu yeyir, doymur. Mən bir elə düyünü

hardan alıb verəcəm ona. Sən də dedin ki, işin olmasın, iki çörək alarsan, verərsən ona. Ucubılığa deyərsən ki, əlini atıb çörəyi kəsib yemək istəyəndə "bismillah", yeyib qurtaranda "əlhəmdülillah" desin. Onun qarnı iki çörəknən doyacaq, gəmini hazırlayıb verəcək sənə. Sən barmağını uzadanda mən sənin əlində həmin bu üzüyü gördüm. Mən getdim, gəmini qayırtdırdım, gətirdim, dünyanın üzünü su aldı, mənim gəmiyə yığdığım canlılar salamat qurtardı.

Həsənlə Hüseyn bu şahidlə də razılaşmadılar, dedilər ki, üçüncü şahidin gəlsin.

Abu Abdullah yenə səsləndi:

- Ya Cənabi Cəbrayıl , buyur, şahidlik elə. Sən bu üzüyü mənim barmağımda nə vaxt görmüsən?

Uşaqlar baxdılar ki, göydən gözəl bir mələk endi. Salam verib, salam aldı, soruşdu:

- Ya Abu Abdullah, mənə görə nə qulluğun var?

Abu Abdullah dedi:

- Uşaqların barmağındakı üzük mənimdir, ancaq vermək istəmirlər, sən gərək şahidlik edəsən ki, üzük mənimdir.

Cənabi Cəbrayıl dedi:

- Əlbətdə, üzük sənindir. O vaxt mənə mələklər tərəfindən səda gəldi ki, Allah - təala səni dərgahına çağırır, mən uçdum getdim Allahımın yanına.

Allahım məndən soruşdu:

- Sən kimsən, mən kiməm?

Mən Allahıma cavab verdim:

- Sən sənsən, mən də mən. Elə o saat qanadlarım od tutdu, yandı. Özüm də üzüquylu düşdüm torpağın təkinə. Bir qərinə torpaqda qaldım. Qanadlarım yenidən əmələ gəldi. Mələklər xəbər gətirdi ki, Allahın səni yanına çağırır. Qalxdım göylərə.

Allahım yenə məndən soruşdu:

- Sən kimsən, mən kiməm?

Bu dəfə də dedim:

- Sən sənsən, mən də mənəm.

Bu dəfə də qanadlarım yandı, yenə düşdüm yer aləminə. Yenə bir qərinə yerdə qaldım. Qanadlarım üstümə gələndə mələklərdən səda gəldi ki, Allahın səni çağırır. Mən göyün beşinci qatında uçanda sən çıxdın qabağıma, soruşdun:

- Ya Cənabi Cəbrayıl hara gedirsən? Mən onda buyurdum ki, gedirəm Allahımın dərgahına. Bunnan ikinci dəfədir ki, qanadlarım yanıb kül olur. İndi gedirəmsə qorxa-qorxa gedirəm. Yəqin ki, bu dəfə bütün bədənim yanıb kül olacaq. Onda sən buyurdun ki, Allahın səndən soruşsa ki, sən kimsən, mən kiməm? Onda cavab verərsən ki, sən xaliqsən, mən məxluqam, sən yaradansan, mən səndən yarananam. Elə desən, daha sənin qanadların yanmaz, Allahın sənə kömək olar. Bax onda mən sənin barmağında bu üzüyü gördüm, ya Abu Abdullah! Üzük sənindir. Mən Allahın dərgahına getdim, Allahım da məni mükafatlandırdı, sənin məsləhətin sayəsində qanadlarımı daha yandırmadı.

Həsənlə Hüseyn bu söhbətdən sonra üzüyü çıxardıb verdilər Abu Abdullaha. Qəbiristanlıqdan sakitcə çıxıb gəldilər evlərinə. Həzrət Əli əleyhissəlam onları bikef gördü. O, hər işdən xəbərdar olduğuna görə oğlanlarını yanına çağırıb dedi:

- Yaxına gəlin görüm, ey nuri-didələrim! Söyləyin görüm əhli-qüburdan necə gəldiniz?

Həsənlə Hüseyn cavab verdilər:

- Ya baba, bizə bağışladığın üzüyü Abu Abdullah bizdən aldı, ta vermədi, dedi üzük mənimdir.

Həzrət Əli əlini uşaqlarına uzadıb soruşdu:

- Baxın, görün bu üzükdürmü?

Uşaqlar dedilər:

- Bəli, baba, bu həmən üzükdür.

Həzrət Əli dedi:

- Siz məndən möcüzə istəyirdiniz, Allahla olan əlaqələrimi bilmək istəyirdiniz. Özünüz hamısını görüb şahid oldunuz. O adam da mən idim. O da mənim möcüzələrim idi.



## HEÇ NƏ GİZLİ QALMIR

Keçmiş zamanlarda ata-anadan yetim bir bacı-qardaş olur, bacı lap körpə imiş. Qardaşı onu qucağında, dalında saxlayır, böyüdür, bir yekə qız edir. Bir gün bacı gəlib qardaşına deyir ki, hamının qardaşı evlənir, hamının evinə gəlin gəlir, sən də evlən, evimizə gəlin gəlsin. Oğlan deyir, yaxşı, bacı, mən evlənib birini gətirərəm evə, sən də birinə gedib xoşbəxt olarsan. Oğlan gedib bir qız seçir, alır, gətirir evə. Onlar bir müddət bir yerdə mehriban yaşayırlar. Gəlin başlayır fikir verməyə, görür ki, əri çöldən evə gələndə birinci bacısı ilə görüşür, bacısının başını tumarlayır, kefini soruşur, sonra arvadının yanına gəlir. Gəlinin bir oğlu olur. Gəlin görür ki, uşaq da oldu, qardaş yenə birinci bacısını əzizləyir, sonra oğlunun yanına gəlir. Günlər keçir, ay dolanır, gəlini paxıllıq hissi bürüyür, fikirləşir ki, bu qız ərə də getmədi, canım bunun əlindən qurtarsın. O, bizim aramızda bitib qalıb, ərim onu daha çox istəyir, onu məndən əziz tutur, nə edim ki, bacısı onun gözündən düşsün. O gündən gəlin qızın adından hər gün bir yalan deməyə başlayır. Qardaş bacısını çağırır, arvadının dediklərini ona deyir, bacısı da ağlayıb:

- Yalandır, belə şey olmayıb - deyir.

Gəlin görür ki, bunların arasını vura bilmir, daha da qəzəblənir, deyir:

- Siz siz olun, mən də mən, sizin aranızı vurmasam, sizi qanlı eləməsəm dədəmin qızı deyiləm.

Acıqlı başda ağıl nə gəzir? Gəlin fikirləşir ki, çağanı öldürüm, qızın boynuna atım, ərim onu evdən qovsun, sonra birini də doğaram, ərim də ancaq məni istəyər, daha heç kim

bizim aramıza girməz.

Oğlu qundaqda imiş, gəlin gedir bir bıçaq gətirir, oğlunun boğazını kəsir, çağanı qan götürür . Bıçağı qatlayıb qoyur bacının cibinə. Bacı yatmışdı. Səhər duranda görürlər ki, uşaq ölüb. Gəlin haray-həşir salır ki, gecə gəlib uşağın başını kəsiblər. Ora qaçırlar, bura qaçırlar, heç kəsi tapa bilmirlər. Gəlin ərinə deyir:

- Sənin bacından şübhələnirəm, bəlkə elə oğlumuzun başını bacın kəsibdi? Özü ərə getməyib, xainlikdən uşağın başını kəsib ki, sənin də uşağın olmasın.

Qardaş gəlinə acıqlanır:

- Mənim bacım elə iş tutmaz, etmə-eləmə, belə söz danışma, günaha batarsan.

Gəlin nırt deyib durur. Qonum-qonşu başlayır ora-buranı axtarmağa. Bıçağı bacının pencəyinin cibindən tapırlar. Baxırlar ki, ağzı qanlıdır. Gəlin daha da qeyzlənib deyir:

- Bə deyirdin bacım belə iş tutmaz? Nə oldu, qanlı bıçaq onun cibində nə gəzir? Öldürüb, sonra da qoyub cibinə. Ya gərək sən bacını öldürəsən, ya gərək onu bu məmləkətdən çıxardasan.

Qardaş arvadının qara-qışqırığına inanmasa da, bacısını öldürmək adı ilə şəhərdən çıxardır. Bacısı ağlayaraq deyir:

- Qardaş, mən sənin uşağının başını niyə kəsməliyəm ki? Mən sənin uşağının başını kəsməmişəm.

Qardaşı qəmgin cavab verir:

- Biz bacı-qardaşıq, sən ata-anamın yadigarısan. Mən səni öldürməyəcəm. Sən mənim balamın başını kəsdin, çıx get bu məmləkətdən, mənim gözümə görünüb məni yaralama.

Bacı nə qədər and-aman eləyib göz yaşı töksə də, qardaş ona inanmır, onu meşənin bir qırağında qoyub çıxıb gedir.

Qız ağlaya-ağlaya cığırla getməyə başlayır. Axşam düşür, gecə olur, qız yolu itirir, birdən qulağına it səsi gəlir. İtlər hürə-hürə onun üstünə gələndə görür ki, itlərin dalınca da bir adam gəldi. Baxır ki, bu bir ovçudur, yanındakı da ov itləridi. Ovçu qıza yaxınlaşıb soruşur:

- Ay qız, sən kimsən, hardan gəlib-hara gedirsən?

Qız ağlaya-ağlaya cavab verir:

- Mən bu yaxın kənddənəm, atam-anam ölüb, heç kimim yoxdur, meşə ilə gedirdim, yolu azmışam.

Ovçunun qıza yazığı gəlir, deyir:

- Qorxma, gəl gedək bizə, mən bu yaxın kənddə oluram.

Onlar gəlib çıxırlar ovçunun evinə. Ovçu görür ki, vallah, bu qız çox qabiliyyətli qızdır. Ovçunun bir anası vardı, anasına deyir ki, ana, elə bu qızı al mənə, evlənim. Get mollanı çağır gəlsin, bunun kəbinini mənə kəssin. Ana mollanı çağırır, molla qızın kəbinini kəsir bu oğlana. Ana, bala, gəlin şad-xürrəm yaşamağa başlayırlar.

Bunlar burda qalsınlar, sizə kimdən deyim, qızın qardaşı ilə gəlindən. Qızın qardaşının bazarda dükanı varmış, hər gün tezdən dükana gedər, alverini edib axşam da evinə qayıdarmış. Bir gün tezdən dükana gedir, işi olduğu üçün evə vaxtından tez qayıdır. Əbəs yerə deməyiblər ki, Allah- təala haqqı nahaqdan ayırır, bir az geci-tezi var. Qardaş evə gəlir, görür ki, baldızı onlara gəlib, arvadı ilə söhbət edir. Baldızı arvadına deyir:

- Sən niyə belə elədin, uşağın başını niyə kəsdin?

Gəlin bacısına cavab verib deyir:

- Oldu-oldu, daha neyniyim? Budur, biri də qarnımda, bu gün-sabah olacaq, təki bacı-qardaş bir yerdə olmasın. Gördün, başımdan elədim, cəhənnəm oldu getdi.

Baldızı deyir:

- Yox ey, bacı, o qız yazıqdır, gərək elə etməzdin.

- Heç nə olmaz, uşağın başını özüm kəsdim, bıçağı da qoydum onun cibinə, qovdurdum, getdi.

Bu dəmdə gəlinin əri girir içəri, deyir:

- Deməli uşağın başını sən kəsdin, hı?

Bacılar cavab tapmır deməyə, görürlər ki, oğlan hamısını eşidib. Oğlan deyir:

- Bir halda ki, sən öz doğma balanın başını kəsdin, səndən olan da, bizim nəslimizdə baş kəsən olacaqdır. Ona görə sən mənim evim də qala bilməzsən.

Sonra da üzünü baldızına tutub deyir:

- Özününkülərə xəbər elə, gəlin, ləçərinizi də götürün gedin.
Oğlan baş götürüb kənddən çıxıb gedir. Gedib bir kəndə yetişir, bu o kənd olur ki, bacısı ovçu ilə burada yaşayırdı. Gedib bacısını tapıb deyir:

- Sənin günahın yox imiş. Bacı, arxayın ol, hər şey aydın oldu, indi heç nədən nigaran deyiləm. Mən bu vilayətdən çıxıb gedəcəm. Sən ərinlə xoşbəxt yaşa.

Allah-təala haqq söhbətin üstünü açır, Allahdan heç nə gizlin qalmır.

## GÜNAHSIZ MƏXLUQLAR

Keçmiş zamanlarda bir padşah var imiş. Bu padşah əhli-əyalını, rəiyyətini yaxşı dolandırırdı. Hamı bir-birinə can deyib, can eşidirdi. Qonşu diyarın hökmdarı İbn Ziyad onun ədalətli padşah olduğunun sorağını eşidib ziyarət etmək üçün bu diyara gəlir. Onu ədəb-ərkanla qarşılayıb saraya gətirirlər. Padşah böyük hörmətlə onun ayağına durur, şəninə ziyafət düzəldir. Hökmdar bir xeyli qonaq qaldıqdan sonra öz diyarına getmək üçün padşahdan izn istəyir, təzim edib deyir:

- Qibleyi-aləm, mən səni öz ölkəmə dəvət edirəm. Gəlib bir az da mənim məmləkətimdə qonaq olarsan.

Padşah cavab verir:

- Dəvətinə görə səndən çox razıyam, sağ ol. Ancaq mən birinci dəfə qardaşımı göndərəcəm, öyrənsin, görsün sənin təbəələrin sənə necə hörmət edirlər, sənə necə tabe olurlar. Mənə bu haqda məlumat çatanda gəlib sizdə qonaq qalaram.

Hökmdar padşahla görüşüb sağollaşır, pay-püşlə öz ölkəsinə yola düşür.

Bir müddət keçir. Padşahın qardaşı başının dəstəsilə hökmdarın şəhərinə getməyə üz qoyur. Bir neçə gün yol getdikdən sonra gəlib bir səhralığa çıxırlar. Padşahın qardaşı görür ki, bir ovçu ceyran ovlayıb, ceyranın başını kəsməklə məşğuldur. Fikirləşir: «Mənim ki, qənşərimə qan çıxdı, bu heç yaxşı əlamətə oxşamır, demək bizi qabaqda qanlı bir savaş gözləyir».

Padşahın qardaşı yolun yarısından qayıdıb saraya gəlir, padşahın hüzuruna gedib gördüklərini danışır, ondan məsləhət istəyir.

Padşah deyir:

- Bizim düşmənlərimiz o torpaqları zəbt ediblər. Biz mütləq qoşun çəkib torpaqlarımızı azad etməliyik.

Padşahın qardaşı, qoşunun sərkərdəsi Yunus qardaşının bu sözü qarşısında bir az fikrə gedir, az sonra deyir:

- Bu qanlı döyüş olacaq, bir az düşünmək gərəkdir. Heç nədən qoşunu qırğına verərik.

Ağıllı hökmdar ona qulaq asır və deyir:

- Qardaş, olmaya qorxdun? Əgər elədirsə onda mən qoşuna başqa bir sərkərdə təyin edərəm. Qoşun düşmənləri məhv edər və torpaqlarımıza sahib olarıq.

Sərkərdə Yunus hökmdarın bu sözlərindən xəcalət çəkir, uşaqlarını və qoşununu götürüb yenidən zəbt olunmuş torpaqları almaq üçün düşmən üstünə yeriyir. İstəyirdi ki, döyüşü oğlanları öz gözlərilə ilə görsün, vuruşmağı öyrənsinlər. Şəhərə bir neçə verst qalanda qoşun dayanır. Sərkərdə şəhərə adamlar göndərir. Təslim olmağı əmr edir. Şəhər əhlinin çoxu Yunus tərəfə keçir. Bunu eşidən şəhərin hökmdarı İbn Ziyad camaatı yığıb elan edir:

- Ay camaat, gəlin belə etməyin, şeytan əməlinə baxmayın. Mənim 40 minlik qoşunumun qabağında onlar heç nə edə bilməzlər. Onlar sizi öldürəcək, ailənizi də əsir aparacaqlar.

Şəhər əhli çaş-baş qalır. Sərkərdə Yunus görür ki, müharibəsiz ötüşməyəcək, yanınca apardığı iki balaca oğlunu şəhərin qazısının yanına əmanət qoyur. Şəhər qazısı onunla dost idi. Özü qayıdır qoşunun içinə. Savaş başlayır. Düşmənin 40 minlik ordusu Yunusun ordusuna qalib gəlir. Əsgərlərdən bir nəfər Yunusa deyir ki, 3 minlik qoşun qırılıb, sən tək qalmısan, səni öldürə bilərlər, qaç canını qurtar. Yunus qabağa gedir, bir uçuq məscidə girib orada daldalanır. Gecəni orda keçirir, səhər namazını qılıb, döyüş paltarını geyinir. Bu

zaman düşmən tərəfdən 300 əsgər gəlib Yunusu tutur, silahını alır və hökmdarın hüzuruna gətirir. Hökmdar onu sorğu-suala çəkir:

- Sən nəyə görə bizim torpağa hücum çəkib müharibə edirsən?

- Hökmdar, bu torpaqlar dədə-babadan bizim olub, bizim də olmalıdır.

Bu sözləri eşidən hökmdar əmr elədi, onu uzatdılar taxtın üstünə. 79 çubuq vurdular, 80-ci çubuğu vuranda igid Yunus qan içində huşunu itirdi və bir az keçmiş dünyasını dəyişdi.

Dünyadan şeytan xali deyil. Hökmdara xəbər gətirdilər ki, Yunusun iki oğlu var, şəhərdə gizlədiblər. Oğlanların birinin adı Məhəmməddir, o birinin adı İbrahimdir. Sən onları həbs edib öldürməsən, onlar böyüyəndən sonra səndən atalarının intiqamını alacaqlar.

Hökmdar İbn Ziyad fərman verdi: "Kim Yunusun oğlanlarını tapıb mənim hüzuruma gətirsə, ona hökmdar tərəfindən ənam veriləcək. Kim ki, oğlanları pünhan saxlasa, verməsə, o adama ən ağır cəza veriləcək".

Qasidlər ata minib varid oldular kərə-kəfşənə, oba-oba, el-el başladılar Yunusun oğlanlarını axtarmağa.

Şəhər qazısı bu fərmandan xəbər tutdu, qorxdu, oğlanları yanına çağırıb dedi:

- Oğlanlarım, gəlin sizi yola salım, çıxın gedin vətəninizə.

Qazının Əsəd adında oğlu var idi, onu çağırıb tapşırıq verdi:

- Oğul, İraq qapısında bir karvan dayanıb, apar bu uşaqları tapşır karvanbaşıya, aparıb vətəninə çatdırsın. Yoxsa İbn Ziyad bu uşaqları tapıb öldürəcək.

Əsəd uşaqları da götürüb gəldi İraq darvazasının yanına,

gördü ki, karvan yoxdur. Ona xəbər verdilər ki, karvan bir az var ki, yola düşüb. Əsəd uşaqlara dedi:

- Bax, bu düz yolu görürsünüz? Düz yolu tutun, heç yana dönmədən, iti qədəmlə gedin, karvana çatın.

Deyirlər ki, Allah-təaladan qəza gələndə heç nəynən onun qarşısını ala bilməzsən. Uşaqlar bir qədər gedəndən sonra gəlib iki yol ayrıcına çıxdılar, çaş-baş qaldılar. Bilmədilər sağ tərəfə dönən yolnan getsinlər, ya sol tərəfə dönən yolnan. Bir yolu tutub getdilər. Gethaget gəlib o yerə çatdılar ki, səhər burdan karvanın dalınca getmişdilər. Ətrafa boylandılar, yaxınlıqda bir bağ gördülər, keçdilər ora, bağdakı hovuza söykəndilər, başladılar ağlamağa. Bu zaman bağban bağda idi, səsə dönüb gəldi. Başa düşdü ki, bu həmin axtarışda olan uşaqlardır. Onları götürüb sahibinin yanına apardı. Sahib evdə yox idi. Uşaqları verdi sahibin övrətinə. Övrət bildi ki, bu uşaqlar Yunusun oğlanlarıdır, uşaqları yedirib-içirdi, çimizdirdi, yerlərini salıb yatızdırdı.

Uşaqlar yatmışdılar. Yuxuda onlar hər ikisi eyni yuxu gördülər, hövlank oyanıb bir-birinə gördükləri yuxunu danışmağa başladılar. Övrətin Hariz adlı oğlu o biri otaqda idi. Səs eşidib qulaq asmağa başladı. Oğlanlar yuxu danışırdılar: “Atamız Allahın dərgahında idi, çox narahat idi, ağlayıb Allaha yalvarırdı. Allah dedi: "Yunus, sən uşaqları o qansızların əlində qoydun, darıxma, onlar da tezliklə gəlib bizə qovuşacaqlar". Hariz anasından soruşur:

- Ana, o biri otaqdan səs gəlir, onlar kimdi elə?

Övrətin oğlu da həmin oğlanları axtarırdı ki, tutub aparıb versin İbn Ziyada, çoxluca ənam alsın. Odur ki, durub o biri otağa keçdi, oğlanlardan soruşdu ki, siz kimsiniz. Oğlanlar elə hesab etdilər ki, bu oğlanın anası onlara yazığı gəlib, yax-

şılıq edib, oğlu da yəqin yaxşı olar. Odur ki, dedilər: "Biz qoşun başçısı Yunusun oğluyuq".

Övrətin oğlu bunu eşidib sevindi: «Aparıb verrəm hökmdara, çoxlu qızıl alaram». Səhər açıldı. Evdəki qulu, bir də uşaqları götürüb getdi Fərat çayının sahilinə. Fikri buydu ki, uşaqların başını kəsib, bədənini tullasın, başını hökmdara ərmağan aparsın. Özü günaha batmasın deyə qulu da özü ilə götürmüşdü ki, qul uşaqların başını kəssin. Qul bundan imtina etdi. Dedi ki, kim ki, günahsız insanı öldürər, sonra o dünyada cəhənnəm odunda yanar. Hariz hirsləndi, qulun qolunu geri qanırdı, qulun qolu sındı və çoxlu qan itirdiyindən canını tapşırdı. Harizin övrəti də gəlib çıxmışdı. Ha dedi, uşaqlara dəymə, bunlar günahsız məxluqlardır, burax getsinlər öz vilayətlərinə, Hariz yenə qulaq asmadı. Övrəti yenə yalvarmağa başladı: «Onda apar ver hökmdara, özü necə cəza verər, verər». Hariz yenə razı olmadı, ona mane olmaq istəyən övrətini nizə ilə vurub yaraladı. 8 yaşlı Məhəmməd ona yalvarmağa başladı:

- Sən gəl bizi öldürmə, başımızı qırxdır, apar bizi qul bazarında sat, o pulnan dolan. Müharibə edib, atamızı öldürübsüz.

Hariz razı olmadı. Məhəmməd yenə dilləndi:

- Onda gəl gedək bizim vilayətə, atamın nə qədər malı-dövləti var, verək sənə.

Hariz yenə razı olmadı. Oğlanların başını kəsib torbaya qoydu, bədənlərini atdı Fərat çayına.

Hariz uşaqların başı olan səbəti gətirdi İbn Ziyadın hüzuruna. İbn Ziyad torbadakı başları görəndə ürəyi xarab oldu, özünə gələndə Harizə dedi:

- Hökmdar mənəm, mən bu işi eləməzdim. Sən çox zalım

adamsan, sən əzabla ölməlisən.

Bunu deyib əmr etdi:

- Aparın onu hardakı uşaqların başını kəsib, orda ətini tikə-tikə doğrayın, sonra da başını bədənindən ayırıb cəhənnəmə vasil edin.

Harizi belə də etdilər. Başını kəsib atdılar Fərat çayına, çay onu qəbul etmədi, atdı sahilə, torpaq da qəbul eləmədi, məcbur olub Harizin cəsədini yandırdılar, külünü də göyə sovurdular.

Sizə nədən deyim uşaqların çaya atılmış bədənindən. Harizi gətirəndə uşaqların başını da gətirmişdilər. Uşaqların başını atdılar bədənin yanına. Uşaqlar mələk timsallı idilər, heç bir günah işlətməmişdilər. Odur ki, başlar və bədənlər üzə-üzə yaxınlaşdılar, suyun altında birləşdilər, suyun üzərinə çıxdılar. Allah yenidən onlara ruh verdi. Oğlanlar sahilə çıxdılar və öz vilayətlərinə döndülər.

## YOX OLAN ATLI

Keçmiş zamanlarda üç nəfər çox təcrübəli və məşhur oğru var imiş. Bunları nə qədər istəyiblər tutsunlar, mümkün olmayıb. Onlar kəndlilərin, varlıların mal-heyvanını talayır, oğurlayıb aparırmışlar.

Günlərin birində oğru qardaşlar obalardan birinə hücum edirlər. Görürlər ki, çəmənlikdə doqquz at otlayır, balaca bir oğlan da atların yanındadır. Uşağa bir söz demədən atları qatırlar qabaqlarına. Uşaq yaxınlıqda görünən komaya tərəf götürülür. Oğrular atlar da qabaqlarında həmin komaya tərəf gedirlər, çünki yol ordan keçirdi. Komanın qabağında bir qadın dayanmışdı. Oğruları görüb təmkinlə dedi:

- Oğul, bala, özünüzü qana salmayın, atları buraxın.

Oğrular arvada əhəmiyyət verməyib yollarına davam etdilər. Bir az getmişdilər ki, bir atlının onlara sarı çapdığını gördülər. Toz-duman içində atlı zorla seçilirdi. Oğrular başa düşdülər ki, bu gələn atların sahibidir. Fikirləşdilər ki, bu bir nəfər atlı onlara nə eləyə bilər? Odur ki, çox arxayınlıqla silahlarını çiyinlərindən aşırıb hazır saxladılar. Oğlan yaxınlaşanda oğrulardan biri ona atəş açdı. Baxdılar ki, oğlan atın üstündə yoxdur. Qürrələndilər ki, bir gülləyə oğlanı öldürüb atdan salıblar. Bir az gözlədilər, gördülər ki, at yenə onlara sarı gəlir, oğlan da üstündə. İkinci dəfə yenə ona tərəf güllə atdılar. Bu dəfə də oğlan görünməz oldu. Oğrular sevindi: "Bax, belə vurarlar, oğlanı öldürdük." Bir qədər də keçdi. Oğrular gördülər ki, oğlan yenə atın üstündə onlara tərəf gəlir. Bu işə oğrular təəccüb etdilər. Bu dəfə oğrubaşı oğlana tərəf

güllə atdı. Oğlan yenə də yox oldu. At onlara lap yaxınlaşmışdı. Baxdılar ki, atın üstü yalındır, ona altdan bircə bir qayış sarımışdılar. Oğrular bu müəmmadan çox qorxdular, təşvişə düşüb gözlərini ata zillədilər. Başa düşdülər ki, güllə açılanda oğlan qayışdan tutub sivrilərək atın altında gizlənirmiş.

Atlı oğrulara yaxınlaşıb onlara əmr etdi:

- Silahları atın yerə, yoxsa hamınızı qıraram!

Oğrular özlərini itirdiklərindən dinməz-söyləməz oğlanın əmrinə tabe oldular. Oğlan tez atdan yerə sıçradı, silahların çaxmaqlarını çıxartdı. Əmr etdi ki, tüfəngləri götürsünlər. Oğrular ocağa atmaqdan başqa heç nəyə yaramayan qundaqları qucaqlarına götürdülər. Oğlan atları və oğruları qabağına qatıb aparmağa başladı. Obaya yaxınlaşanda oğlan oğrulara dedi:

- Götürün çaxmaqları, taxın yerinə, obaya hansı vəziyyətdə gəlibsizsə, o cür də girməlisiz. Obada görəndə desinlər ki, filankəsin qonağı gəlib, daha ayrı adnan obaya girməyin.

Oğrular oğlanın bu mərd hərəkətindən başlarını qaldıra bilmir, xəcalət çəkib tər tökürdülər. Oğlan onları evinə gətirdi.

Anası tez əl-ayağa düşdü. Çoban tez bir əmlik gətirib kəsdi. Oğlan oğrulara yaxşı bir qonaqlıq verdi. Yedilər, içdilər, oturub söhbət eləməyə başladılar. Oğlanın anası söhbət əsnasında dedi:

- Bala, mənə elçi gəlmişdi, bilirsiz, atam onlara nə dedi? Dedi ki, gərək mənə 39 madyan, bir dənə də ayğır gətirəsiz.

Oğrulardan biri söhbətə qarışdı, ananın nəyə işarə etdiyini başa düşməyib dedi:

- Mənimsə anamı atam götürüb qaçıb, qaynatası da heç bir

şey istəməyib.

Oğlanın anası bu yerdə özünü saxlaya bilməyib dedi:

- 39 madyan, bir ayğır istəyən kişinin nəvəsi mənim oğlum kimi mərd, igid, heç nə istəməyən kişinin nəvəsi də sənin kimi oğru, nəfsli olar.



## BİÇİNÇİNİN YALANI

Kənddə aclıq dövrü olur. Yazbaşı bıçinçilər ruzu qazanmaq üçün başqa yerlərə taxıl biçməyə gedirmişlər. Bir ili də bir neçə nəfər kişi bir-birinə qoşulub başqa bir kəndə taxıl biçməyə gedirlər. Bir nəfərə taxıl biçirlər. Axşam olur, biçinçilər gecəni həmin adamın evində qalmalı olurlar. Ev sahibəsi yemək, içmək gətirir, ancaq onun qaş-qabağı heç açılmır. Biçinçilərdən biri soruşur:

- Sənin yoldaşın niyə elə qaş-qabaqlıdır, üzü heç gülmür?

Ev sahibi deyir:

- Üzü necə gülsün? O, düz on dörd ildir ki, mənim evimdədir, ancaq uşağı olmur. Nəyə baxıb sevinsin?

Biçinçilərdən birinin ona yazığı gəlir, deyir:

- Bilirsən, bizim kənddə bir bulaq var, kim onun suyundan içirsə, uşağa qalır.

Biçinçi ruzu qazanmaq xatirinə yalan danışırdı. Evində ac uşaqları onun yolunu gözləyirdi. Bir çətən külfəti vardı. Ev sahibi onun sözlərinə sidqi-ürəkdən inandı. Biçinçinin pulunu artıqlaması ilə ödəyib onu kəndə su dalınca göndərdi. Biçinçi su içdiyi bardağı ot tayasının içində gizlətdi. Kəndə çatıb evinə gəldi, aldığı bazarlığı və pulu aradına verdi. Bir az da dincəlib təzədən həmin kəndə qayıtdı. Yolüstü bardağı bulaqdan doldurdu, onu da gətirib ev sahibinə verdi və taxıl biçməyə getdi.

Ev sahibi sevinərək həvəslə bardaqdan su töküb içdi, sonra arvadına da bu sudan verdi. Biçin vaxtı qurtardı, biçinçilər pullarını artıqlaması ilə alıb evlərinə döndülər.

Bu hadisədən bir ilə yaxın vaxt keçdi. O biri yaz biçinçilər

yenə də taxıl biçininə getdilər. Bircə uşağı olmayanlara su aparan biçinçidən başqa. O, yalan danışdığına görə xəcalət çəkdiyindən biçinə getməmişdi.

O biri kəndən, taxıl sahibindən soraq gətirdilər: «Filankəs niyə gəlib haqqını aparmır? Onun haqqı mənim boynumda qalıb». Biçinçi öz-özünə düşünür: «Yəqin kişi məndən inciyib, ona görə də mənə tənə edir». Ancaq ona deyəndə ki, taxıl sahibinin bir oğlu olub, biçinçini təəccüb bürüyür. Hey götür-qoy edir; bilmir ki, taxıl sahibi elə sidqi-ürəkdən inandığına görə uşaqları oldu, yoxsa uşaqlarını dolandırmaqdan ötrü zəmi sahibinə yalan danışmağa məcbur olduğuna görə Allah ona rəhmi gəlmiş, onlara uşaq vermişdi. Hər halda zəmi sahibinin uşağı olmuşdu…

Zəmi sahibi ona bir yanı balalı inək, yeddi qoyun, bir at, ərzaq dolu xurcun yüklənmiş bir ulaq verdi. Onlar dünyalarını dəyişənə qədər dost oldular, gediş-gəlişləri oldu. Zəmi sahibi həmin biçinçini də oğluna kirvə tutdu.

Ona görə deyirlər ki, inam olan yerdə bin-bərəkət də olar.

## MÜDRİK ARVAD

Belə rəvayət edirlər ki, İmam Əli əleyhissəlam bir şəhərə gəlir. Məqsədi də bu olur ki, şəhər əhlini dinə-imana, Allah yoluna gətirsin. İmam Əlinin dəstəsində Qənbər adlı imam övladı bir kişi var idi. Şəhər əhli İmam Əlini xing eləməkdən ötrü onun yaxınlarından biri olan Qənbəri şərləmək üçün bir gəlini öyrədirlər. Qənbər şəhərdə gəzərkən bu gəlinlə üzbəüz gələndə gəlin qəsdən ona toxunur. Qənbər bir söz demədən ondan aralanır, qanıqara komasına qayıdır. Arvadı ondakı dəyişikliyi görüb soruşur:

- A kişi, sənə nə olub, qanın niyə qaradır?

- Heç soruşma, arvad, bazarda bir gəlinlə rastlaşdım, döş-döşə gəldik - deyə kişi qəmgin cavab verir.

- A kişi, gəlin sənə nə dedi?

- Heç nə, arvad, elə mənə toxundu, tələsik çıxıb getdi.

Arvad bir az fikirləşib deyir:

- Sənə bir şey vermədi ki?

- Yox, heç nə vermədi.

- Ola bilməz, bir qurşağına bax gör, orada bir şey-zad yox-dur ki?

Kişi əl atır qurşağına, əlinə bükülü bir şey dəyir. Tez götürüb açır, görür ki, bir balaca taxta qırıntısıdır, bir saman çöpüdür, bir azca da torpaqdır. Qənbərin arvadı əhli-beyt idi, peyğəmbər nəslindən idi. Odur ki, ərinə deyir:

- Gəlin bunları sənə ötürməklə demək istəyir ki, torpaqdan damım var, qapısı taxtadandır, üstünə də saman tökmüşəm, bizə gələrsən. İndi kişi, sən dur get o gəlingilə, gör səndən nə istəyir.

Qənbər arvadının məsləhətini eşidib durur ayağa, gedir gəlingilə. Qapını döyür, gəlin qapını açır. Gəlin geri qayıdıb dinməz-söyləməz bir ayna gətirir. Güzgü tərəfini yox, o biri tərəfini qonağa çevirir. Qənbər komasına gəlib olanları arvadına danışır. Arvadı deyir:

- Ay kişi, gəlin deyir ki, bizə gündüz yox, gecə gələrsən.

Gecə olur, Qənbər arvadının təkidilə gəlinin yanına gedir. İçəri keçən kimi gəlin hay salır:

- Ay camaat, gəlin, Əlinin adamlarından biri gəlib mənim namusuma toxunmaq istəyir.

Qonşular tökülüşüb gəlir, şəhər nəzarətçisi həm gəlini, həm də Qənbəri tutub zindana salır. Qənbərin arvadı ha gözləyir, görür ki, kişi gəlib çıxmır. Başa düşür ki, kişini həbs ediblər. Durur ayağa, ocaq qalayır, iri bir qazan qoyur ocağın üstünə, başlayır halva çalmağa. Halva hazır olanda halvanı bükür çörəyin içinə, çoxlu ülüş düzəldir. Çarşabını salır başına, ülüşləri yığır iri bir səbətə, üz tutur zindana tərəf. Gəlir gözətçinin yanına, deyir ki, nəzir demişəm, qoy mən gedim öz əlimlə dustaqlara nəzirimi paylayım. Nəzarətçiyə də bir ülüş verir, bir təhər onu razı salır. Gəlib dustaqlara ülüşü paylayır. Baxıb görür ki, əri dustaqların içində yoxdur. Yumşaq səslə nəzarətçidən soruşur:

- Daha başqa dustaq yoxdur, qalan ülüşləri paylayım?

Nəzarətçi heç nədən şübhələnmədən cavab verir:

- Daha iki dustağımız var, ancaq onlara hələ məhkəmə qurulmayıb.

Arvad deyir:

- Burax məni onların yanına, gedim öz əlimlə nəzirimi verim.

Nəzarətçi razı olmaq istəmir. Arvad ona iki dənə də ülüş

verir və nəzarətçini razı salır. Keçir içəri, ərini tanıyır. Gəlinə deyir:

- Sən cavansan, sənin başını qəzillədiblər, gəl mənim çarşabımı ört başına, səbəti də sal qoluna, çıx, qoy get evinə-eşiyinə.

Gəlin Qənbərin arvadının sözünü eşidir, arvadla çarşabını dəyişir, səbəti qoluna salıb eşiyə çıxır. Nəzarətçi onu tanımır, elə bilir ki, bayaqkı arvaddır.

Səhəri gün məhkəmə başlayır. Qənbər deyir:

- Ay camaat, yalandır, mən heç bir yad qadına əyri gözlə baxmamışam, bu yanımdakı da öz halalca arvadımdır. Əgər inanmırsızsa, gedin qonum-qonşudan soruşun.

Nəzarətçilərdən gedib bir-iki qohum, qonşu gətirirlər. Onlar da təsdiq edirlər ki, bu iki nəfər doğrudan da ər-arvaddırlar.

Beləliklə, ağıllı arvadın sözü ilə İmam Əli dəstəsinin adamı şərdən, böhtandan xilas olur. Hamı İmam Əli övladlarının halal adamlar olduğuna bir daha inanırlar.

## NAŞÜKÜRLÜK

Belə rəvayət edirlər ki, keçmiş zamanlarda məscidin qapısı ağzında iki oğlan uşağı oturub dilənirmiş. Günlərin bir günü bir nurani kişi məscidə gəlir. Uşaqların yanına çatanda onlardan soruşur:

- A bala, atan-anan varmı, nəylə dolanırsınız?

Uşaqlar kişiyə cavab verirlər:

- Atamız yoxdur, anamız var, heç nəyimiz də yoxdur, acından ölməyək deyə, səhərdən-axşama dilənirik, axşam bir çörək alıb aparırıq evə, anamızla yeyirik.

Kişi yenə soruşur:

- Anan namaz qılırmı?

Uşağın biri tez dillənir:

- Anam nə bilir, namaz nədir, nə vaxt durub namaz qılmalıdır…

Kişi bir az düşünüb yavaşca deyir:

- Durun gedin evinizə, ananıza deyin ki, səhər tezdən xoruzun birinci banında dursun dəstəmaz alsın. Dəstəmaz aldığı müddətdə alaqapını açıq qoysun.

Oğlanlar tez evə qaçırlar, kişiylə olan söhbəti analarına danışırlar. Gecəni yatırlar, səhərin alatoranında ana xoruzun ilk banında ayağa durur, alaqapını açır, dəstəmaz aldığı vaxt bir də görür ki, qapıdan ala bir qoyun girdi, yarı uçuq bir damları vardı, getdi girdi o dama. Ana dəstəmaz alıb uşaqlarını oyatdı, dedi ki, damımıza bir qoyun girib, gözdən qoymayın, qaçar. Alaqapını bağlayıb namaz qılmağa başladı. Namaz qılıb qurtarana qədər oğlanları bir neçə dəfə onun yanına girib-çıxdılar. Anaları namazı qurtaran kimi ikisi də bir ağız-

dan, sevinclə dedilər:

- Ana, qoyunumuz doğdu, özü də əkiz.

Ana və balaları sevinib şükür etdilər. Aylar keçdi, il dolandı, qoyunları doğdu, törədi, qapıları sürü ilə doldu.

Nurani kişi bir gün fikirləşdi ki, bir gedim, görüm bu ana-balanın, qoyunun axırı necə oldu. Yol aldı bu obaya tərəf. Gəlib Araz qırağına çıxdı. Gördü ki, oğlanlar uzanıb Arazın qırağında, sürü də yayılıb otlayır. Kişi oğlanlara yaxınlaşıb hal-xoş elədi, soruşdu:

- Bala, ananız namaz qılır?

- Əşi, nə namaz, çıx, qoy get işinə-gücünə. Anamın vaxtı hardandı? Anam namaz qılsın, ya bu boyda qoyunun südünü sağsın, yağ-pendir tutsun, qatıq çalsın, nə qayırsın?

Nurani kişi əsasını vurdu Araza, çay daşdı, sel qoyunları aldı qoynuna, apardı. Sürünün içindəki ala qoyunu götürüb basdı əbasının altına və qeyb oldu. Oğlanlar kor-peşman analarının yanına gəldi. Ana soruşdu:

- Bala, bə niyə gəldiniz, sürünü kimə tapşırdınız?

Oğlanları əhvalatı danışdılar. Ana və uşaqları yenidən əvvəlki həyatlarına qayıtdılar, kasıbçılıqla ömürlərini başa vurdular.

Hə, balalarım, bununla demək istəyirəm ki, naşükürlük, böyüklərə qarşı saymamazlıq etmək olmaz.

## GET, ƏZƏLKİ...

Keçmiş zamanlarda bir kişi yolnan gedirmiş. Gəlib sürüsünü otaran bir çobanla rastlaşır. Çoban soruşur:

- A kişi, hardan gəlib hara gedirsən?

Kişi cavab verir:

- Gedirəm Allahımın yanına.

Çoban deyir:

- Ay qardaş, bir savab iş gör, mənim də ərzi-bəndəçiliyimi elə. Bax, bu gördüyün sürünü becərirəm, vaxtlı-vaxtında otunu, suyunu verirəm, hasıla gələn vaxtı, nə südünü görürəm, nə yununu, nə də balasını.

Kişi baxır ki, heyvanlar da belə ətsizdi, cıbırıxdı, deyir:

- Çoban, get, düzələr.

Bunu deyib kişi qeyb olur. Çoban sürünün yanına qayıdanda gözlərinə inanmır. Sürüdəki qoyunların yunu saçaq-saçaq olub sallanır, piy ətini basıb, hamısının yanı da qoşa balalı.

Bu burda qalmaqda olsun, sizə kimdən deyim, nurani kişidən. Kişı yol gəlib çatır bir bağbanın yanına. Bağban kişini görəndə hal-xoş edib soruşur:

- Hardan gəlib hara gedirsən?

Kişi cavab verir:

- Allahımın yanına.

Bağban başlayır yalvarmağa:

- Səni and verirəm o bir olan Allaha, nə olar, mənim də ərzi-bəndəçiliyimi o yaradana ərz eylə. Bax, bu gördüyün ağaclara qulluq edirəm, otunu biçirəm, suyunu verirəm, dibini boşaldıram, hasıla gələndə hamısını çor vurur, əlim

boşda qalır, bir meyvəsini qırmıram.

Kişi bağbana:

- Bağban, get güzələr - deyib qeyb olur.

Bağban geri dönüb bağa baxanda bağı tanımır. Görür ki, ağacların başı yetişmiş meyvəylə doludur. Meyvələrin ətri ətrafı bürüyüb. Bağban mat-məətəl qalıb fikirləşir: "İlahi, görəsən bu nə işdi?"

Bağban burda qalsın, sizə danışım nurani kişidən. Kişi yoluna davam edirmiş. Görür ki, ondan qabaqda cındırından cin hürkən bir oğlan gedir. Kişi ondan soruşur:

- Ay oğul, hara gedirsən?

Oğlan başını qaldırmadan cavab verir:

- Ay əmi, nə işinə, hara gedirəm? Çıx yolunnan get.

- Ay oğul,nə olar soruşanda, de görüm hara gedirsən?

- Ay əmi, heç kimim yoxdur, yetim bir oğlanam, gedirəm, bu görünən yaxın kəndlərdə işləyəm, bir əppək pulu qazanam ki, acından ölməyəm.

Kişi deyir:

- Mən də elə o kəndə gedirəm, yoldaşlı gedək.

Onlar gəlib yaxınlıqdakı kəndə çatırlar. Baxıb görürlər ki, bir dam var, burdakı damların hamısından böyükdür. Kişi oğlana deyir:

- Bax, ay oğul, o gördüyün böyük dam buranın padşahının evidir. Gedəcəyik ora, padşahın qızını alacağam sənə.

Oğlan gülümsünüb deyir:

- Ay rəhmətliyin oğlu, mən cırın-cındanın içində, kasıb bir oğlanam, acından qıçımı sürüyə bilmirəm, kimdir mənə qız verən?

- Gedək, gedək… Verərlər, niyə vermirlər? Qızı səndən yaxşısınamı verəcəklər?!

Onlar gəlib oturular padşahın elçi daşının üstündə. Nökər-nayib padşaha xəbər aparır ki, bəs, elçi daşının üstündə dilənçilər oturub. Padşah rəhimdil adam idi. Deyir ki, heybələri tutanacan paydan-pülüşdən qoyun, çıxıb getsinlər. Nökərlər yenidən xəbər gətirirlər ki, onlar dilənçi deyil, padşahın qızına elçi gəliblər. Padşah onları içəri dəvət eləyir. Bunlardan başqa iki şəhərin padşahı da qıza elçi düşmüşdü. Padşah onlara deyir:

- Mənim belə bir şərtim var. Kim mənə 40 dəvə yükü behişt meyvəsi və ləl-cəvahirat gətirsə, qızımı ona verəcəm.

Padşahların ikisi də ayağa qalxıb, ətəklərini çırpır:

- Qibleyi-aləm sağ olsun, əgər behişt meyvəsi tapsam, özüm yeyərəm, sənə niyə verirəm, - deyib çıxıb gedirlər.

Nurani kişi padşaha deyir:

- Mən sənin şərtinlə razıyam. Dediklərini gətirəcəm.

Səhəri gün tezdən idi, dan yeri ağarmışdı, nökər durub görür ki, həyətdə meyvə dolu 40 dəvə var, meyvənin ətri düzü-dünyanı götürüb. Qoca kişi qabaqdakı dəvənin ovsarını tutub içəri keçib, dalınca da bir-birinə bağlanmış 40 dəvə. Nökər tez qaçıb padşaha xəbər verir. Padşah əmr edir ki, ləl-cəvahiratı boşaldın xəzinələrə. Meyvələri də aparın padşahın mətbəxinə. Padşah qoca kişiylə oğlunu göndərdi hamama, onlar yuyundular, təmizləndilər, gözəl-göyçək geyinib bəzəndilər. Toy başladı, qırx gün, qırx gecə toy çalındı.

Toy gününün səhəri nurani kişi padşaha dedi ki, ta icazə ver, biz gedək öz torpağımıza. Padşah razı oldu. Qəfilə-qatar düzəldi, gəlinin cehizi dəvələrə yükləndi, ata-bala, gəlin və onları ötürən nökər-nayib yol aldı getməyə. Yolu yarı eləmişdilər ki, kişi padşahın nökərlərinə dedi:

- Daha siz qayıdın, gəlinimi burdan belə özüm aparacam.

Nökərlər  ha deyirlər ki, padşah bizi öldürər, asdırar, qoca deyir, heç nə olmaz, padşahın qızının başına bir iş gəlsə, cavabdeh mənəm. Alın, bu da sizə qol kağızı, kişi belə deyib onlara bir kağız uzadır.

Nökərlər qol kağızını da götürüb qayıdırlar padşahın sarayına.

Qoca oğlu və gəlinilə birlikdə gəlib bir ağacın yaxınlığına çıxırlar. Kişi əlindəki əsa ilə dairə cızmağa başlayır.Dairəni cızdıqca qızıl pullar daşdanıb tökülür. Yetim oğlan nə bilirdi ki, bu qızıl, ləl-cəvahirat nə olan şeydir. Qoca oğlana deyir:

- Bu yerdə uca bir imarət tikdirirsən, şəhərdən ən yaxşı ustaları, fəhlələri dəvət edirsən. Evinin yanından keçən kasıb-kusubu dəvət edirsən, hərəsinə bir dam tikdirirsən, bura böyüyüb olacaq şəhər, sən də olacaqsan şəhərin padşahı.

Kişi bunu deyib qeyb olur.

Padşahın qızı ərilə bərabər bir dəm-dəsgah düzəldirlər ki, gəl görəsən. Bütün yetim-yesirlərə, kasıblara ev tikirlər. Doqquz ay, doqquz gün, doqquz saat keçir, padşahın qızı ilə yetim oğlanın bir oğlu olur.

Bunlar burda kefdə - damaqda olsun, sizə nurani kişidən danışım. Bu əhvalatlardan on ilə yaxın vaxt keçir. Kişi bir gün qərara gəlir ki, gedim bu adamlardan bir halı olum. Birinci gəlir çobanın yanına. Baxıb görür ki,  dümağ sürü yayılıb Arazın qırağına, çoban da kefi kök, uzanıb ağacın kölgəliyinə. Kişi çobana yaxınlaşıb dedi:

- Ay çoban qardaş, yol adamıyam, yaman yorulmuşam, bir az dincəlim, həm də acmışam, qara qoyunun birini sağ, sinəm tutulub, ver içim.

Çoban sürüyə yaxınlaşdı. Sürünü erkəclədi, sürü getdi, dala axsaq bir qoyun qaldı. Onun südünü sağdı, gətirib qoca kişiyə

uzatdı. Kişi dedi:

- Çoban, mən səndən qara qoyunun südünü istədim, bunun yox.

- Yox, əşşi… bircə o qalıb, qara qoyunun südünü heç uşağıma da vermirəm, sənəmi verəcəm?

Kişi heç nə demədi, «Çoban, get, əzəlki!» deyib qeyb oldu.

Çoban geri dönəndə gördü ki, sürüdən əsər-əlamət qalmayıb, yenə əvvəlki kimi yunsuz, arıq qoyunlardır. Qaçdı ora, qaçdı bura, heç kimi tapmadı. Oturub başına-gözünə döyməyə başladı.

Nurani kişi ordan getdi bağbanın yanına. Bağbana dedi:

- Bağban qardaş, yol adamıyam, yaman susamışam, o əlvan üzümdən bir salxım ver yeyim, çıxıb gedirəm.

Bağban getdi o üzümü qavzadı, qoparmağa ürəyi gəlmədi, bu üzümü qavzadı, ürəyi gəlmədi. Axırda yarısı zığa-palçığa batmış bir salxım üzümü qırıb verdi qocaya.

Qoca dedi:

- A kişi, mən sənə  o əlvan üzümü demişdim, yoxsa bu xarab, palçıqlı üzümü?

- Əşşi, get də... Əlvan üzümü heç uşaqlarıma vermirəm, buna verəcəm.

Qoca ayağa durub: "Bağban, get, əzəlki" - deyib qeyb oldu. Bağban qayıdıb nə gördü: bağ elə quruyub, elə quruyub, nə üzüm var, nə bir meyvə var, əvvəlki kimi ağacları da çor vurub. Başına ikiəlli bir qapaz vurdu, qaçdı ora, qaçdı bura, heç kimi görmədi.

Nurani kişi yolu əlinə alıb oğulluğu padşahlıq etdiyi şəhərə getməyə başladı. Yolun kənarındakı əkin sahəsində bir cütcü yer əkirdi. Yaxınlaşıb salam verdi. Cütcü soruşdu:

- Ay qardaş, hardan gəlib hara gedirsən?

- Heç, elə yolumnan başqa şəhərə gedirəm.
Cütcü dedi:
- Yox, sən gedə bilməzsən. Sən gərək gedəsən bizim padşahın yanına.
- Ay kişi, mənim padşahnan-zadnan nə işim, mən onun yanında nə qayıracam?
Cütcü dedi:
- Bizim padşahın əmri var, kim bu yoldan keçərsə, mütləq padşahın yanına getməlidir. Onun suyundan içməli, çörəyindən kəsməlidir.
Cütcü gördü ki, qoca razı olmur, san bağını öküzün boğazından açdı, qocanı yerə yıxıb əlini-ayağını bağladı, uzatdı arxın içinə. Özü padşaha xəbər apardı ki, bəs belə bir adam var, sənin əmrinə tabe olmur. Padşah soruşdu:
- Döyüb-eləməmisən ki?
Cütcü dedi:
- Yox.
Padşah 8 yaşlı oğlunu da götürüb kişinin yanına getdi. Kişinin əlini-qıçını açdı, dedi:
- Baba, bə sən niyə belə edirsən? Niyə mənim imarətimə gəlməkdən imtina edirsən? Dur gedək.
Qoca dilləndi:
- Oğul, mən xəstəyəm, yeriməyə taqətim yoxdur, ayaqlarım yer tutmur.
- Baba, gedək evə, mənim həkimim var, loğmanım var, səni sağaldar.
- Yox, mən yeriyə bilmirəm, mənim ayaqlarımın dərmanı budur: gərək 8 yaşlı oğlan uşağının başı kəsilə, boynundan qan götürülə, ayağıma vurula, mən sağalam.
Padşah yavaşcana oğlunu uzatdı heranaya, başını kəsdi,

qanını sürtdü qocanın ayaqlarına. Qoca ayağa durdu. Padşah qabaqda getdi ki, arvadına əhvalatı danışsın. O, öz-özünə fikirləşdi ki, birdən arvadı oğlunun bu kişiyə görə başı kəsildiyini bilər, qocaya cəmkirər, kişi xing olar.

Kişi padşah gedən kimi durdu ayağa, iki rükət hacət namazı qıldı, ağzının tüpürcəyindən uşağın boynuna sürtdü, uşaq asqırıb durdu ayağa. Qoca oğlanın əlindən tutub getdi padşahın imarətinə.

Padşah qabaqda gəlib arvadına dedi:

- Oğlumun başını kəsdim, qanını sürtdüm kişinin ayağına, onu sağaltdım. Birdən kişinin üzünə bozararsan, kişi mənim çayımdan-çörəyimdən dadmaz, səni tikə-tikə doğrayaram.

Arvadı cavab verdi:

- Mən niyə qocaya dillənirəm, uşaq sənindir, özün bilərsən.

Bu dəmdə kişi qabaqda, uşaq dalda içəri keçdilər. Gəlin dedi:

- Padşahım, məni qəzillədirdin, bə deyirdin uşağın başını kəsmişəm? Budu ha uşaq, gəlir.

Onların başı uşağa qarışdığından kişinin qeyb olmasından xəbər tutmadılar.

## SONRAKI PEŞMANÇILIQ

Belə rəvayət edirlər ki, Süleyman peyğəmbər bütün heyvanların dilini bilirmiş. Süleyman peyğəmbərin bir padşah dostu vardı. Dostu Süleyman peyğəmbərə çox yalvarır ki, heyvanların dilini ona da öyrətsin. Peyğəmbər hey deyir ki, bu sənə lazım deyil, sonra peşman olarsan. Ancaq padşah onu o qədər məcbur edir ki, Süleyman peyğəmbər axırda dostuna heyvanların dilini öyrədir.

Padşah bir gün oturmuşdu külafirəngidə. Birdən qulağına səs gəldi, aşağı baxanda gördü ki, həyətin o biri başında zəncirə bağlanmış it pişiklə acıqlı-acıqlı danışır:

- Sən gedib isti yerdə isti xörəklərdən yeyirsən, isti otaqda yatırsan, mənsə bu soyuq həyətdə evi qoruyuram, özüm də soyuqdan, acından ölürəm. Səni öldürəcəm, didəcəm səni.

Pişik cavabında deyir:

- Narahat olma, padşahın atı öləcək, atın cəmdəyini atacaqlar sənin qabağına, doyunca yeyəcəksən.

Padşah bunu eşitcək tezcə atı sürdürür bazara, satdırır. Bir müddətdən sonra yenə oturmuşdu külafirəngidə, gördü ki, itnən pişik yenə savaşır. Eşitdi ki, it pişiyə deyir:

- Bu dönə açılsam, səni didəcəm. Sən mənə yalan danışdın, dedin, padşahın atı öləcək, ondan doyunca yeyəcəksən. Nə at öldü, nə mən ət yedim.

Pişik dedi:

- Padşahın öyəci öləcək, piy-palandır, atacaqlar qabağına, yeyəcəksən.

Padşah bunu eşitcək öyəci də bazara aparıb satdırdı. Bir müddət  keçdi. İtnən pişik yenə savaşdılar. Pişik bu dəfə deyir:

- Məni heç söyüb eləmə. Bu dəfə padşahın aman-zaman bir oğlu var, o, öləcək. O qədər xörək tökəcəklər ki, qalacaq qabağında.

Bunu eşidən padşah başı alovlu durdu, qaçdı məscidə dostunun yanına. Süleyman peyğəmbəri tapıb eşitdiklərini ona danışdı. Süleyman peyğəmbər üzünü dostuna tutub dedi:

- Allah bəlanı qabaqca gətirmişdi atına, aparıb tezcə satdırdın, sonra da göndərdi öyəcinə, onu da satdırdın. İndi də göndərib oğluna, ta əlacı yoxdur, oğlun öləcək.

Padşah kor-peşman qayıdıb oğlunun ölən gününü gözləməyə başladı. Süleyman peyğəmbərin məsləhətinə qulaq asmadığı üçün özünü danladı.

O gündən Süleyman peyğəmbər bir daha heç kimə heyvanların dilini öyrətməyəcəyinə özünə söz verdi.

## ŞEYTANIN SİRRİ

Günlərin birində mələklərdən biri yolda şeytanla rastlaşır. Şeytan üzünü mələyə tutub deyir:

- Səndən yaman küsmüşəm.

Mələk soruşur:

- Niyə? Sənə nə etmişəm?

Şeytan cavab verir:

- Elə hey görürəm ki, hər yerə vaxt tapırsan, gedirsən, gəzib dolanırsan, bir dəfə də olsun bizə gəlmirsən.

Mələk cavab verir:

- Nə deyirəm, Allah sənə nəhlət eləsin, bir gün də sizə gələrəm.

Bir neçə gün keçir, mələk şeytana söz verdiyindən qərara gəlir ki, bir gedib ona da baş çəksin. Gəlir onlara, baxır ki, şeytanın qapısı bağlıdır. Divarda bir oyuq görür, oyuqdan baxıb görür ki, komanın bucağında bir kürk, bir biz, bir dənə də sürmə var. Bir şey anlamayıb geri dönür. Yolu yarı eləmişdi ki, şeytanla rastlaşır.

Şeytan deyir:

- Bə deyirdin, sizə gələcəyəm, niyə gəlmədin?

Mələk deyir:

- Gəlmişdim, evdə yox idin. Ancaq komanın oyuğundan içəri baxdım, bucaqda kürk, biz, bir də sürmə gördüm, bir şey anlamadım, onları neynirsən?

Şeytan gülüb dedi:

- İndi mən bir-bir söyləyim, sən də qulaq as. Kürkü, durub sübh namazı qılmaq istəyənlərin üstünə atıram ki, isti olsun, yatsınlar, yuxudan durub namaz qıla bilməsinlər. Bizin də

sirri budur: Görürəm ki, iki adam savaşır, bizi götürüb savaşanların yanından bizləyirəm ki, daha da qızışsınlar. Sürmə də o deməkdir ki, müsəlmanlar Allah, imam məclislərində oturanda onların gözünə çəkirəm ki, məclisdə onları yuxu tutsun, mürgüləsinlər, danışılanları eşitməsinlər. Yəni qulaqları Quran səsi eşitməsin.

Hə, qızım, Allah şeytanı da özü yaradıb və deyib ki, mənim yaratdığım iki yol var: biri mənim yolum, biri də şeytanın yolu. Yaratdığım insanlar, bilmək istəyirdim görüm, mənim yolumu, seçirlər yoxsa şeytanın?



## NƏTİCƏNİ BİLMƏMİŞ ƏVVƏLİ DANIŞMA

Günlərin bir günü Məhəmməd peyğəmbər tələbələrinə deyir ki, kim namazda çaşmasa, mən ona müjdə verəcəm. Ağam Əli deyir:

- Əmoğlu, mən çaşmaram. Namazda hamı çaşır, ancaq mən çaşmaram.

- Yaxşı, nə deyirəm, dur get qıl görək…

Əli (ə) durur namaza, namazın arasında deyir:

- Ay Allah, nolaydı, əmoğlum ağ dəvəni verəydi, kəsib bu dul arvadlara paylayaydım.

Əli (ə) namazını bitirib Məhəmməd peyğəmbərin yanına gəlir. Peyğəmbər soruşur:

- Nooldu?

Axı, hər şey peyğəmbərə agah idi.

Əli (ə) deyir:

- Nə olacaq, çaşmadım.

- Bə, o ağ dəvə nədir?

- Hə, omu? Ağ dəvə birdən yadıma düşdü. Dedim, onu verəydin, kəsib paylayaydım, arvadların hamısına çataydı.

Günlərin bir günü camaat məscidə yığışıbmış. Adamlardan biri Əli (ə)yə deyir:

- Mənim bir qonşum var, yaman yalançıdır.

Əli (ə) dillənir:

- Allah nəhlət eləsin! Yalançıya Allah dərgahında yer yoxdur.

- İnanmırsan? Dur gedək, özün şahid ol.

Onlar hər ikisi durur, getməyə başlayırlar. Gəlib bir yerə çatanda görürlər ki, bir qoca kişi dəvə otarır. Əli (ə) ondan

soruşur:

- Qoca, neylirsən?

- Dəvə otarıram.

- Neçə oğlun var?

- Bir oğlum var.

Yanındakı adam Əli (ə)yə deyir:

- Görürsən yalanı? Yeddi oğlu var ey bunun.

Əli (ə) yenə soruşur:

- Neçə dəvən var?

Qoca cavab verir:

- Bir.

Əli (ə) görür ki, kişinin qabağında bir sürü dəvə var, heç nə deməyib soruşur:

- Bə neçə yaşın var?

- Otuz.

Əli (ə) deyir:

- Ay qoca, gəl oturaq yerə, söhbət edək. Sən niyə belə deyirsən?

Otururlar yerə, qoca başlayır:

- Ay ağa, sənə qurban olum, mənim yeddi oğlum var, yeddisinə də bölünüb qalmayacam ha, birinin yanında qalacam. Sabah düşüb ölsəm, mənə ehsan üçün bir dəvə kəsəcəklər, hamısını kəsməyəcəklər ha… doxsan yaşım var, onun otuz ilini ibadətlə məşğul olmuşam, bu otuz ili özümə yaş sayıram.

Qoca bilir ki, bunu Əli (ə) yə kim çatdırıb, odur ki, üzünü qonşusuna tutub deyir:

- Ey, ay qonşu! Nəticəsini axtarmamış, bilməmiş sözü danışma.

## MIXIN MİSMARA DÖNMƏSİ

Belə rəvayət edirlər ki, Ənuşirəvan padşah öləndən sonra onun yerində 14 padşah olub. Bu padşahlardan biri də Əhməd Dəccani idi. O, çox zülümkar padşah imiş.

Günlərin bir günü o, vəziri ilə şəhəri gəzirdi. Yolu bir bulağın başına düşdü. Gördü ki, bir gəlin bulaq başında qab yuyur. Padşah gəlinə dedi:

- Ay gəlin, ölənlərinin ehsanına, bir qab su ver, içək!

Gəlin bulağın gözündən bir qab su doldurdu, yaşmağını yuxarı qaldırıb padşaha tərəf baxdı. Sonra bulağın ətrafından torpaq götürüb qaba tökdü. Yoldan bir çöp qırıb qabdakı suyu qarışdırdı, qabın içinə də bir saman çöpü salıb padşaha uzatdı. Sonra da iri çubuqla bulağın suyunu bulandırdı. Əyilib qab doldurulmuş vedrəsini götürüb evlərinə tərəf getməyə başladı. Padşah xeyli onun dalınca baxdı, üzünü vəzirə çevirib dedi:

- Vəzir, mən bu ölkənin padşahıyam. O gəlin mənə suyu niyə bulandırıb verdi, sonra da bulağın gözünü bulandırdı, atım su içə bilmədi. Mən gərək bunun sirrini biləm. Gəl gedək o gəlinin dalınca. Bu sirri bilməmiş əl çəkən deyiləm.

Onlar gəlinin girdiyi həyətə gəldilər. Ev yiyəsini səslədilər. Komadan bir kişi çıxıb bunlara tərəf gəldi və soruşdu:

- Kimsiz, nə istəyirsiz?

Padşah dilləndi:

- Mənə de görüm, sən özün kimsən, nəçisən? Sənin arvadın mən içmək istədiyim suyu niyə bulandırdı?

Ev sahibi dedi:

- Mən nalbəndəm. İndi gedim, arvadımdan soruşum, gəlib

sizə deyərəm ki, niyə suyu bulandırıb.

Kişi komaya keçdi, bir az keçmiş qayıtdı:

- Mən arvadımdan soruşdum, o cavab verdi ki, onlar məndən su istədilər, mən başımı qaldırıb baxdım ki, həm at, həm də atın üstündəki adamlar yol gəlib tərləyiblər, onlar bulağın soyuq suyundan içsəydilər, sətəlcəm olub ölərdilər. Mən suyu bulandırdım ki, su durulanacan onların təri bir az soyusun. Mənim günahım ancaq budur. Samanı da suya ona görə atdım ki, suyu bir nəfəsə başlarına çəkməsinlər, yavaş-yavaş içsinlər.

Padşah nalbəndin sözlərini diqqətlə dinlədi. Padşah yenə öz əzazilliyindən əl çəkməyib nalbəndə dedi:

- Sən bu gecə işıqlananacan 600 mıxı hazırlamalısan, hazırlamasan özündən küs, sənin o ağıllı arvadın mənimdi.

Nalbənd qorxuya düşdü:

- Padşah sağ olsun! Mən kasıb bir nalbəndəm, əlimizə-ayağımıza döyüb dolanırıq. 600 yox, heç 50 mıx da hazırlaya bilmərəm.

Padşah qəzəbləndi, dedi:

- Mən heç nə eşitmək istəmirəm. Sənə səhərə qədər vaxt verirəm.

Nalbənd bilirdi ki, heç nə edə bilməyəcək. Əlləri ətəyindən uzun komasına keçdi. Arvadıyla dəstəmaz alıb namaz qıldı. Allaha əl açdılar, dua-səna etdilər, yalvardılar, ağladılar, sızladılar: «Ay Allah, kasıbçılıqnan ötüşürdük, bu nə qəzadı bizi tutdu?» Onlar gecəni yatmadılar, səhərə qədər namaz qıldılar. Bir də baxdılar ki, sübh açılıb. Bir azdan qapılarının döyüldüyünü eşitdilər. Nalbənd çarəsiz eşiyə çıxdı, gördü ki, padşahın nökəridi  gələn. Nalbəndi görüb dedi:

- Padşah bu gecə yatdı, durmadı, canını sənə tapşırdı.

Gəlmişəm ki, bir neçə mismar verəsən, padşahın tabutunu mismarlayaq.

Nalbənd qulaqlarına inanmadı. Sevincək arvadının yanına gəldi, padşahın ölüm xəbərini ona çatdırdı.

Nalbənd bir neçə mismar verdi, çıxdı getdi. Nalbəndlə arvadı Allaha yalvardılar: «Ey mıxı mismara döndərən, sayılı borcdan qurtaran Allah, sənə min şükür! Şükür dualarımız müstəcəb oldu».



## ƏLİ (Ə) AŞİQİ

Bir şəxsi lənətulla İmam Əlinin qatiliydi. Onun gülcamallı bir qızı vardı. Bu qız Əli aşiqiydi. Bir gün bir sayıl gəldi bunların qapısına, qapını döydü, dedi:

- Qızım, Əli yolunda mənə bir təam ver.

Qızın atası çox qəddar adam idi, iki çörək alıb verirdi qıza, deyirdi axşamadək bəsindi. Qız bu çörəyin ikisini də verir bu sayıla. Sayıl gedir. Xəbər çatır qızın atasına, sayıldan soruşur:

- Bu çörəyi sənə kim verib?

Sayıl deyir:

- Filan qapıda bir qız.

Lənətulla qayıdır evə. Qızından soruşur:

- Sənə aldığım çörək hanı?

Qız deyir:

- Verdim sayıla, çünki ata, o sayıl qurban olduğum Əlinin adın çəkdi.

Atası dedi:

- Ay qız, Əli mənim düşmənimdi.

Qız dedi:

- Atayi - mehriban, mən Əlini ürəyim qədər istəyirəm.

Allahın lənətinə gəlmiş ata qılıncı götürdü əlinə, dedi:

- Çörəyi hansı əlinnən Əli yolunda sayıla verdin?

Qız sağ əlini çıxardan kimi atası qılıncla qızının qolunu vurdu saldı yerə, dedi:

- Get, Əli sənə qol versin.

Qızın naləsi asimana qalxdı. Göydən mələykələr gəldi, qolu götürüb göyə qalxdı. Qız qolunu tutub evdən qaçdı. Getdi meşədə bir ağaca pənah gətirdi. Bu vaxt Sultan adında bir kişi

ova çıxmışdı. Gördü ağacın altında bir qız var, qanı yerdə göl olub. Qızı aldı qucağına, qoydu atın üstünə, gətirdi evə, təbib çağırdı. Bir müddətdən sonra yara yaxşı oldu. Qız qolsuz qaldı. Bu qız bir qoluynan dəstəmaz alır, namaz qılır, Allaha şükür eləyirdi. Gəldiyi evin sahibi iman yiyəsi idi, bu qız bunların xoşuna gəldi. Ər-arvad məsləhətləşdilər ki, bu qızı alaq oğlumuza.

Sultanın oğlu o vaxt İranın Qum şəhərində təhsil alırdı. Oğlan təhsilini bitirib ata-anasının yanına qayıdır. Ata-anası oğlanla qızın toyunu edirlər. Amma oğlan bilmirdi ki, qızın bir qolu yoxdu. Toy gecəsi oğlan qıza deyir:

- Mənə su ver.

Qız gətirib sol əlində suyu oğlana verir. Oğlan deyir:

- Hələ sən sağ əlinnən sol əlini tanımırsan?

Qız ağlaya-ağlaya o biri evə keçir. Bu zaman göydən bir mələk enir. O vaxt ki, onlar qolu götürüb göy aləminə getmişdilər, gəldilər qızın yanına, iki rukət hacət namazı qıldılar. Allahın hökmü ilə apardıqları qolu qoydular qızın qoluna, ağızlarının luğabınnan vurdular. Qızın qolu sağaldı, əri ilə şad-firəvan yaşamağa başladılar.

Allah heç kimi darda qoymasın, Allah zalıma lənət eləsin.

## HAMI HATƏM OLMAZ

Rəvayətə görə Hatəm adında varlı bir şəxs var imiş. O, çox insaflıydı. Acların qarnını doyurardı, yetimə, fəğirə kömək eləyərdi. Vaxt o vaxt oldu ki, Hatəm dünyasını dəyişdi. Hatəmin bir əzazil qardaşı var idi.O, anasına ərz eylədi:

- Ana, Hatəmin yerində mən oturacam.

Ana dedi:

- Bala, sən Hatəm ola bilməzsən. Sən körpə olanda bir anası ölən uşağı əmizdirirdim, sən birin yeyirdin, o biri döşümü də əlinlə tuturdun ki, uşaq döşü yeməsin. Amma Hatəm o uşağı gətirdi bizə, sənin ağzından da döşümü çəkdi ki, o uşaq əmsin.

Oğul dedi:

- Ana, qardaşım necə edibsə, mən də elə eləyəcəm.

O gündən qardaşı Hatəm kimi acların qarnını doyurub, hamını hörmətlə yola salmağa başladı. Bir gün bir kor kişi o tərəfə - bu tərəfə gedirdi. Hatəmin qardaşı hirsləndi:

- Nə o tərəf - bu tərəfə gedirsən?

Kor kişi dedi:

- Hatəmi axtarıram.

Dedi:

- Mən Hatəməm.

- Ola bilməz, o, məni yedirirdi, doyandan sonra mənim qolumdan tutub evimə yola salırdı.

Oğlan daha da hirsləndi, dedi:

- Yox bir, bircə o qalıb səni evinə də ötürüm.

Söhbəti eşidən anası oğluna dedi:

- Axı, mən dedim ki, sən Hatəm ola bilməzsən.

Burdan da belə bir atalar misalı yarandı. «Hamı Hatəm ola bilməz».

## QIZIL BALIQ

Belə rəvayət edirlər ki, bir şəhərdə bir padşah var idi. Onun gözləri görməkdən qalmışdı, kor idi. Padşah bir gün yuxuda gördü ki, dəryada bir qızıl balıq var, onun gözünün dərmanı ancaq bu qızıl balıq ola bilər. O, tez yuxudan ayılıb vəzir-vəkili yanına çağırdı, yuxusunu danışdı. Onlar da tədbir tökdü ki, nə qədər şəhərdə adam var, dəryaya tor atsınlar, balığı tutsunlar. Qızıl balığın qanı onun gözlərinə dərmandı.

Padşahın aman-zaman bir oğlu var idi, ona dedi:

- Oğlum, sən də hamı kimi get, dəryaya tor sal. Allah kərimdi, bala, bəlkə kömək oldu, balığı tuta bildiniz.

Padşahın oğlu hamıynan bərabər dəryaya tor saldı, tora bir qızıl balıq düşdü. Balıq az qaldı dil açsın, yalvarsın ki, məni sudan çıxarma, sudan çıxsam ölərəm. Oğlanın balığa yazığı gəldi, atdı dəryaya. Camaat padşaha xəbər gətirdi ki, dediyin qızıl balıq düşdü öz oğlunun toruna, o da atdı dəryaya. Padşah qəzəblənib dedi:

- Ay arvad, oğlunu öldürtdürəcəyəm, o, razıdı ki, mən kor qalım, mənim taxtı-tacıma sahib olsun.

Arvad ağladı:

- Ay kişi, öldürmə, sənə ləkə gələr ki, oğlunu öldürüb. Vətən dəyişikliyi ver, hara gedir getsin.

Padşah arvadının məsləhətinə qulaq asaraq oğluna şəhərdən çıxmağı əmr etdi. Oğlan şəhərdən çıxıb getdi. Az getdi, çox getdi, yorulub bir yerdə dayandı. Gördü bir kişi də ona həmdəm oldu. Kişi dedi:

- Bala, hara gedirsən?

Oğlan cavab verdi:

- Ruzu dalınca gedirəm.

- Oğul, gedək. Mən də ruzu dalınca gedirəm. Nə qazansaq bu bulağın başına gəlib bölərik.

Hər ikisi razılaşdı, yola düşdülər. Qoca dedi:

- Hara getsək, sən deyərsən bu kişi mənim atamdı. Mən də deyəcəm bu mənim oğlumdu.

Beləcə bunlar çatdılar bir şəhərə, gördülər adamların çoxu qara geyib. Soruşdular, niyə bu şəhərin adamları pərişandı. Dedilər, padşahının qızının dili tutulub, hansı təbib, loğman gəlir, əlacı tapılmır ki, tapılmır. Kişi dedi, onu mən yaxşı elərəm. Padşaha xəbər elədilər ki, şəhərə bir təbib gəlib, deyir mən o qızın dilini açaram. Amma padşah demişdi ki, hər kəs bu qızın dilin açsa qızı verəcəm ona. Padşah həmin qocanı çağırdı. Kişi qızın yanına getdi, dedi:

- Ay qızım, bu şəhərdə bir şah olur. Ona hər kəs bir gecə keşik çəkirdi. Bir gün bir dülgər ona keşik çəkməli olur. Bekarçılıqdan taxtadan bir qız düzəldir. İkinci gün keşik çəkən dərzi bekarçılıqdan ona paltar tikir. Üçüncü gün abid şaha keşik çəkirdi. Abid dedi: "İlahi, bu taxtadan qayrılmış qıza can ver". Allah tərəfindən qıza can gəldi. İndi bu qızın üstündə davadı. Dülgər deyir, qız mənimdi. Dərzi deyir, mənimdi. Abid deyir, mənimdi. Ay qızım, sən bilərsən, bu qız kimə çatır?

Qızın dili açıldı, dedi:

- Qız abidə çatır.

Padşaha muştuluq çatdı ki, qızının dili açıldı. Padşah qırx gün qırx gecə toy elədi. Qızını həmin qocanın oğluna verdi, çoxlu cehiz, mülk verdi. Qoca və oğlu, o yerdəki qoca demişdi qazandığımızı bu bulağın başında böləcəyik, çatdılar həmin yerə. Qoca dedi, indi hər şeyi bölək. Oğlan razı oldu. Hər şeyi

böldülər. Qoca dedi, qızı da böləcəyik. Oğlan dedi:

- Ay əmi, mənə lazım deyil bu qız. Sənin kimi kişinin sözünü yerə sala bilmərəm.

Bir bıçaq vurdu qızın başına, qızın başı bədənindən ayrıldı. Qoca dedi, oğul, mən o dəryaya ötürdüyün həmin qızıl balığam. Sonra qoca iki rukət namaz qıldı. Əlini həqqə tutdu, ağzının luğabından vurdu qızın başına, qız dirildi. Barmağını kəsdi. Bir balaca qaba tutdu, dedi, bunu da vur atanın gözlərinə. Bunu deyib qoca yox oldu. Oğlanla qız bu sirrə mat qaldı. Padşaha xəbər çatdı ki, neçə ildi gedən oğlun qayıdıb gəlir. Ata ürəyi kövrək olar. Ata, ana sevindi. Oğlan atasını öpdü, qanı atasının gözlərinə çəkdi, atasının gözlərinə nur gəldi, oğlunun gətirdiyi qızla yenidən toy çaldırdı, onlar xoşbəxt yaşadılar.

Burdan da belə bir məsəl yarandı: Balığı at dəryaya, balıq bilməsə də, xaliq biləcək. Allah hamını xoşbəxt eləsin.

## İŞSİZ QALAN TƏBİB

Belə rəvayət edirlər ki, Məhəmməd peyğəmbər Mədinədə yaşayan zamanlar Yəmən ölkəsindən olan padşah dostu ona qonaq gəlir. Dostlar qucaqlaşır, öpüşüb-görüşürlər. Peyğəmbər dostuna yaxşı hörmət edir. Dostu bir xeyli müddət onlarda qonaq qalır, fikir verir görür ki, hər şey yerli-yerində, qaydasındadır, ancaq bu şəhərdə bir həkimxana yoxdur. Odur ki, dostundan soruşur:

- Bir sən mənə de görüm, burda həkim var?

Dostu deyir:

- Yox!

- Bəs təbib?

- O nə olan şeydir? Bizdə nə həkim var, nə təbib.

Qonaq öz-özünə fikirləşir: «Bu nə cür şəhərdir ki, onun nə həkimi var, nə təbibi. Bunlar xəstələnəndə kim bunları müalicə edir?» Qonaq dostu ilə halal-hümbət edib öz ölkəsinə gedir. Yol boyu fikirləşə-fikirləşə qalır: «Yəqin bunların savadlı, oxuyan adamları yoxdur ki, həkimliyi bacarsın».

Çıxır padşah taxtına, elan verir:

- Yaxşı, savadlı bir həkim tapın, gətirin. Onu göndərəcəm, getsin peyğəmbərin qulluğunda dursun, onu müalicə etsin, sağlamlığının keşiyində dayansın.

Hər yerdən təbib, loğman yığışıb gəlir, padşah onları sınaqdan keçirir, birini seçir və ona deyir:

- Sən gedəcəksən Mədinəyə, orada Məhəmməd peyğəmbərin qulluğunda duracaqsan.

Təbib «baş üstə» deyib hazırlıq görür, gedir Mədinəyə. Məhəmməd peyğəmbərin həramına gəlir, onu hörmət-izzətlə

qəbul edirlər. Peyğəmbərin müridlərindən biri gedir onun yanına, ərz edir:

- Ya peyğəmbər, dostun sənə bir təbib göndərib.

- Eləmi? Onu yaxşı qarşılayın, hörmət-izzət göstərin, yaxşı yer düzəldin, qulluğunda durun, qoyun yaşasın.

Çarçı şəhərə car çəkmişdi ki, Mədinəyə təbib gəlib.

Təbib uzun müddət burda yaşayır, ancaq bir adam ona müraciət etmir. Təbibə hər cür şərait yaradırlar, xəstələri qəbul etmək üçün otaq ayırırlar. Günlərlə xəstə gözləsə də heç kim gəlmir. Təbib çox pərişan olur, öz-özünə deyir: «Əgər burda mənə bir adam müraciət etmirsə, mən burda neyləyirəm?» Gedib peyğəmbərin adamlarından birinə deyir ki, məni qəbul eləsin, ona sözüm var. Təbibi peyğəmbərin hüzuruna gətirirlər. O peyğəmbərə deyir:

- Ya peyğəmbər, mən neçə müddətdir ki, burdayam, hələ heç kəs yanıma gəlməyib ki, mən xəstəyəm. Mən burada lazımsız adamam. İcazə verin, çıxım elə yerə gedim ki, xalqa lazımlı olum, onların xidmətində dayanım.

Məhəmməd peyğəmbər deyir:

- Mən sənə izn verirəm, get, bizdə heç vaxt xəstə olmur. Bilirəm, soruşacaqsan, niyə? Niyəsini deyim: bizim Mədinə əhli yeməyi acandan-acana yeyir, doymamış əllərini süfrədən çəkir, ona görə də bizdə xəstə olmur.

Deməli acgözlük, qarınquluq, doymamazlıq adamı xəstəliyə salırmış.

## İMAM ƏLİ (Ə.S.)NİN KƏRAMƏTİ

Keçmiş zamanlarda bir kasıb kişinin üç qızı olur. Bunlar güclə dolanırmış. Kişi ha fikirləşir, ha başını yorur ki, nə eləsin, ailəsinin gün-güzaranını bir balaca düzəldə bilsin. Axırda belə qərara gəlir ki, axırıncı, sonbeşik qızını aparıb qul bazarında satsın, gətirib o birilərini saxlasın. Durur ayağa, balaca qızın əyin-başını dəyişdirib oğlan paltarı geyindirir. Gətirir qul bazarına. Qızı qul adına satır. Qız Ömərin əlinə keçir. O, İmam Əli (ə) şiələrindən imiş, ancaq bunu Ömərə bildirmir.

Günlərin birində Ömər çıxır eşiyə, qılıncını çıxardıb aldığı quldan soruşur:

- Bu kimin əliynən?

Qul cavab verir:

- Sənin əlinnən.

Bu sual-cavab bir neçə dəfə təkrar olur. Qul (qız) qorxusundan deyə bilmir ki, Əlinin (ə) əliynən. Axırda öz-özünə fikirləşir: Bu dəfə ölsəm də deyəcəm «Əlinin əliynən». Ömər bir də soruşanda qul deyir:

- O Əli-əleysəlamın əliynən.

Ömər bir az acıqlı soruşur:

- O kimdir?

Qul cavab verir:

- O, Kufə məscidində oturur, imamdır.

Ömər deyir:

- Eləmi? Onda dur, məni aparacaqsan onun yanına.

Qul deyir:

- Niyə aparmıram, gedək.

Ömər yaxşıca geyinir-keçinir, qulun yanına düşüb gedirlər

Kufə məscidinə. Qırx nəfərlə Kufə məscidinə daxil olur. Ömər yaxınlaşır İmam Əliyə, xoş-beş edirlər. Əli (ə) soruşur:

- Nə yaxşı gəlibsiz?

Ömər cavab verir:

- Gəlmişik sənin söhbətinə qulaq asaq.

Əli (ə) bilmirdi ki, Ömər onun yanına düşmənçiliklə gəlib. Ömər və dəstəsi otururlar yerə. Əli (ə) yanındakı şiələrindən birinə müraciət edib deyir:

- Abuzər, get, Əmiri Salehi götür, gəl bura.

Abuzər «baş üstə» deyib Əmiri Salehin dalınca gedir. Gəlib onun evinə çatanda görür ki, Əmiri Saleh yerdə, döşəyin üstündə, gözüyumulu mütəkkəyə söykənib. Abuzər başa düşür ki, vallah, bu adam elə xəstəhaldır ki, yerindən dura bilməz. Yenə də özünə borc bilib deyir:

- Əmiri Saleh, səni Əli (ə) yanına çağırır.

Saleh cavab verir:

- Mən bu gündə onun yanına necə gedim, ayağa durmağa taqətim yoxdur.

Abuzər gəlir Əlinin (ə) yanına, əhvalatı danışır. Əli (ə) deyir:

- Yaxşı, otur yerə.

Bunu deyib qurtarmışdı ki, Əmiri Saleh qapıdan içəri keçir. Gəlir Əli (ə)-in yanına. Əli (ə) deyir:

- Əmiri Saleh, sənin başına gələnləri bunlara nağıl elə, bunlar da eşitsin.

- Baş üstə - deyib Əmiri Saleh sözə başlayır: Mən bir cavan oğlan idim. Mən əmim qızını, qız da məni istəyirdi. Dədəmlə əmim əhd eləmişdilər ki, əgər qızımız, oğlumuz olsa köbəkkəsdi edərik, böyüyəndə evlənərlər. Elə ki, biz böyüdük, həddi-buluğa çatdıq, mənim dədəm öldü, əmim qaldı. Əmim

atamın ölümündən istifadə edib, qızı mənə vermədi, verdi başqasına. Toy günü gəlib çatanda anama dedim:

- Ana, mən toyun səsini eşitsəm, bağrım çatlayacaq. Gedirəm, o görünən dağlara tərəf, bəlkə toyun səsi oralara gəlib çıxmaya.

Mən çıxdım dağın başına, orada çadır qurdm, yatmaq istəyəndə baxdım ki, budu, bir nəfər mənə tərəf gəlir. Adam yaxınlaşanda gördüm ki, bu öz əmimqızıdır, dedim:

- Ay əmiqızı, sənin toyundur, sən niyə bura gəldin?

Qız cavab verdi:

- Mən sənsiz qala bilmədim, odur ki gəldim sənin yanına, sən harda, mən də orda.

Gecə düşdüyündən qızın yerini çadırda düzəltdim, özümsə çıxıb atın yalında yatdım. Bu hadisədən bir il keçdi. Günlərin birində gördüm ki, bir nəfər atlı çıxır dağa, bizim çadırımıza yaxınlaşıb qıza bir məktub verib getdi. Əmiqızım məktubu açıb oxudu, gördü ki, yazıblar bəs, qardaşının toyudur, səni toya dəvət edirik.

Mən qıza dedim:

- Dur get, qardaşının toyudur, iştirak elə.

Əmiqızı durdu ayağa, hazırlaşıb getdi. Heç aradan üç-dörd saat keçməmiş qız qayıdıb gəldi. Mənim yanıma çatanda soruşdum:

- Nə tez qayıtdın?

Qız ağlayıb cavab verdi:

- Oturmaq istəyəndə məni ordan-bura, burdan-ora keçirdilər, gətirib lap aşağı başda otuzdurdular. Mənim əynim pis idi, məni bəyənmədilər, ona görə də qayıtdım gəldim.

Mən qızın bu sözündən çox pəjmürdə oldum. Ayağa durub üzümü ona tutdum:

- Əmiqızı, gedirəm, hər nə cür olsa pul qazanacam, gəlib toyumuzu edəcəm.

Əmiqızım dedi:

- Əmioğlu, amanın bir günüdür, heç kimi sinsitmə, heç kimə pislik etmə, heç kimi ağlatma.

...Əmiri Saleh durub yola düzəlir, az gedir, üz gedir, gedib bir kəndə çatır. Uzaqdan görür ki, bir daxmadan işıq gəlir. Gedir ora, girir içəri, görür ki, pəhlivan cüssəli bir oğlandı, sinəsinin üstündə qılınc yatıb. Amma buşqax doludur qızılnan, par-par parıldayır. Əmiri Saleh öz-özünə deyir: "Düzdür ki, əmimqızı demişdi heç kimi öldürmə, ancaq başqa əlacım yoxdur, bunu öldürəcəm, qızılları da yığıb gedib toyumu edəcəm". O ustuf-ustuf oğlana yaxınlaşır, xəncəri qınından çıxarıb oğlanı vurmaq istəyəndə oğlan ayılır, durur ayağa, onun qolundan yapışır. Bu dəfə onlar başlayırlar güləşməyə. Oğlan bunu yıxır, xəncəri qaldırıb vurmaq istəyəndə Əmiri Saleh deyir:

- Bir az əl saxla, qoy mən dərdimi deyim, sonra məni öldürərsən.

Oğlan deyir:

- Yaxşı, nədir dərdin, söylə!

Əmiri Saleh başına gələni oğlana danışır. Oğlan ona diqqətlə qulaq asıb deyir:

- Sənin başına gələnlər mənim də başıma gəlib. Mən səni öldürməyəcəm, dur ayağa, nə qədər qızıl lazımdırsa götür, get toyunu elə. Mənim qızıllarım çoxdur, onların açarı Əmiri Salehdədir. (Ancaq o, bilmirdi ki, qarşısındakı həmin adamın özüdür) Gedərsən anamın yanına, deyərsən ki, toyumdur. O, sənə kömək edəcək.

Əmiri Saleh onun dediyi kimi edir. Onun anası ona xeyli

qızıl, ləl-cəvahirat verir. Əmiri Saleh onları da götürüb, gəlir çadıra, gətirdiklərini verir əmisiqızına, deyir, al, bunları saxla, indi gəlirəm.

Əmiri Saleh dağdan enir kəndə, bir-iki ev keçəndən sonra bir evdən səs eşidir: «Əmiri Saleh, gəl bura, mən burdayam». Əmiri Saleh başını qaldırıb bir nurani xanım görür, deyir:

- Sən pəhləvan İbadullahın anasısan?

Xanım deyir:

- Hə, qaynımın qızını veriblər özgə adama ərə, onu da İbadullah istəyirdi, bu gün onların toyudur.

Səhər olur. Əmiri Saleh tezdən durur gedir toy evinə. Toy sahibinə deyir:

- Mən aşpazam, məni toya xörək bişirməyə götürərsizmi?

Toy sahibi deyir «hə». O, həmin gündən başlayır xörək bişirməyə. Birinci gün bişirdiyi xörəyi aparırlar padşaha, padşah yeyir, çox xoşuna gəlir, deyir:

- Pəh, bu gün çox gözəl xörək bişirmisiz, bundan çox ətirli iy gəlir. Səhərki toyun xörəyini bu aşbaz bişirsin.

Aşpaz bundan çox sevinir, səhər olur, toy başlayır, ocaqlar çatılır, qazanlar asılır, plovlar dəmə qoyulur, bunların hamısını Əmiri Saleh özü edir. O, toy adamlarının qarşısına belə bir şərt qoyur: «Xörəkləri qablara özüm çəkəcəm, amma mən nə vaxt desəm yeyin, hamı o vaxt yeməlidir".

Aşpaz xörəkləri çəkir, süfrəyə verir, hərəsinin də içinə bir damcı bihuşdarı tökür. Qonaqlar xörəyi yeyib, qurtardıqdan sonra hamısı bihuş olub uzanırlar. Əmiri Saleh tez eşiyə çıxır, görür ki, İbadullahın əmisi qızı çöldə yedəyində bir at onu gözləyir. Atı minib aradan çıxırlar. Yolu yarı eləmişdilər ki, Əmiri Saleh qıza deyir:

- Sən burda gözlə, mən gedim İbadullaha deyim, gəlib səni

özü aparsın. Sonra deməsin ki, sənin özün gəlmisən.

Əmiri Saleh qızı burda qoyub özü gedir İbadullahın yanına, deyir, qızı gətirmişəm, aşağıdadır, get özün götür gəl. Mən də yorulmuşam, bir az yatım, dincəlim.

İbadullah aşağı enir, əmisiqızı ilə danışıb -dilləşincə qoşun gəlib onlara yetişir. Bunlar iki nəfər, qoşun isə çox… vuruşmağa başlayırlar, qız bir tərəfdən, əmisi oğlu o biri tərəfdən, qoşunu doğrayıb-tökürlər. Qız bir nəfərin qarnını qılıncla yortur, ancaq öldürdüyü adamın kimliyini bilmir. Ətrafına boylanır. İbadullahı axtarır, ora İbadullah, bura İbadullah, görür hay verən yoxdur.

Əmiri Saleh oyanır, görür ki, yanında heç kim yoxdur, deyir, bəs bunlara nooldu, niyə gəlib çıxmadılar. Durur dağdan enir, qarşısına bir çoban çıxır, ondan soruşur:

- Bir oğlanla bir qız bu yoldan keçməli idilər, onları görmədin?

Çoban cavab verir:

- Mən qoyunu suya aparmışdım, gördüm ki, bir oğlanla bir qız yuxarıda şirin-şirin söhbət eləyir, birdən elə bil göyün üzünü qara bulud aldı, qoşun gəldi, bunlarla vuruşdu, hamısı qırıldı, bircə qız qaldı, o da ölənlərin arasında vurnuxub, kimisə axtarırdı.

Əmiri Saleh tez özünü qıza yetirir, qız onu görcək olanları danışır və deyir:

- Əgər İbadullah da ölübsə, onda o mənim zərbəmdən ölüb, mən onu görməmişəm, öldürmüşəm.

Onlar birlikdə meyidlərin arasında dolaşıb İbadullahı tapırlar. Görürlər o, qarnından yara alıb, üzüqoylu yerə döşənib. Qız göz yaşını töküb Əmiri Salehə deyir:

- Sən üzünü o yana tut, biz vüsala çata bilmədik, mən heç

olmasa indi onu öpüm.

Əmiri Saleh heç nə demədən üzünü yana çevirir. Qız xəncəri çıxarıb ürəyinin başına soxur və İbadullahın meyidinin üstünə yıxılır.

Əmiri Saleh üzünü geri çöndərəndə görür ki, qız da ölüb. Uca bir ağacın altında yeri qazır, iri bir qəbir düzəldir, hər ikisini ora salıb basırır, üstünə də ağacdan qopardığı balaca budağı sancır.

Əmiri Saleh söhbətini burda bitirir. Əli (ə.s.) ona deyir:

- Sən həmin oğlanla qızı burda görsən tanıyarsan?

Əmiri Saleh deyir:

- Bəli. Ancaq onlar ikisi də ölmüşdür, özüm öz əlimlə basırmışam, aradan çox illər keçib.

Əli (ə.s.) deyir:

- Durun gedək.

Hamı qalxır ayağa, gedirlər həmin qəbirin yanına. Görürlər ki, qəbirin üstündə qollu-budaqlı iri bir ağac bitib. 4-5 adam əl-ələ tuta, yetməz. Əli (ə.s.) bir də soruşur:

- Bu həmin yerdimi, yaxşı yadına sal.

Əmiri Saleh deyir:

- Vallah, mən onları basıranda bura balaca bir budaq basırmışdım, bu əgər həmin budaqdırsa böyüyüb ağac olub.

Əli (ə.s.) yanında durmuş əli belli kişiyə deyir:

- Buranı qaz!

Kişi qəbiri qazır, hamı baxıb görür ki, qıznan-oğlan qoşa yatıblar, ancaq elə bil indicə basırılıblar. Əli (ə.s.) onları çağırıb oyadır, deyir:

- Siz burda neynirsiz, niyə yatıbsız?

Qız cavab verir:

- Bu yanımdakı əmimoğludur. Mənə gözmuncuğu ilə şəvə

almışdı. Gözmuncuğunu düzdüm sapa, şəvəni düzəndə əlimdən yerə düşdü, onu axtarıram, yoxsa bura elə indicə gəlmişik.

Əli (ə.s.) oradaca iki rükət hacət namazı qılır, onlar durur ayağa. Əmiri Saleh Əli (ə.s.) kəramətini görüb deyir:

- Əli (ə.s.), məni də cavanlaşdır, mən onların toyunu etməliyəm, qocayam, hərlənə bilmərəm.

Əli (ə.s.) onu da cavanlaşdırır. Sonra Ömərin yanında gələn, oğlan paltarı geyinmiş qıza deyir:

- Əynindəki paltarı çıxart.

Qız paltarını və papağını çıxardır. Hamı baxıb görür ki, bu gözəl bir qızdır. Papağını çıxardanda şəvə kimi qapqara saçları gərdəninə tökülür. Ömərin gözü kəlləsinə çıxır. Öz-özünə fikirləşir ki, mən bunu neçə il evimdə saxlamışam, ancaq oğlan bilmişəm. Həmin qızı da verirlər Əmiri Salehə, hər iki gəncin toyunu edirlər. Onlar xoş gün görürlər, sizi də xoş gün görəsiniz.

Əli (ə.s) nin belə kəramətləri çox olub.

## BİR OVUC BUĞDA

Keçmiş zamanlarda bir arvad, onun da üç qızı var imiş. Onlar çox kasıb yaşayırdılar. Arvad öz-özünə çox fikirləşir, çox götür-qoy edir, deyir, mən neylim, ay Allah, birçə tapılıq unum var, bunu yapım, qoyum bunların başının altına, yuxudan duranda heç olmasa onu yesinlər. Arvad durur ayağa, o bir xırda buğdanı götürür aparır dəyirmana ki, üyütsün, yolda külək qopur, buğdanı yel aparır. Kor-peşman deyir:

- İndi mən nə edim, bir ovuc buğdam var idi, onu da külək apardı.

Arvad kor-peşman komasına qayıdanda qabağına nurani bir kişi çıxır, onu qəmgin görəndə əhvalatı öyrənir və ona məsləhət görür ki, dur get, yel sahibinə şikayət elə. Arvad gedir yel sahibinin yanına, şikayət edir. O, deyir ki, sahib mən deyiləm, o tərəfdə yaşayan adamdır. Arvad o birinin yanına gedir, o da deyir, mən deyiləm, beləliklə bu ona, o buna ötürür, arvad qalır naçar. Ancaq ona demişdilər ki, kim sənə nə vermək istəsə götürmə, deginən mən öz buğdamı istəyirəm, lap iki-üç tay buğda versələr də alma, de ki, mənim buğdam çox idi. Yel sahiblərindən biri deyir gəl sənə 4 tay buğda verim, get. Arvad deyir yox, mənim buğdam çox idi. Bunlar burda mübahisə aparanda içəri otaqdan bir nəfər çıxır və arvada bir zənbil qızıl pul verir. Arvad mat-mat onun üzünə baxır. Kişi məsələni aydınlaşdırmağa başlayır, deyir:

- Mən dəryada gəmimi sürürdüm. Gəmim daşa dəyib bir balaca deşilmişdi. İçəri su dolurdu. Sənin buğdanı külək sovurub gətirdi və gəminin deşiyinə doldurdu. Sənin buğdan olmasaydı, gəmim batardı, mənim də bütün varım-dövlətim, malım-pulum, özüm məhv olub gedərdik. Bu qızıllar və pullar sənindir, halal

xoşun olsun, götür, çıx get.

Arvad qızıl, pul yığılmış zənbili ulağa yükləyib evinə gəlir. Yolda həmin nurani kişi ilə rastlaşır, kişi ona deyir:

- Gördün, mən sənə dedim ki, nə versələr götürmə, de ki, mənim buğdam bundan çox idi.

Arvad komasına gəlir, kasıbçılığın daşın atır, qızları ilə çox şad-xürrəm yaşamağa başlayır.



## ALLAH BAĞIŞLASIN

Bir növcavan bir mömінin yanına gəlib anasından şikayət edir:

- Ağa, mən anamla barışa bilmirəm, axı!

Seyid Ağa soruşur:

- Anan neyləyib ki?

- Ağa, elə bir iş tutmayıb, ancaq nə Allaha inanır, nə namaz qılır, nə də oruc tutur.

Seyid onu diqqətlə dinləyib deyir:

- Oğul, sən get anana olan məhəbbətini birə-beş artır. Sənə onun dəxli yoxdur, özü bilər, Allahı bilər. Sən onun övladısan, o sənin anandır. Səndən ötəri o nə qədər əziyyət çəkib, yuxusuz gecələr keçirib, gündüzlər qərar tutub dincəlməyib.

Oğlan seyidin bu sözlərindən sonra evə gəlir, anasıyla mehriban danışmağa başlayır. Ana oğlunun bu işinə mat qalıb ondan soruşur:

- Ay bala, de görüm, bu nə sirdir, sən məni heç danışdırmırdın, indi isə mənimlə danışıb gülürsən.

- Ana, məni seyid ağam başa saldı. Yoxsa mən səni bağışlamazdım. Ağam mənə dedi ki, səni də, onu da Allah yaradıb, Allah da bağışlayar.

Bu sözlərin hikmətini dərk edən ana Allah yoluna qayıdır.

## İKİNCİ KƏBİN

Qədim zamanlarda bir gəlin varmış. Bu gəlin qərəm namaz qılarmış. Onların evlərinin arxasından arx gedirdi. Gəlin gündə üç dəfə arxın qırağına gələr, dəstəmaz alar, gedib namaz qılardı. Günlərin birində gəlin görür ki, arxın üzündə bir dəstana üzüb gəldi, keçdi. Gəlin bu işə mat qalıb deyir:

- Bu nə hikmətdir ki, dəstana suyun üzündə gəlir, ancaq nə islanmır, nə də suda batmır.

Bu hadisə üç gün davam edir. Gəlin deyir:

- Əgər bu sabah da təkrar olsa, düşəcəm bu çörəyin dalınca, gedim görüm hara gedir?

Səhəri gəlin gəlir arxın qırağına, görür çörək budu ha, yenə gəlir, qoşulub buna gedir. Gethaget, gəlib bir qoca kişinin komasının yanına çatanda bu qoca kişi çörəyi götürür.

Gəlin ona deyir:

- O çörək mənim qabağıma çıxmışdı, mən onu götürməli idim, sən niyə götürdün?

Qoca kişi cavab verir:

- O, mənim ruzumdur, gündə bir çörəyi arxın suları mənə çatdırır.

Gəlin deyir çörək mənimdir, qoca deyir mənim, sözləri çəp gəlir. Qoca axırda deyir:

- Çıx, qoy, get, sənin başında iki kəbinin var.

Gəlin deyir:

- Nə danışırsan, nə iki kəbin, mənim oğlum, qızım, ərim var. Mən bir də ərə gedən deyiləm.

Qoca deyir:

- Mən sənə dediyimi dedim, indi özün bilərsən.

Qocanın inamla dediyi söz gəlinin ağlına batır. Öz-özünə fikirləşir: "Ailəmi, oğlumu, qızımı qoyub ikinci dəfə ərə getməkdənsə ölüm yaxşıdır". Evə qayıdır, dama keçir, inəyin çatısını boğazına salıb özünü öldürür. Gəlini kəfənləyib aparıb basırırlar.

Günlərin birində bir neçə tacir başqa diyara alış-verişə gedirdilər. Yolları qəbiristanlığın yanından düşür. Görürlər ki, bir qəbirdən göylü-qırmızılı alov çıxır və qəbirin içindən fəryad səsi gəlir. Tacirlər gedib qəbiri açırlar. Qəbirin içindən bir qadın çıxır, onları görcək deyir:

- Mən qadın xəylağıyam,  özüm də çılpağam, paltar verin geyinim, çıxım.

Tacirlər satmağa gətirdikləri paltarların bir dəstini qadına verirlər. Qadın paltarı geyinib çıxır.

Tacirlər üç nəfər idilər. Onlar qadına deyirlər:

- Evin hardadır, aparaq qoyaq səni evinə.

Gəlin cavab verir:

- Mənim evim-eşiyim yoxdur.

Tacirlər məcbur qalıb gəlini özlərilə götürürlər. Getdikləri diyarda harda qaldılarsa gəlin də onlarla qalır, onların çayını-çörəyini hazırlayır, üst-başlarının təmizliyinə fikir verirdi. Vaxt gəlir, vədə ötür, bunlar vətənlərinə dönəsi olurlar. Bir kəndə çatanda otururlar yerə ki, bir az dincəlsinlər. Sən demə, bu kənd gəlinin kəndi imiş. Gəlin baxıb görür ki, qaynanası, əri, uşaqları əkin sahəsindədir, yer şumlayıb əkirlər. Gəlin onlara baxır, baxır, dərindən köks ötürür. Tacirlər isə öz-özlərinə fikirləşirlər: «Bu gəlini neyləyək, hansımız aparaq? Biz buna bacı demişik. Hansımız öz evimizə aparsaq arvadımız şübhələnəcək». Gəlin onların niyə fikrə getdiklərini başa düşür, onlara deyir:

- Məni elə burdaca qoyun, çıxın gedin.

Tacirlər məcbur qalıb gəlini qoyub gedirlər. Gəlin ayağa durur, yavaş-yavaş qaynanasıgil tərəfə gəlir, salam verir. Qaynanası salam alır, gəlindən soruşur:

- Sən kimsən, hardan gəlib hara gedirsən?

Gəlin cavab verir:

- Yetim bir adamam, heç kimim də yoxdur, gəlib buralara çıxmışam.

Qaynananın gəlinə yazığı gəlir, onu götürüb evinə gətirir. Gəlin tezdən durur, bütün işləri görür, yemək bişirir, paltar yuyur, necə ki əvvəlcə bu evdə gəlin idi, indi də özünü o cür aparır. Əri fikirləşir ki, öz əlimlə basırmasaydım, deyərdim ki, elə bu mənim öz arvadımdır. Ana oğluna deyir:

- Bu çox yaxşı gəlindir, bunu heç kimə verməyəcəyəm, elə alacam sənə.

Oğlanın anası bu gəlinin kəbinini kəsdirir oğluna.

Gün keçir, ay ötür, il dolanır, günlərin birində gəlin başına gələn əhvalatı ərinə danışır. Deyir: “Nurani qocanın dediyi ikinci kəbin bu imiş”.

Gəlin balalarını da başına yığıb şad-xürrəm yaşamağa başlayır.

## ÜÇ HİKMƏT

Bir gün Məhəmməd peyğəmbər və əhli-əyalı, camaat namazdan sonra məsciddə oturmuşdular. Birdən bədheybət bir heyvan girir məscidə, gəlir peyğəmbərin yanına deyir:

- Ya Məhəmməd, mənə bir qız ver, evlənmək istəyirəm.

Məhəmməd (ə.s.) üzünü caamata tutub deyir:

- Ey insanlar, bu heyvan məndən evlənmək üçün qız istəyir. Buna mən nə deyim? Kim qızını bu əjdahaya verər?

Peyğəmbər gördü ki, heç kimdən səs çıxmadı. Camaatın arasında kasıb bir kişi vardı, gəlib peyğəmbərə deyir:

- Evdə üç qızım var, gedim evə, məsləhət edim, gəlib sizə bir xəbər deyərəm.

Kişi evə gəlir, arvadına deyir, arvadı onunla dalaşır, qızlarına deyir, qızlar atalarının üzünə qayıdır. Balaca qızı deyir:

- Ata, mən gedərəm. Bir halda sən peyğəmbərə söz veribsən, mən gedəcəm, qoy əjdaha məni hara ararar aparsın, lap aparıb yesin, təki sənin sözün yerə düşməsin.

Axşamı yatırlar, səhər açılır, qız geyinir, atasının yanına düşür, gedirlər peyğəmbərin hüzuruna. Elə təzəcə çatmışdılar ki, əjdaha içəri daxil olur, qızı da götürüb gedir.

Kişi evə qayıdanda arvadı və o biri qızları düşür bu biçarə kişinin canına, dalaşırlar, deyinirlər. Bu kişinin günü olur qara. Aradan iki il keçir, kişi qızından xəbər tutmaq istəyir, gəlir Məhəmməd peyğəmbərin yanına, deyir:

- Ya Məhəmməd, sənə canım qurban olsun, sən gəl qızımın yerini mənə de, evdəkilər günümü qara edib, gedim bir hal-əhval tutum.

Məhəmməd peyğəmbər ona baxıb deyir:

- Get, səhər gələrsən, özünə yol tədarükü gör, bir dənə də

heybə gətirəsən.

Kişi gedir evinə, səhər bir də qayıdır. Bu dəfə Məhəmməd peyğəmbər onun qızının yaşadığı yeri nişan verib deyir:

- Düzəlirsən yola, yolun qəbirstanlığın yanından düşəcək, ora çatanda bir kəllə görəcəksən. Onu götürüb qoyarsan heybənə, qızına sovqat aparарsan.

Kişi yola düzəlir, gəlir bir qəbiristanlığa çatır, qəbiristanlığın qapısı ağzında bir kəllə görür. Peyğəmbərin sözü yadına düşür, fikirləşir, mən bunun nəyini götürüm, onu qızıma necə verim? Ancaq kəlləni götürəsi olur, yoluna davam edir. Gedir, gedir, bir dağın yanına çatanda görür ki, bir cavan oğlandı, bir barmağı alışır, yanır, sönür, bir də yanır. Yanında da bir donuz var, oğlan həm də onu otarır. Kişi ondan soruşur:

- Sənə nə olub, barmağın niyə yanır?

Oğlan deyir:

- Get, qayıdanda deyəcəm.

Kişi yenə yoluna davam edir. Gəlib bir dərəyə yetişir, görür ki, bir arvad təndirə çörək yapır, çıxardır, qoyur süfrənin üstünə. O saat yanında dayanmış it onu «hop» edib udur. Heç bu arvada çörək qalmır. Kişi bu işə mat qalıb arvaddan soruşur:

- Ay bacı, bu nə işdi, sən əziyyət çəkirsən, it yeyir, sənin özünə heç nə qalmır.

Arvad deyir:

- Get, qayıda bilsən, deyəcəm.

Kişi narahat olur: “Mən hara gedirəm ki, bu arvad belə dedi?”

Yoluna davam edir. Bir dalda yerə çatanda görür ki, bir cavan oğlanı başıaşağı asıblar, altdan ocaq qalayıblar, oğlanı aşağı sallayırlar, oğlan yanır, yanır, onu bir də adam eləyib yuxarı qaldırırlar. Kişi onlardan soruşur:

- Bunun günahı nədir ki, belə yandırırsız?

Ona cavab verirlər:

- Get, qayıda bilsən, deyəcəyik. Kişi fikirli halda yoluna davam edir. Qarşısına yenə bir qəbiristanlıq çıxır, oranı da keçir. Gözləri qarşısında gözəl bir laləzarlıq açılır. Görür ki, gül-gülü çağırır, bülbül-bülbülü çağırır. Ağaclar bar verib, meyvələr salxım-salxım olub sallanır. Bağda cavan bir oğlan ağacları suvarırdı. Kişi ona yaxınlaşıb salam verir, deyir ki, hal-qəziyyə belədir, mən qızımı axtarıram, nəmi-nişanı da budur. Bəlkə onun yerini biləsən? Oğlan cavab verib deyir:

- O evi görürsən? Sənin qızın bax, o evdədir, get, görəcəksən.

Kişi evə sarı gedir. Baxır ki, ev nədir, bu elə əsl saraydır. Evin bir dəm-dəzgahı var ki, gəl görəsən. Kişi öz-özünə deyir: «Mən bu heybəni özümlə içəri apara bilmərəm, ayıbdır. Bunu elə qoyum bu qızılgül kolunun dibinə, çıxanda götürərəm». Heybəsini qoyur qızılgülün dibinə, keçir içəri. Nə görsə yaxşıdır, qızı xanımlara məxsus libas geyinib, qula-qaravaşa göstəriş verir. Atasını görəndə özünü onun üstünə atır, qucaqlayıb öpür, deyir:

- Ata, nə yaxşı oldu gəldin, daha səni qoyan deyiləm geri qayıdasan.

Onlar söhbət etməkdə ikən bağda işləyən oğlan içəri keçir, qıza deyir:

- Atan bir heybə gətirib, kolun altındadır, get onu içəri gətir.

Qız gedib heybəni gətirir. Oğlan yenə deyir:

- Get bir sini, bir dənə də bıçaq gətir.

Qız gedib onları da gətirir. Oğlan kəlləni qoyur sininin içinə, bıçağı götürür əlinə, kəlləni yavaşca deşir, kəllənin içindən qızıl, ləl-cəvahir tökülür sininin içinə. Bir dəqiqədə sini

dolur. Oğlan bu dəfə üzünü kişiyə tutub deyir:

- Sən bunu bəyənmirdin ki, bu nədir, mən qızıma hədiyyə aparım. Bundan da yaxşı hədiyyə olar?

Kişi bu işlərə mat qalıb, dinmir. O, bir müddət qalır qızının yanında. Evə qayıtmaq məqamı çatanda kişi oğlana deyir:

- Mən elimə-obama qayıtmaq istəyirəm, qızımı da özümlə götürəcəm.

Oğlan deyir:

- Baba, istək sənin istəyindir, necə istəyirsən, elə olsun. Qızın da anadangəlmə necədirsə, indi də elədir. Əgər istəyirsən, izn ver, onunla evlənim, toyumu edim, istəmirsənsə, qızını da götür get.

Kişi onların evlənməsinə razı olur, yaxşı bir toy edirlər. Toydan sonra kişi evlərinə getmyə hazırlaşır, qızıyla, kürəkəniylə halal-hümmət eləyib yola düşür. Gəlib çatır yanan oğlanın yanına. Yenə soruşur:

- Onun günahı nədir?

Oğlan özü cavab verir:

- Mən bir qıza şər atmışam. Biz üç qardaşıq, gedib qardaşlarımı taparsan, deyərsən ki, qızı onların biri alsın, mən bu bəladan qurtarım. Damımızın astanasında bir küp qızıl basırmışam, onu da çıxardıb özlərinə götürsünlər.

Kişi «yaxşı» deyib yola düzəlir, gəlir təndirdə çörək bişirən arvadın yanına. Arvad da öz əhvalatını danışır:

- Mən çörək yapanda itə heç bir tikə də çörək verməzdim, çörəyin qır-qırıntısını da aparıb çırpardım arxa ki, su yuyub aparsın. Odur ki, indi nəki çörək yapıram, bu it yeyir.

Kişi gəlib çıxır, barmağı yanan oğlanın yanına. Soruşur:

- İndi de görüm, barmağın niyə yanır?

Oğlan başına gələnləri danışır:

- Mənim bir anam vardı, heç qonaq-zad istəməzdi. Mən də

heç vaxt anamın üzünə qayıtmazdım. Günlərin birində dostumla bizə getdik, anam dostumu görüb qaşqabağını tökdü, bildim ki, nə isə pis bir söz deyəcək. Mən anama sarı barmağımı silkələdim. Odur ki, hə belə, barmağım yanıb sönür. Yanımda gördüyün donuz da mənim anamdır. Allah onu donuza döndərib, mən onu gözdən qoymayıb otarıram.

Kişi yola düşür, ordan birbaşa gəlir məscidə, gedir peyğəmbərin qənşərinə. Peyğəmbər onu görüb soruşur:

- Gəldinmi, bala? Hə, indi getdiyin yerlərdə nə görmüsən hamısını danış, qoy burdakılar eşitsin.

Kişi danışmaq istəməyib deyir:

- Ya peyğəmbər, olanların hamısı sənə agahdır, mən nə danışım?

Peyğəmbər deyir:

- Yox, nə görmüsən, hamısını danış. Mənə ağahdır, bunlara qaranlıq.

Kişi gördüklərinin hamısını nağıl edir. Peyğəmbər kişiyə deyir:

- Get, o qızı çağır gəlsin.

Kişi şərə düşmüş qızın evinə gedir, görür ki, evdə əlində çəlik, beli bükülmüş bir qarı onun qabağına çıxdı. Kişi soruşur:

- Bəs bu evdə belə bir qız olmalıdır, o hanı?

Qarı cavab verir:

- O qız mənəm.

Kişi deyir:

- Səni demirəm ey, burda bir qız uşağı olmalıdır, onu deyirəm.

Qarı deyir:

- Elə sən dediyin o qız uşağı mənəm.

Kişi deyir:

- Eləmi? Onda dur gedək, səni peyğəmbər çağırır.

Qarı əlindəki əsaya dirsəklənərək peyğəmbərin hüzuruna gəlir. Yanan oğlanın qardaşlarını da çağırırlar. Peyğəmbər onlardan soruşur:

- Sən onu alarsan?

Böyük qardaşla kiçik qardaş deyir, yox, almaram, ortancıl qardaş deyir alaram, ancaq bir şərtim var. Şərtim də odur ki, qardaşım bəladan qurtarsın.

Peyğəmbər bu səfər üzünü qarıya tutub deyir:

- O oğlana ərə gedərsən?

Qarı cavab verir:

- Getmərəm, mənim cavanlığım puç olub, onun qardaşı mənə şər atıb, heç kəs məni almayıb. Mən nə ona gedərəm, nə də onun qardaşını bağışlamaram, Allah ona nəhlət eləsin.

Peyğəmbər yenə dillənir:

- Bəs necə edək ki, sən onu halal eləyəsən?

Qarı deyir:

- Heç nə, halal etmərəm.

Peyğəmbər deyir:

- Əgər səni 18 yaşında qız, onu da 18 yaşında oğlan eləsək, bağışlayıb, ona ərə gedərsənmi?

Qarı deyir:

- Hə, onda gedərəm, cavan olsam, bilərəm ki, həyatım hələ qabaqdadır.

Məhəmməd peyğəmbər iki rükət hacət namazı qılır, Allaha yalvarır. Qarı olur 18 yaşında cavan və gözəl bir qız. Ortancıl qardaşı da edir 18 yaşında igid bir oğlan, evlənirlər, cəhənnəm odunda yanan qardaş da bəladan qurtarır.

## HƏR ŞEYİ TANIYAN OĞLAN

Keçmiş zamanlarda kasıb bir kişi olur. Bu kişi gündə gedir kolluqdan bir şələ çırdan-çırpıdan, tikandan yığır, gətirib satır, çörəkdən, pendirdən alıb bir təhərnən ailəsini saxlayırdı.

Günlərin birində kişi yenə bir şələ çör-çöp yığır, gətirib bazarda satmaq istəyəndə ayağı dəyir daşa, büdrəyib yıxılır. Uzaqdan bunu görən oğlu gəlib atasını yerdən qaldırmağa utanır, yanındakı uşağa deyir ki, get o kişiyə kömək elə, yerdən qaldır. Uşağın kişiyə yazığı gəlir, gedib onu qaldırır, qolundan tutub evinə aparır. Oğlu axşam evə gəlib atasına deyir:

- Ata, məni öz əllərinlə apar ver məmləkətin padşahına, qoy qul kimi işlətsin, ancaq sən daha çör-çöp yığmağa getmə. Yox, əgər məni padşaha verməsən, çıxıb elə yerə gedəcəyəm ki, daha bir də görməyəcəksən.

Atası deyir:

- Yox, bala, nə qədər canımda can var, işləyib sizi dolandıracam.

Oğul deyir, yox, ata deyir, olmaz. Bu deyir, o deyir, axırda kişinin arvadı sözə qarışır:

- Ay kişi, inad eləmə, apar uşağı ver padşaha, biz də bilək ki, uşağımız hayandadır. Yoxsa baş götürüb çıxıb gedər, yerini-yurdunu da bilmərik.

Kişi arvadının məsləhətinə qulaq asıb onu padşahın yanına aparır. Padşah ondan soruşur:

- Sən bir mənə de görüm, əlindən nə iş gəlir?

Oğlan düşünmədən cavab verir:

- Qızılı, atı, bir də adamı tez tanıyıram.

Padşah oğlanın qalmasına icazə verir. Oğlan padşahın yanında qalıb əlindən gələn işləri görürdü. Günlərin bir günü padşahın qonağı gəlir. Gecəni keçirirlər, səhəri padşah qonağını ova-meşəyə aparmaq istəyir. Mehtərə deyir ki, get, ilxıdan yaxşı bir at seç, gətir. Mehtər tez qaçır ilxının yanına, bir at cidarlayıb gətirir. Oğlan atı görən kimi deyir:

- Yox, bu at olmaz, o, adamı yarıyolda qoyar, çünki o, camış südü əmib.

Padşah hirslənib mehtəri çağırır, soruşur:

- De görüm, bu at camış südü əmibmi?

Mehtər düzünü deyir:

- Bəli, padşah sağ olsun! Bu doğulanda anası öldü, mən buna camış südü verdim.

Padşah mehtərə başqa at gətirməsini tapşırır.

Bu belə keçir. Bir xeyli vaxtdan sonra padşahın dostu yenə onlara qonaq gəlir. Uşaq da bunların yanında olur. Onlar yeyib-içəndən sonra durub şəhəri gəzməyə çıxırlar. Rastlarına çıxan bir dükana girirlər. Daxılın üstündə satdıq külqabını uşaq padşaha göstərib deyir:

- Padşahım, bunu al!

Padşah bir külqabıya baxır, bir uşağa, deyir:

- Ay bala, neynirəm bir tümənlik külqabını?

Oğlan təkid edir:

- Al, ağa, peşman olmazsan.

Padşah oğlanın təkidilə külqabını alır, gəlirlər evə. Otağa keçən kimi uşaq külqabının üzünü təmiz soyur və ağasına deyir:

- Padşahım, bu kül qabının içini görürsən? Bu xalis qızıldır.

Padşah oğlanın bu qabiliyyətinə heyran qalır, deyir:

- Ay oğul, bərəkallah sənə, sənin sözlərin düz çıxdı, atı, qı-

zılı tanıdın. Deyirdin, sən yaxşı adam tanıyansan. İndi de görüm, «dədə» dediyim adam mənim öz dədəmdi, ya yox?

Oğlan bir az fikrə gedir: desin, deməsin? Padşah onu məcbur edəndən sonra deyir:

- Yox, o sənin öz dədən deyil.

Padşah oğlanın sözünün doğruluğunu yoxlamaq üçün anasını çağırtdırır və oğlanın sözünü anasına danışır. Sonra da anasından soruşur ki, o kişi doğrudanmı mənim atam deyil?

Anası cavab verir:

- Bu oğlan nə deyirsə, düz deyir. Mən sənə boyluydum, 6 qızım var idi. Dədən dedi ki, bu dəfə də qızın olsa, sən evdən çıxacaqsan. Mən də qaldım məcbur. Evin yaxınlığında, meşənin qırağında bir qaraçı ailəsi çadır qurub yaşayırdı. Mən həmin qaraçının arvadı ilə danışdım, dedim, oğlun olsa, mənim də qızım olsa, sənə bir ətək qızıl verəcəm, uşaqlarımızı dəyişdirərik. Qaraçı razı oldu. Allahdan gəldi, ikimiz də eyni gündə azad olduq. Uşaqları dəyişdik. Ancaq Allahdan gizli deyil, sizdən nə gizlədim, ana ürəyidir, dözəmmədim, səhəri getdim ki, qızımı yoxlayam, baxdım ki, qaraçı nə gəzir, çadırlarını da yığıb gediblər. Sən doğrudan da qaraçının oğlusan.

Padşah anasına heç nə demir, oğlanın ata-anasını çağırtdırır sarayına. Onları yaxşıca yedirdib-içirdir. Onlara ayrıca otaq ayırır. Oğlanın ata-anası kasıbçılıqdan qutarır. Padşah oğlanın ağlına görə öz tacını onun başına qoyub padşah elan edir, özü də olur onun vəziri.

# KƏBİNƏ YAZILMIŞ DÖVLƏT

Keçmiş zamanlarda bir imkanlı, ancaq olduqca xəsis bir kişi olur. Bu kişinin malı, heyvanı çox olsa da nökər-naibinə, ailəsinə bundan birini də qıymazmış, bazardan hərdənbir ət alarmış. Günlərin birində öz-özünə deyir: «Bir gedim görüm, ilxılarım, sürülərim neyləyir?» Başlayır heyvanların otladığı yerə getməyə. Uzaqdan baxanda görür ki, bir oğlandı, kənarda da bir əjdaha, az qalır bu oğlanı didib parçalasın. Əjdahanı öldürür, oğlanı bu əjdahanın cəngindən qurtarıb yoluna davam edir. Gəlib görür ki, malı-heyvanı, ilxısı hamısı yerində, sağ-salamatdır, çobanların da kefi, damağı çağ. Qayıdıb evinə gəlir. Oğlanı əjdahanın ağzından qurtardığı yerə çatanda görür ki, padşahın iki keşikçisi durub yolun ortasında. Kişi onların qənşərinə çatanda keşikçilər ona atdan düşməyi əmr edirlər. Kişi soruşur:

- Bəs mənim atım neçə olsun?

Keşikçilər cavab verir:

- Atın qalacaq burda, özünsə biznən gedəcəksən, padşah səni qonaq çağırır.

Keşikçilərin biri qabaqda, biri arxada, kişi də ortada saraya tərəf gedirlər. Arxadakı keşikçi ustufca kişinin qulağına pıçıldayır:

- Səndən soruşsalar ki, nə istəyirsən, cavab verərsən ki, heç zad, elə mənim mal-dövlətimin ixtiyarını özümə ver, heç nə lazım deyil.

Onlar gəlib padşahın hüzuruna yetişirlər. Padşah onu xoş qarşılayıb deyir:

- Sən mənim oğlumu ölümün ağzından qurtarmısan, məndən nə istəsən, onu da verəcəm. Dilə, məndən nə diləyirsən?

Kişi deyir:
- Mən səndən heç nə istəmirəm, səndən bircə şey xahiş edəcəm, mənim öz malımın ixtiyarını özümə ver.
Padşah kişinin bu sözündən karıxır, vəzirinə deyir:
- Mənim arvadımı bura çağırtdır!
Padşahın arvadı gəlir, padşah arvadına deyir:
- Bu gördüyün kişi bizim oğlumuzu əjdahanın ağzından qurtarıb. Varımız-yoxumuz bir oğlumuz var, az qalmışdı onu da əjdaha yesin. Bu adama nə verirəmsə deyir, istəmirəm, bir onu deyir ki, mənim öz malımın-mülkümün ixtiyarını özümə ver. İndi sən mənə bir məsləhət ver, kişinin istəyini verim, verməyim?
Arvadı deyir:
- Ver da, bə niyə vermirsən?
Padşah deyir:
- Bə mən onun malının-dövlətinin ixtiyarını sənin kəbininə kəsmişəm?
Arvad deyir:
- Mən kəbinimi ona halal edirəm.
Padşah kişinin mal-dövlətinin ixtiyarını ona əta edir. Kişini yola salırlar. O, gəlib həmin yerə çatır, görür ki, atı elə qoyduğu yerdədir. Atını minir, gəlir evə. Kişi evə çatır, deyir:
- Ə, o qara qoçu tutun, gətirin, kəsin, uşaqlar birdən ac qalar.
Hamı bir-birinin üzünə baxır. Kişinin elə bil əli-qolu açılmışdı. Hamıynan mehribanlıqla danışır, ət yeyilib qurtarmamış birini də kəsdirir. Bu kişi mal-heyvanı kəsdirdikcə birə-beş də onun yerinə gəlirdi. Əhli-əyalı, nökər-naibi günlərini xoş keçirməyə başlayır. Sən demə, o padşah adam cildinə girmiş mələklərdən olub. Oğlunu ölümdən qurtardığına görə kişiyə həm səxavət, həm də mal-dövlət əta edir.

## PULA ALINMIŞ FƏNDLƏR

Keçmiş zamanlarda kasıb bir oğlan olur. Cəmi-cümlətanı var-dövlət adında bircə danası varmış. Kasıbçılığa dözə bilməyən oğlan belə qərara gəlir ki, aparıb danasını satsın, pul düzəltsin, başqa bir diyara gedib iş axtarıb tapsın, işləsin, bəlkə bir yana çıxa, kasıbçılığın daşını ata. Danasını sürür bazara, 300 tümənə satıb başqa diyara getmək üçün yola düşür. Gəlib yolayrıcına çatanda görür ki, nurani bir qoca oturub yerə. Ona yaxınlaşıb soruşur:

- Ay əmi, qoca adamsan, burda niyə oturubsan?

Qoca cavab verir:

- Ay bala, heç, söz satıram.

Oğlan maraqla soruşur:

- Əmi, o nə sözdür elə?

Ağsaqqal deyir:

- 100 tümən ver, deyim.

Oğlan cibindən 100 tümən çıxardıb verir qocaya, qoca deyir:

- Heç vaxt heç kimin malına göz tikib oğurluq eləmə.

- Elə bu?

- Hə, elə bu...

Oğlan heç nə demədən yoluna davam edir, bir az getmiş yenə həmən qocaya rast gəlir, soruşur:

- Burda neyləyirsən, ay əmi?

Qoca cavab verir:

- Neyləyəcəm, söz satıram.

- Nə sözü?

- 100 tümən ver, sonra deyim.

Oğlan cibindən ikinci yüzlüyünü çıxarıb qocaya verir. Qoca deyir:

- Heç vaxt əmanətə xəyanət eləmə.

Oğlan deyir:

- Elə bu?

- Hə, elə bu...

Oğlan yoluna davam edir, elə bir az getmişdi ki, qabaqda yerə oturmuş həmən qocaya rast gəlir:

- Ay əmi, burda neyləyirsən?

- Söz satıram.

- Nə söz?

- 100 tümən ver, sonra deyim.

Oğlan cibindən axırıncı 100 tüməni də bu qocaya verir, qoca deyir:

- Deyirəm, eşit! Harda mərsiyə deyildiyini eşitdin, mərsiyəni qoyub getmə, get qulaq as.

Oğlan ordan gedir, bir kəndə çatır, yorulur, oturur yerə. Elə bu zaman ona tərəf bir kişi gəlir, oğlandan soruşur:

- Sən kimsən, niyə burda oturmusan?

Oğlan qəmgin cavab verir:

- Heç, elə-belə oturmuşam. Evim-eşiyim, kimim-kimsənəm yoxdur, yetim, çarəsiz bir adamam.

Kişi onun üzünə baxıb deyir:

- Dur gedək padşahın yanına. O, elə əməli-saleh bir adam axtarır. Bəlkə səndən xoşu gəldi, saraya qulluqçu götürdü.

Oğlan durur, qoşulur kişiyə, gedirlər padşahın sarayına. Padşahın bu oğlanın təhər-töhründən xoşu gəlir, onu sarayda qalıb işləməsinə izn verir. Oğlan başlayır sarayda canı-dildən

işləməyə.

Bir gün tezdən durur ki, həyəti süpürüb təmizləsin, görür ki, həyətdə bir kisə qızıl var. Öz-özünə fikirləşir: «Ay Allah, bəlkə bu bir kisə qızılı da götürüm çıxım gedim? Nə nökər işləyərəm, kasıbçılığın da daşını atıb evlənərəm». Birdən söz satan qocanın sözü yadına düşür: «Heç kimin malını-pulunu oğurlama». Qızıl kisəsini götürür, aparıb verir padşaha, deyir:

- Qibleyi-aləm! Bunu həyətdən tapdım, gətirdim.

Qızıl kisəsini heç demə, oğlanı sınamaq üçün padşah özü atıbmış. Padşah kisəni götürür. Bu hadisədən bir ay keçir, padşah oğlana deyir:

- Mən on günlük bir səfərə gedirəm, mənim arvadımdan muğayat olarsan.

Oğlan «baş üstə» deyib padşahı yola salır. Sən demə padşahın arvadının gözü düşübmüş bu oğlana. Elə ki, padşah saraydan çıxdı, arvad oğlana deyir ki, bəs, mənim səndən xoşum gəlir, sən mənnən olmalısan. Oğlan qəti etiraz edir, o deyir, bu deyir, arvad acığından oğlana nə çay verdirir, nə çörək verdirir. Padşah qayıdıb gələndə oğlanı tanımır, oğlan aclıqdan qələməyə dönmüşdü, qup-quru qurumuşdu. Padşah arvadından soruşur:

- Bu oğlana nə olub, niyə belə arıqlayıb?

Arvad oğlanın əlindən acıqlı idi, odur ki deyir:

- Bilirsən, padşahım, sən gedəndən sonra istəyirdi mənə əl atsın, mən qoymadım, çörək-zad vermədim. O da ha belə, naxoşlayıb, qov onu, getsin.

Padşah bərk qəzəblənir. Oğlana heç nə demir, bağbanı çağırır yanına, deyir:

- Bağban, səhər tezdən yanına bir adam göndərəcəm, sənin

yanına çatan kimi qılıncla onu şaqqalayarsan, atarsan quyuya.

Bağban «Oldu, qibleyi-aləm!» deyib bağa gedir. Səhər olur. Padşah oğlanı yanına çağırıb deyir:

- Oğlan, gedərsən bağbanın yanına, yetişmiş meyvələrdən bir səbət yığıb gətirərsən.

Gecəni yatırlar, səhər açılır, oğlan səbəti də götürüb gedir bağbanın yanına. Yolu yarı eləmişdi ki, görür camaat hara isə tələsir, onlardan soruşur:

- Hara belə gedirsiz?

Adamlardan biri deyir:

- Filan yerdə mərsiyə deyirlər, ora gedirik.

Oğlan öz-özünə fikirləşir: «Vallah, elə mən 100 tümən verib söz almışam, mən də gedəcəm bu mərsiyəyə qulaq asam». Belə deyib camaata qoşulur və mərsiyə deyilən yerə gedir. Bir xeyli müddət mərsiyəyə qulaq asır, saraya qayıdanda gün-günortanı keçmiş olur.

Oğlan mərsiyədə oturan vaxt padşah ha gözləyir, görür ki, bunun sədası çıxmadı. Arvadını yanına çağırtdırıb deyir:

- Bu oğlanı göndərmişdim meyvə dalınca bağbanın yanına, hələ də gəlib çıxmayıb. Bir get gör, ona nə olub?

Arvad durub yola düşür, bağa çatan kimi bağban onu dörd yerə şaqqalayıb quyuya tullayır.

Padşah çox gözləyir, görür arvadı gəlmədi. Bir də baxır ki, budu ha, oğlan meyvə doldurulmuş səbət də qoltuğunda gəlir.

Padşah bu işə mat qalıb oğlandan soruşur:

- Bu nə vaxtın gəlməyidir, indiyə qədər harda idin?

Oğlan öləcəyini göz önünə gətirərək deyir:

- Padşah sağ olsun! Mən pul verib söz almışam. Söz satan

demişdi ki, heç kimin malını oğurlama, əmanətə xəyanət etmə. Üçüncü də demişdi ki, mərsiyədən qalma, indi ixtiyar sahibisən, istəyirsən boynumu vurdur, istəyirsən bağışla.

Padşah barmağını dişləyir, başa düşür ki, günah arvadında imiş. Oğlanı bağışlayır və onu özünə vəzir qoyur.



## FATMEYİ-ZƏHRANIN QONAQLARI

Belə rəvayət edirlər ki, qurban olduqlarımın dövrü imiş. Bir kişi olur, onun da bir arvadı. Kişi yaman əzazil imiş, özü də peyğəmbərin düşmənlərindən imiş. Arvadı isə seyid, peyğəmbər övladı imiş. Hər gün məscidə gedərmiş, namaz qılarmış, mərsiyəyə qulaq asarmış. Bütün bunların hamısını ərindən gizlin edərmiş. Bir gün əri bunu bilir və arvadına bunları yasaq edir. Arvad məscidə gedə bilmədiyinə görə hey ağlayırmış. Bir gün qonşu arvadlardan biri deyir:

- Dur gedək məscidə, bu gün mərsiyə var.

Arvad durur ayağa, deyir, ərim məni öldürsə də gedəcəm. Əri səhər evdən çıxanda arvadına bərk-bərk tapşırır:

- Mənim axşama qırx qonağım gələcək, düz-əməlli yemək bişirərsən.

Arvad ərinin tapşırığını da unudub məscidə gedir, mərsiyə çox uzanır. Arvad bir də baxır ki, bay, qaranlıq düşüb. Arvad başlayır qorxudan əsməyə: «Bu nə iş idi mən tutdum? Ərim məni öldürəcək». Durub məsciddən çıxır, gəlir evə, görür ki, qapının ağzında iki arvad dayanıb. Həyət-baca elədi-elədi, çiçək kimi, tər-təmiz, silinib süpürülüb. Ocağın başında da iki arvad var, qazanlarda xörək asıblar. Çox gözəl qoxusu gəlir. Girir içəri, görür ki, yer xalılarla döşənib, üstünə döşəkçələr düzülüb. Geri dönüb qapıdakı arvaddan soruşur:

- Sən kimsən?

Qara çadralı arvad deyir:

- Gir içəri, içəridəki arvadlardan soruş.

Arvad içəri girib soruşmaq istədikdə içəridəki arvad yox olur. Arvad eşiyə çıxır, gələndə gördüyü arvadların heç birini

görmür, tək bir nəfərdən başqa, o da plov süzürdü. Arvad ona yaxınlaşıb soruşur:

- Sən kimsən?

Qara çarşablı qadın cavab verir:

- Mən Cənabi-Zeynəbəm, o biri Fatmeyi-Zəhra xanım idi. Sən onun balalarına ehsan verəcəkdin. Gəldik, bişirdik, düşürdük, hər şeyi hazırladıq, indi də çıxıb gedirik.

Axşam kişi gəlir, görür, hər şey hazırdır, onun gözlədiyindən də yaxşıdır. Heç bilmir ki, arvadı məscidə gedibmiş. Qonaqlar yığışır, xörəkləri yedikcə bərk tərifləyib, deyirlər:

- Xörəklərdən müşkü-ənbər qoxusu gəlir, gəl bunun sirrini bizə agah elə.

Kişi arvadı dal otağa çəkib soruşur:

- Bir məni başa sal görüm, bunu necə bişirmisən ki, əvvəlki xörəklərinə oxşamır, qonaqlar hey tərifləyir.

Arvad dillənir:

- Allahdan gizli deyil, səndən nə gizlədim? Mən getmişdim məscidə, qayıdanda gördüm ki, xörəklər hazır, yer döşəli. Bunların hamısını Cənabi-Zeynəb, Fatmeyi-Zəhra görüblər. Mən evə gələn kimi hamısı yox oldu.

Kişi qonaqların yanına keçir, arvadının danışdıqlarını qonaqlara danışır. Qonaqların hamısı bir ağızdan dillənir:

- Biz sizin dinə gəlib, onu qəbul edirik, bu gündən biz kafirliyi atıb oluruq Məhəmməd peyğəmbərin övladları.

## PEYĞƏMBƏRİN LİBASI

Günlərin bir günü Peyğəmbər məsciddə namazın əta edirdi. Bu vaxt məscidə bir sayıl daxil olur. Peyğəmbər məscid əhlinə deyir:

- Bu sayıla təam verin, yesin, qarnı doysun.

Məsciddəkilər ona yeməyə heç nə tapa bilmirlər. Peyğəmbər sayılın qəlbini ələ almaq üçün əynindəki əbasını soyunub ona verir. Sayıl məsciddən çıxıb getməyə başlayır. Bir tacir də düşür onun dalınca. O, baxıb görür ki, sayılın qoltuğundan nur qalxır. Yaxınlaşıb ondan soruşur:

- Ey bəni-adəm, o qoltuğundakı nədir elə?

Sayıl cavab verir:

- Bu peyğəmbərimizin libasıdır, verib mənə.

Tacir deyir:

- Sənə bir dəvə yükü qızıl-gümüş versəm, o libası mənə verərsənmi?

Sayıl bir az fikirləşir, öz-özünə deyir ki, Allah mənimkini yetirdi, əbanı verim tacirə, kasıbçılığın, dilənçiliyin daşını birdəfəlik atım. Odur ki, tacirə cavab verib deyir:

- Verərəm, niyə vermirəm! Təki dilənçilikdən canım qurtarsın.

Tacir sayılın pulunu verib peyğəmbərin əbasını alır, gəlir məscidə.

Peyğəmbərə yaxınlaşıb deyir:

- Ya peyğəmbər, bir dəvə yükü qızıl verib sənin libasını sayıldan geri aldım.

Peyğəmbər soruşur:

- İndi mən sənə bunun müqabilində nə hörmət edim?

Tacir cavab verir:

- Ya peyğəmbər, mənim varım-dövlətim başımdan aşıb-

daşır, ancaq bir züryətim yoxdur. Üz tut xudaya, bəlkə mənim bir övladım ola.

Peyğəmbər xudaya üz tutub yalvarmağa, dua etməyə başlayır:

- İlahi, sən bu şəxsi sevindir, bu tacirə bir övlad əta elə.

Allah-təala sevimli peyğəmbərinin xahişini yerinə yetirir. Tacirə bir oğul verir. Tacir oğlunun adını qoyur Həbibi Məzahir. Oğlan böyüyür, 5 yaşına çatanda atası onu aparır peyğəmbərin yanına. Oğlu peyğəmbərin nəvələri Həsən və Hüseyndən Quran dərslərini öyrənir.

Bir gün atası gəlib oğlundan soruşur:

- Bala, neçə vaxtdır sən burdasan, nə öyrənmisən?

Oğlu cavab verir:

- Atayi-mehribanım, "Bissimillah-ir-rəhman-ir-rəhim"-i öyrənmişəm.

Tacir peyğəmbərin icazəsilə oğlunu öz vilayətinə aparır. Öz elində, obasında Həbibi Məzahir həmişə ağlayır, atasına hey deyirdi:

- Mən öz dostlarımın yanına getmək istəyirəm.

Günlərin bir günü Həbibi Məzahir xəbər tutur ki, Həsənlə Hüseyn gəlir, onu öz yanlarına aparsınlar. Tez çıxır damın üstünə, görür yolu toz-duman bürüyüb, Həsənlə Hüseyn dəvələrini çaparaq gəlirlər. Həbibi Məzahir sevindiyindən damın üstündən necə qaçırsa qıraqdan yıxılır, başı daşa dəyib ölür. Ata-anası uşağın meyidini gizlədirlər. Həsənlə Hüseyn yetişib dostlarını soruşur. Ata-ana əvvəlcə oğlunun öldüyünü demək istəmirlər. Ancaq peyğəmbər nəvələrinin təkidli israrı ilə meyidi göstərirlər. Qardaşlar dəstəmaz alıb evə keçirlər. İki rükət namaz qılırlar, Həbibi-Məzahir asqırıb oyanır. Hər üç dost sevinib qucaqlaşırlar, çox şad olurlar. Hər üçü hazırlaşıb Mədinəyə yola düşürlər. Kərbəla davasında deyilənə görə Hüseynin yolunda canını birinci Həbibi Məzahir şəhid edir.

## YAZIYA POZU YOXDUR

Keçmiş zamanlarda padşah təğyiri-libas olub vəziri ilə məmləkətini gəzməyə çıxır. Fikri bu olur ki, getsin, gəzsin-dolansın, görsün ki, camaatın dərdi-odu nədi, necə dolanırlar. Bütün günü gəzirlər, gecə gəlib bir kəndə çıxırlar. Gəlib kəndin kənarındakı qapını döyürlər. Səsə evin sahibi çıxır. Padşah görür ki, bu cavan bir oğlandır. Oğlan onları mehribanlıqla qarşılayıb içəri dəvət edir. Xoş-beş, onbeşdən sonra süfrə salıb yemək yeyirlər. Gecə olur, padşah yatır, vəzir isə oyaq olur. Vəzir səs-küy eşidir, hiss edir ki, kimsə evə girir-çıxır. Bir istəyir, durub görsün bu nə səsdir, sonra da fikirləşir ki, əşşi, qonaq adamam, nə işimə bu nə səs-küydür. Səhər açılır, vəzir həyətə çıxır, bir nəfəri görüb soruşur:

- Bu gecə nə səs-küy idi, bu evdə nə baş verirdi?

Həyətdəki adam cavab verir:

- Axşam gördüyün oğlanın arvadı hamilə idi, ağrısı tutdu, bu gecə bir oğlan uşağı dünyaya gəldi. Mən də tale yazanam. Gəlmişəm ki, bu uşağın taleyini yazam.

Vəziri maraq bürüdü, soruşdu:

- Uşağa nə tale yazdın?

- Yox, onu mən deyə bilmərəm, o ancaq Allaha məlumdur, bu bir sirr olaraq qalmalıdır.

Vəzir əl çəkmir:

- Yox, mən onu bilməliyəm, çünki bu gecə oyaq qalmışam, bu səs-küydən yata bilməmişəm. Sən onu mənə söyləməlisən.

Tale yazan məcbur qalıb deyir:

- Bu uşaq görürsən də, kasıb bir ailənin uşağıdır. Ancaq mən onun taleyini yazdım ki, o böyüyüb igid bir oğlan olanda

padşah qızıyla evlənəcək.

- Elə şey olar? - deyə vəzir təəccüblə soruşur.

Taleyazan cavab verir:

- Mən onu belə yazdım, yazıya pozu yoxdur.

Vəzir fikirli içəri keçir, padşahı oyaq görüb deyir:

- Padşah sağ olsun, sən gecəni yatdın, xəbərin olmadı, gecə ev sahibinin bir oğlu oldu. Taleyazanla rastlaşdım. Dedi ki, oğlan böyüyüb bir padşahın qızı ilə evlənəcək.

Padşah gülüb deyir:

- Elə şey ola bilməz. Görmürsən bunların cındırından cin hürkür. Bunun oğlu bəyəm padşah qızı ilə evlənib padşah olacaq?

Padşahın da təzəlikdə bir qızı olmuşdu.

Padşah ağlına gələn kimi öz-özünə fikirləşir: «Birdən bu oğlan böyüyüb gəlib mənim qızımla evlənər?!».

Ordan qayıdırlar saraya. Padşahı fikir götürmüşdü: «Mən necə edim ki, bu iş baş tutmasın. Bəlkə onları öldürtdürüm, ya başqa vilayətə sürgün eləyim?» Padşah vəzirini çağırıb deyir:

- Vəzir, dur gedirik dünən qonaq olduğumuz evə.

Vəzir çaş-baş qalıb soruşur:

- Padşah sağ olsun, ora nəyə?

- Heç, gedərik, bilərsən, işim var.

Dururlar ayağa, padşah özü ilə bir az da qızıl, pul götürüb gəlirlər qonaq qaldıqları evə. Padşah ev sahibini çağırtdırır, oğlan gəlib padşahın qabağında təzim edir. Padşah deyir:

- Oğlan, kasıb adamsan, al bu qızılları, dünən gecə doğulan uşağı ver bizə.

Oğlan qorxa-qorxa dillənir:

- O mənim övladımdır, mən onu sənə necə verim?

Padşah deyir:

- Sən cavansan, ailən cavandır, uşağınız yenə olar, bu qədər sənə qızıl verirəm götür, at bu kasıbçılığın daşını. Sən bu kasıbçılıqnan uşağı necə saxlayacaqsan?

Oğlan yumşalır, razılaşır, padşaha deyir:

- Mən razıyam, ancaq qoy bir gedim uşağın anasına da deyim.

Keçir içəri, arvadının yanına gəlib məsələni ona anladır. Arvadı razı olmayıb deyir:

- A kişi, sən nə danışırsan, biz bilmirik o kimdir, nəçidir, tanımadığımız bir adama uşağımızı necə verək?

Oğlan hirslənir:

- Ay evini Allah yıxsın, işləməkdən, səfil gəzməkdən belim qalxmır. Uşağı verək buna, kasıbçılığın daşını ataq, onsuz da gələn il biri də olacaq.

Oğlan çox israr edir, arvad da yumşalır, uşağı gətirib verirlər bunlara, qızılı alırlar. Padşahla vəzir saraya qayıdır. Bir qədər gələndən sonra yolda padşah vəzirə deyir:

- Vəzir, bu uşağı aparırsan bir gizlin yerdə öldürürsən, onun ölməyini nə dil bilir, nə dodaq.

Vəzir çox qəmgin olub deyir:

- Padşah sağ olsun! Bu bir tikə körpə mələk kimi bir şeydir, heç bir günah işlətməyib. Onu öldürmək çox böyük günahdır.

Padşah hökm edir:

- Bu uşaq ölməlidir, vəssəllam! Ayrı söz ola bilməz!

Vəzir uşağı da götürüb kor-peşman padşahın hüzurundan mürəxxəs olur. Onun uşağa yazığı gəlir, onu öldürməyə əli gəlmir. Gəlir evinə, bir sandıq düzəltdirir, uşağı qoyur sandığın içinə, gəlir dəryanın qırağına. «Allah, özünə ağahdır ki, bu uşağı öldürmək istəmirəm, ancaq neyləyə bilərəm, padşa-

hın əmridir, uşağ ölməlidir. Mən də onu buraxıram suya, Allaha təvəkkül, bəlkə ölümdən xilas ola». Belə deyib sandığı dəryaya buraxır. Suyun axarına yaxın yerdə dəyirman yerləşibmiş. Sandıq axa-axa gəlib çıxır dəyirmanın altındakı suda qərar tutur. Dəyirmançı dən üyüdürdü. Bir də baxıb görür ki, su azaldı. Dəyirmançı fikirləşir görəsən nə baş verdi ki, su belə azaldı. Dəyirmana gələn arxa baxıb görür ki, bir yekə sandıqdı, suyun qabağını kəsib. Sandığı sudan çıxarır, ağzını açıb görür ki, içində südəmər bir körpə var. Dəyirmançının da uşağı olmurmuş. Uşağı görəndə sevindiyindən bilmir nə etsin. Uşağı alır qucağına, gətirir arvadının yanına:

- Allah bu uşağı bizə göndərib, Allahın verdiyi paydır.

Onlar uşağı sevərək, əzizləyərək böyüdürlər.

Ata-anası onu əziz-xələf edərək heç bir işə buyurmurlar. Uşaq böyüyüb 15-16 yaşına çatır, darıxmağa başlayır. Elə hey fikirləşirmiş nə etsin, nəylə məşğul olsun ki, darıxmasın. Günlərin bir günü gedib oturur suyun qırağında. Fikirli-fikirli suya baxdığı yerdə bir də görür ki, suyun üzü ilə bir qırmızı alma gəlir. Almanı tutur, iyləyir, onun iyindən məst olur, özözünə deyir: “Bu çox sirli bir almadır, nə olursa-olsun, mən bu almanın dalınca gedəcəm, görüm hansı həyətdən düşüb gəlib. Əgər icazə versələr, bu ağacın bir tingisini qırıb gətirəcəm, öz bağımızda əkəm”. Oğlan almanı alır əlinə, çay yuxarı gedir, gedir, gəlib bir həyətə çıxır. Həyətə daxil olub görür ki, bura padşahın imarətidir. Həyətdəki eşikağasına deyir ki, padşahı görüb bir söz demək istəyirəm. Ona baş qoşmaq istəmirlər. Ancaq oğlanın inadkarlığını görüb padşaha xəbər aparırlar və inadkar oğlanın onu görmək istədiyini deyirlər. Padşahı maraq götürür və deyir ki, oğlanı buraxın gəlsin. Oğlan padşahın hüzuruna gəlib baş əyir, salam verir. Padşah

oğlanın bu ədəb-ərkanından çox xoşu gəlir və soruşur:

- Buyur, oğlan, de görüm, sözün, istəyin nədir?

Oğlan alma məsələsini danışır və axırda deyir:

- Sizdən istədiyim ancaq odur ki, bu almanın tingisindən verəsən, aparam öz həyətimizdə əkəm.

Padşah deyir:

- Niyə olmur, olar.

Sonra da soruşur:

- Sən kimlərdənsən? Kimin oğlusan?

Oğlan cavab verir ki, bəs filan dəyirmançının oğluyam.

Padşah bir də soruşur:

- İşin-zadın varmı, nə işlə məşğulsan?

Oğlan deyir:

- Atam-anam məni iş görməyə qoymurlar. Mən onların əziz-xələf bir uşağıyam.

Padşah bir az fikirləşib deyir:

- Sən gəl belə elə, gəl mənim böyük bir bağım var, işlə orda, bu alma ağaclarına qulluq elə, sonra evinizə qaydanda bir tingi də verəcəm sənə, aparıb bağınızda əkərsən.

Oğlan deyir:

- Gedim atamdan-anamdan icazə alım, gələrəm.

Oğlan qayıdır evlərinə, gün ərzində olanları danışır, padşahın bağında işləmək üçün ata-anasından icazə istəyir. Ata-anası məsləhətləşirlər, oğlunun böyüdüyünü, evdə boş-bekar oturduğunu, darıxdığını görüb, razılıq verirlər. Bir də fikirləşirlər ki, hər adam padşah sarayında işləyə bilməz, ancaq padşah özü onların oğlunu işə dəvət edib.

Oğlan gəlir başlayır padşahın bağında ağaclara qulluq etməyə. Günlərin birində şahın qızı bağa gəzməyə çıxmışdı. Görür ki, bağda gözəl, boylu-buxunlu bir oğlan əlində bel

ağacların dibini boşaldır. Qızın bu oğlandan bərk xoşu gəlir. Yanındakı kənizə deyir:

- Get, o oğlandan soruş, gör kimdi, nəçidi, atamın bağında nə gəzir?

Kəniz gəlib oğlanı sorğu-suala tutur. Oğlan cavab verir:

- Məni padşahın özü bu işə götürüb.

Kəniz gəlib padşahın qızına deyir:

- Bu oğlanı atan bağban götürüb.

Qız sevinir. Padşahın qızı da böyümüşdü. Ona çox yerdən elçi gəlirdi. Qız heç kimə getmirdi, nə padşah oğlu, nə tacir oğlu, heç kim könlünə yatmırdı. Günlərin birində kənizinə deyir:

- Get, o oğlana de ki, mən onunla danışmaq istəyirəm.

Kəniz oğlanın yanına gedib xanımının ismarıcını ona çatdırır.

Oğlan qorxur, kənizə deyir:

- Onunla mənim nə söhbətim ola bilər, o, padşah qızı, mənsə kasıb bir bağbanam. Atası bilər, məni öldürər. Mən ata-anamın bir oğluyam. Onlar gözlərini bir mənə dikiblər.

Kəniz padşahın qızına xəbər gətirir. Padşahın qızı deyir:

- Qorxub eləməsin, razılıq versin, mən yer tapıb onunla görüşüb söhbət edəcəyəm.

Oğlan razı olur, onlar görüşürlər. Qız deyir:

- Sən bilirsən ki, mən padşah qızıyam, elçilərim də çoxdur, heç birinə razılıq vermirəm. Ancaq səni gördüm, səni sevdim, gecə də yadımdan çıxmırsan, yatıram, yuxuda da səni görürəm. Sən məni alarsansa, sənə gələrəm, evlənərik.

Oğlan cavab verir:

- Mən kasıb bir dəyirmançı oğluyam. Sən padşah qızısan. Sənnən mənimki tutmaz.

Qız deyir:

- Ölsəm də, qalsam da sənnən evlənəcəm.

Bunlar burda əhd-peyman bağlayırlar. Oğlan bağda işini başa vurub ata-anasının yanına qayıdır. Ancaq qızı bir dəqiqə də olsun unuda bilmir. Gecəsi-gündüzü olmur, narahatçılıq içində çabalayır. Anası oğlundakı bu dəyişikliyi, rəng-rufunun qaçdığın görüb soruşur:

- Ay oğul, bəs biz səni işləməyə qoymurduq, sən bizi məcbur elədin, sənin işləməyinə razılıq verdik, indi də deyirik ki, işləməyin yetər, çıx, gəl evimizə, rəngin-rufun solubdur. Biz buna dözə bilmirik. Şükür Allaha, özümüzə görə gün-güzəranımız var, sənin işləməyinə ehtiyacımız yoxdur.

Oğlan başını qaldırıb anasının üzünə baxır və ürəyini deşən bəlanı anasına danışmağa məcbur olur.

- Yox, ana, məni iş üzməyib, mənim dərdim başqa şeydir.

- Anan ölsün ay bala, xəstəsənsə təbibə aparım, dərdinə bir çarə qılsın.

- Yox, ana, mən xəstə deyiləm, mən padşahın qızına aşiq olmuşam.

Anası təşvişə düşür:

- Anan qurban, padşah hara, biz hara? Padşah bilər, bizi burdan sürgün eləyər.

Oğlan deyir:

- Ana, mən də onu dedim. Ancaq padşahın qızı əl çəkmədi, dedi ki, gəlsəm səninəm, ölsəm torpağın. O, məni istədi, indi mən də onu istəyirəm, ona görə rəngim qaçıb. Sən mənə de görüm, atam onlara elçi gedərmi?

Anası deyir:

- Qoy axşam atan işdən gəlsin, görək nə deyir?

Axşam dəyirmançı evə gəlir, çay-çörəkdən sonra arvadı yavaş-yavaş başlayır məsələni açmağa.

- Ay kişi, elə hey fikir edirdim ki, bu uşağa nə olub, bu niyə günü-gündən dala gedir. Uşaq padşahın qızına aşiq olubmuş.

- Ay arvad, sən nə danışırsan, dəli olmusuz, nədi? Uşağı başa sal, şah qızı hara, biz hara? Padşah bilər, bizim nəslimizi yer üzündən qazıdar.

- Nə bilim, dedim, oğlum dedi ki, qız məni istəyir, mən də onu. Onun fikrindən uşaq əriyir, xəstəlik tapıb eləyər, sən elçi get, qoy uşaq bilsin ki, sən getmisən. İndi padşah da nə deyər, deyər. Versə də özü bilər, verməsə də...

Səhər açılır. Kişi durur ayağa, gedir, padşahın elçi daşının üstündə oturur. Padşah onu hüzuruna çağırtdırır, gəlişinin səbəbini soruşur. Dəyirmançı cavab verib deyir:

- Mən sənin bağında işləyən oğlanın atasıyam. Mənim oğlum sənin qızına aşiq olub, mən də elçi gəlmişəm.

- Ay kişi, sən nə danışdığını bilirsənmi? Başın xarab olub, nədi? Sən özün dəyirmançı, oğlun da mənim həyətimdə bağban. Mənim qızıma padşahlar, tacirlər elçi gəlir, mənim qızım heç onlara getmir, sənin bağban oğluna gedəcək?

- Padşah sağ olsun, hirslənmə, onu qız bilər, bir qızından soruş. Sənin qızının razılığı var ki, mən elçi gəlmişəm.

Padşah bir az fikirləşir, deyir:

- Yox, elə şey ola bilməz. Mənim qızım elə şey görə bilməz.

Vəzir bu söhbətin şahidi idi, onların yanında durmuşdu. Söhbət bu yerə çatanda vəzir padşaha deyir:

- Padşah sağ olsun! Sən bu haqda bir az fikirləşsən yaxşıdır.

Padşah bir az fikirləşir, yadına keçmişlərdə vəzirin dediyi söz yadına düşür, o vaxt vəzir demişdi ki, taleyazan oğlanın taleyini padşah qızına yazıb. Padşah üzünü vəzirə tutub soruşur:

- Vəzir, sən o yenicə doğulmuş uşağı neylədin?

Vəzir dərindən nəfəs alıb deyir:

- Ya qibleyi-aləm! Allahdan gizlin deyil, səndən nə gizlədim? Mən o uşağı öldürmədim, bir sandıq qayırtdırdım, uşağı da qoydum içinə, buraxdım dəryaya. Yazıya pozu yoxdur, sən deyirdin mən bu yazını pozaram. Bu mümkün olası iş deyil. Sən qızını danışdır, bəlkə qızın da bu oğlanı istəyir. Kişini boş qaytarma.

Padşah dərin fikrə gedir. Sonra deyir, qızımı çağırın. Tez qızı çağırırlar. Qız atasının hüzuruna gəlib baş əyir. Padşah qızından soruşur:

- Qızım, bu kişi bizim bağda işləyən oğlanın atasıdır, sənə elçi gəlib, oğluna almaq istəyir. Sən mənə açıq de, utanma, onun oğlunu istəyirsənmi?

Qız cavab verir:

- Atayi-mehriban, mən o oğlanı istəyirəm, versən ona gedəcəm, yox, əgər razılıq verməsən, ölüncə kim elçi düşür-düşsün, fərqi yoxdur, heç kimə getməyəcəm.

Padşah deyir:

- Sən mənim gözümün ağı-qarası yeganə övladımsan, elə varlı-dövlətli adamların oğlu istədi, sən getmədin. Bunlar da kasıb bir ailədir, sən gedib onlarla necə dolanacaqsan?

- Ata, mən mal-dövlət istəmirəm, o oğlanı istəyirəm. Allah versə, istəsə o varı, dövləti ona verəcək. Təkcə oğlan mənim yanımda olsun, mən onun hər kasıbçılığına dözərəm.

Padşah dəyirmançıya üzünü tutub deyir:

- Kişi, sən qazandın, deməli doğrudan da yazıya pozu yox imiş. İndi sən dur get, oğlunu gətir, bunların toyunu edək. Arvadını da gətir, qalın burda, sarayda. Mən də yaşlaşmışam. Oğlun keçər mənim yerimə, padşahlıq edər, mən də olaram onun məsləhət verəni. Hər şey qismətdir, yazıya pozu yoxdur. Kimin alnına nə yazılıbsa, onu da görəcək.

## İNSANDAN TÖRƏYƏN ŞEYTAN

Belə rəvayət edirlər ki, keçmiş zamanlarda bir qarı yaşayırdı. Bu qarı həddindən artıq çoxbilmiş idi. Bir gün daxmasında oturub bərk fikrə getmişdi. Birdən bir kölgə görüb başını qaldırır. Görür ki, qarşısında bir əcayib məxluq dayanıb. Ondan soruşur:

- Sən kimsən?

Əcayib məxluq cavab verir:

- Mən şeytanam.

Qarı bir az acıqlı dillənir:

-Mən olan yerdə sən niyə bu kəndə gəlmisən?

Şeytan şeytancasına gülüb deyir:

- Gəlmişəm bu kəndə qalmaqal salmağa.

Qarı bir az fikirləşib deyir:

- Gəl onda belə edək, kəndi iki yerə bölək, yarısına sən qalmaqal sal, yarısına da mən. Görək kimin qalmaqalı çox olacaq.

Qarı işə başlayır, çıxır yola, görür ki, yolnan cavan bir gəlin gəlir, ona yaxınlaşıb deyir:

- Xalan sənə qurban olsun, sən gözəllikdə gəlinin də əri heç gedib başqası ilə oturub-durarmı? Mən gələndə gördüm ki, ərin başqa bir gəlinlə him-cimlə nə isə danışırdı.

Gəlin eşitdiyi xəbərdən çox sarsıldı, bikeflədi. Qarı yenidən şirin dilini işə saldı:

- Xalan sənə qurban olsun, bikefləmə, niyə bikeflədin, hər dərdin əlacı var, mən sənə kömək edərəm. Axşam ərin yatanda boğazının altından ikicə dənə tük götür, gətir ver mənə, dalısıynan işin yoxdur.

Gəlin "yaxşı, gətirərəm" deyib evinə sarı getdi. Qarı yoluna davam etdi. Bu dəfə gəlinin çöldən qayıdan ərilə rastlaşdı. Ayaq saxlayıb gəlinin ərinə dedi:

- Bay, xalan sənə qurban, heç rəvadırmı ki, sənin kimi gözəl-göyçək bir oğlanın arvadı başqası ilə oturub-dursun? İndi mən gələndə sənin övrətin filan yerdə filankəslə danışıb gülürdü, özü də ona nə desə yaxşıdır? Dedi ki, axşam ərimin boğazını  kəsəcəm, bir dəfəlik gələcəm sənin yanına.

Oğlan təşvişə düşür, bu işin axırına çıxmaq istəyir. Evə gəlir, arvadının hərəkətləri xoşuna gəlmir, hiss edir ki, arvadı ondan soyuyub, ona nifrətlə baxır. Arvad da görür ki, kişi ona pis baxır. Axşam olur, oğlan yerinə həmişəkindən tez girir, gözünü yumub özünü yuxululuğa vurur. Gözaltı baxıb görür ki, arvadı yavaş addımlarla ona tərəf gəlir, əlində də ülgüc. Arvad ərinə yaxınlaşıb boğazından tükü kəsmək istədikdə oğlan əl atıb arvadının əlindən ülgücü alıb tullayır. Axşamdan itiləyib döşəyin altında gizlətdiyi balta ilə arvadının başından vururb onu parçalayır. Gəlin ölür. Qarı tez qaçır gəlinin qardaşlarının yanına, haray salıb deyir:

- Sizin bacınızın əri başqa bir qadına uyub, bu gecə bacınızın başını balta ilə yarıb öldürdü, durun gedin.

Qardaşlar qarının sözündən dəhşətə gəldilər, durub bacılarının evinə sarı qaçdılar.

Qarı oradan götürülür, oğlanın qardaşlarının yanına, deyir:

- Bəs deməssən, qardaşınızın arvadı başqa bir kişiyə uyduğundan qardaşınız balta ilə vurub arvadını öldürdü. Gəlinin də qardaşları sizin qardaşınızı öldürdü.

Oğlanın qardaşları gəldilər onlara, gəlinin qardaşları ilə qırğına başladılar. Qarı xəbiscəsinə gülüb oradan uzaqlaşdı. Yolda şeytanla rastlaşdı. Onun hər şeydən xəbəri olduğundan

qarıya dedi:

- Allah sənə lənət eləsin! Mən hələ işə təzə başlamışam, sənsə kəndi qırğına verdin.

Bu zaman Allahdan nida gəldi:

- Ey mənim məxluqum! Şeytan iki cür olur. Birini mən yaratmışam, biri Adəmdən yaranmış şeytandır. Özünüzü Adəmdən yaranmış şeytandan qoruyun. Bu qarı Adəmdən yaranıb. O mənim yaratdığım şeytandan çox-çox qüvvətlidir. Çünki, mənim yaratdığım şeytana ismi-əzan oxuyanda, "bismillah" deyəndə o kənar olar,  törətmək istədiyi xətadan uzaqlaşır. Adəmin yaratdığı şeytanlar, insandan yaranmış şeytanlar həmişə qalmaqal yaradarlar, onlar ismi-əzana tabe olmazlar. Özünüzü pis adamların şərindən, böhtanından, əməlindən qoruyun.



## ŞƏRABI ELƏ İÇMƏK LAZIMDIR Kİ...

Biri var idi, biri yox idi, keçmiş zamanlarda bir padşah var idi. Bu padşah tez-tez camaat arasına çıxar, onların dolanışığı ilə maraqlanar, kasıblara əl tutardı. Günlərin bir günü padşah əyanları ilə birlikdə şəhəri gəzməyə çıxmışdı. Şəhərin kənarından keçərkən gördülər ki, bir nəfər yerə uzanıb və tərpənmir. Qarğalar bu adamın gözünü dimdikləyir. Şah qəzəblənib dedi:

- Bu adamın bir kimsəsi yoxdurmu ki, aparıb dəfn etsin? Əgər kimsəsizdirsə, onda qalan adamlar niyə buna etinasız yanaşırlar?

Şahın əshabələrindən bir nəfər yerdə uzanan adama yaxınlaşıb baxdı və şaha dedi:

- Şah sağ olsun, bu adam ölməyib.

Şah təəccübləndi:

- Əgər o adam sağdırsa, onda niyə gözünü dimdikləyən qarğaları qova bilmir?

- Şah sağ olsun, bu adam o qədər şərab içib ki, qarğaları qovmağa heyi yoxdur.

Şah saraya qayıtdı, taxta çıxdı və belə bir fərman verdi: “Bu gündən mənim məmləkətimdə şərab içmək yasaqdır. Şərab içənin boynu vurulacaq”.

Günlərin bir günü meşədən azmış bir şir şəhərə girdi, qarşısına keçəni parçalamağa başladı. Heç kim şirin qarşısında duruş gətirə bilmir, hamı qaçıb canını qurtarmağa çalışırdı. Şahın fərmanından qorxan bir cavan evinin qapısını arxadan bağlayıb gizlicə şərab içirdi. Küçədən gələn səs-küyü eşidən bu cavan nə baş verdiyini bilmək üçün evinin damına çıxdı. Gördü ki, bir şir qarşısına keçəni parçalayır, camaat nə illah eləsə də şiri tuta bilmirlər. Şir evin yanından keçəndə bu cavan tullanıb şirin belinə mindi,

boğazından tutub boğmağa başladı. Bunu görən camaat köməyə gəldi və şiri nəhayət ki, öldürdülər. Xəbər padşaha çatdı ki, bəs deməyəsən, bir cavan oğlan azğınlaşmış şiri öldürüb və camaatı xilas edib. Şah bu cavanın onun hüzuruna gətirilməsini əmr etdi və bildirdi ki, belə güclü cavan baş pəhləvan olmağa layiqdir. Oğlana paxıllıq edən pəhləvanlar padşaha bildirdilər ki, bu cavan sənin fərmanını pozub şərab içib. Şah qırmızı geyinib taxta çıxdı. Bunu görən baş pəhləvan sevindi və elə bildi ki, cavanın boynu vurulacaq.

Cavanı şahın hüzuruna gətirdilər. Qırmızı geyinən şahı görərkən cavanın boğazı qurudu. Şah qəzəblənərək soruşdu:

- Sən kimsən ki, mənim fərmanımı pozub şərab içmisən?

- Şah sağ olsun, bir xətadır eləmişəm, keç günahımdan.

Şah bir qədər fikrə getdi, nəhayət dilləndi:

- İşdi, birdən yenə də şəhərə şir hücum etsə, onu öldürə bilərsənmi?

Oğlan dedi:

- Qibleyi aləm, mən bunu bacarmaram.

Şah təəccüblə soruşdu:

- Niyə? Axı sən belə bir şiri öldürmüsən?

- Şah sağ olsun, bu dünən olmuşdu. Dünən isə mən şərab içmişdim, ona görə də cəsarətli idim.

Şah nə edəcəyini bilmədi,  bir xeyli fikrə getdi. Bir tərəfdən bu cavan onun fərmanını pozaraq şərab içmişdi. Digər tərəfdən şiri öldürərək camaatı xilas etmişdi. Nəhayət şah başını qaldırıb dedi:

- Camaat, mən bu gündən fərmanımı dəyişirəm. Bundan sonra mənim məmləkətimdə şərab içməyə icazə verirəm. Amma qarğa gözünüzü dimdikləyənə qədər yox, şiri minənə qədər içə bilərsiz, artıq yox.

## OLSA YAXŞIDIR

Kasıb bir kişinin aman-zaman bir oğlu var imiş. Vaxt keçir, vədə ötür, oğlan böyüyüb boya-başa çatır. Bir gün kişi arvadına deyir ki, daha oğlumuz böyüyüb, qoy kimi istəyir alsın gətirsin, biz də bu ahıl vaxtımızda nəvə görək, bu dünyadan nakam getməyək. Arvad oğlunu çağırıb atasının fikrini ona çatdırır. Oğlan anasına bildirir ki, onun öz istədiyi var. Anası soruşur:

- A bala, kimlərdəndirsə de, atan elçi getsin, toyunu edək.

Oğlan başını aşağı dikib dinmir. Anası dübarə soruşanda oğlu dərindən ah çəkib deyir:

- Ana, mənim dərdimin dərmanı yoxdur. Mən şah qızına aşiq olmuşam.

Ana naəlac qalıb əhvalatı ərinə danışır. Kişi arvadının sözünü ağzında qoyub deyir:

- Ay arvad, bu baş tutan sevda deyil. Şah bunu eşitsə, bizim nəslimizi kəsər.

Xülasə, oğlanın şah qızına aşiq olmasını eşidən hər kəsin ona yazığı gəlir. Bu əhvalatı eşidən dünyagörmüş bir ağsaqqal deyir ki, mən bu oğlan üçün şah qızına elçi gedəcəm. Oğlanın atasını da götürüb şahın sarayına gəlir və elçi daşının üstündə oturur. Şaha xəbər çatır ki, bəs iki kişi elçi daşının üstündə oturub, özü də deyirlər ki, biz sözümüzü ancaq şaha deyəcəyik. Şahın əmriylə elçiləri şahın hüzuruna gətirirlər. Şah soruşur:

- Siz kimsiz və məndən nə istəyirsiz?

Oğlanın atası qorxudan səsini də çıxarmır. Ağsaqqal deyir:

- Şah sağ olsun, bu kişinin oğlu sənin qızını istəyir. Gəlmişik ki, əgər razı olsaz, qızı verəsiz bu kişinin oğluna.

Bunu eşidən şah qəzəblənib vəzirə deyir ki, dərhal cəlladı çağır, bunların hər ikisinin başını bədənindən ayırsın. Şahın vəziri ağıllı və ədalətli adam olduğuna görə şahın qulağına pıçıldayır:

- Şah sağ olsun, səbr elə. Sən bunları öldürtsən, camaat deyər ki, şah öz rəiyyətini sevmir. Yaxşısı budur ki, sən oğlanın atasından yüksək başlıq istə. Onsuz da bu bir kasıb kişidir, heç nəyi yoxdur, başlığı verə bilməyəcək. O zaman qızı da ala bilməyəcək və sənin xalq arasında hörmətin artacaq.

Vəzirin sözləri şahın ağlına batır və deyir:

- Mən qızımı oğlana verməyə razıyam. Amma, mən deyən qədər başlıq verməlisiz.

Ağsaqqal deyir:

- Şah sağ olsun, mən razıyam, amma xahiş edirəm ki, mirzə gəlsin, sənin şərtlərini yazsın, surətini də bizə verəsiz.

Şah razılaşır və əmr edir ki, mirzəni çağırsınlar. Mirzə gəlir, şah onu əhvalatdan hali edir. Ağsaqqal mirzənin qulağına pıçıldayır ki, burda nə deyilsə, hamısını yazarsan. Şah deyir:

- Başlıq üçün 20 dəvə istəyirəm.

Ağsaqqal deyir:

- Şah sağ olsun, 50 dəvə olsa yaxşıdırmı?

Şah sevincək deyir:

- Əlbəttə.

Ağsaqqal dönüb mirzəyə deyir:

-Yaz ki, 50 dəvə olsa yaxşıdır.

Mirzə deyilənləri yazır. Şah deyir:

- Bundan başqa 30 at istəyirəm.

Ağsaqqal deyir:

- Şah sağ olsun, 60 at olsa yaxşıdırmı?

Şah sevinərək deyir ki, əllbəttə. Ağsaqqal mirzəyə deyir:

- Yaz ki, 60 at olsa yaxşıdır.

Şah əlavə olaraq 300 qoyun istəyir. Ağsaqqal deyir:

- Şah sağ olsun, 500 qoyun olsa yaxşıdırmı?

Şah deyir ki, əlbəttə. Beləcə, mirzə deyilənləri yazır və üzünü köçürür. Şah hər iki kağıza möhür vurur, birini ağsaqqala verir, o birini özündə saxlayır. Ağsaqqal və oğlanın atası saraydan çıxıb geri qayıdırlar. Yolda kişi deyir:

- Ağsaqqal, sən neylədin, indi mən başıma haranın daşını salım. Mənim heç nəyim yoxdur, şahın dediklərini mən hardan tapım?

Ağsaqqal təmkinini pozmadan deyir:

- Siz toyu başlayın, qalanları mənim işimdir.

Qərəz, toy başlanır, üç gündən sonra ağsaqqalın təkidi ilə çal-çağırla gedirlər şahın sarayının qarşısına. Şaha xəbər çatır ki, bəs demiyəsən, gəliblər şahın qızını aparmağa. Şah qəzəblənib onları hüzuruna çağırtdırır, hiddətlə ağsaqqalın üstünə qışqırır:

- Siz nə cürətlə mənim qızımın adını çəkirsiz? Bəs bilmirsiz ki, bu işin axırı dar ağacına gedib çıxacaq?

Ağsaqqal təmkinini pozmadan deyir:

- Şah sağ olsun, biz nəkarayıq ki, sənin əmrindən çıxaq. Çağır mirzə gəlsin, sənin şərtlərini oxusun, eşidək.

Şah arxayınlıqla əmr edir mirzəni çağırsınlar. Mirzə şahın hüzuruna gəlir. Şah deyir:

- Mirzə, mənim şərtlərimi oxu, qoy əyanlar da eşitsin. Mirzə kağızı çıxarıb oxumağa başlayır: « Birinci şərt – 50 dəvə olsa yaşıdır». Şah qalib görkəmlə ağsaqqalı süzüb deyir:

- Kişi, birinci şərti eşitdin,de görüm bəs hanı 50 dəvə?

Ağsaqqal özünü itirməyib deyir:

- Şah sağ olsun, orda yazılmayıb ki, 50 dəvə gətirək, yazılıb ki, 50 dəvə olsa yaxşıdır.

Şah kişinin ağlına heyran qalır. 40 gün, 40 gecə toy çaldırıb qızını oğlana verir, ağsaqqalı özünə baş məsləhətçi təyin edir.



## OVSANATA KEÇƏN TİKƏ

Keçmiş zamanlarda varlı-karlı bir kişi var imiş. Vaxt gəlir, vədə ötür, kişi qocalıb tələf olur. Oğlu atasını böyük hörmət və ehtiramla dəfn edir. Yeddi gün, yeddi gecə ehsan verir. El-oba tökülüşüb gəlir, ehsandan yeyib, kişiyə rəhmət oxuyurlar.

Yas vaxtı bir uşaq cır-cındır içində aşpazın yanına gəlib boynunu bükərək durur. Aşpazın ona rəhmi gəlir, qazandan bir sümüklü ət çıxardıb ona verir, deyir, ye, çıx get. Uşaq əti tez ağzına təpir, tələsik yeyə-yeyə ordan uzaqlaşır.

Yas başa çatır, kişinin həyətindən əl-ayaq çəkilir. Günlərin birində kişinin oğlu bir gecə yatıb atasını yuxuda görür. Görür ki, atası çox qəmgin oturub, oğlunu görəndə deyir: «Ay oğul, yəni mən sənə o qədər az var-dövlət qoymuşam ki, mənə gəlib çatan bir sümük oldu?» Kişinin oğlu tezdən yuxudan duranda, gecə gördüyü yuxu yadına düşür, fikir-xəyal içində gedir kəndin mollasının yanına. Yuxusunu ona danışır. Molla ağıllı bir cavab verə bilmir. Oğul qayıdır evə. Gecəni yatır, yenə də həmin yuxunu görür. Səhər açılır, bu dəfə o, aşpazın yanına getməyi qərara alır. Gedib aşpazdan soruşur:

- Ehsan vaxtı məndən gizlin nə iş tutmusan?

Aşpaz qorxa-qorxa cavab verir:

- Yetim bir uşağa bir tikə sümüklü ət vermişəm, yeyib.

Kişinin oğlu atasının nə demək istədiyini anlayır. Başa düşür ki, camaata geninə-boluna verdiyi ehsan yox, yetim bir uşağın yediyi bir tikə ovsanata keçib.

## ÇÖRƏYƏ HÖRMƏT

Varlı-hallı, dövlətli bir kişinin yeddi oğlu olur. Bu oğlanlar o qədər gözəl tərbiyə görürlər ki, onların da varı-dövləti başlarından aşır. Paxıl insanlar həmişə olub, indi də var. Paxıl qonşulardan biri namaz üstə Allaha dua edərkən deyir: «Necə olur ki, mən gecə-gündüz işləyirəm, varım-dövlətim heç artmır, əksinə ruzum azalır, ancaq qonşum günü-gündən yaxşı yaşayır». Birdən göylərdən səda gəlir: "Onların ruzusu ona görə artır ki, o qardaşlar bir-birinin yolunu gözləyir, bir-birinə hörmət eləyir. Bir də əsas ona görədir ki, onlar çörəyin qədrini bilir. Fikir vermiş olsaydın, görərdin ki, onlar çörəyə nə qədər hörmət edirlər. Çörək yeyəndə çuxalarının ətəyini açırlar, ora tökülən çörək oxantılarını ovuclayıb ağızlarına atırlar". Çörəyə hörmət edənlərin hər zaman ruzusu da bol olar.





# *İNANCLA BAĞLI RƏVAYƏTLƏR*

***

Kənd sakini Mayoşgil sahibi yarımamış evi alırlar. Yiyəsi ölmüş ev neçə il sahibsiz qalmışdı. Evi alandan sonra qəviz ağacları neçə il bar vermir. Onlara məsləhət görürlər ki, xına islat, həm öz başına qoy, həm də qəviz ağacının gövdəsinə sürt, de: “Biz yasdan çıxdıq, sən də çıx”. Elə də edirlər. Növbəti il cəviz ağacı bolluca bar gətirir.

***

Keçmiş zamanlarda çirkin bir xanımla gözəl bir qulluqçu var imiş. Xanım güzgüyə baxdıqca hey ağlayırmış. Gözəl qulluqçunun xanımına yazığı gəlir. Deyir, niyə ağlayırsan? Xanım deyir: "Heç, elə bəxtimi, taleyimi ağlayıram. Hər şeyim var, ancaq belə çirkinəm." Qulluqçu deyir: «Gəl, dedək dəryanın qırağına». İkisi də bir-birinə qoşulub dəryanın qırağına gedirlər. Qulluqçu üzünü dəryaya tutub çağırır: "Ay bu xanımın bəxti, çıx!". Dəryadan üstü ziyilli bir qurbağa çıxır. Qulluqçu xanıma deyir, bax, o sənin bəxtin, taleyindir. İndi mən öz taleyimi çağıracam: "Ay mənim taleyim, bəxtim, çıx". Birdən qanadları qızılı rəngə çalan, üzü ay kimi şəfəq salan bir su pərisi suyun üzünə çıxır. Qulluqçu deyir: “İndi bəxtlərimizi gördün ki? İndən belə ağlama". Deməli, hər kəsin öz bəxti, öz taleyi, öz qisməti var.

***

Kənd ağbirçəklərindən biri Gülgəz xala ömrü boyu Novruz bayramında niyyətə getmədiyini deyərdi. Gümrü kəndində ermənilər tərəfindən qətlə yetirilənlərdən üçü Gülgəz xalanın ailəsindən imiş. Qarışıqlıq başlayanda bir Novruz çərşənbəsi Çərkəzin babası Məmmədyar kişigilin damına çıxır, bacadan içəri boylanır. Məmmədyar kişi cəviz qırırmış. Birdən uca səslə deyir:

- Məmmədin qızı (arvadı Baharı belə çağırırdı), bir torba cəviz sındırdım, bircə dənəsi salamat çıxdı.

Gülgəz xala ağlaya-ağlaya evə gəlir. Bayram falı düz çıxır. Bir neçə gündən sonra Dərəbizana (Trabzon) işləməyə gedənlərin ölüm xəbəri gəlir. Ölənlərin içində Gülgəz xalanın əri, qaynı və qardaşı da varmış. Söylərdi ki, ondan sonra bir daha niyyət tutub qulaq falına çıxmayıb.

***

Yaqublular tayfasından olan Kəlbayı Fəxri Hacı Qurbanın arvadı, Məşədi Tağının nənəsi olub. O, vergili, gələcəyi görən imiş. Haca gedən vaxt Araz çayını keçəndə bütün ziyarətçilər suya qərq olur, Kəblə Fəxridən başqa.

Hacı Qurban savadlı, Quran oxuyan olub. Kəblə Fəxri Məşədi Tağının əmisi Məşədi Quluya deyir ki, bu gün heyvanı çölə aparma, qada-bəla gələr. Məşədi Qulu onun sözünü qulaqardına vurub, malı-heyvanı çölə aparır. Günəşli gün olduğuna baxmayaraq, birdən göyün üzü tutulur, göy guruldayıb şimşək çaxır, sellər-sular şaqqıldayır. Heyvanları dağdan gələn sel yuyub aparır. Məşədi Qulunun özü isə uzun müddət xəstə yatır.

Arvadı Fəxrini Hacı Qurban özü Kərbəlaya aparıb. Yaqublular ocağında nə sirr var imişsə, bu ocağa gələnlərin hamısı diribaş, əlli-ayaqlı, nüfuzlu olublar. Ondan başqa qeyri tayfadan qadın ziyarətə getməyib.

Kəblə Fəxri Qızyetərli tayfasından olub.

Məşədi Tağının arvadı Mülkücahanla Hüseyn Cavidin arvadı Mişkinaz xanım əminəvə olublar. Mişkinaz xanımın babası Molla Novruz savadlı, Quran oxuyan olub. Oğlu Hüseynalı Kərbəla ziyarətində ölüb. Molla İsmayıl oğlunu ağlayan Molla Novruza təskinlik verərək deyirmiş ki, oğlun Kərbəlada ölüb, bu ölüm Allah dərgahında savab işdir. Ziyarətdə ölənləri ağlamaq günahdır.

***

**İnsana göz dəyəndə belə deyirlər...**

Üzərliksən. havasan,
Hər bir dərdə davasan.
Səni sallam ocağa,
Bədnəzərdən savasan.

Atın ağdır, üzərrik,
Donun göydür, üzərrik.
Hansı evdəki varsan,
Qada-bala savarsan.

Üzərlik dənər-dənər,
Tökülsün hərzə çənə,
Qohum ola, yad ola
Nəzəri odda yana.

Müşkül işim düşübdür.
Ona hav dur, üzərrik.
Üzərriklər çırtdasın,
Yaman gözlər pırtdasın.



# *QARAVƏLLİLƏR*

## BİR AT DA LAZIM İMİŞ

Orucluq ayı olur. Bir kişi gedir iki put buğda alıb gətirir, arvadına deyir:

- Arvad, bu Ramazan payıdır, ona yaxşı saxla.

Arvad buğda təlislərini qoyur həyətin bir küncünə. Toyuqlar gedib-gəlir, hərəsi bir dimdik vurur təlisə, təlis deşilir və toyuqlar yerə tökülən buğdanı yavaş-yavaş dənləyib yeyir. Arvad toyuqları nə qədər qovursa, toyuqlar əl çəkmir. Axırda arvad acıqlanıb deyir:

- Ramazan gəlsəydi, bu təlisləri aparardı, mənim də canım qurtarardı. İşim-gücüm ancaq toyuqları qovmaqdır.

Bir gün yolnan bura adamına oxşamayan bir kişi keçir. Arvad kişiən soruşur:

- Ay kişi, sənin adın Ramazandı?
- Hə, - deyə nabələd adam cavab verir.
- Hardan gəlirsən?
- Cəhənnəmdən gəlirəm.
- Qardaş, mənim o Həsənalı qardaşımı gördün?
- Hə, gördüm. Dünənə kimi cənnətdəydi. Dünən apardılar cəhənnəmə.

Arvad ağlamsınır:

- Niyə apardılar?
- Qardaşının bir 100 tümən, bir dəst də kostyum borcu var idi, ona görə.

Arvad ağlaya-ağlaya 100 tümən pul, ərinin kostyumunu, bir də buğdanı verir kişiyə, kişi götürüb gedir. Arvadın əri evə gəlir, görür ki, buğda yoxdu. Soruşur:

- Arvad, buğda hanı?

Arvad deyir:

- Ay kişi, Həsənalı qardaşımın yanından Ramazan adlı bir nəfər kişi gəlmişdi, buğdanı verdim, apardı.

Kişi atını minib gedir kişinin dalıyca. Buğdanı aparan kişi görür ki, atlı gəlib bunu tutacaq, tez çiynini verir qayanın altına, ona söykənir. Atlı gəlib çatır, buna deyir:

- A kişi, çıx bu yana.

Kişi kələk işlətməli olur, deyir:

- Mən çıxsam dağ uçacaq. Sən də, mən də öləcəyik. Sən gəl dağı saxla, mən çıxım kostyumunu, pulunu, buğdanı verim apar, get.

Arvadın əri ona inanıb atdan düşür, çiynini dağa söykəyir. Ramazan çıxır, kişinin atını minib qaçır. Bu kişi üç gün dağın altında ac-susuz qalır. Sonra sürüsünü otaran bir çoban gəlib onu yaxınlaşır. Niyə dağa söykəndiyini soruşur. Əhvalatı öyrənib gülür:

- Yekə kişisən, ağlınsa yox imiş. Ay kişi, heç dağ da uçarmı?

Kişi gəlir evə, arvadı soruşur:

- Nooldu, ay kişi? Buğdanı ala bildinmi?

Kişi deyir:

- Həsənalı qardaşını cənnətə keçirtməkdən ötrü at da lazım imiş. Onu da verdim, getdi.

## PALAN-HAMISI YALAN

Bir kişi oturub palan tikirmiş. İstidən ürəyi yanır, bir qarpız kəsib yemək istəyir. Yeyəndə bıçaq düşüb qarpızın içində itir. Kişi düşüb qarpızın içinə, bıçağı xeyli axtarır. Gedib çıxır uzaq bir məmləkətə. Görür işıq gəlir, işıq gələn yerdən çıxıb görür ki, qəribə bir yerdir. Başqa bir kişi ulağnan odun gətirib satır. Kişi soruşur:

- Ay qardaş, sən hardansan?

Deyir:

- Naxçıvandan.

- Bəs bura haradır?

- Bura İrandır.

- Ay qardaş mənim yol pulum yoxdu, məni də Naxçıvana apar.

Kişinin buna yazığı gəlir, öz ulağına mindirir. Kişi minəndə görür ki, yanını nəsə əzir. Əlini atıb palanın içindən bıçağı çıxardır. Bu itirdiyi bıçaq idi. Odur ki, deyirlər: "Palan, hamısı yalan".



## BAYRAM APARDI

Keçmiş zamanlardı, kasıbçılıq vaxtı olur. İnsanların avam dövrü imiş. Novruz bayramının axırıncı çərşənbəsi - baca-baca bu tərəflərdə çox təntənəli qeyd edilir. Bayrama bir ay qalmış hazırlıq görülərdi, təmizlik işləri aparılardı. Bayram şirniyyatı hazırlanardı, aş bişirmək üçün düyü, turşu alınardı. Bir sözlə bayram üçün lazım olan hər şey qabaqcadan alınıb hazır qoyulardı.

Kənddə kasıb bir ailə var imiş. Evin başçısı ailəsinə çörək pulu qazanmaq üçün başqa diyarda imiş. Kişi kəndə gələnlərdən arvadına hər dəfə bir şey göndərib deyərmiş: "Saxla, qalsın bayrama." Arvad bayram sovqatını sandığa yığıb kilidləyirdi. Günlərin birində kəndə bir qonaq gəlir. Onun da adı olur Bayram. Bayram kişinin evinin yanından keçəndə içməyə su istəyir. Arvad tez parçı doldurub verir kişiyə və onun adını soruşur. Kişi "Bayram" deyən kimi arvad tez deyir:

- Getmə, dayan, sənin sovqatın var, verim, sonra gedərsən.

Bunu deyib evə keçir, sandığı açır, bayrama saxladığı ərzağın hamısını bir boxçaya yığır, verir kişiyə. Kişi heç nə demədən boxçanı götürüb yola düşür.

Elə bu zaman arvadın əri evinə qayıdırmış. Arvad ərini görcək sevinclə deyir:

- Ay kişi, Bayram gəlmişdi, göndərdiklərinin hamısını özünə verdim, apardı.

Kişi arvadının bu sözünü eşitcək, işin gedişatını başa düşür, tez atını minib düşür Bayramın dalınca. Çöldə onu tutub bayram sovqatını əlindən almaq istəyir. Əlbəyaxa olurlar. Bayram kişini yerə yıxır, onun atını da minib aradan çıxır. Kişi

kor-peşman evə qayıdır. Arvad soruşur:

- A kişi, neyləyə bildin, sovqatı ala bildinmi?

Kişi qəmgin-qəmgin deyir:

- Ay arvad, üzün ağ olsun, Bayrama bir at borcumuz da var idi. Onu da verdim getdi.



## XANPƏRİ GƏLDİ, QAÇ!

Bir kişinin Xanpəri adında dilli bir arvadı olur. Kişi buna dil çatdıra bilmir. Arvad o qədər deyingən olur ki, kişi bunun əlindən zinhara gəlir. Fikirləşir ki, arvadın əlindən necə xilas olsun. Gedir meşəyə, dərin bir quyu qazır. Üstünü də çör-çöpnən, samannan örtür. Qayıdır evə, arvadına deyir ki, gedək meşəyə, mənə yoldaşlıq elə, odun qıraq gətirək.

Ər-arvad gedirlər meşəyə. Kişi yolunu quyunun yanından salır. Arvad quyunun üstündən keçəndə quyuya düşür. Kişi "Allaha şükür, arvaddan canımı qurtardım" deyib evinə qayıdır.

Bir müddət keçir. Kişi öz-özünə fikirləşib deyir: "Bir gedim görüm arvadın axırı nə oldu". Gəlir meşəyə, quyuya yaxınlaşanda, quyudan naləyə bənzəyən səs eşidir. Görür ki, quyudan kimdirsə qışqırıb deyir: «Ay aman, yandım, kömək eləyin» Kişi quyuya kəndir atır. Baxır ki, bir ilandı, sarınıb kəndirə. Kişi qorxub ipi buraxmaq istəyəndə ilan haça dilini çıxardıb yalvarmağa başlayır:

- Səni dünya malından qəni edəcəm, qızıla-gümüşə bələyəcəm, məni aşağı buraxma.

Kişi ipi çəkib ilanı quyudan çıxarır, ilandan soruşur:

- Nə olub? Niyə qışqırırsan?

İlan Xanpərinin dilindən dad eləyir. Deyir:

- Sən ki, məni onun əlindən qurtardın, sənə elə bir yaxşılıq edəcəm, elə bir var-dövlət yetirəcəm ki, ömrünün axırınacan bəs eyləyəcək. Mən gedəcəm, dolanacam padşahın qızının boğazına. Padşah əmr edəcək ki, kim mənim qızımı bu ilandan xilas eləsə, onu qızıla bürüyəcəm. Sən gəlib deyərsən ki, mən

ovsun oxuyub qızı xilas edərəm. Mən də səni görən kimi qızın boğazından açılıb gedəcəm. Padşah səni qızıla bürüyəcək.

İlan belə deyir, gedib padşahın qızının boğazına dolanır. Carçı ətraf kəndlərə xəbər aparır, deyir, kim ilanı padşahın qızının boğazından aça bilsə, padşah onu dünya malından qəni eliyəcək. Bütün əfsunçular yığılıb gəlir. Heç kəs heç nə edə bilmir. Xanpərinin əri irəli çıxır, bir əfsun oxuyur, ilan kişini görüb padşahın qızının boynundan açılır, sürünüb gedir. Padşah kişiyə özü ağırlığında qızıl verir. Yolda ilanla kişi görüşür. İlan kişiyə deyir:

- İndi də gedim vəzirin qızının boynuna dolanım, ancaq sən ora gəlmə, gözümə heç nə görünməz, yoxsa səni sancaram.

Belə deyib gedir dolanır vəzirin qızının boğazına. Vəzir carçını göndərir ki, adamlara desin: padşahın verdiyindən də çox var-dövlət verəcəm, təki mənim qızımı ilanın əlindən xilas edin. Kişi bir istəyir getsin, birdən ilanın sözü yadına düşür. Ancaq tamah güc gəlir, gedir camaatın içinə. İlan kişiyə deyir:

- Demədim gəlmə, indi səni gəlib sancacam.

Kişi bir yanını qaçaraq qoyaraq deyir:

- Gəlməmişəm sənə deyəm qızın boğazından açıl, gəlmişəm deyəm ki, Xanpəri gəldi, qaç!

İlan kişinin ağzından söz qurtarmamış, Xanpəri adını eşidən kimi vəzirin qızının boynundan sürüşüb düşür, sürünərək gözdən itir. Ondan sonra el içində belə bir misal yaranır: «Xanpəri gəldi, qaç!»

## YAMAN ARVAD

Keçmiş zamanlarda iki qardaş olur. Qardaşın birinin arvadı vəfat edir. Körpələr qalır anasız. Böyük qardaş öz-özünə deyir ki, gəlinin ili keçdi, gedim qardaşımı evləndirim, yoxsa körpə uşaqlarla qardaşıma çətin olar.

Gəlir qardaşının yanına, ona bir arvad alıb evləndirir, çıxır gedir. Bir ildən sonra, gəlir qardaşını yoxlamağa: «Bir gedim görüm qardaşımın axırı necə oldu, günü-dirriyi necə keçir, öyələri arvad necə yola verir?» Gəlib görür ki, ev-eşik zibilin içində, uşaqlar qarışıb bir-birinə, arvad da evdə yoxdur. Qardaşından soruşur:

- Qardaş, necəsən, necə dolanırsan bu arvadla?

Qardaşı cavab verir:

- Otur yerə, deyim necəyəm?

Qardaşı oturur yerə, o biri qardaş başlayır:

***Qardaş, kasıb idim, yüz qoyunum sağılır,***
***Qab-qab olub qonşulara dağılır,***
***Qonaq yavan çörək yeyir, boğulur,***
***Qonşuya qaçıram ayrana, qardaş.***

***Gedirəm, gəlirəm, qapı kilidli,***
***Yaxası sirkəli, dırnağı bitli,***
***Arvadlar içində arvadım itdi,***
***Nəhlət, bu arvadın zatına gəlsin,***

***Hündürdən danışır, alçaqdan biçir,***
***Yerə qoyulmamış yarısın içir,***
***Duzuna baxanda dənini seçir,***
***Nəhlət, bu arvadın zatına gəlsin.***

Qardaşı heç nə deyə bilməyib peşmançılıqla başını bulayır.

## YANÇAQ YUXUSU

Bir kişi olur, bunun da bir oğlu. Atası oğluna deyir ki, ay oğul, sənin evlənməli vaxtındı, gəl səni evləndirim. Oğul deyir, ata, məsləhət sənindir, evləndirirsən evləndir. Ata deyir, oğul, ancaq mən kimi desəm, sən onu da alacaqsan. Oğlan razılaşır. Atası oğlunu başqa kənddə əvvəlcədən gözaltı etdiyi bir qızla evləndirir. Gəlin evdə yır-yığış edir, biş-düşlə məşğul olur. Günlər keçir, bir gün gəlin deyir:

- Mən gedib ata-anamı görmək istəyirəm. Ot deyiləm, yerdən çıxmamışam ki. ...Gedim dədəm evində bir gecə rahat yatım.

Qaynanası, qaynatası gəlinin üzünə mat-mat baxıb deyirlər:

- Belə məxmər yorğan-döşək, naz-balış ...Yeri niyə narahatdır ki, bu yata bilmir.

Sonra qaynana üzünü oğluna tutub deyir:

- Oğul, dur, arvadını da götür, get gəlinin dədəsi evinə. Bu xına o xınadan deyil, bax, gör, onun dədəsi evinin yorğan-döşəyi necədir ki, gəlin buranı bəyənmir.

Oğlan arvadını da götürüb gedir gəlinin dədəsi evinə. Başlayır hər şeyə göz qoymağa. Gecə düşür, yerlər salınır. Oğlan görür ki, bir yer salındı, kişi uzandı, arvadı da başını qoydu onun yançağına, uşaqlar da başlarını qoyur bir-birinin yançağına, yatırlar. Oğlan təəccüb qalıb soruşur:

- Bu nə cür yatmaqdır, bu nə deməkdir?

Oğlana cavab verib deyirlər:

- Buna yançaq yuxusu deyərlər.

Oğlan arvadını evinə aparanda ona deyir:

- Ay arvad, hər şeyi görmüşdüm, bu yançaq yuxusunu görməmişdim. Nəbadə, bu adəti bizim evə aparasan, elə şey eləmə. Adətiniz yaxşı adət deyil. Allah adətinizi kəssin.

## HƏMDİ-SURƏNİ DEMƏLİSƏN

Keçmiş zamanlarda iki dost olur, bunlardan biri keçəl imiş. Onlar həm də kirvə idilər. Biri o biri dostuna deyir:

- Kirvə, gəl sənə həkimlik öyrədim.

Dostu deyir:

- Yox, kirvə, məni hamı yaxşı tanıyır, mənim savadım yox, indiyə kimi həkim işləməmişəm, camaat mənə nə deyər?

Dostu əl çəkmir:

- Heç nə olmaz, mən səni öyrədərəm. Xəstə adam oldu, gəlirsən onun yanına, mən əgər onun aşağı tərəfində, ayağının yanında durmuşamsa, onda deyərsən ki, mən bunu sağaldacam, yox, əgər başının üstündə durmuşamsa, onda deyərsən, yox, vaxtında gətirməyibsiz, xəstəliyin vaxtı keçib, buna çarə yoxdur, mən onu sağalda bilmərəm. Mən gələcəm, ancaq heç kimin gözünə görünməyəcəm.

Günlərin birində onları bir xəstənin yanına çağırırlar. Keçəl görür ki, dostu getdi, durdu xəstənin ayağı tərəfdə. O saat xəstə sahibinə deyir:

- Mən bu xəstəni sağaldaram, burda elə bir şey yoxdur.

Ona deyirlər:

- Ay keçəl! Sən indiyə qədər adam sağaltmamısan. Nə danışdığındı?

Keçəl deyir:

- Mən onu sağaldaram.

Dostu xəstəyə lazım olan dərmanları verir, keçəl xəstəni sağaldır. Bu münvalla keçəl bir neçə xəstəyə şəfa verir.

Bir dəfə onu yenə xəstə üstə çağırırlar. Gəlib görür ki, dostu durub xəstənin başı tərəfində. Keçəl xəstə sahibinə deyir:

- Yox, daha bunun vaxtı keçib, mən onu sağalda bilmərəm.

Bir neçə gündən sonra xəstə tələf olur.

Günlər beləcə keçir, keçəl məşhurlaşır, adı dillərdə gəzir. Elə olur ki, keçəl qocalır, xəstələnir və o dünyaya gedəsi olur. Dostu onun yanına gəlib deyir:

- Keçəl, dostum, sənin vaxtın tamamdır, öləcəksən.

Keçəl dostu ilə razılaşır, deyir:

- Nə edə bilərik, ölməliyəmsə öləcəm. Qoy onda bir həmdi-surəmi deyim.

Başlayır həmdi-surəsini deməyə. Yarısını deyib dayanır, dostuna deyir:

- Mən həmdi-surəmi demək istəmirəm. Sən məni yəqin özün dəfn-kəfən edərsən, o dünyaya murdar getmərəm.

Dostu deyir:

- Etmə, eləmə, həmdi-surəni axıracan de.

Keçəl «nırt» deyib durur. Dostu gedir Cənabi-Cəbrayılın yanına və keçəlin inadını ona danışır. Cənabi-Cəbrayıl deyir:

- Get ona de ki, Allah buyurdu onu öldürməyəcəm, yüz il də indən belə ona ömür verdim. Yüz ildən sonra həmdi-surəsini dedi - demədi, onu yanıma aparacam.



# *BİR ELİN ŞİVƏSİ - ONUN NAZI-İŞVƏSİ*

**(dialektoloji sözlük)**

## A

Aquşka - balaca pəncərə, nəfəslik
Avxatı alınmaq - gücü alınmaq, forsu yatmaq
Anqərib - bir an qalmış, birtəhər ki
Arqacı keçmək - səbəbkar olmaq
Azman - 5 yaşdan yuxarı qoç

## B

Bağırdalaq olmaq - bağrı yarılmaq, bərk qorxmaq
Bafa - oraqla biçilmiş bir qucaq ot, taxıl, yonca
Bay etmək - gedib yarıtmamaq
Bədrəviş - çirkin
Bənəviş - bənövşəyi
Bəndəm - biçilmiş otu bağlamaq üçün çəmənlik otundan eşməklə hörüyəbənzər hazırlanan ot kəndiri
Bəsimat - zavod çörəyi
Bəfş etmək - faş etmək
Bəndəher - heyvərə
Bədərhava - dəlisov, dəliqanlı
Bədərqa - cavabdeh olmamaq
Bə nə ki - bir halda ki
Bənəgüzarlıq etmək - gün ağlamaq
Bərrayı - ərköyün
Bəhəmə gəlmək - əmələ gəlmək, ərsəyə gəlmək
Bequrum - görkəmsiz, çirkin
Beyuzma, beddam olmaq - biabır olmaq
Beşir eləmək - qulluq etmək, rahatlamaq
Bir car - bir dəfə
Buruz-buruz baxmaq - tərs-tərs, kinayəli baxmaq
Bu dəhgədə - bu anda, həmin anda

Buşqax - künc
Buşqu - balaca mişar

## C

Canını da alıram - yaxşı edirəm, əcəb edirəm
Cavqanlamaq - gəzib gəlmək, cövlan etmək
Ceydan - balıncın, yorğanın astar üzü
Cəbə - qayanın başında oyuq, kaha
Cəviz - qoz
Cılfa - parça toxuyan adam
Civir - söyüdün yumşaq budaqları
Cıqqış, çıqqılı - kiçicik, bapbalaca
Cıbırıx - çılpaq, soyunmuş
Cur - tay-tuş

## Ç

Çaqquş - iri zoğlu otların qurumuş zoğu, çör-çöp
Çarxey - araqızışdıran, həyasız
Çarpana, tilişkə - ağacın, taxtanın itiuclu parçası
Çapıt - köhnə əski, cındır
Çaqqala - dənəsi hələ bərkiməmiş alça, ərik
Çəpərə - 1. Lavaş sulamaq üçün gərməşov çubuğundan toxunmuş məişət əşyası. 2. Döş qəfəsi
Çöçə - bayram vaxtı bişirilən kökələr
Çiv - paz, çüy

## D

Daraba - eyvanın məhəccəri
Daycanı - dayı arvadı
Dahdilim - yüngül xasiyyət
Daha-daha ilə - tələm-tələsik

Da bə - elədir, belədir (qətilik mənasında)
Danqır - kəllə
Dağal - cığal
Daşıq - taxıl, saman, ot daşımaq dövrü
Dazalaq - seyrək ot bitən yer
Dəstana - təndirdə yapılan yumru çörək
Dəbgə - gic, səfeh
Dərbədirrik - özünə gün ağlamaq
Dəstərxan - süfrə
Dəmə gəl - dəmə - toydan bir gün qabaq keçirilən tədbir
Dəsgah - həngamə, mübahisə, dava-dalaş
Dəşdirey - dava-dalaş
Dəmərrah - tez-təcili, dərhal
Dəngüş - yüngül xasiyyət, özgə işinə qarışan insan
Dəhmərləmək - tələsdirmək, sürətlə sürmək
Dəvrimi - dairəvi
Dəc - kom, gur, dəstələnmiş və nizamı pozulmamış (meyvə, göyərti, taxıl)
Dəfə-daraq düzəltmək - görülən işi təkrarlamaq
Dəfinsaat - o dəqiqə, dərhal
Dihcə - əvəliyə oxşar yeyilən çöl bitkisi
Dübür - 2 yaşlı təkə
Dümləmək - başına çəkib içmək (əsasən, spirtli içkini)
Dümbək – nağara
Dodurqayı - işinin qaydasını bilməyən, danışığını bilməyən
Döləzimək - dözmək
Dıqqını verməmək - sirrini verməmək, tərəfini tutmaq

## E

Ediləmək - oxşayıb ağlamaq
Eymə - dəridən düzəldilmiş qab, tuluq
Erkələmək (erkəcini götürmək) - sürünü aparmaq üçün onun qabaqdan bir hissəsini yönləndirmək

## Ə

Ədədi-başlı - əməlli-başlı
Ədədi-dədəli - qayda-qanunlu, el qaydasınca
Əcr - əzab
Ələyiz - əvəliyə oxşar yeyilən çöl bitkisi
Əlavsın - görməmişcəsinə
Əfərta - kasıb görkəmli, nimdaş, üzülmüş paltarlı
Əmcanı - əmi arvadı
Əməlbetərin - pis əməlləri olan
Əvədəyə düşmək - tələsib dolaşığa düşmək
Əyə - 1- kişiyə (oğlana) müraciət forması;
2- böyüklərə hörmət əlaməti olaraq cavan ər-arvadın bir-birinə müraciəti

## G

Giyəv - kürəkən
Gehra getmək - o baş-bu başa getmək
Gübban - iri çəkic
Güzdük - payızda əkilmiş buğda
Gülbacı - böyük qardaş arvadına müraciət forması
Gülbəsər - körpə xiyar (gülü burnunda olan xiyar)
Göy zəllə - xəsis

# H

Hav - kömək
Hapı durmaq - dayaq olmaq, kömək etmək, yiyəlik etmək
Halavuşu alınmaq - hirsi soyumaq
Hellənmək - dığırlanmaq
Heyni (bu heyni) - bu arada
Həngə gətirmək - lazım olan vəziyyətə gətirmək
Herana - cüt sürülən vaxt açılmış arx
Həhy gəlmək (vermək) - güc gəlmək (vermək)
Həvik - heyf
Həbə – kənd oyununda ayaqqabının dabanı ilə qazılmış balaca çala (oyun zamanı mərkəz hesab olunan çala, həbəni tutmaq oyunda üstünlük sayılır)
Həmgələ gəlmək - yan-yana gəlmək
Həmiyət olmaq - muğayat olmaq
Hoppulmaq - hoppanmaq
Holivələdən - binayi-qədimdən, çoxdan
Holu - həbəyə qoyulmuş yumru daş
Honaz - oraqla və ya dəryazla taxıl və ot biçərkən qabaqda gedən adam
Hı? - eləmi? (təsdiq mənasında)

# X

Xasa, xəsə yeri - yaxşı yeri
Xing olmaq (eləmək) - pərt olmaq (eləmək)
Xirçək - dirək
Xıjm gəlmək - hücum etmək, güc gəlmək
Xozanlıq - baxımsız, boş yer
Xozu-xozu gəzmək - burnunu dik tutmaq, lovğa-

lanmaq
Xösək - daldanacaq, daxma
Xuduru - əbəs yerə
Xum - küp

## İ

İllacdan düşmək - haldan düşmək
İməci - xalça, palaz toxuyana, çörək bişirənə qonşudan kömək edən adam
İndiyə teyin - indiyədək
İrəfətə - təndirə çörək yapmaq üçün işlədilən alət
İslahatı yoxdur - səliqəsizlik, üst-başı cırılmış, döyülmüş
İstahatdan salmaq - haldan salmaq
İşgənə - qovurma edilən zaman qaynadılmış ətin suyu
İvit yığmaq - qız toyuna nəmər (parça, baş yaylığı, pul, qab-qaşıq) salmaq

## K

Kağ - alaq
Kantal - kök və ləng adam
Kav dəyil - düzgün deyil
Kələk - əkin sahəsindən yığılmış daş qalağı
Kərəgan - qurut əzmək üçün işlənən böyük saxsı qab
Kərdi - lək
Kəfşən - kövşən, çöllük
Köbə - qadınların geydiyi tuman (ətək) adlı üst geyiminin ayağına qoyulan lenta, haşiyə
Kirikkə - ağac yapışqanı

Küt getmək - çörək yapan zaman açılmış xəmirin təndirin divarına yapışmayıb ocağa düşməsi
Küflə - təndirdə hava oynaması üçün deşik
Kürsü - enli, alçaq qabaq stolu. Keçmişdə qışda onun ətrafına yığışaraq təndirdəki istiliklə isinərmişlər, üstlərini 6-7 m eni-uzunu olan yorğanla örtüb yatarmışlar.
Küvər - 2 yaşlı dişi keçi
Kuluf - içərisi çətirsayağı ovulmuş iri qaya, daş

# Q

Qallax eləmək - lağ etmək
Qarabatdaq - aralarında iri muncuq taxılmış, boğaza kip düzəldilmiş qızıl boyunbağı, silsilə
Qavzamaq - qaldırmaq
Qarqaşa - qayğı, ağır yük
Qara dam - yardımçı otaq
Qaral - hövsələ
Qayıl olmaq - qane olmaq
Qazı-qüddəsər - lovğa, yekəxana
Qəddinə getmək - xırdaçılıq etmək
Qəzilləmək - dilə tutmaq, dilə tutub aldatmaq, başını qatmaq
Qərəm - həmişə
Qəməlti - bıçaq
Qəyə - qaya
Qəysər olmaq - soyuqdan donmaq
Qəlbi - uca, hündür
Qələmə - uca, düz ağac, çinar
Qərcimək - zəbt etmək
Qərcimə - oyun növü (5 daş oyunu)

Qərcimə daşı - qərçimə oyununda işlədilən xırda daş
Qəzil - keçi tükü
Qodem – vəzəri, acıtərə, bulaq otu
Qolqay (özünə qolqay) - uyğun (özünə münasib)
Qıç - ayaq
Qəvrə - kəsici alətləri itiləyən, yeyə
Qulb eləməmək - bəyənməmək
Qokazdanmaq - forslanmaq
Qoley - pis, bəd, işi düz gətirməmək, halı xarab

## M

Mac - əkin zamanı cütün yerə batan hissəsi
Mavrı - pişik balası
Mağlətə - hadisə, macəra
Mahna - bəhanə
Mam gəlmək - tay, bərabər gəlmək
Moyda-moyda - dim-dik durmaq, ortalıqda dolanmaq
Mərövcə - qulançar
Mərsənə - mərci aşı
Məhlim - bəyəm, məgər
Mehdaca mindirmək - qiymətə mindirmək
Mici - gənəyə oxşar həşərat, qan soran
Mısmaq - gizlənmək, güdmək
Möhübünü düzmək - işini aşırmaq, işini düzəltmək
Müddahı - düşmən, gözü götürməyən
Müdam (ilim müdam) - boyu (il boyu)
Müdara - vaxt, imkan
Münhaz et - (elə) təsəvvür et
Müstər - şikəst, əlil

## L

Lav-leş - tör-töküntü
Lobbaz-lobbaz danışmaq - lovğa-lovğa danışmaq
Lir-licim - üst-baş
Ləfis-latayir - pis sözlər, qaxınc
Ləj düşmək - yola getməmək
Ləlik olmaq – çalışıb çabalayıb yorulmaq
Ləndəher - yekə, heyvərə
Luğab - tüpürcək, ağız suyu
Luğaz eləmək - lağ etmək

## N

Naxıs - arsız

## O

Oyma - don, paltar

## P

Parç - su içmək üçün qab (dolça)
Pərvanə - yorğan üzü (çit hissəsi)
Pərşikasta - yarımçıq, tamamlanmamış
Pəndəm - normadan artıq yedikdə mədədə baş vermiş diskomfort
Pərpərən-pərpətöyün (yeməli pencər)
Püşgü - dəyirman daşını fırladan balaca fiqur
Püfərək - tələsik
Pürçüklü (iş) - dolaşıq, şübhəli (iş)
Pinə etmək - şəkk etmək

# S

Sahab - sahib
Savmaq - qurtarmaq, başa çatdırmaq
Saxın - soraqlaşmaq
Sam - öküzü və digər mal-qaranı bağlamaq üçün cavan ağacların budaqlarından düzəldilmiş və çatı keçirilmiş boyunduruq
Salıx vermək - nişan vermək, tanışlıq
Səbətə - heyvanların bel sümüyü, qabırğaları.
Sərmə - 1. Sinəyə doğru tökülmüş formada düzəldilmiş qızıl boyunbağı 2. Südü bişirib böyük qaba tökürlər, süd soyuduqdan sonra üzünü yığırlar
Səmər - insanın belində içinə yük yığıb daşıdığı torba
Səravına dolanmaq - ətrafında fırlanmaq
Sərpə - dalda yer
Sərgəm - rütubət, nəm
Seylan - xırda muncuq
Səhli saymaq - boş, mənasız saymaq, laqeyd yanaşmaq, saymamazlıq
Səllimi - özü bildiyi kimi, sərbəst, başlı-başına, avara-avara
Seyin - alüminium qab, cam
Sur-sumbat - görkəm
Surçmaq - sürüşmək
Sülək - sümsük
Sibir - 3 yaşdan yuxarı təkə
Selav - sel tutan dərə
Sindalını salmaq - meyl salmaq, mehr salmaq
Sımıtmaq - qısılmaq, gözə görünməməyə çalışmaq

# Ş

Şıppır - əvəliyə oxşar bitki (bəzi yerlərdə yeyilir)
Şəpit - evdə geyilən sürütdəmə, çəkələk
Şiyran - yağış suyunun axması üçün damda düzəldilmiş nov
Şülək - lülə şəkilli
Şuğulüzümmə olmaq - haqqını qaytara bilməmək
Şərid - paltar sərmək üçün ip
Şəlpə - əsgi, cındır

# T

Tapı - darı unundan bişirilmiş qoğal boyda çörək
Tavlamaq - 1. Fırlatmaq (məsələn orağı, başı fırlatmaq), barmağı silkələmək 2. Qazanda əridilən yağı, bişirilən halvanı və ya qovurmanı qarışdırmaq
Tar - uçmaq, ətrafı basmaq təhlükəsi olan qar yığını
Tarçığı alınmaq - hovu alınmaq, dincəlmək
Taraqqalı - forslu, ədalı
Taxtasız - arsız, yüngülxasiyyət
Tələmək - qoyunun quzusunu yaxına buraxmaq üsulu
Təlis - iri kisə, məs: un təlisi
Təlif etmək - dəvət etmək
Təvşə ağız - yekə ağız
Təndirəsər - çörək bişirilən təndir damı
Təngov - qovurmalıq qoyun ətinin qaynadılmış suyu
Təpçimək - tikmək (iynə sap ilə)
Təpçək vurmaq - bel ilə qazmaq
Təzərəyin götürmək - qovalamaq, nəfəsini kəsmək
Tırınqa - hikkə, inad, tərslik
Tıncıxmaq - nəfəsin təngişməsi

Toybabası - toybəyi
Teyxa - bütün; teyxa duzludur - tamam duzludur

## V

Vağənimək - otu, taxılı vaxtında biçməyəndə yerə yatıb məhv olması, saralması
Vər qoymaq - bostan bitkilərinin dibini torpaqla doldurulması
Vərəvurd eləmək - ətrafa göz gəzdirmək, araşdırmaq
Vərəzən etmək - sərib qurutmaq (meyvəni)
Vərdənə - kündəni azca yaymaq. Adətən çörək bişirilən zaman qonşular bir-birinə köməyə gəlir. Biri xəmiri vərdənə edir, verir ikinciyə. O biri xəmiri tam yayır, üçüncü açılmış xəmiri təndirə yapır.
Vırdı-vızan - dava-dalaş, hay-küy
Viridin salmaq - adət etmək

## Ü

Ülüş - lavaşa bükülmüş halva

## U

Ulumu-qulqa - cümlə-aləm
Usdub-usdub - yavaş-yavaş

## Y

Yığar - yağ, qatıq və xama saxlamaq üçün dəri tuluq
Yavuq - yaxın

## Z

Zahman - iki əkin yerinin arasındakı ot bitən yer
Zarıncı qalmaq - şikəst, yorğan-döşək xəstəsi olmaq

Zavazadır - böyük mülk, ev
Zayıl - gic
Zir - nəlbəki
Zeh yerə qoymaq - məqsədə çatmaq üçün son ana qədər mübarizə edib yorulmaq
Zinə - nazik
Zığ - palçıq
Zivmək - sürüşmək
Zirətov - düyü unundan hazırlanmış quymaq

## MİNNƏTDARLIQ

Bu kitabı sinədəftər xalqımızın söz gülüstanından qətrə-qətrə, damla-damla toplayaraq araya-ərsəyə gətirmişik. Kənd sakinlərini bir-bir danışdırmışam. Onlar bəzən çəkinə-çəkinə, bəzən utancaqlıqla danışırdılar. Bəlkə də danışmadıqları danışdıqlarından çox idi. Bəzən elə olurdu ki, bir bayatını kəndin bütün sakinləri söyləyirdi, və yaxud on nəfər bir bayatını, bir ağını, tapmacanı və ya hər hansı bir rəvayəti, hekayəti müxtəlif variantlarda danışırdı. Onları ümumiləşdirib bir yazıya çevirdim. Toplayıcılıq və tərtibçilik işi nə qədər çətin və məsuliyyətli olsa da, bu işin fayda verəcəyi ümidindəyik. Kəndin bəzi sakinlərini köçüb başqa yerlərə getdiyindən onları tapıb danışdıra bilmədik. Mən əminəm ki, onları danışdırsaydım, bu kitabın həcmi bir az da artardı.

Bu kitabın yaranmasında əməyi və dəstəyi olan kənd ağsaqqalarına, ağbirçəklərinə, orta və gənc nəslə dərin minnətdarlığımı bildirirəm.

Təəssüf ki, söyləyicilərin bəziləri artıq dünyasını dəyişmişdi. Allahdan onlara rəhmət, qalanlara isə can sağlığı diləyirik.

**Məhəmməd Məşədi Tağı oğlu**
**Zeynəb Süleyman qızı**
**Qəndab Süleyman qızı**
**Əskinaz Fərman qızı**
**Zəkiyyə Ənnağı qızı**
**Hərgül Vəli qızı**
**Gülxatın Süleyman qızı**
**Bəsti Həmid qızı**

**Hüseyn Bürcalı oğlu**
**Gülpəri Həmid qızı**
**İmarət Həmid qızı**
**Zeynəb Kərəm qızı**
**Firuzə Şahbaz qızı**
**Pakizə Şahbaz qızı**
**Qızbəsti Qulu qızı**
**Vəli Məhəmməd oğlu**
**Qurban Məhəmməd oğlu**
**Çərkəz Həmid oğlu**
**Kamran Həmid oğlu**
**Həsənalı Xudakərim oğlu**
**Nübar Xudakərim qızı**
**Banu Həsənalı qızı**
**Rübabə İman qızı**
**Seyran Cəlil qızı**
**Zöhrə Fərman qızı**
**Zöhrə Hidayət qızı**
**Zöhrə İsa qızı**
**Dilguşə Məhəmməd qızı**
**Sərvinaz Teymur qızı**
**İbrahim Həmid oğlu**
**Səkinə Xudan qızı**
**Mənsurə Xudan qızı**
**Kəhrəba İbad qızı**
**Ağca Teymur qızı**
**Fərəməz İsmayıl oğlu**
**Səlbinaz Qulammirzə qızı**
**Yasəmən Xudan qızı**
**Nəriman Ənnağı oğlu**
**Darçın Məmmədqulu qızı**

**Güldanə Nəriman qızı**
**Təranə Şahhüseyn qızı**
**Aygün Xeyrulla qızı**
**Rizvan Fərmayıl oğlu**
**Elnur Vaqif oğlu**
**Nərgiz Nurməmməd qızı**
**Səmayə Dünyamalı qızı**
**İmmi Famil qızı**
**Bahar Çərkəz qızı**
**Rüfgül Sadıq qızı**
**İlhamə Cahangir qızı**
**Mələk Bilal qızı**
**Nigar Allahverdi qızı**
**Allahqulu Fərman oğlu**
**Göyərçin Səfər qızı**
**Humay Nəriman qızı**
**Mayoş Vəli qızı**
**Matı Məhəmmədəli qızı**
**Zəringül Xeyrulla qızı**

## FOLKLOR YADDAŞI -
## YAŞAM ƏXLAQI

Folklor toplumun mənəvi istinad nöqtəsidir. Folklor xalqın öz taleyinə və tarixinə baxış fəlsəfəsidir. Artıq heç kimə sirr deyil ki, virtual texnologiyaların inkişaf etdiyi, informasiya məkanının genişləndiyi bir vaxtda insanlarda müdriklik instinkti zəifləməkdədir. Müdrikliyin azalması isə eposun (ümumiyyətlə, bütövlükdə folklor janrlarının) sürətlə yox olmasına gətirib çıxarmışdır. Etnik məkanın sakral (qutsal) dəyərlərdən məhrum olması inanc təfəkkürümüzü zədələməklə yanaşı, folklor yaddaşımız üçün ciddi təhlükə yaratmışdır.

Böyük alim Y.Lotman deyirdi ki, hər bir mədəniyyət tipini, onun yaddaş tipini müəyyən nitq janrları şərtləndirir.

Biz «nitq janrları»nı həm folklor anlamında, həm də M.M.Baxtinin nitq janrları nəzəriyyəsi kontekstində qəbul edirik. Nitq janrları canlı ünsiyyət prosesində yaranan sabit deyim tipləridir.

Hər bir folklor janrı həm də etnik stereotiplərin ifadəsidir. Bu kitabda toplanmış hədislərlə, rəvayətlərlə, haxıştalarla tanışlıq əslində müəyyən mətn stereotipləri ilə, bir qədər obrazlı desək, Naxçıvan (Güney Qışlaq) insanlarının ünsiyyət fəlsəfəsi ilə tanışlıqdır. Bu tanışlıq göstərir ki, folklor mətni ənənənin yaşatdığı, nəsildən-nəsilə ötürdüyü stereotiplər əsasında yaranır.

Güney Qışlağın bir etnik toplum olaraq özünün inandığı və yaşatdığı (Bu haqda bax: **M.Cəfərli.** Naxçıvan folklor mühiti əfsanə və rəvayətlərinin mifoloji semantikasına dair// "Dədə Qorqud" jur., 2008, №1, s.45-56)nitq janrları var ki, onun yaddaşını,  davranış əxlaqını daha üstün ifadə edir.

Şükür olsun ki, bu elin epik təfəkkürü, epik yaddaşı süjetqurma potensialını hələ itirməyibdir, öz tarixini və inancını yaddaşın malı edə bilibdir.

Bu kitabın diqqətçəkən və çox əhəmiyyətli hissəsini rəvayətlər, hədislər təşkil edir. Təəssüf ki, Azərbaycan folklorşünaslığında və ədəbiyyatşünaslığında miflərə marağın kütləviləşdiyi bir dönəmdə epik janrlara - rəvayətlərə, əfsanələrə diqqət arzuolunan səviyyədə deyil.

Rəvayətlər və əfsanələrin janr hüdudlarının sürüşkənliyi, struktur çevikliyi ilə bağlıdır. Naxçıvan rəvayət və əfsanələrinə mənəvi dünyagörüşün ifadəsi kimi baxmaq gərəkdir. Folklor çərçivəsində mif, nağıl, rəvayət və əfsanənin janr fərqini müəyyənləşdirmək cəhdləri müsbət nəticələr vermir.

Rəvayətlər, əfsanələr və hədislər mifopoetik təfəkkürdən tarixi təfəkkürə keçid mərhələsini əks etdirən sakral zaman ilə tarixi zaman arasında yer tutur. Bu mətnlərdə zamanın işarəsi, əbədiyyətin simvolu var.

Naxçıvan hədislərinin nağıllarla tipoloji oxşarlığı gələcəkdə elmi araşdırmaların mövzusu ola bilər. Hər iki janrın ümumi kompozisiya formulunu belə vermək olar: ilkin ziyankarlıq - qəhrəmanların cavab hərəkətləri - xilas, pozulmuş nizamın bərpası.

Nağıl və hədis üçün iki motiv vacibdir: yol motivi və möcüzə motivi.

Hər iki janrda ölüm motivi üstün mövqeyə malikdir, sadəcə bu janrın hər biri ölümü fərqli şərh edir. “Folklorda müsbət qəhrəmanlar doğulurlar, ancaq heç vaxt ölmürlər, yalnız mənfi qəhrəmanlar ölür” (V.Propp).

Hədislərdə dini düşüncədə ölümə, əbədi həyata giriş kimi yenidən doğulma kimi baxılır.

Hədislərdə və nağıllarda möcüzə motivi mövcuddur. Folk-

lor üçün möcüzə təbiidir və tamamilə adi haldır (V.Propp). Bu ondan irəli gəlir ki, folklorda adi real gerçəklik yoxdur. Ancaq hədislərdə gerçəklik öz gücünü saxlayır.

Hədislər iki mikrostrukturun - tarix və metatarixin qarşılıqlı əlaqəsindən, simvolundan yaranmış mətnlərdir: həm qutsal zamanı - mif məkanını, həm də tarixi təhkiyənin zaman - məkanını ifadə edir (A.Veselovskinin «Xristian əfsanəsinin inkişafına dair təcrübələr» kitabında misal gətirilən əfsanələr bu «simbiozu» açıq-aydın nişan verir).

Bir neçə kəlmə kitab müəllifi haqqında. Dəyərli tədqiqatçı, istedadlı yazar Salatın xanım Əhmədlinin folklor sevdası - folklor mətnlərini toplaması, yazıya alması və tədqiq etməsi əxlaqdan gələn məsələdir.

Folklor sözü elə bir hadisədir ki, sevgisiz onu hiss etmək və yaşamaq, yazıya almaq mümkünsüzdür. Folklor sözü xüsusi hissiyyat tələb edir. Bunu müəllifin «Hər kim yüz il unutmasa…» kitabından da gördük. Salatın xanım sevimli anasına bayatı qədər, nağıl qədər yaxınlaşa bilmişdi. Ancaq sözün fəhmi və müdrikliyi anasının danışdıqlarının qiymətini, dəyərini verə bilərdi.

Epik səmimiyyət, uca könül, yurd sevgisi folklorşünas kimi Salatın xanımı fərqləndirən cəhətdir. Güclü etnoqrafik duyum, folklor yaddaşı, xatirə-rəvayət həssaslığı onun yazı-təhkiyə üslubunu şərtləndirir.

Folklor toplamaq (yazıya almaq!) onun etnik əxlaqının nişanəsidir. Yazı (yazmaq, yazıya almaq) onun işi-peşəsi deyil, həm də təfəkkür tipidir (Anasının bayatılarından tutmuş səfər-səyahət təəssüratlarına, xatirələrdən tutmuş bədii hekayələrə qədər - söz bütün çeşidləri yazıya gəlir).

Salatın xanımın bu folklor toplayıcısı şivə-ləhcə sözünə, əski sözə çox həssasdır. Folklor janrı həm də şivə-ləhcə janrı-

dır. Məsələn, "sərpə" sözünü "dalda yer, qayanın dibi" kimi mənalandırır. Yadıma atalarımızın ölməz ləhcəsi, oğuzların ulu kitablı - "Kitabi-Dədə Qorqud" düşdü: "Nagah gözü qapağına qılınc toqundu. Qara qanı şorladı, gözünə endi. Özün sarb yerlərə saldı" [D-148]; "Sarb yerlərdə yapılmış kafər şəhri" [D-279].

İndi isə qədim, ulu Naxçıvanın Yuxarı Rəmeşin (Güney Qışlaq) kəndinin sözünün-söhbətinin sinədəftər edib iki kitab bağlayıb, qədim bir elin, bir obanın tale kitabını yazıb.

Bu kitabın (və bu tipli topluların) nəşri regional materialın xarakteri, etnik ənənəsinin xüsusiyyətləri, folklor mətninin variativliyi, folklor sözünün ötürülmə və qavrama mexanizmi haqqında mülahizələrə aydınlıq gətirə bilir. Düşünürəm ki, Naxçıvan folklorunun janrları - rəvayətlər, hədislər, toponimik mətnlər elmi araşdırmaların obyekti olacaqdır və bu kitabın əvəzsiz və çox maraqlı mənbə olacağına inanıram.

***Rüstəm Kamal***

***Salatın Əhmədli***

***Yol gedir***
***Naxçıvana...***


Tex.redaktor: İlqar Təmoyev
Rəssam: Afər Fəttahova
Operator: Ruhiyyə Balakişiyeva
Korrektor: Günel Mehdiyeva
Çapçı: Natiq Paşayev

Yığılmağa verilmişdir: 09.03.2010
Çapa imzalanmışdır: 20.11.2013
Nəşrin ölçüsü: 60x90 1/16
Fiziki çap vərəqi: 21,25
Şərti çap vərəqi: 20,62
Bakı: Elm, 2013. 340 s.
Sifariş: 11/A. Sayı: 1000 ədəd